# MƏSİHÇİ QURAN OXUYUR

*Dürüst Oxu*
*Dürüst Düşün*

**Jeyms Rayt**

Məsihçi Quran oxuyur

Müqəddəs Yazılardan sitatlar Müqəddəs Yazıların Şərq Tərcüməsi (CARSA)-dandır.
İcazə ilə istifadə olunur.
Bütün hüquqlar qorunur.
Qurandan sitatlar Kuliyevin rus dilinə tərcüməsindən götürülmüşdür.
NewYurtBooks

Keyfiyyətli araşdırmaya sadiq olaraq mən dillərin və mədəniyyətlərin sərhədlərini aşaraq yazıram.

Ətraflı məlumat və ya bu kitabı toplu şəkildə endirimli qiymətə sifariş etmək üçün info@christianreadsquran. com ünvanına yazın.
www. christianreadsquran. com

Copyright © 2021 James Wright
Bütün hüquqlar qorunur. Müəllifin əvvəlcədən yazılı icazəsi olmadan bu nəşrin heç bir hissəsi çoxaldıla, hər hansı axtarış sistemində saxlanıla və ya elektron, mexaniki, surətçıxarma, səsyazma və ya başqa üsullarla hər hansı formada və ya hər hansı vasitə ilə ötürülə bilməz.

Also published in English

**A Christian Reads the Qur'ān:**
**Honest Reading, Honest Reflection**
ISBN-13: 978-1-63732-822-4
Türkçede Yayımlandı
**Bir Hristiyan Kur'an Okuyor**
ISBN-13: 978-605-81284-8-43
ISBN-10: 605-81284-8-X
Yeni Anadolu Yayıncılık
Kazım Dinçol San. Sit. No: 81/87, Topkapı, İstanbul-Türkiye Tel: +90 (212) 567 89 92-E-mail: yaybilgi@gmail. com

# HƏSR OLUNUR

*Nəbil Qureşi müəllimin xatirəsinə səmimi qəlbdən Həqiqəti axtaranların hamısına həsr olunur. Francis Schaefferin tez-tez dediyi kimi, dürüst sual verənlər dürüst cavablara layiqdirlər.*

# Mündəricat

**Minnətdarlıq** ........ **8**

**Ramazan ayı zamanı oxumaq** ........ **9**

**1-ci fəsil | Surə 1: Əl-Fatihə Surəsi (Kitabı açan)** ........ **11**

**2-ci fəsil | Surə 2: Əl-Bəqərə (İnək)** ........ **12**

Məhəmmədin peyğəmbərlik çağırışının sübutu (Surə 2:23-24) ........ 12

Bəşəriyyətin yüksəlişi və süqutu (Surə 2:30-34) ........ 12

Allah kömək vəd edir ........ 13

Həqiqət və yalan (Surə 2:42) ........ 13

İbrahimin övladları (Surə 2:40) ........ 14

On əmr (Surə 2:53) ........ 14

Təhrif olunmuş Müqəddəs Yazı? (Surə 2:59) ........ 15

Müsəlmanlar, Yəhudilər, Xristianlar və başqaları (Surə 2:62) ........ 15

Musa və gətirilmiş inək qurbanı (Surə 2:67-73) ........ 16

Kitabı bilməmək (Surə 2:78) ........ 16

Əvvəlki kitabların təsdiqi (Surə 2:97) ........ 16

Yazıların ləğvi (Surə 2:106) ........ 17

Qəriblər və düşmənlər üçün dua (Surə 2:105) ........ 17

Oğurlanmış inam (Surə 2:109) ........ 18

Yəhudilər və xristianlar eyni kitabı oxuyurlar? (Surə 2:113) ........ 18

Allahın oğlu yoxdur (Surə 2:116-117) ........ 19

Başqalarının istəklərinin ardınca getmək (Surə 2:120) ........ 21

Kəbə (Surə 2:127) ........ 21

İbrahim, İsmayıl, İshaq, Davud və İsanın imanı (Surə 2:135-136) ........ 22

Qiblədən dönmək ........ 23

Ramazan (Surə 2:185) ........ 24

Həcc (Surə 2:196-203) ........ 25

Təmizlik (Surə 2:222) ........ 25

Boşanma və evlilik (Surə 2: 221-241) ........ 26

Dində məcburiyyət yoxdur (Surə 2:256) ........ 26

Diriliş (Surə 2:259) ........ 27

Xeyirxah əməllər və günahlar (Surə 2:271) ........ 28

Tamahkarlıq (Surə 2:275) ........ 28

Ruhani mükafat (Surə 2:281) ........ 29

**3-cü fəsil | Surə 3: Əl-İmran** ..... **29**
Kitablar və mənaları (Surə 3:7) ..... 29
Cəhənnəm və cəza (Surə 3:10) ..... 30
Ruhani yoxsa fiziki sərvət? (Surə 3:14) ..... 30
Din və dostluq (Surə 3:28) ..... 31
Pisliyin yurdu (Surə 3:30) ..... 32
Quranda İsa (Surə 3:33-59) ..... 33
İbrahim yəhudi və ya xristian deyildi ..... 38
Bütpərəstlik günahı (Surə 3:80) ..... 38
Səhv yol tutmaq (Surə 3:100) ..... 39
Təhlükəli düşmənlər? (Surə 3:111) ..... 40
Kim yaxşıdır? (Surə 3:113-4) ..... 40
Sadəcə bir elçi (**رَسُولٌ**) (Surə 3:111) ..... 41
Ühüd döyüşü (Surə 3:130-180) ..... 42
Qılıncı qınına qoymaq ..... 43
Bəs Xaç yürüşləri? ..... 45
**4-cü fəsil | Surə 4: Əl-Nisə** ..... **46**
Yetimlər və qadınlar (Surə 4:3) ..... 46
Yoxsullar üçün ədalət (Surə 4:9-10) ..... 47
Zinaya görə cəza (Surə 4:15-16) ..... 48
Ərlər arvadları ilə necə davranmalıdırlar (Surə 4:34) ..... 49
Doğru yoldan çıxmaq (Surə 4:44) ..... 50
Bağışlanılmayan günah (Surə 4:48) ..... 51
Şəfaətçi (Surə 4:64) ..... 52
Müharibə etmək istəməyənlər (Surə 4:74-78) ..... 52
İbrahim Allahın dostudur (Surə 4:125) ..... 53
Yəhudilər İsanı öldürmədilər (Surə 4:153-161) ..... 53
“Üçdür” deməyin! (Surə 4:171) ..... 55
**5-ci fəsil | Haram və halal (Surə 5:1-5)** ..... **56**
Dəstəmaz (Surə 5:6) ..... 57
Allah-Məsihdir? (Surə 5:17-18) ..... 58
Allahın oğulları (Surə 5:18) ..... 58
Başqasının günahlarına görə ölmək (Surə 5:29) ..... 59
Qətlə nə vaxt icazə verilir? (Surə 5:32-33) ..... 59

Təhrif olunub yoxsa Güvənmək olarmı? (Surə 5:47-48) ..... 60
Yəhudilər və xristianlarla dostluq (Surə 5:51) ..... 61
Həyat çörəyi (Surə 5:68-120) ..... 62
Eyni Ayə (Surə 5:69) ..... 62
**6-cı fəsil | Surə 6 : Əl-Ənam Surəsi (Davar) ..... 63**
İnamsızların mühakiməsi (Surə 6:1-15) ..... 63
Şahidlik etmək vacibdirmi? (Surə 6:1-19) ..... 63
Dənizdə ölüm? (Surə 6:63-64) ..... 65
Uşaqlarınızı öldürməyin (Surə 6:151) ..... 66
Quran niyə nazil oldu? (Surə 6:155-156) ..... 66
**7-ci fəsil | Surə 7: Əl-Əraf (Sədd) ..... 67**
Yaxşı və pis əməllərin tərəzidə çəkilməsi (Surə 7:8-9) ..... 67
İynənin gözü (Surə 7:40) ..... 67
Allah yer üzərinə enir (Surə 7:143) ..... 68
On əmrin hökmü (Surə 7:145) ..... 70
Tövrat, Peyğəmbərlər və İncil Məhəmməd haqqında bəhs edirmi? (Surə 7:157) ..... 71
Allahın gözəl adları (Surə 7:180) ..... 73
**8-ci fəsil | Surə 8: Əl-Ənfal (Qənimət) ..... 74**
Bu necə müharibədir? (Surə 8) ..... 74
**9-cu fəsil | Surə 9: Əl-Tovbə (Tövbə) ..... 75**
Kafirlərlə müqavilə bağlamaq qaydaları (Surə 9:1-29) ..... 75
Quranın ən qədim nüsxələri ..... 78
Niyə yəhudilər və xristianlarla vuruşmaq lazımdır? (Surə 9:30-31) ..... 79
Yalançı möminlər (Surə 9:56) ..... 80
Yeni bir düşmənlə tanışlıq (Surə 9:73) ..... 80
Liderin arxasınca getmək (Surə 9:86-88) ..... 81
Saxta məscidlər (Surə 9:107-110) ..... 81
Allahın yaxşılığı nə qədər böyükdür? (Surə 9:113) ..... 82
**10-cu fəsil | Surə 10: Yunus ..... 83**
Doğru yol (Surə 10:25) ..... 83
Peyğəmbərlik kitabları (Surə 10:37-40) ..... 84
Nuhun gəmisi (Surə 10:73) ..... 87
Kitab əhlindən soruşun (Surə 10:94) ..... 88
**11-ci fəsil | Surə 11: Hud (Hud Peyğəmbər) ..... 88**

Lütf nədir? (Surə 11:3) .... 88
Saranın gülüşü (Surə 11:71) .... 89
**12-ci fəsil | Surə 12: Yusif (Yusif peyğəmbər) .... 89**
Nəsihət hekayələri (Surə 12) .... 89
**13-cü fəsil | Surə 13: Ər-Rəd (Göy gurultusu) .... 90**
Başlanğıc (Surə 13:16) .... 90
Böyük məhkəmə (Surə 13) .... 92
**14-cü fəsil | Surə 14: İbrahim (İbrahim peyğəmbər) .... 92**
Ərəb dilində bir Elçi (Surə 14:4) .... 92
Bəşəriyyətin əsl mahiyyəti? (Surə 14:34) .... 93
**15-ci fəsil | Surə 15: Əl-Hicr .... 94**
Allah nazil etdiyini qoruyur (Surə 15:9) .... 94
Qurana hücumlar (Surə 15:91) .... 94
**16-cı fəsil | Surə 16: Əl-Həhl (Arılar) .... 95**
Allahın surətində yaradılmışdır? (Surə 16:17) .... 95
Sonuncu dirilmə (Surə 16:38) .... 96
Bir xristiandan soruşun (Surə 16:43) .... 97
İki Allaha ibadət etməyin (Surə 16:51) .... 98
Heç kim kifayət qədər yaxşı deyil (Surə 16:71-76) .... 98
Köləlik (Surə 16:71-76) .... 98
Hər xalqın öz şahidi var (Surə 16:89) .... 98
Fikir dəyişikliyi (Surə 16:106-107) .... 99
İslamın yayılması (Surə 16:125) .... 100
**17-ci fəsil | Surə 17: Əl-İsra (Gecə səyahəti) ya da Bani İsrail (İsrail oğulları) .... 100**
Qüds ziyarəti (Surə 17:1) .... 100
**18-ci fəsil | Surə 18: Əl-Kəhf (Mağara) .... 101**
Mağarada yatanlar (Surə 18:9-26) .... 101
“Onun sözlərini heç kim dəyişdirə bilməz” (Surə 18:27) .... 102
Allahın lütfünü necə qazanmaq olar (Surə 18:46-50) .... 102
İblis bir mələk idi, yoxsa cin idi? (Surə 18:50) .... 103
Zülqərneyn, iki buynuzun sahibi (Surə 18:83-99) .... 104
Günəş harada batır? (Surə 18:86) .... 104
**19-cu fəsil | Surə 19: Məryəm .... 106**
Yəhya peyğəmbər (Surə 19:1-15) .... 106

İsa Məsihin ölümü (Surə 19:33) 107
Musa və yanan kol (Surə 20) 107
Adəmin ayıbı (Surə 20:115-123) 108
**21-ci fəsil | Surə 21: Əl-Ənbiya (Peyğəmbərlər) 109**
Məhəmmədin adları (Surə 21:107) 109
**22-ci fəsil | Surə: 22 Əl-Həcc (Həcc) 109**
Cahillik üzündən mübahisələr (Surə 22:8) 109
Cəhənnəm (Surə 22:19-22) 110
Yaradıcılıq gücü (Surə 22:73) 112
**23-cü fəsil | Surə 23: Əl-Muminun (Möminlər) 112**
İnsanların yaradılması (Surə 23:12-14) 112
**24-cü fəsil | Surə 24: Ən-Nur (Nur) 113**
Cinsi qanunlar (Surə 24:2-33) 113
**25-ci fəsil | Surə 25: Əl-Furqan (Haqqı Batildən ayıran) 114**
Sevən Allah - demək küfrdürmü? (Surə 25:60) 114
**26-cı fəsil | Surə 26: Əş-Şuəra (Şairlər) 115**
Açıq-aydın məna (Surə 26:2) 115
**27-ci fəsil | Surə 27: Ən-Nəml (Qarışqalar) səh 116**
Allahın iradəsinə təslim olmaq (Surə 27:91) 116
**28-ci fəsil | Surə 28: Əl-Qasas (Hekayət) 117**
Allah kimi sevir? (Surə 28:76) 117
**29-cu fəsil | Surə 29: Əl-Ənkəbut (Hörümçək) 118**
Necə yaxşılıq edə bilərik? (Surə 29:7) 118
Eyni Allah? (Surə 29:46) 119
**30-cu fəsil | Surə 30: Ər-Rum (Rumlular) 120**
İslam təriqətləri (Surə 30-32) 120
**31-ci fəsil | Surə 31: Loğman 121**
Dünyanı sözlərlə doldurmaq (Surə 31:27) 121
**32-ci fəsil | Surə 32: əs-Səcdə 121**
Cəhənnəmə məhkum (Surə 32:13) 121
**33-cü fəsil | Surə 33: Əl-Əhzab (Dəstələr) 122**
Məhəmmədin həyatı (Surə 33) 122
**34-cü fəsil | Surə 34: Səba (Səba) 123**
Daha çox xəbərdarlıq (Surə 34) 123

**35-ci fəsil | Surə: 35 Fatir (Yaradan)** .......... **123**
Bir canlı belə sağ qalmazdı (Surə 35:45) .......... 123
**36-cı fəsil | Surə 36: Yasin** .......... **124**
Məhkum edilmiş (Surə 36:6) .......... 124
**37-ci fəsil | Surə 37: Əs-Saffat (Səf-səf duranlar)** .......... **125**
Kəffarə qurbanı (Surə 37:102-7) .......... 125
**38-ci fəsil | Surə 38: Sad** .......... **127**
Cənnət haqqında (Surə 38:49-53) .......... 127
**39-cu fəsil | Surə 39: Əz-Zumər (Zümrələr) və Surə 40: Qafir (Bağışlayan) ya da əl-Mumin (İmanlı)** .......... **128**
Mükafatlar və mühakimə (Surə 39, 40) .......... 128
**40-cı fəsil | Surə 41: Fussilət (Müfəssəl izah edilmiş)** .......... **129**
Nə üçün pislik mövcuddur? (Surə 41:49) .......... 129
**41-ci fəsil | Surə 42: Əş-Şura** .......... **131**
Allah insanlarla danışırmı? (Surə 42:51) .......... 131
**42-ci fəsil | 53-cü fəsil | Surə 43: Əz-Zuxruf (Qızıl bəzəklər)** .......... **132**
Ərəb dilində kitab (Surə 43:3) .......... 132
İsa Məsihin qayıdışı (Surə 43:61) .......... 132
**43-cü fəsil | Surə 44: Əd-Duxan (Duman) və Surə 45 Əl-Casiyə (Diz çökmüş camaat)** .......... **133**
Daha dramatik şəkillər (Surə 44:43-48) .......... 133
**44-cü fəsil | Surə 46: Əl-Əhqaf (Qumsal)** .......... **133**
Quran Bibliyanı təsdiqləyir (Surə 46:10) .......... 133
**45-ci fəsil | Surə 47: Məhəmməd (Cihad)** .......... **134**
Rahat olmaq ya da olmamaq? (Surə 47:20) .......... 134
**46-cı fəsil | Surə 48: Fəth (Qələbə)** .......... **134**
Qələbə (Surə 48) .......... 134
**47-ci fəsil | Surə 49: Hucurat (Otaqlar)** .......... **135**
Şübhə (Surə 49:15) .......... 135
**48-ci fəsil | Surə 50: Qaf** .......... **135**
Şah damarından daha yaxındır (Surə 50:16-17) .......... 135
**49-cu fəsil | Surə 51: Əz-Zariyat (Sovurub dağıdan küləklər)** .......... **136**
Bağışlanma (Surə 51:18) .......... 136
Bağışlanan və bağışlayan .......... 137
**50-ci fəsil | Qısa surələr** .......... **138**
Surələr 52-61 .......... 138

Duzlu və şirin sular (Surə 55:19) ... 138
İsa Məsih, Məhəmmədin gəlişini qabaqcadan söyləmişdimi? (Surə 61:6) ... 139
**51-ci fəsil | Surələr 62-70 ... 139**
Cümə namazı mütləqdir (Surə 62:9-11) ... 139
Münafiqlər (Surə 63) ... 140
Allah öz ruhundan Məryəmə üfürdü (Surə 66:12) ... 140
**52-ci fəsil | Surələr 71-78 ... 140**
Quran oxuyun (Surə 73:20) ... 140
Daha çox cəzalar və mükafatlar (Surə 73-78) ... 141
**53-cü fəsil | Surələr 79-87 ... 141**
Kor adam (Surə 80:1-2) ... 141
Lövhədə (Surə 85:20-21) ... 141
**54-cü fəsil | Surələr 88-114 ... 142**
Bizim problemimiz nədir? (Surə 98:5) ... 142
Allah doğulmayıb (Surə 112) ... 142
**Kalkidon (Kadıköy) iman simvolu ... 144**
**Tematik göstərici ... 145**
**Müəllif haqqında ... 149**

# Minnətdarlıq

Bir vaxt həyat yoldaşım mənə deyirdi ki, fermer ilə evlənsəydim daha yaxşı olardı. Mən fermer deyiləm, belə ki o fermerlə yoldaşı olmadı. Amma istər kompüter arxasında, istərsə də traktorun kabinəsində, yazıçı da, fermer də böyük işlər görür, toxumların kök salması, böyüməsi və meyvə verməsi üçün torpağı hazırlamağa çalışır. Kitablarıma göz gəzdirdiyim o uzun saatlarda, mənim həyat yoldaşım məni səbirlə gözləyir, məni ruhlandırır və dəstəkləyirdi. Eyni zamanda həmişə həyatı parlaq rənglərlə rəngləyən qeyri-adi qığılcımı ilə məni əhatə edirdi. Kitabın mükəmməl keyfiyyətinə nail olmaq üçün onun yoxlanılmasında qiymətli vaxt və səylərini sərf edən çoxlu dostlarıma da təşəkkür etmək istəyirəm. Onlar üslubda və məzmunda dəyişiklik etməyi təklif etdilər ki, bu da kitabımın daha yaxşı olmasına səbəb oldu.

# Ramazan ayı zamanı oxumaq

Bu Ramazanda Quran oxumağa qərar verdim. İllərdir Quranı öyrənirəm, amma bu dəfə Quranı çox diqqətlə oxumaq istədim. Mən İsa Məsihin ardıcılıyam. Bəzən insanlar mənə xristian deyirlər, öyrəndiyim qədər çoxları bu sözün mənasını başa düşmür, başa düşmədikləri üçün onlarda xristianlar haqqında yanlış, hətta qəribə təsəvvür yaranır. Mən Asiyada yaşayıram, amma dünyanın hansı bölgəsinə getməyimdən asılı olmayaraq, istər uzaq şimaldakı şaxtalı Moskva, istərsə də cənubdakı Taylandın rütubətli cəngəllikləri, bir çox insanlar "xristian" sözünün yalnız avropalı və Amerikalı bir insan mənasını verdiyini düşünür, və başqa heç nə. Bu, çoxlu spirtli içki qəbul edən, donuz əti yeyən və bəlkə də, fahişələrin ardınca qaçan biri olur. Və ya daha da pisi, onlar düşünürlər ki, bəzi xristianlar özləri də fahişədirlər. Filmlər və televiziyalar bu yanlış təsəvvürləri gücləndirir. Məgər kilsə günahkarların kahinə şokedici günahlarını etiraf etdiyi gözəl köhnə tikili deyilmi? Etirafdan sonra hər şey normala qayıdır və pozğunlar daha çox şey etmək hüququ əldə edirlər-məsələn birlikdə sərxoş olmaq və donuz əti yemək kimi şokedici şeylər. Bütün bu mənzərə məni iyrəndirir və əgər əsl xristian inancı belə görünürsə, onu dənizin dərinliklərinə atmaq daha yaxşıdır.

Mən belə xristian deyiləm. Əxlaqsız insan ümumiyyətlə xristian ola bilərmi? Bu kitabda görəcəyimiz kimi, bu, Allahın yolu deyil. Sərxoşluq, şübhəsiz ki, pisdir və insanlara hər cür bəla gətirir. Donuz ətini yeməyin qəbahət olduğunu düşünmürəm, amma yeməyənlərə hörmət edirəm. Məni heç vaxt pişik və ya it əti yeyən görə bilməzsiniz.

Mən bir kişi ilə bir qadının evliliyinə inanıram və Allahın öyrətdiyi kimi, pozğunluğu rədd edirəm, çünki bu, insanın ləyaqətini oğurlayır və həyatını məhv edir. Biz şəhvət üçün deyil, davamlı sevgi üçün yaradılmışıq.

Məryəm oğlu İsanın Məsih adlı xüsusi titulu vardır.[1] Onun ardıcılları Məsihi, yəni Xristianlar adlanır, Onlar Onu sevirlər, Ona güvənirlər və bu dünyada qəbul edilən həyat tərzindən çox fərqli olan müqəddəs həyatda Onun ardınca gedirlər. Ramazan ayında qonşularım sədaqətlə oruc tuturlar. Gün batımında məscidlərdə işıqlar yandırılır, iftar şorbası, qaynar xörəklər, qalaq-qalaq plov verilir. Boş mədələrini doldураraq ziyafətdən sonra dincəlir, isti çay və qəhvə içirlər.
Uzun isti yay günləri Ramazan üçün ən çətin vaxta çevirir. Ən sərt oruc su, siqaret və hətta öz tüpürcəyini udmağı qadağan edir. Çox çətindir! Buna baxmayaraq, müsəlmanlar ildən-ilə Allahın ən yaxşı qulları olmaq ümidi ilə oruc tutmağa davam edirlər.

Dünyada milyonlarla insan İslam icmalarında yaşayır. Qeyri-müsəlmanla tanış olmaq Müsəlman dostlarım və qonşularım üçün çox maraqlıdır. Məndən soruşurlar ki, "Məhəmməd peyğəmbər haqqında nə düşünürsən?" Quranı oxumuşam deyə cavab verəndə səbirsizliklə yenə soruşurlar:

"Bəs o sənə necə təsir etdi? Bu barədə nə düşünürsən?"

Çox güman ki, mənim əcdadlarım ərəb olmayıb, amma kim dəqiq bilə bilər? Nə vaxtsa əcdadlarım uzaq diyarlardan köçüblər. Genetik testlər təsdiq edir ki, atamın əcdadları İspaniyada, İrlandiyada, Norveçdə və hətta Qafqazda, Orta Asiyada yaşayıblar. Bütün insanlar kimi onlar da Adəm və Həvvadan törəmişlər. Mən türkcə, ingiliscə, qazaxca və bir qədər də rusca danışıram, ancaq ərəb dilinin əsaslarını bilirəm.

1. Məryəm = Məryəm. Əksər adlar üçün mən bütün tərcümələrimdə ərəb formalarından istifadə edirəm. Bununla belə, "Tövrat", "Peyğəmbərlər" və "İncil"dən sitatlarda sözlərin ingiliscə formaları orijinal yazılışında görünür. Yusuf Əli Quranın tərcüməsində ingiliscə formalardan da istifadə edib.

Bir çox müsəlman iddia edir ki, Quranı həqiqətən dərk etmək üçün mən Quranın ərəb dilini başa düşməliyəm. Ancaq yer üzündə insanların yalnız çox az hissəsi müasir ərəb dilini, hətta Quranın ərəb dilini oxuyub danışa bilir. Bundan əlavə, Quranın ilk nüsxələrində ərəb hərfləri saitsiz istifadə olunduğundan bu gün heç kim bu sözlərin ilk müsəlmanlar tərəfindən necə tələffüz edildiyini dəqiq bilmir.

Ərəb dili ilə münasibətim pis deyil. Mən Quranın ərəb dilini təfsirlərin köməyi ilə öyrənməliyəm, həm də ərəb dilinin latın dilinə transliterasiyasını da.

İslam ilahiyyatçıları Quranın yazıldığı ərəb dilinin ilahi bir dil olduğunu və tərcümə oluna bilməyəcəyini iddia edirlər. Mustafa Kamal Atatürk məscidləri türkcə azan verməyə təşviq etsə də, sonradan bu qəbuledilməz hesab edilib. Harada Quran oxunursa, Quranın orijinal ərəbcəsi ilə oxunmalıdır, hətta bəzi dinləyicilər onun dəqiq mənasını başa düşməsələr belə.

*Müsəlman dostlarımın çoxu məndən Quranı oxumağımı xahiş edir, çünki onlar Quranın dünyanın ən mühüm kitabı olduğuna inanırlar.*

Quranı öyrənmək üçün Abdullah Yusuf Əlinin "Qurani Kərimin Mənası" adlı ingiliscə tərcüməsini aldım. Mən həm də internetdə bir neçə türkcə tərcüməyə müraciət etdim. Bəzən tərcümələr oxşar olsa da, bəzən də fərqli olur.

Bunların heç biri ərəb dilini əvəz edə bilməz. Təəssüf ki, insanların çoxu belə böyük bir işi uğurla yerinə yetirmək üçün kifayət qədər uzun ömür sürmür.

Xristian nə üçün Quran oxumalıdır? Onu tənqid etmək üçün? İslamı qəbul etmək üçün?

Mən Quranı tənqid etmək istəmirəm. Mən düşüncəli, müdrik, təvazökar və dua ilə dolu olmaq istəyirəm.

Mən müsəlman olmaq istəyirəm? Mən həqiqəti bilmək və onun ardınca getmək istəyirəm. Mənim taleyimi nə irqim, nə mədəniyyətim, nə də valideynlərim təyin etmir. Əgər seçimim varsa? Və əgər həqiqəti seçə bilirəmsə, mən bütün qəlbimlə axtarıb tapdıqdan sonra qərar vermək istəyirəm.

Mənim məqsədim-hörmət axtarmaqdır. Çox vaxt müsəlmanlar və xristianlar paralel dünyalarda yaşayırlar. Quran oxumaq bir-birinə hörmət körpüsü qura bilər. Quran buyurur: " Əgər kitab əhli ilə mübahisə etsəniz, onu ən gözəl şəkildə edin" (Surə 29:46 Əl-Ənkəbut (Hörümçək).

Quran Allah tərəfindən göndərilmiş əvvəlki kitablara istinad edərkən, bir qayda olaraq, kitabların bəzilərindən və ya hamısından bəhs edir: Tövrat, Peyğəmbərlər (o cümlədən Zəbur) və İncil.[2] Mən Tövrat, Peyğəmbərlər və İncili öyrənmişəm və mənə maraqlıdır ki, nə üçün Quran da bu mühüm mövzulardan bəhs edir: Yaradan, yaradılış, xeyir və şər, mələklər və cinlər, Cənnət və Cəhənnəm, peyğəmbərlər, Tövrat, Zəbur, İncil və İsa əl-Məsih. Bunlar mənim üçün vacibdir. Onlar müsəlmanlar üçün də vacibdir.

2. Əvvəlki kitablar Tövrat, Peyğəmbərlər və İncil deməkdir. Tövrat-Musanın ilk 5 kitabından ibarətdir. Peyğəmbərlər-İsa Məsihdən əvvəl müqəddəs yazılar, o cümlədən Davudun nəğmələri ilə Zəbur. İncil-İsa Məsih, Kəlimətullah (Allahın sözü) haqqında müjdə deməkdir

# 1-ci fəsil | Surə 1: Əl-Fatihə Surəsi (Kitabı açan)

Rəhman və Rəhim olan Allahın adı ilə

Haradan başlamaq lazımdır? Quran kiçik bir kitab deyil. Və asan kitab deyil. Onun məzmunu kimi dili də mürəkkəbdir. 114 surədə 6000-dən çox ayə var. 650-ci ildə Müsəlmanlar Quranın ilk nüsxələrini tam formada yazdılar. Sonradan bu günə qədər getdikcə daha çox nüsxə yaradıldı. Müasir çap maşınları və rəqəmsal texnologiya sayəsində dünyada milyardlarla Quran nüsxəsi var. İslam dini yayıldıqca onların sayı da ildən-ilə artır. Quran nüsxələri mürəkkəblə kağız üzərində çap olunub. Ancaq çoxları inanır ki, mürəkkəb və kağız Allahın Cəbrayıl mələkdən Məhəmmədə vəsiyyət edilən Allahın əbədi kəlamları təmsil etdiyi üçün hörmət yanaşmaq lazımdır. Fiziki kitaba hörmətsizlik Allaha hörmətsizlikdir. Heç bir müsəlman Quranın yerə toxunmasına icazə verməz.

Quranı üç əsas üsuldan biri ilə oxumağa cəhd edə bilərdim. Birinci yol onu başdan-sona oxumaqdır. İkinci yol, Cənnət və Cəhənnəm, Peyğəmbərlər və Mələklər kimi mövzular üzrə oxumaqdır. Üçüncü yol, Quranı xronoloji ardıcıllıqla, Məhəmmədə ilk verilən surələrdən başlayaraq, ömrünün sonunda son verilən surələrə qədər oxumaqdır. Amma bu daha çətindir. Ən asan yol əvvəldən başlamaqdır. 1. Əl-Fatihə surəsindən

*"Rəhman və Rəhim Allahın adı ilə! Həmd olsun aləmlərin Rəbbi Allaha, Mərhəmətli və Rəhmliyə, Haqq-hesab gününün Hökmdarına! Biz yalnız Sənə ibadət edir və yalnız Səndən kömək diləyirik. Bizi doğru yola yönəlt-nemət bəxş etdiyin şəxslərin yoluna, qəzəbə uğramışların və azmışların (yoluna) deyil."*

Surə 1:1-in sözləri gündə milyardlar dəfə bütün dünyada müsəlmanların ağzından çıxır. "Bismillahir Rəhman, Rəhim". Bu sözlər qədim deyim kimi səslənir. Amma bu səslər onlara tanışdır. Məhəmməddən 2000 il əvvəl geriyə baxanda mən Tövratda bu sözləri görürəm: "*Əbədi Əbədi,*[3] *mərhəmətli və rəhmli Allah*[4]"[5] və *"Sənə rəhm edər və mərhəmət göstərər"*.[6] Tövratdakı ibrani dili Quranın yazıldığı ərəbcəyə çox yaxındır. Axı hər iki dil İbrahimin övladlarındandır. Sadəcə bu sözlərə nəzər salın.

| | | | |
|---|---|---|---|
| רָ חַם- | Raham, mərhəmətli | \| | الرَّحْمَ Əl Rəhmani, xeyirxah (lütf edən) |
| חַנּוּן- | Hannun (Çənnun), lütfkar | | |
| חַנּוּם- | Rahum (Raçum), mərhəmətli | \| | لرَّحي Əl – Rəḥimi, rəhimli (mərhəmətli) |

Allahın mərhəmətli və rəhmli adlandırıldığı tək ayələr bunlar deyil. Tövratda və Peyğəmbərlərdə "Rahum" sözü 47 dəfə, "Rəhəm" sözü 44 dəfə və "Çənnun" sözü 13 dəfə keçir. Qədim peyğəmbərlər bu müqəddəs sözləri dəfələrlə söyləmişlər. Həmçinin Quranda 123 ayə Allahın rəhmli adlandırıldığı və 62 ayəsinin rəhmli olduğunu bildirmişdir.

1-ci surə Allaha həmd edir və dua edir. "Bizi doğru yola yönəlt". Əgər düz yolu tapmaqda Allahın köməyinə ehtiyacımız varsa, əyri yollar haradadır? Neçə əyri yol var?

3. Əbədi" sözü bəzən "RƏBB" kimi yazılır. Tövratda və Peyğəmbərlərdə (Zəbur daxil olmaqla) çox vaxt YHWH (יהוה) (Yahve) sözünün tərcüməsi kimi istifadə olunur, Allahın müqəddəs adı, mənası "Mən Oyam".
4. Tövratdan, Peyğəmbərlərdən və İncildən sitatlarda "Allah" sözünü qoyuram. Şərhlərimdə əsasən "Allah" sözünü işlədirəm.
5. Peyğəmbərlər, 2 Salnamələr 30:9.
6. Tövrat, Qanunun təkrarı 13:17.

Hara aparır bu yollar? Cəhənnəməmi? Düz Yolu tapmaq çətindir. Əgər asan olsaydı, onu tapmaqda Allahın köməyinə ehtiyacımız olmazdı. Özümüzə qalanda, məhvə aparan geniş yoldan qaçmağa ümidimiz azdır. Nəsə insanlara böyük problemlər gətirir. 1-ci surəbütün yolların eyni olmadığını qəbul edir. Bəs biz Düz Yolu necə tanıyaq? Bu, qarşımızda duran ən vacib suallardan biridir.

# 2-ci fəsil | Surə 2: Əl-Bəqərə (İnək)

Rəhman və Rəhim olan Allahın adı ilə

Ramazandan bir neçə həftə sonra qonşularım Qurban bayramında evlərinin arxasında böyük bir öküz kəsdilər. Dualar göylərə qaldırıldı, saysız-hesabsız heyvanların şah damarlarından qan töküldü. 2-ci surəsadəcə olaraq Əl Bəqərə (İnək) adlanır. 2-ci surəni oxuyarkən qonşularımın kəsdiyi öküz yadıma düşdü. Bu surə 286 ayədən ibarətdir və bu, Quranda ən uzun surədir. Bu surə çox uzun olduğu üçün hər ayəni deşifrə edə bilmirəm, amma diqqətlə oxumağa layiq bir surədir.

## Məhəmmədin peyğəmbərlik çağırışının sübutu (Surə 2:23-24)

23 və 24-cü ayələrdə Məhəmmədin peyğəmbərlik çağırışının əsas sübutu sayılır: Onun heyrətamiz və güclü natiqlik qabiliyyəti hər kəsdən çox üstün görünürdü, ardıcılları bunu onun Allahın elçisi olduğuna əmin bir dəlil kimi qəbul edirdilər.

## Bəşəriyyətin yüksəlişi və süqutu (Surə 2:30-34)

Əl Bəqərə 30-34-cü ayələrdə insanın yaradılışını izah edir. Maraqlıdır ki, bu ayələrdə mələklərin çox böyük problem olacağını qabaqcadan gördüyü deyilir. İnsanlar üsyan edəcək.

Bax, sənin Rəbbin mələklərə dedi: "Mən yer üzündə bir xəlifə yaradacağam"Onlar dedilər:"Sən yer üzündə fəsad törədəcək və qan tökəcək bir kəsmi yaratmaq istəyirsən?"

İnsanların gələcək üsyanına baxmayaraq, 34-cü ayədə deyilir ki, Allah təkcə insanları yaratmağa qərar vermədi, həm də mələklərə onların qarşısında baş əyməyi əmr etdi. Zəbur razılaşır ki, Allahın insanlarla maraqlanması qəribə görünür. Davud deyib:

*"İnsan kimdir ki, onun haqqında düşünürsən? Bəşər oğlu kimdir ki, onun qayğısını çəkirsən? Onu Allahdan bir az aşağı yaratdın, izzət və əzəmət tacını onun başına qoydun, Əllərinin işləri üzərində onu hökmdar etdin. Hər şeyi onun ayağının altına qoydun"*[7]

Allah Adəmi və onun arvadı Həvvanı yaratdıqdan sonra onlar gözəl bir bağçada yaşayır və orada bir ağacdan başqa istənilən ağacın meyvəsindən ləzzət alırdılar. Lakin sonra Şeytan gəldi və onlara qadağan olunmuş meyvə ilə aldatdı. Quranda deyilir: "Sonra şeytan onları azdırdı... və onları olduqları vəziyyətdən çıxartdı".

Qadağan olunmuş meyvəni yeməzdən əvvəl onların mövcudluğu necə idi? Məgər onlar günahsız, utancsız, qınaqsız bir vəziyyətdə deyildilərmi? Onlar məsumluqlarını itirdikdə Allah onları bağçadan çıxartdı.

7. Zəbur 8:5

## Allah kömək vəd edir

Adəmlə Həvvanın və onların bütün nəsillərindən gələn hər kəsin düzgün rəhbərliyə ehtiyacları var idi. Amma başqa problem də var. Bəs Allahın qanunlarını pozmaqda günah nədir? Təsəvvür edin ki, kimsə bankdan 100.000 dollar oğurlayıb. Sonda polis oğrunu yaxalayır. O, Düz Yolu tapdığını və buna görə də 50.000 dolları uşaq evinə bağışlamaq və qalanını qaytarmaq istədiyini deyir. O, bir daha oğurluq etməyəcəyinə söz verir. Onun yaxşı əməlləri və tövbəsi onun borcunu tamamilə silib, günahını aradan qaldıracaqmı? Bəs o bankı soyarkən mühafizəçini öldürsəydi?

Şeytan yalançıdır. O, Həvvaya qadağan olunmuş meyvəni yedikləri zaman ölməyəcəklərini dedi. Amma öldülər. Əvvəlcə onlar qocalıb xəstələndilər və fiziki ölümlə üzləşdilər. İkincisi və daha önəmlisi, onların Allahla əlaqəsi kəsildi. Onlar öz günahlarından utanaraq Allahdan gizlənməyə çalışdılar.

Və yenə də heyrətamiz bir şey baş verdi. Əvvəlcə Allah “Toxum” adlandırdığı xüsusi bir şəxsi göndərəcəyini vəd etdi. Allah şeytanı belə xəbərdar etdi:

*“Mən səninlə qadın arasına, Sənin balanla onun övladı arasına Düşmənçilik salıram. Bu övlad sənin başından vuracaq, Sən də onu dabanından sancacaqsan”.*[8]

Bəs Şeytanı kim vurur?

İkincisi, insanlıq tarixində ilk qurbanı Allah gətirdi. Allah Adəm və Həvvanı çılpaq qoymaq əvəzinə onlara heyvan dərisi geyindirdi. Bu dəri paltar haradan gəldi? İlk insanın çılpaqlıqlarını və ayıblarını gizlətmək üçün Allah özü qurbanlıq heyvanları kəsmişdir. Yalnız O, onların ayıbını örtmək üçün qurban verə bilərdi.

## Həqiqət və yalan (Surə 2:42)

Bir dəfə Roma imperatoru İsadan soruşdu: "Həqiqət nədir? " Quran həqiqəti yalanla örtməkdən çəkindirir. Həqiqəti bilmək azadlıq gətirir. Ürək qapağının zədələndiyini aşkar edən şəxs ağrılı bir əməliyyat keçirməli olur, amma həqiqəti bilmək onu daha uzun və xoşbəxt həyata apara bilər. Biz Həqiqəti necə bilirik?

Elm və texnologiya heyrətamiz şeylər yaradır. Təyyarə bir neçə saat ərzində dünyanı uçur. Kompüterlər müxtəlif ölkələrdə olan insanları birləşdirir və dilləri dərhal tərcümə edir. Dərmanlar və peyvəndlər insan ömrünü uzadır. Ancaq bunların heç biri bizə Allahın ruhani həqiqətini tam şəkildə açıqlaya bilmir.

> *Allah Adəm və Həvvanın ayıbını heyvan dəriləri ilə örtdü. İlk insanın ayıbını örtmək üçün qurbanı yalnız Allah Özü verdi.*

Allahın varlığı bizim kainatımızdan ayrı mövcuddur.

İncil deyir:

*“Hər şeyi sınaqdan keçirin və yaxşı olandan möhkəm tutun”.*[9]

Müasir dildə buna tənqidi düşüncə deyilir. Bu o deməkdir ki, bir şeyin doğru olub-olmadığını soruşmaq, bizə özümüz üçün həqiqəti kəşf etməyə kömək edə bilər.

8. Tövrat, Yaradılış 3:15
9. İncil, Paulun Saloniklərə birinci məktubu 5:21

İsa Masih "iki və ya üç prinsip"ini dəstəklədi. O bildirib ki, hər bir fakt iki-üç şahid tərəfindən təsdiqlənir.[10] Bu prinsip fiziki və mənəvi həqiqəti müəyyən etmək üçün lazımdır.

Köhnə bir atalar sözü var. "Bir cüt göz bir gözdən daha çox görür". Bəli, belədir, ancaq insanlar gözlərini açsalar. Bir cüt kor göz bir gözdən çox görmür. Həqiqət axtaran, soruşan və dinləyənlər üçün əlçatandır.

## İbrahimin övladları (Surə 2:40)

İbrahimin övladları kimlərdir? Məhəmməd sağ olanda onlar harada yaşayırdılar? Allah onlarla hansı əhdi bağlamışdı? Əhd adətən tərəflərin bir-birinə öhdəlik götürdüyü müqavilədən daha dərin bir razılaşma deməkdir. Məsələn, bir çox mədəniyyətlərdə ər və arvad bir-birlərini ömürlük sevmək barədə əhd-peyman bağlayırlar.

Tövratın "Yaradılış" adlanan birinci kitabında Allahın İbrahimlə necə əhd bağladığını oxuyuruq.[11] Allah İbrahim övladlarını bütün xeyir-dualardan bəhrələnəcək, böyük bir nəsil edəcəyini vəd edir və yer üzünün bütün xalqları onlar vasitəsi ilə xeyir-dua alacağını söyləyir.
İbrahim ata evindən çıxıb bütpərəstlikdən üz döndərərək Allahla bağladığı əhdinin bir hissəsini yerinə yetirdi.

Bəs Allah İbrahim ilə bağladığı əhdini yerinə yetirdimi? Əgər belədirsə, nə vaxt və necə? Quran bizə Allahın israillilәri Misir əsarətindən necə xilas etdiyini, Qırmızı dənizi ikiyə böldüyünü, fironun ordusunu məhv etdiyini və sonra onları səhradan keçirtdiyini xatırladır.

## On əmr (Surə 2:53)

Surə 2:53-cü ayədə deyilir: "Biz Musaya kitab və (haqq ilə batili bir-birindən fərqləndirən) Furqan verdik ki, siz doğru yola yönələsiniz" Bu "fərq" nədir? Mən bunun On Əmr olduğunu düşünürəm.

Quranda "On Əmr" qeyd olunmur. Tam siyahını biz Tövratda tapırıq.[12]

1. Məndən başqa allahların olmasın
2. Bütlərə sitayiş etmə
3. Allahın adını boş yerə dilinə gətirmə
4. Şənbə gününü qeyd və təqdis et
5. Ata-anana hörmət et
6. Qətl etmə
7. Zina etmə
8. Oğurluq etmə
9. Yalandan şahidlik etmə
10. Heç kimin arvadına tamah salma.

10. İncil, Matta 18:16
11. Tövrat, Yaradılış 12:1-3, "Rəbb İbrama dedi: "Öz torpağından, qohumlarının arasından, ata evindən çıx, sənə göstərəcəyim torpağa get. Səndən böyük bir millət törədəcəyəm, sənə xeyir-dua verəcəyəm, adını ucaldacağam və bərəkət qaynağı olacaqsan. Sənə xeyir-dua verənlərə xeyir-dua verəcəyəm, sənə lənət edənləri lənətləyəcəyəm. Yer üzünün bütün tayfaları sənin vasitənlə xeyir-dua alacaq.
12. Tövrat, Qanunun təkrarı 5:6-21

Bu On Əmrə nə üçün ehtiyacımız var? Təsəvvür edin varlı bir parça taciri. Onun incə ipək, yun və pambıq parçaları çox məşhur idi. Şahlar və şahzadələr ondan şah geyimləri üçün parçalar alırdılar. Amma illər keçdikcə tacir aldatmağa başladı. Parçaları parlaq günəş işığına çıxarmaq əvəzinə, şam işığında göstərməyə başladı. Onun bu yalanı ona baha başa gəldi, çünki bir gün Böyük Knyaz parça üzərində ləkələr aşkar etdi və taciri həbs edib zindana atmağı əmr etdi.

On Əmr parlaq bir işıq kimidir. İnsan bu əmrlərin işığına girəndə günahlarının ləkələrini və təqsirini üzə çıxarır. Bəzi insanlar parça satıcısı kimi ancaq günahlarının görünmədiyi qaranlıqda özlərini yoxlamaq istəyirlər.

## Təhrif olunmuş Müqəddəs Yazı? (Surə 2:59)

"Kitabınız dəyişdirilib! Mən heç vaxt oxumayacağam!" Qonşu tələsik İncili mənə qaytardı. Sanki sancmağı bacaran ilan kimi idi. "O, yandırılmalıdır. O, təhrif olunmuşdur".

"Bir dəqiqə, bunu haradan çıxartdınız? " Soruşdum.

"Əsl Tövrat, Zəbur və İncil əbədi olaraq itib. Sizə ancaq təhrif olunmuş bir kitab qalıb" deyə israr etdi.

Müsəlman dostlarım bəzən nəzakətlə, bəzən yox, həmişə mənə deyirlər ki, mən Qurandan əvvəl yazılmış heç bir kitaba etibar edə bilmərəm. Deyirlər ki, yəhudilər Tövratı və Zəburu dəyişdilər, ona görə də Allah İncili göndərdi. Lakin sonra xristianlar İncili təhrif etdilər və Allah Quranı göndərməli oldu. Bu fikir haradan gəlib?

Surə 2:59-da deyilir:

*"Zülm edənlər onlara deyilən sözü başqası ilə dəyişdirdilər. Biz də o zalımlara etdikləri haqsızlığa görə göydən şiddətli əzab göndərdik".*

"Onlar Allahın Kəlamını dəyişdirdilər" nə deməkdir? Bu o deməkdir ki, onlar Allaha itaət etmədilər? Məsələn, Tövrat İsrail oğullarının suya necə ehtiyacı olduğunu söyləyir və Allah Musaya bir qaya ilə danışmağı əmr edir ki, o da onlara su versin. Musa isə Allahın sözünə qarşı çıxır və qəzəblə əsasını qayaya vurur.

Təsəvvür edin ki, mən oğluma deyirəm: "Zəhmət olmasa, oyuncaqları qoy və otağını təmizlə". Bir saatdan sonra otağına girib görürəm ki, o, oyuncaqlarla oynayır, otaq hələ də bərbad vəziyyətdədir. Deyirəm: "Sözlərimi təhrif etdin. Oyuncaqları yerə qoymaq əvəzinə, oynamağa davam edirsən". Sözlərimin nəticəsini dəyişdi. Əslində dediyim sözlər dəyişmədi. Allahın dediyi sözlər dəyişməz.

## Müsəlmanlar, Yəhudilər, Xristianlar və başqaları (Surə 2:62)

Bu ayə sülhpərvər, tolerant səslənir və bütün xalqları və dinləri əhatə edir. Surə 2:62 də deyilir: "İman gətirənlərdən müsəlmanlardan, musəvi (yəhudi), isəvi (xristian) və sabiilərdən Allaha, axirət gününə (sədaqətlə) inanıb yaxşı iş görənlərin mükafatları Rəbbinin yanındadır. (Qiyamət günü) onların nə bir qorxusu olar, nə də onlar bir qəm-qüssə görərlər."

Bu halda, Tövrat, Peyğəmbərlər və İncil etibarlıdır? Yəhudilərin və xristianların öz kitabları olmasaydı, Allah və axirət günü haqqında heç nə bilməzdilər. Bütün dinlərdən olan insanlar Cənnətə gedəcəklərmi? Əgər onlar öz kitablarındakı yazılara itaət edərək Cənnətə girə bilərlərsə, o zaman Quranın İncildən sonra gəlməsinə nə ehtiyac var idi? Bu baxımdan İncil nə üçün Tövrat və Zəburdan sonra verildi?

O zaman belə bir sual yaranır. . müsəlman, yəhudi və ya xristian olmayan insanlar Tövratdan, Zəburdan, İncildən və Qurandan xəbərləri yoxdursa, necə Allaha və Axirət gününə iman gətirə bilər? Nə üçün Allah insanları Ona və Axirət gününə iman gətirdiklərinə görə mükafatlandırır? Şeytan da Allahın varlığına inanır. Yalnız ateistlər cəhənnəmə gedir? Səmimi qəlblə saleh əməllər edən, lakin Yaradana inanmayan ateist Cənnətə gedə bilərmi? Ateistlərin belə gözəl həyat sürə bildiyi halda, Allah niyə insanlardan Onun varlığına inanmalarını tələb edir? Nə üçün O, hər kəsi Öz varlığına inamla yaratmadı?

Bəlkə də, O belə yaradıb. Dünyada aparılan tədqiqatlar göstərir ki, demək olar hər bir insan Yaradanın qüdrətli gücünə inanır. Bəlkə də kimsə özünü Allahın var olmadığına inandırır.

*Şayiələr deyir ki, Tövrat, Zəbur və İncil dəyişdirilib, lakin bu ayə kitabları dəstəkləyir.*

## Musa və gətirilmiş inək qurbanı (Surə 2:67-73)

Yadınızdadırsa, bəşər tarixində ilk qurbanı Adəm və Həvvanın ayıbını örtmək üçün Allah özü etmişdir. Bu ilk qurbandan sonra bir çoxlarının qurbanları haqqında da bəhs edilir . Qabil və Habil qurbanlar verdilər. Qabil öz bağından tərəvəz gətirdi, Habil isə qurban kəsdi. Allah Habilin qurbanından razı qaldı, Qabilin qurbanından isə yox. Ola bilər ki, Qabilin ürəyi eqoist və imansız idi. İstənilən halda, Qabil Habilə paxıllıq etdiyi üçün onu öldürdü.

Qurban nə edir? Quran bəzən qurbanın işarə kimi istifadə oluna biləcəyini bildirir. Bu hekayədə deyilir ki, Allah Musaya qurbanlıq heyvanın bir parçasını götürüb ölü bir adamın bədəninə vurmağı əmr etmişdir. Qurban ölü adamın bədəninə toxunduqda o, yenidən dirilir. Qurana görə, Musanın qurbanı Allahın ölüləri diriltmək qabiliyyətinə malik olduğuna işarə kimi istifadə olunurdu. Allahın ölüləri diriltmək qüdrətini göstərən başqa qurban varmı?

## Kitabı bilməmək (Surə 2:78)

Cahillik içində yaşamaq qaranlıq bir mağarada yaşamaq kimidir. 78-ci ayədə belə deyilir:

*"Onların bəziləri də avamdırlar, kitabı bilməzlər. Uydurduqları yalnız boş arzulardır. Onlar ancaq zənnə qapılırlar."*

Mağara həm də əks-səda kamerasına bənzəyir. Bağlı otaqda eşitdiyimiz tək səs bizim səsimizdir. Belə bir deyim var ki, bəziləri qeybət kimi "ağızdan ağıza" keçən hər şeyə inanırlar. Onlar heç vaxt həqiqəti özləri üçün axtarmayıblar. Qonşuları ayın pendirdən əmələ gəlməsi barədə şayiə yaysalar belə, onlar buna məmnuniyyətlə inanarlarlar. Onlar bir güldən o biri gülə uçan kəpənək kimi, ağızdan-ağıza keçən söz-söhbətlərə inanırlar.

78-ci ayədəki "Kitab"ın nə demək olduğu tam aydın deyil. Amma məsələ burasındadır ki, insanlar bir şeylə tanış olana qədər onu mühakimə etməməlidirlər. Mən Quranı öyrənirəm, ona görə də o ayədəki savadsız olmayacağam. Mən Quran ilə bağlı fərziyyələr irəli sürmək istəmirəm. Bəs nə qədər insan Quran oxumağa vaxt ayırır? Başqalarının dediklərini sitat gətirmək əvəzinə, əslində neçə nəfər oturub özləri oxuyur?

## Əvvəlki kitabların təsdiqi (Surə 2:97)

İnsanın şayiələrə və dedi-qodulara inanmaması yaxşı bir nümunədir. Surə 2:97 sözləri ilə davam edir: "Cəbrailə düşmən olan kimsəyə de ki, onu (Quranı) özündən əvvəlkiləri (Tövratı və

İncili) təsdiqləyici, möminlər üçün isə hidayət və müjdəçi olaraq Allahın izni ilə sənin qəlbinə o nazil etmişdir".

Şayiələrdə Təvrat, Zəbur və İncilin dəyişdirildiyi deyilir, lakin bu ayə kitabları təsdiqləyir. Ərəblər Quranı ilk dəfə eşidəndə onların etibarlı nüsxələri olmasaydı, Quranın əvvəlki Kitabları təsdiq etdiyini haradan bilə bilərdilər? Bu ayə yəhudilərin, xristianların və müsəlmanların bir yerdə oturub müqəddəs kitabları müqayisə edə biləcəyini göstərir.

## Yazıların ləğvi (Surə 2:106)

İnsan Quranda ziddiyyət kimi bir şeylə qarşılaşdıqda nə baş verir? Çox vaxt bunu ləğv kimi izah edirlər.

Surə 2:106-cı ayədə deyilir:

*"Biz hər hansı bir ayəni ləğv edir və ya onu unutdururuqsa, ondan daha yaxşısını, yaxud ona bənzərini gətiririk. Allahın hər şeyə qadir olduğunu bilmirsənmi?!"*

Bu mübahisə mənbəyidir. Bir müsəlman yazıçı iddia edir ki, Quranda bəzi ayələr var ki, onlar başqa ayələr tərəfindən ləğv edilmiş və qüvvədən düşmüşdür! Ləğv edən ayə (əl-Nasix), nəsx edilən ayə isə (əl-Mənsux) adlanır. Bu konsepsiya Quranın zəif başa düşülməsi nəticəsində ilk olaraq müsəlman alimləri tərəfindən irəli sürülmüş olsa da, qeyri-müsəlman yazarlar tərəfindən kitabın kamilliyinə və ilahiliyinə iftiralar atmaq üçün geniş şəkildə istifadə edilmişdir.[13]

Bir xristian olaraq bu müzakirədən kənar bir şəxs kimi yazıram. Halbuki 2:106-cı surəyə baxanda mənə elə gəlir ki, Quranda Allahın vəhyində heç bir ziddiyyət olmamalıdır. Əgər Allah Quranda bir yerdə bir şey deyirsə, başqa yerdə dediyi ilə uyğun olmalıdır. Allah bir şeyi başqa sözlə bildirə bilər, lakin sonrakı vəhy birinci vəhy ilə təkmilləşdirməlidir və onunla ziddiyyət təşkil etməməlidir. Başqa bir nöqteyi-nəzər isə budur ki, Allah istədiyi hər şeyi ləğv edə bilər, hətta bunu etməsinin səbəbini görməsək də. Bəzi insanlar sonradan gələn vəhyin əvvəlki ilə necə ziddiyyət təşkil edə biləcəyini izah etmək üçün ləğvetmə prinsipindən istifadə edirlər.

## Qəriblər və düşmənlər üçün dua (Surə 2:105)

Hər gün insanların dünyasında yeni münaqişələr alovlanır. Surə 2:105-ci ayədə deyilir:

*"Nə kafirlər, nə də müşriklər sizə Rəbbiniz tərəfindən heç bir xeyir göndərilməsini istəməzlər. Halbuki Allah Öz mərhəmətini istədiyi kimsəyə bəxş edər. Allah böyük mərhəmət sahibidir!"*

Bu ayəni oxuyanda ürəyim sıxıldı! Yəhudilər və xristianlar ilk müsəlmanlara qarşı düşmənçilik edirdilərmi?

İsa Masih şagirdlərinə həm dost, həm də dost olmayan hər kəsi sevməyi və onlar üçün dua etməyi öyrətdi.[14] Əgər mən İsanın ardınca gedirəmsə, bütün dünyada müsəlman dostlarıma ən yaxşısını arzulayıram. Mən pisliyə sevinmirəm. Mən onları lənətləmirəm. Mən həmişə dua etməliyəm ki, Hindulara, Buddistlərə, Müsəlmanlara və hər kəsə həqiqi həyat, sülh və əbədi sevinc bol-bol gəlsin.

Əgər kimsə müsəlmanların yaxşı həyat görməyəcəyinə ümid edirsə, necə İsa Məsihin həqiqi ardıcılı ola bilər?

---

13. "Ləğv, Qurana qarşı ən böyük yalan", Təqdimat, http://submission. org/abrogation. html, 2018-ci ilin fevralında əldə edilib.
14. İncil, Matta 5:43

## Oğurlanmış inam (Surə 2:109)

Tarix göstərir ki, ilk ərəb müsəlmanlarının əksəriyyəti İslamı qəbul etməmişdən əvvəl bütpərəst olublar. Məhəmməd məmləkəti Məkkə şəhərində bütpərəstlərə təbliğ edirdi. Oranın sakinləri tərəfindən qəbul edilməyən Məhəmməd sonra Mədinəyə *hicrət* edərək burada müşriklər arasında böyük müvəffəqiyyətlə təbliğ etdi. Onları bütpərəstlikdən və bir çox tanrılara sitayişdən uzaqlaşdırdı və onları bir Yaradana inanmağa yönəltdi. Belə olan halda növbəti misra müəmmalı olur.

*"Kitab əhlindən bir çoxu həqiqət onlara bəlli olduqdan sonra belə, təbiətlərindəki həsəd (paxıllıq) üzündən sizi, iman gətirmiş olduğunuz halda, yenidən küfrə sövq etmək istərlər. Allahın əmri gəlincəyə qədər həmin şəxsləri əfv edin və onları qınamayın. Şübhəsiz ki, Allah hər şeyə qadirdir!"*

Əgər kitab əhli yeni iman etmiş müsəlmanları imandan döndərmək istəyirsə, deməк onların bütpərəstliyə qayıtmalarını istəyirlər? Əgər onları yenidən yəhudilik və ya xristianlığa çevirməyə çalışırlarsa, burada küfr haradadır? Bundan əvvəl, 2:62-ci ayədə oxuyuruq ki, Allaha həqiqi iman gətirən kitab əhlinə mükafat veriləcəkdir.

Bu gün bir çox insanlar yəhudi və ya xristianla danışmaqdan qorxurlar, çünki düşünürlər ki, bu adam onları yenidən küfr etməyə cəhd edə bilər. Amma doğru deyildir, çünki kitab əhli də tək Allaha iman gətirdiklərini bəyan edir. Yəhudilər, xristianlar və müsəlmanlar çoxsaylı yalançı tanrılara sitayiş etməyi rədd edirlər. Heç biri bütpərəstliyi qəbul etmir.

## Yəhudilər və xristianlar eyni kitabı oxuyurlar? (Surə 2:113)

Yəhudilər və xristianlar hansı kitabı və ya kitabları oxuyurlar? Yəhudilər və xristianlar Allah haqqında fərqli fikirlərə malikdirlər. Bunu müxtəlif adlarda görmək olar. 2:113-cü ayədə buyurulur:

Yəhudilər dedilər: "Xaçpərəstlər düzgün bir şeyə istinad etmirlər". Xaçpərəstlər də: "Yəhudilər düzgün bir şeyə istinad etmirlər", - söylədilər. Halbuki onların hər ikisi kitab (Tövrat və İncil) oxuyur. (Kitab əhli olmayan və yazıb-oxumaq) bilməyənlər də onlar kimi danışdılar. Allah onların aralarındakı bu ixtilafın hökmünü qiyamət günü verəcəkdir!

Yəhudilər və Xristianlar bəzi şeylərdə həmfikir, bəzilərində isə deyillər. Yəhudilərin kitabı nədir? Yəhudilər Tövratı və Peyğəmbərləri (o cümlədən Zəburu) oxuyurlar. "Tövrat" Musanın ilk beş kitabıdır, ondan sonra İsrail başçılarının tarixi kitablarıdır.

Davud padşahın mədh kitabı Zəbur adlanır. Ondan sonra Zül-Kifl (Yezekel), Yeşaya (Yeşaya) və Danyal (Daniel) kimi bir sıra digər peyğəmbərlərin kitabları gəlir. Yəhudilərin Müqəddəs Yazılarında bir böyük kitabda 39 kitab var.[15]

İsa Məsihin dövründən bu günə qədər Onun ardıcılları Tövrat və Peyğəmbərlərin 39 bölməsini Allahın kəlamı kimi qəbul etmişlər.[16] Xristianlar inanırlar ki, Allah peyğəmbərlərlə danışıb, onlara ilham verib və onlar da Onun sözlərini yazıblar. Allah onlara tarixi, qanunları, əmrləri və gələcək haqqında peyğəmbərlikləri yazmaqda rəhbərlik edib.

15. Tövrat və Peyğəmbərlər çox vaxt Əhdi və ya Əhdi-Ətiq adlanır.
16. Məsələn, Tövrat daha qısa kitabların beş bölməsindən ibarət bir "Kitab"dır.

İncili Əhdi-Cədid adlandırmaq olar. "İncil" sözü ancaq "xoş xəbər"[17] mənasındadır. İki, beş, iyirmi yox, bircə İncil var. Birdən çox İncil və ya Müjdə heç vaxt mövcud olmayıb.[18] Bunu bütün zamanların ən yaxşı xəbəri adlandırmaq olar. Sadə dillə desək, İncil deyəndə bir böyük kitabdakı 27 bölüm hamısını nəzərdə tuturam. Tövratda, Peyğəmbərlər kitabında və İncildə surəvə ayələr var.

Peter, Yəhya, Paul və Matta İsa Masihin ardınca gedən İbrahimin övladları idi. Onlar inanırdılar ki, - həm Tövrat, həm də Peyğəmbərlər İsa haqqında danışır və onun gəlişini öncədən bildirirdilər. İsa, Onun haqqında edilən peyğəmbərlikləri yerinə yetirdiyinə görə, onlar Onu həqiqi Məsih kimi qəbul etdilər.

İsanın şagirdləri Allahdan ilham alaraq "İncil"i yazmışlar. Eyni zamanda onlar həm də, Allahdan ilham alaraq İncildə Tövratdan və Peyğəmbərlərin kitablarından bir sıra sitatlar gətirmişlər. Bəzi alimlər düşünürlər ki, İncilin 25%-i ya birbaşa sitatdır, ya da əvvəlki müqəddəs kitablara istinaddır. İncil, Tövratın və Peyğəmbərlərin sözlərini öz ayələrinə toxuyaraq, sanki xalçanı gözəl ipək saplar ilə toxunmuşdur.

Lakin İbrahimin bütün övladları İsanı qəbul etmədi. İsanın ilk ardıcıllarının çoxu İbrahimin övladlarından olsa da, bəziləri də Onu rədd etdi. Nəhayət, İsanın xəbəri bir çox bütpərəstlərin yaşadığı Aralıq dənizi və Avropaya yayıldı. Çoxları İsanın ardınca getməyə başladı, onlar öz bütlərini məhv etdilər və onun adına toplaşmağa başladılar. Yeni iman gələnlərin sayı ilə müqayisədə İsanın yəhudi ardıcıllarının sayı getdikcə azalmağa başladı. Məhəmmədin zamanında Ərəbistanda və yaxınlıqdakı ölkələrdə hələ də Tövrata və Peyğəmbərlərə inanan, lakin İsa Məsihi qəbul etməyən bir neçə başqa İbrahim övladı var idi. Təəssüf ki, bu gün də belə bir fakt var ki, bəzi insanlar Allahdan bəhs edən kitabları oxumağa çəkinirlər: "Tövrat", "Peyğəmbərlər", "İncil" və "Quran".

## Allahın oğlu yoxdur (Surə 2:116-117).

Bəqərə surəsində bir sıra mühüm mövzular var, lakin ən mühüm 116-117-ci ayələrdir.

*Onlar dedilər: "Allah Özünə övlad götürmüşdür!" Halbuki O, pakdır, müqəddəsdir! Həqiqətən, göylərdə və yerdə nə varsa, Ona məxsusdur. Hər şey Ona baş əyir.*

*Göyləri və yeri icad edən Odur. O, bir işi yaratmaq istədikdə ona ancaq: "Ol!" - deyər, o da olar.*

Sirr deyil ki, İncil dəfələrlə İsa Məsihi "Allahın oğlu" adlandırır. Və həm də "İnsan oğlu" adlandırır.

İncil deyir:

*"Allah dünyanı elə sevdi ki, yeganə Oğlunu verdi ki, ona inanan hər kəs həlak olmasın, əbədi həyata malik olsun".*[19]

Məhəmmədin dövründə Afrikada və bütün Yaxın Şərqdə İncil İsanı Allahın yeganə oğlu adlandırdığı məlum idi. O vaxtlar bu heç də sirr deyildi.

Bu ayə birbaşa xristianlara aid edilmir-sadəcə "onlar" deyilir, ola bilər ki, "onlar" dedikdə xristianlar nəzərdə tutulub.

17. Yunan sözü evangeliondur (εὐαγγελιον).
18. Yalançı İncillər zaman-zaman peyda olub, amma saxta olduğu asanlıqla seçilib.
19. İncil, Yəhya 3:16

Amma bu sadəcə bir ehtimaldır. İsanın ardıcılı olaraq 116 və 117-ci ayələri neqativlik axtarmadan oxuya bilirəm. Niyə? Çünki burada İncillə Quranın eyni şeydən danışdığına tam əmin deyiləm.

Bu ayə birbaşa xristianlara aid edilmir-sadəcə "onlar" deyilir, ola bilər ki, "onlar" dedikdə xristianlar nəzərdə tutulub. Amma bu sadəcə bir ehtimaldır. İsanın ardıcılı olaraq 116 və 117-ci ayələri neqativlik axtarmadan oxuya bilirəm. Niyə? Çünki burada İncillə Quranın eyni şeydən danışdığına tam əmin deyiləm.

Surə 5:116-cı ayəni oxuyun.

*"Ey Məryəm oğlu İsa! Sənmi insanlara: "Allahı qoyub məni və anamı ilah qəbul edin!" demisən?!" - buyurduğu zaman (İsa peyğəmbər belə) deyəcək: "Sən pak və müqəddəssən! Haqqım olmayan bir şeyi demək mənə yaraşmaz.*[20]

Bu, mübahisəsiz bütpərəstlikdir. Tək haqq olan Allahdan başqa heç bir Allaha ibadət etməyin. Yəhudi də, xristian da razılaşaraq "Amin" deyəcəklər. Bəs məsələ nədir? Ola bilsin ki, bu çaşqınlıq bəzi xristian xalqlarının Məryəmin körpə İsanı qucağında tutan ikonaları qarşısında şam yandırması ilə bağlıdır. Bu insanlar Məryəmə və İsaya Allah olaraq ibadət edirlər? Bəzən mənə belə gəlir ki, bəli.

Mən heç vaxt bir surətə dua etməmişəm və bir Yaradan Allahdan başqa heç bir "müqəddəsə"və ya heç bir şeyə dua etməmişəm, ona görə də dünyada mövcud olan bütün adət-ənənələr üçün danışa bilmərəm. Ancaq təcrübəmə görə, hətta Məryəmin şəklinin önündə şam yandıranlar da onu Allah hesab etmirlər. Məryəm insan idi. Peyğəmbərlər, İncil və Quran onun bakirə olduğunu və möcüzə nəticəsində İsaya hamilə qaldığını öyrədir. Onun əri yox idi və İsanın yer üzərində atası yox idi.

Bununla belə, xristianlar İsanın Allahın yeganə oğlu olduğuna inanırlar. Bəli, bu pis, çox pis səslənə bilər. Bu küfr kimi səslənə bilər. Şərik! Küfr! Allahın övladı?!

Bəlkə də "doğulmuş" sözünə başqa cür baxsaq, cavab tapa bilərik. İsa nə vaxt anadan olub? Zamanda idi, yoxsa əbədiyyətdə? Quran buyurur ki, Allah İsanı "Ol" deyərək yaratdı. İnsan nöqteyi-nəzərindən aydındır ki, İsanın fiziki bədəni müəyyən bir zamanda Məryəmin bətnində peyda oldu. Bəs İsanın Ruhu nə vaxt zühur etdi? İncil qeyri-adi bir şey öyrədir. Zaman və məkanın mövcudluğundan əvvəl İsa əbədi və ruhən doğulmuş və Allahın qəlbindən çıxmışdır. Bu səbəbdən ona Kəlimətullah və Ruhullah deyirlər.

Quran bu iki kəlmə ilə İsanı adlandırır. İncil "doğuldu" dedikdə, atadan insan övladı kimi doğulduğu mənasına gəlmir. Allahın mahiyyəti və şəxsiyyəti ilə vəhdətdə olmaq deməkdir. Quran bu iki kəlmə ilə İsanı adlandırır.

İncil "doğuldu" dedikdə, atadan insan övladı kimi doğulduğu mənasına gəlmir. Allahın mahiyyəti və şəxsiyyəti ilə vəhdətdə olmaq deməkdir. Allah İsa Məsihin simasında zühur etmişdir. Bu səbəbdən İsa Allahın Oğlu və İnsan Oğlu hesab olunur.

Bundan əlavə, İncil Allahı Səmavi Ata adlandırır,[21] bu o demək deyil ki, Allahın arvadı və oğlu var.

Lakin bu o deməkdir ki, O, Birincidir, Ucadır və son məqsədi nəzərə alaraq hərəkət edəndir. Məsələn, Türkiyədə Mustafa Kamalı Türkiyənin ilk, ən yüksək rütbəli adamı və qurucusu olduğuna görə insanlar "Atatürk" adlandırmağa davam edirlər. Amma şəxsən onun bioloji uşaqları olmayıb. Quran oxuyarkən daim ortaya çıxan böyük bir sual budur: İsa Məsih kimdir?

20. Surələr 5:116, 4:169 və 5:77-79; eləcə də Surələr 19:36, 19:91, 112:3
21. Bəzi yerlərdə "cənnət" səma və ya kosmos deməkdir. Xristianlar inanırlar ki, "Cənnət" (və ya "Cənnət"-təqribən. Tərcüməçi) Allah yanında əbədi həyat yeridir.

## Başqalarının istəklərinin ardınca getmək (Surə 2:120)

İnsanın bütün istəkləri yaxşı deyil. Qəlbimiz çox vaxt azğın qoyun kimi təhlükəsiz yoldan çıxa bilir. Quran səhv istəklərin onu yoldan çıxaracağı barədə xəbərdarlıq edir. Surə 2:120-ci ayədə deyilir:

*"Sən onların dininə tabe olmayınca, nə yəhudilər, nə də xaçpərəstlər səndən razı qalmayacaqlar. De: "Yalnız Allahın haqq yolu doğru yoldur!" Əgər sənə gələn elmdən sonra onların istəklərinə uysan, səni Allahdan nə bir qoruyan, nə də bir xilas edən olar."*

Şübhəsiz ki, belə olacaq. Bəli, nəfsimizin istəklərinə tabe olmamalıyıq, Allahın göstərişlərinə əməl etməliyik. Çox vaxt insan ürəyi etibarsız kompas kimi ola bilər. Əgər dürüst olsaq, başa düşərik ki, pis düşüncələr, adam öldürmə, zina, şəhvət, oğurluq, yalançı şahidlik, küfr və əmələ gələn bütün pisliyin mənbəyi bizim ürəyimizdir.[22] Bizim yeganə ümidimiz Allahın doğru iradəsinə tabe olmaqdır.

Surə 2:62-ci ayədə Quran bəzi yəhudi və xristianların Allahdan böyük mükafat alacaqlarını bildirir. Onlar bu mükafatı necə alacaqlar? Tövratda, Peyğəmbərlər kitabında və İncildə nazil olan kəlamlara əməl edərək. Buna görə də Surə 2:120-ci ayə, yəhudilərin və xristianların həqiqəti itirdiklərini deyil, bəzilərinin Allahın sözünü tərk etdiklərini deyir. Surə 2:121-ci ayədə daha çox nəzərdə tutulan budur:

*Kitab verdiyimiz kimsələr onu layiqincə oxuyarlar. Onlar ona iman gətirərlər. Kim onu inkar edərsə, əsil ziyana uğrayanlar məhz onlardır.*

## Kəbə (Surə 2:127)

*Zaman və məkan mövcud olmamışdan əvvəl İsa Məsih ruhən Allahın ürəyində idi. İsa Məsihin Kəlimətullah və Ruhullah adlandırılmasının səbəbi budur.*

İndi keçək Kəbə mövzusuna. Məkkənin tam mərkəzində yerləşən bu böyük kubun hündürlüyü 13, 1 m (43 fut), 11, 03 m (36, 2 fut) ilə 12, 86 m (42, 2 fut) ölçülür. Qara və qızılı parça ilə üzlənmişdir. Bu böyük daş, ehtimal ki, meteorit, strukturun şərq küncündə yerləşdirilib. İllik həccin bir hissəsi olaraq saysız-hesabsız zəvvarlar Kəbəni saat əqrəbinin əksinə yeddi dəfə yavaş-yavaş dövrə vururlar. Bir çoxları müqəddəs daşa toxunmaq və ya öpmək üçün kifayət qədər yaxınlaşmağa çalışırlar. Surə 2:127-ci ayədə bir-birinə bağlanan bir hekayə danışılır. (İbrahim Kəbə ilə və Məkkə).

*Bir zaman İbrahim və İsmail evin (Kəbənin) bünövrəsini ucaldırdılar (və belə dua edirdilər:) "Ey Rəbbimiz, bizdən (bunu) qəbul et! Şübhəsiz ki, Sən hər şeyi eşidənsən, bilənsən!*

Bir xristian Quran oxucusu kimi mən İbrahimin həyatı ilə bağlı bu hekayənin valehedici olduğunu düşünürəm. Ancaq Tövratda, Peyğəmbərlər kitabında və İncildə bununla bağlı heç bir hekayə oxumamışam. Tövratda İbrahimin Ur ölkəsindən çıxışını, Kənan torpağına gedişini, Vəd edilmiş torpaqda qalmasını, Misirə səfərini və nəhayət, Vəd edilmiş torpaqda ölümü aydın təsvir edilmişdir.

22. İncil, Matta 15:19

Mənə maraqlıdır ki, niyə Tövratda İbrahimin Məkkəni ziyarət etməsi barədə qeyd olunmayıb? Ola bilər ki, Musa hekayənin bu hissəsini unutmuşdu.

Səyahətləri və Misirə səfərləri zamanı İbrahim çox güman ki, Ərəbistana getmiş və Məkkə şəhərini ziyarət etmişdi. O, başqa bir şəhərdə Kəbəni ziyarət etmiş ola bilər.

Ancaq bu, başqa bir suala səbəb olur. İbrahimi İsmayılın köməyi ilə Məkkədə ev tikməyə nə vadar edə bilərdi?

Bu nəyə lazım idi? Birincisi, Allah İbrahimə Aralıq dənizi və İordan çayının o tayındakı torpağı verəcəyini vəd etmişdi.

Məkkə Allahın İbrahimə və ailəsinə vəd etdiyi yerdən yüzlərlə mil cənubda yerləşir. İkincisi, İsmayıl vəd edilmiş torpağa, İbrahimin mirasına necə varis ola bilərdi? İbrahimin arvadı Sara, misirli kənizi Həcərə və oğlu İsmayıla paxıllıq etdi. Buna görə də İbrahimə onları yola salması üçün təkid etdi. Onlar səhraya getdilər və Allah onların qayğısına qaldı. Amma Həcər Saranın cariyəsi olduğu üçün İsmayıl qanuni olaraq İshaqa bərabər oğul deyildi. İbrahim və Allah İsmayılı sevsələr də, İshaq İbrahimin varisi, möcüzəvi hamiləlik nəticəsində qoca yaşda arvadı Saradan dünyaya gələn və vəd edilən oğlu idi.

İbrahimin ölümündən yüz illər sonra Allah Davudun oğlu Süleymana Qüdsda müqəddəs bir məbəd tikməyi tapşırdı. Bu məbəd, On Əmri olan Əhd sandığını saxlamaq üçün xüsusi bir yer idi. Qüdsdəki məbəd yüz illər boyu dayandı və nəhayət eramızın 70-ci ilində Roma ordusu tərəfindən dağıdıldı. İsa Məsihin gəlişindən əvvəl məbəd Allahın evi adlanırdı. Bununla belə, İncil inqilabi bir açıqlama verir.

*“Dünyanı və onda mövcud olan hər şeyi yaradan, yerin-göyün Sahibi olan Allah əllə tikilən məbədlərdə yaşamaz”.* 23

Allah Qüdsdəki məbədi, sevinclə qəbul edən canlı insan qəlbləri ilə əvəz etdi.

## İbrahim, İsmayıl, İshaq, Davud və İsanın imanı (Surə 2:135-136)

Quran yenə insanları Allahın qədim peyğəmbərlərinin imanına çağırır.

*Onlar dedilər: “Yəhudi və ya xaçpərəst olun ki, doğru yola yönələsiniz!” De: “Əksinə, biz hənif İbrahimin dinindəyik. O, müşriklərdən deyildi”. Deyin: “Biz Allaha, bizə nazil olana, İbrahimə, İsmailə, İshaqa, Yaquba və onun nəslinə nazil olana, Musa və İsaya verilənlərə, özlərinin Rəbbi tərəfindən peyğəmbərlərə verilənlərə iman gətirdik. Biz onların arasında fərq qoymuruq. Biz yalnız Ona təslim olanlarıq!”*

Görünür, bəzi insanlar Məhəmmədə və ya onun tərəfdarlarına yaxınlaşaraq onları yəhudi və ya xristian olmağa dəvət edirdilər. Belə başa düşürəm ki, yəhudilər müsəlmanların yəhudi olmasını, xristianlar isə onların xristian olmasını istəyirdilər. Məhəmməd müsəlmanları qətiyyətlə cavab verməyə çağırır: “Xeyr!” O deyir ki, onlar yəhudi və xristian olmaqdansa, əvvəlki dövrlərdən gələn müqəddəs insanların imanında qalsınlar.

Həqiqi yəhudi İbrahimə, Musaya və digər peyğəmbərlərə inanır. Xristian Tövrata, Peyğəmbərlərə və İncilə inanır. Buna görə də 135 və 136-cı ayələri başa düşmək çətindir. 135-də belə deyilir: “Yəhudi və ya xristian olmayın” lakin sonra 136-da oxuyuruq: “Yəhudilərin inandıqlarına inanın və xristianlar kimi İsa əl-Məsihə inanın”.

23. İncil, Həvarilərin işləri 17:24

Bu nöqtədə belə bir etiraz gələ bilər, "Bir dəqiqə, ola bilsin ki, Məhəmmədin dövründə yəhudilər və xristianlar Allahdan başqa tanrılara sitayiş ediblər, lakin İbrahim isə Allahdan başqa tanrılara sitayiş etməyib!"
Əminəm ki, hər hansı bir yəhudi yuxarıda səslənən fikri eşitsəydi, dəhşət içində əllərini yuxarı qaldırardı. Çünki, hər bir yəhudi "Şema"nı oxuyub və bilir: "Dinlə, ey İsrail, Allahımız Rəbb yeganə Rəbdir"[24]. Eynilə, xristianlar da "Şema"nı iqrar edirlər. İsanın öyrətdiyi kimi: "Əmrlərin birincisi: "Dinlə, ey İsrail, Allahımız Rəbb yeganə Rəbdir, Əbədi Olanı sev." [25] Bundan daha böyük məna yoxdur! Həm yəhudilər, həm də xristianlar bütpərəstliyin istənilən formasını qəti şəkildə pisləyir və rədd edirlər. Allah birdir.

## Qiblədən dönmək

Məhəmmədin həyatının bir nöqtəsində müntəzəm namazın istiqaməti Məkkədən başqa bir şəhərə dəyişdirildi. [26] Surə 2:142

*Səfehlər: "Onları (müsəlmanları) üz tutduqları qiblələrindən döndərən nədir?" deyəcəklər. De ki: "Şərq də, Qərb də Allahındır. O, dilədiyini doğru yola yönəldər".*

Daha sonra 144-cü ayədə buyurulur:

*Üzünü Məscidi-harama (Kəbəyə) tərəf çevir!*

Nə baş vermişdi? Görünür, bir müddət Məhəmməd və ilk müsəlmanlar üzlərini Məkkəyə çevirib namaz qılmadılar. Onlar başqa müqəddəs yerə tərəf üzlərini çevirmişdilər. Əksər insanlar düşünürdülər ki, müsəlmanlar İbrahimin övladları kimi Qüds şəhərinə tərəf üzlərini çevirmişdilər. Onların Qüdsə tərəf namaz qılmalarının səbəbi İbrahim övladlarının İslamı qəbul etmələri üçün idi. Bəlkə də bu, yəhudiləri əvvəlki peyğəmbərlərlə birlikdə Məhəmmədi yeni peyğəmbər kimi qəbul etməyə inandırmaq idi.

*Yəhudilər və xristianlar bütpərəstliyin bütün növlərini tamamilə rədd edirlər. Allah birdir.*

Amma yəhudilər İslamı qəbul etmədilər və müqavimət göstərdilər. İslamın yayılması zamanı Məhəmməd müsəlmanlar üçün yeni göstərişlər verdi - namaz zamanı qibləni (namazda istiqaməti) Məkkə məscidinə tərəf dəyişdirmək. Bəzilərinə bu qəribə gəldi, sanki Allah qərar verməkdə çətinlik çəkir. Məhəmməd Məkkəyə doğru yönləndirməni, şübhə altına aldıqları üçün bu insanları axmaq adlandırdı.

Qiblə dəyişikliyi mənə müqəddəs yerlərlə bağlı başqa bir əhvalatı xatırladır. Bir dəfə uzun bir səfərdə İsa Masih Qüdsün şimalındakı Samariya bölgəsində bir quyuda su içmək üçün dayandı. Quyunun yanında oturarkən O, ən azı beş dəfə evlənmiş samariyalı bir qadınla qarşılaşdı! İsa ona dedi:

24. Tövrat, Qanunun təkrarı 6:4 (Şema)
25. İncil Mark 12:29
26. Bəzi insanların daş şəhər Peterə dönərək namaz qıldıqlarına dair sübutlar var.

*"Ey qadın, Mənə inan, artıq o zaman yetişir ki, Ataya nə bu dağda, nə də Yerusəlimdə ibadət edəcəksiniz. Siz bilmədiyinizə ibadət edirsiniz, bizsə bildiyimizə ibadət edirik, çünki xilas Yəhudilərdəndir. Amma o zaman gəlib ki, həqiqi ibadət edənlər Ataya ruhda və həqiqətdə ibadət etsin. Ata da Özünə belə ibadət edənlər axtarır."*[27]

Bütün yer üzü Allaha məxsusdur. Göylər onun taxtıdır. Tarixi yerləri bilmək yaxşıdır, amma Allah daha çox insanın qəlbində baş verənlərlə maraqlanır.

## Ramazan (Surə 2:185)

Surə 2:185-ci ayədə orucluq ayı təqdim edilir. Gəlin diqqətlə oxuyaq.

*Ramazan ayı insanlara doğru yolu göstərən və içində haqqı batildən ayırmanın açıq dəlilləri olan Quranın nazil edildiyi aydır. Sizdən kim o aya (ramazan ayına) şahid olarsa, o ayı oruc tutsun! Kim xəstə və ya səfərdə olarsa, tutmadığı günlərin sayı qədər başqa günlərdə oruc tutsun! Allah sizin üçün çətinlik istəməz. O, sizin üçün asanlıq istəyər ki, (orucun) sayını tamamlayasınız, sizi doğru yola yönəltməsinə görə Allahı uca tutasınız və bəlkə şükür edəsiniz.*

Ramazan çətin oruc günündən sonra *iftara* toplaşan qonşularım üçün bir bayramdır. "Xristianlar oruc tuturlar? "-bir dəfə müsəlman qonşum məndən soruşdu. Gözlərini iri açaraq cavab gözləyirdi. "Ən Böyük Oruc haqqında eşitmisiniz? " Soruşdum. "Bu, şeytan üzərində gücünü göstərmək üçün hər şeydən imtina edən böyük bir padşahın hekayəsidir. "

"Xeyr, hekayəni bilmirəm" deyə cavab verdi.

İncil ən böyük orucdan danışır. 40 gün və 40 gecə İsa Masih hər yeməkdən imtina etdi. İnsan orqanizmi susuz cəmi 3 və ya 4 gün yaşaya bilir, ona görə də onun nəsə içdiyini bilirik. Amma çox ac idi. İsanın zəiflədiyini görən şeytan onu sınağa çəkdi.

*"Əgər sən Allahın Oğlusansa bu daşlara əmr et ki, çörəyə dönsün. İsa ona belə cavab verdi: "İnsan yalnız çörəklə deyil, Allahın ağzından çıxan hər kəlmə ilə yaşayar."*[28]

Həmçinin yazılıb:

*"Allahını Rəbbi sınama". Sonra İblis Onu çox uca bir dağa çıxartdı və bütün padşahlıqlarını və şan-şöhrətini Ona göstərib dedi: "Əgər Sən yerə qapanıb mənə səcdə etsən, bütün bu şeyləri Sənə verəcəyəm" İsa dedi: "Rədd ol, Şeytan! Allahın Rəbbə səcdə et və yalnız Ona ibadət et".* [29]

İsa bu döyüşdə qalib gəldi və Şeytan İsanı tərk etdi.

Xristianlar oruc tuturlar? Bəli, amma xüsusi təyin olunmuş vaxtda deyil. Hər hansı bir ehtiyacımıza görə oruc tuturuq. Oruc, qidaya deyil, Allaha diqqətimizi cəmləməyə kömək edir. Bu, Rəbbi daha dərin axtarmağımız üçün ürəyimizi və bədənimizi təmizləyir. Biz həm də inanırıq ki, İsa şeytana qarşı çoxlu döyüşlərdə qalib gəlib və qələbəsini bizimlə bölüşür. Oruc tutmaq yaxşıdır, lakin İsanın 40 günlük böyük orucu zamanı səhrada olan qələbəsi daha yaxşıdır. O, bununla mükəmməlliyini sübut etdi.

27. İncil, Yəhya 4:21-23
28. İncil, Matta 4:4
29. İncil, Matta 4:10

## Həcc (Surə 2:196-203)

Quran 196-203-cü ayələrdə müsəlmanlara həcc haqqında əmr verir. Tarix göstərir ki, Məhəmmədin doğuluşundan əvvəl Məkkə əhalisi Kəbəni ziyarət edirdi. Məhəmməd İslamı Məkkəyə gətirdikdən sonra, müsəlmanlar Həcc ziyarətini davam etdilər amma bütpərəstliyin aspektlərini aradan qaldırmaq üçün onu bir az dəyişdirdilər. Meteorit Kəbədə qaldı və insanlar dua edib dərin düşünmək üçün oraya gəlməyə davam etdilər.

196-cü ayə Məkkə yaxınlığında yaşayan müsəlmanlara bəzi göstərişlər verir.

*Allah üçün həcc və ümrəni tam yerinə yetirin. Əgər sizin qarşınızı kəssələr, müyəssər olan bir qurbanlıq verin. Qurbanlıq öz yerinə çatana qədər başınızı qırxmayın. Sizlərdən xəstələnən və ya başındakı xəstəlikdən əziyyət çəkən varsa, fidyə olaraq ya oruc tutmalı, ya sədəqə verməli, ya da qurban kəsməlidir. Əmin-amanlıq içində olduğunuz təqdirdə ümrəni bitirib həccə qədər qadağan olunanlardan istifadə edən kəs asan başa gələn bir qurbanlıq verməlidir. Qurbanlıq tapmayanlar isə həcc əsnasında üç gün və vətəninə qayıtdıqda isə yeddi gün oruc tutmalıdır. Bu da tam on gün edir. Bu, ailəsi Məscidulharamda yaşamayanlara aiddir. Allahdan qorxun və bilin ki, Allah şiddətli cəza verəndir.*

Tövrat və İncilə nəzər saldıqda görürük ki, İbrahim övladları hər il Çadır bayramı üçün Qüdsə ziyarətə gedirmişlər. Bütün yəhudi kişiləri ailələri ilə birlikdə onda bir hissələrini, qurban gətirmək və Misirdəki köləlikdən qurtuluşlarını qeyd etmək üçün Qüdsə gedirdilər.

İsa əl-Masih də on iki yaşında ikən valideynləri ilə birlikdə Qüdsə səyahət etdi və orada məbədin kahinləri ilə Tövratı müzakirə edərək vaxt keçirdi. İsanı dinləyən hər kəs Onun cavablarına mat qalırdı. Valideynləri evə qayıdarkən İsanın yanlarında olmadığını anladılar və Qüdsə qayıdıb onu tapdılar. Valideynləri təəccüblənərək Onu sorğu-sual etdilər, İsa cavabında onlara dedi:"Məni nə üçün axtarırdınız? Məgər bilmirdiniz ki, Mən atamın evində olmalıyam?"[30]

## Təmizlik (Surə 2:222)

2:222-ci ayədə paklıq, xüsusilə də ər-arvad münasibətləri haqqındadır. İslamda paklıq çox önəmlidir.

*"Şübhəsiz ki, Allah çox tövbə edənləri və təmizlənənləri sevir."*

Musanın dövrünə nəzər salsaq, şəxsi və ictimai təmizliklə bağlı çoxlu qanunlara rast gəlirik.

Din adamları əllərin yuyulması, xəstələrin sağlamlığı, ölüləri düzgün dəfn etməyi öyrədirdilər. Təmizlik sağlamlıq üçün faydalıdır, lakin İsa Məsihin dövründə din adamları qanunları pozan hər kəsi mühakimə edirdilər.

"Haram!"-deyə qışqıraraq insanların ürəyinə qorxu salardılar. Onlar təkcə Tövrat qanunlarını tətbiq etməklə kifayətlənmirdilər, həm də öz qanun və ənənələrini yaradırdılar. Əgər kimsə onların qanunlarına əməl etmirdisə, din adamları, onları hər kəsin içində utandırır və hədələyirdilər. Dini qanunlar insanların üzərinə qorxu yükü qoyurdu. İsa din adamlarının ikiüzlülüyünü görüb dedi:

30. İncil, Luka 2:49

*“Vay halınıza, ey ilahiyyatçılar və fariseylər-ikiüzlülər! Çünki siz ağardılmış məqbərələrə bənzəyirsiniz; onların bayır tərəfi gözəl görünür, daxili isə ölü sümükləri və hər cür murdarlıqla doludur. Siz də zahirən insanlara saleh görünürsünüz, daxilən isə ikiüzlülük və qanunsuzluqla dolusunuz.”*[31]

İsa onların qəlblərini gördüyü üçün bilirdi ki, din adamları bütün qanunlarının işığında təmiz görünürlər, lakin onların qəlbləri Allahdan uzaqdır. Hansı daha asandır; bədəni çirkdən təmizləmək, yoxsa qəlbi günahdan təmizləməkmi?

## Boşanma və evlilik (Surə 2: 221-241)

Surə 2:221-241-ci ayələrdə boşanma və yenidən evlənmə ilə bağlı ətraflı qaydalar var. Məsələn, 230-cu ayədə belə deyilir: Əgər onu (üçüncü dəfə) boşasa, daha sonra (həmin qadın) başqa birinə ərə gedənə qədər ona halal olmaz. (İkinci əri) onu boşayarsa və əgər Allahın hüdudlarında qala biləcəklərinə inanırlarsa, (ilk əri ilə) evlənməsində günah yoxdur. Bunlar anlayanlar üçün Allahın bəyan etdiyi hüdudlardır (hökmlərdir).

Quran boşanmanı dəstəkləmir amma boşanma baş verərsə, buna icazə verir və boşanmada qadının müdafiəsini təmin edir. 233-cü ayədə deyilir ki, müsəlman kişi uşaqlı qadını boşayarsa “yemək və paltar”la təmin etmək məcburiyyətindədir, yəni bir qadını uşağı olandan sonra boşayarsa, dəstəyi olmadan onu evdən qova bilməz. Mələki peyğəmbər isə boşanma haqqında sərt şəkildə danışır.

*İsrailin Allahı Rəbb belə deyir “Mən nikahını pozub qəddarlığa bürünən adama nifrət edirəm. Buna görə də özünüzü gözləyin və xəyanət etməyin” Ordular Rəbbi deyir.* [32]

Dini xadimlər İsanı sınamaq üçün Allahın boşanmağa icazə verib-vermədiyini soruşdular. İsa cavab verdi:

*Oxumamısınız ki, Yaradan başlanğıcdan “onları kişi və qadın olaraq yaratdı” və dedi: “Buna görə də kişi ata-anasını tərk edib arvadına qovuşacaq və ikisi bir bədən olacaq”? Artıq onlar iki deyil, bir bədəndir. Buna görə də qoy Allahın birləşdirdiyini insan ayırmasın.* [33]

## Dində məcburiyyət yoxdur (Surə 2:256)

“İslam sülh dinidir” - deyərək dostum gülümsədi. Onun bu sözləri mənə qeyri-səmimi gəldi. O özü sülhpərvər və səmimi insan idi. O əlavə etdi: “Quran buyurur: Dində məcburiyyət (zorakılıq) yoxdur. Doğruluq (iman) azğınlıqdan (küfrdən) ayırd edilmişdir.

*"Bunu mənimlə bölüşdüyün üçün təşəkkür edirəm" deyə cavab verdim. Ayə 2:256 müsəlmanlar tərəfindən Qurandan ən çox sitat gətirilən üç hissədən biridir, ona görə də mən bunu dəfələrlə eşitmişəm. Allaha iman əslində ürəyin işidir. Bu ayəni sadə bir hekayə ilə təsvir etmək olar. Bir gün ana balaca oğluna dedi ki, otursun və şam yeməyi gözləsin. Balaca oğlan dəcəl idi və tabe olmaq istəmirdi. Ana yenə ondan oturmağını xahiş etdi. Uşaq yenə dəcəllik edərək anasının sözünə qulaq asmadı. Ana ona itaət etmədiyi təqdirdə döyəcəyini bildirdi. Nəhayət, oğlan oturdu, amma dedi: " Bəlkə kənardan oturmuş görünə bilərəm, amma daxildə hələ də ayaq üstəyəm".*

31. İncil, Matta 23:27-28
32. Peyğəmbərlər . Mələki 2:16
33. İncil, Matta 19:4-6

> *Həqiqəti axtarmaq demək-öyrənmək, şübhə etmək, sual vermək, dinləmək və müşahidə etməkdir.*

Bu hekayə kimi, əsl iman məcburi olmaz. 100 dollara kimsə imanını dəyişər? Və yaxud nəyəsə görə imanını kim dəyişər? Alınıb satıla bilən iman həqiqi iman deyil. Əsl iman nəyin bahasına olursa olsun yalana inanmaqdan imtina edir. O, həqiqətə əmindir. İnsanlar öz inanclarını dəyişmək üçün hər hansı bir fikirlə inandırıla bilər, lakin onları təhdid etmək və ya imanlarını pulla satın almaq olmaz.

"Həqiqət" nə deməkdir? Həqiqi fikir reallığa uyğundur. Bəs biz həqiqəti necə kəşf edirik? 256-cı ayədə deyir ki, haqqı zülmətdən ayırmaq asandır. Lakin bəzən asan olur, bəzən isə yox.

Başqa bir hekayə bunu anlamağa kömək edə bilər. Təyyarə pilotları kabinlərindəki alətlərdən çox asılıdırlar. Cihazlardan biri hündürlük göstəricisidir. O, pilota təyyarənin yerlə olan məsafəsini göstərir. Təyyarə tərs çevrilərsə, pilot hələ də normal uçduğunu zənn edə bilər. Amma mövqe göstəricisi səhv etmir və bu, təyyarənin həqiqətən tərs uçduğunu göstərir. Pilot cihazlarına etibar etməlidir. Etməsə, ölə bilər.

Uzun illər əvvəl bir pilot dağ silsiləsi yaxınlığında uçarkən istiqamətini itirdi. Cihazlar təyyarənin düz dağın yamacı istiqamətində uçduğunu göstərdi, lakin hissləri onu aldatdı ki, o, göyə uçur.
Təəssüf ki, o, mövqe göstəricisinə deyil, öz hisslərinə inandı. Təyyarə dağın kənarına çırpıldı və o, dərhal öldü.

Həqiqətin səhvdən asanlıqla fərqləndiyi vəziyyətləri yəqin ki, hamımız xatırlaya bilərik. Biz yaxın dostlarımızı tanıyırıq və saxtakarı da dərhal tanıyırıq. Amma bəzən nəyin doğru, nəyin yanlış olduğunu anlamaq çətindir. Biz hamımız həmfikirik ki, dində məcburiyyət olmamalıdır. Bəs həqiqəti necə tapa bilərik? İsa deyir:

*“Diləyin, sizə veriləcək; axtarın və tapacaqsınız, qapını döyün və o sizə açılacaq.”*[34]

Qəzaya uğrayan pilotu xatırlayın. O, idarəetmə qülləsinə zəng edib onları dinləyə bilərdi. Cihazlarını yoxlayaraq həqiqəti tapa bilərdi. Lakin o, təşvişə düşüb özünü itirdi. O, cihazlar əvəzinə hisslərinə güvəndi.

Həqiqəti axtarmaq-öyrənmək, sual vermək, soruşmaq, dinləmək və müşahidə etmək deməkdir. Mənim Quran səhifələrində addım-addım getməyimin səbəblərindən biri də budur. Mən həqiqəti bilmək istəyirəm.

## Diriliş (Surə 2:259)

Quran Allahın ölüləri diriltdən qüdrətini təsdiqləyir.

Və ya damları uçulub xarabalığa çevrilmiş bir kəndin yanından keçən kimsənin hekayətini bilmirsənmi? O demişdi: “Allah bu kəndi ölümündən sonra necə dirildəcək?” Allah onu öldürüb yüz il saxladı, sonra da diriltdi.

Qiyamət mövzusuna Quranda daha çox rast gəlinir. Tövrat, Peyğəmbərlər kitabında və İncildə də əsas mövzudur. Təbiət aləmində ölülərdən dirilmə fiziki cəhətdən mümkün deyil. Ölüm insana çatan kimi, bu sondur. Lakin, Allahın ölüləri dirildəcəyinə dair bir ümid işığı var. O, mümkün olmayanı edir. İnsanlar üçün qeyri-mümkün olan Allah üçün mümkündür.

34. İncil, Matta 7:7

## Xeyirxah əməllər və günahlar (Surə 2:271)

İnsan vəziyyətinə daim zəiflik və günah daxildir. Kim günah və utancla mübarizə aparmır? Surə 2:271-ci ayədə deyilir:

Sədəqələri aşkarda verirsinizsə, bu çox gözəl. Əgər onu yoxsullara gizlində versəniz, bu sizin üçün daha yaxşı olar. Allah sizin bəzi günahlarınızdan keçər. Allah nə etdiklərinizdən xəbərdardır.

Bu ayə mənim diqqətimi iki şeyə cəlb edir. Birincisi, ayə başqalarının razı salmaq üçün yaxşı işlər görməkdən çəkindirir. İsa da buna çox bənzər bir şey söylədi.

*“Ehtiyatlı olun, siz saleh iş görəndə bunu insanların önündə, onlara göstərmək üçün etməyin. Yoxsa göylərdə olan Atanızdan mükafat almazsınız. Ona görə də sədəqə verdiyin zaman önündə şeypur səsi ilə car çəkmə. Çünki adamlar onları izzətləndirsin deyə ikiüzlülər sinaqoqda və küçələrdə belə edirlər. Sizə doğrusunu deyirəm: onlar mükafatlarını alıblar. Amma sən sədəqə verdiyin zaman sol əlin sağ əlinin nə etdiyini bilməsin. Belə ki verdiyin sədəqə gizli qalsın. Gizlində olanı görən atan səni mükafatlandıracaq.”*[35]

> *Bədəni çirkdən təmizləmək, yoxsa qəlbi günahdan təmizləmək daha asandır?*

İkincisi, Quran vəd edir ki, yaxşı əməllər bəzi günahları aradan qaldıra bilər. Bir xristian kimi mənə bu xüsusilə maraqlı gəlir. Xoş xəbər mənasını verən İncil haqqında mənim bütün anlayışım ondan ibarətdir ki, Allah günahlarımızı aradan qaldırmaq üçün yol açmışdır.

Surə 2:271-ci ayədə deyildiyi kimi əgər sədəqə pisliyin “bir hissəsini” aradan qaldırırsa, o zaman sual yaranır: bəs biz pisliklərimizin və günahlarımızın qalan hissəsini necə aradan qaldıra bilərik? Əgər oğru qonşusunun fermasını oğurlayıb, sonra da bir inəyi yetimə bağışlayarsa, bu, onun günahına ədalətli qiymətdirmi? BÜTÜN pisliklərimizin ləkəsini tamamilə silmək üçün biz nə etməliyik?

## Tamahkarlıq (Surə 2:275)

Quran bir çox ayədə puldan bəhs edir. Pulla bağlı göstərişlər İslam şəriətinə riayət etməyə kömək edir

“Allah ticarəti halal, sələmi isə haram saymışdır”. Bəzi müsəlman yazıçıları etiraf edirlər ki, müasir dünyada sələmçilik (faiz) beynəlxalq bankçılığın əsasına çevrilib. Kredit kartları, ev kreditləri, avtomobil kreditləri, məktəb kreditləri və digər kreditlər vasitəsilə pul faizlə verilir. İnsanlar borc götürdüklərindən qat-qat çox pul qaytarılmalı olurlar. Bu sistem bütün dünyada geniş şəkildə işlənib hazırlanmış və tətbiq edilmişdir.

Qurana istinad edərək, bir çox müsəlman bank işlərindən imtina edir. Bəzi müsəlman ölkələrində başqa sistemlər işlənib hazırlanıb ki, ev, avtomobil, biznes və digər ehtiyaclar almaq üçün pul borc alınsın, lakin ödəniş planına faiz daxil edilməsin. Məsələn, bir bank borc verirsə, açılan biznesin ortaq sahibi olur və qazancın bir hissəsini özünə götürür.

Tövrat, Peyğəmbərlərin kitabı və İncil faiz haqqında çox az söz deyir. Allah tamahkarlığı günah adlandırır və səxavəti sevir.

35. İncil, Matta 6:1 – 4

## Ruhani mükafat (Surə 2:281)

Allah ruhani mükafat verirmi? Surə 2:281-də deyilir:

*Allahın hüzuruna qaytarılacağınız gündən qorxun! Sonra hər kəsə qazandığının əvəzi büsbütün veriləcək və onlara zülm olunmayacaqdır.*

Ruhani mükafat məsələsi həmişə insan təbiətində dərin kök salmışdır. İnsanlar təbiətlərinə görə yaxşı və ya pis, yoxsa heç biri deyillər? Yaxşı insanlar nə üçün pis işlər görürlər? Və niyə pis insanlar nə üçün yaxşı işlər görürlər? İnsanlar nə vaxtsa etdikləri pisliyin əvəzini çıxmaq üçün kifayət qədər ruhani savab işləyə bilərlərmi? İnsanlar həm yaxşı həm də şərin mürəkkəb ziddiyyətli qarışığıdır.

*Sonra Allah dedi: "Öz surətimizə və bənzərimizə görə insanı yaradaq. Qoy o, dənizdəki heyvanlara, göydəki quşlara, yerdəki heyvanlara, bütün yer üzünə və yerdə sürünən canlıların hamısına hökmranlıq etsin.* [36]

Allah sevgi dolu və mehriban olduğu kimi, insanlar da mehriban və sevgi dolu ola bilərlər. Allah pislik etmir, bəs insanlar bunu niyə edir? İncil deyir:

*"Çünki hamı günah edib, Allahın izzətindən məhrum olub."*[37]

Simləri qırılan gitara kimi, biz də əsl saf sevgi mahnısını ifa etmək qabiliyyətini itirmişik.

*Simləri qırılan gitara kimi, biz əsl saf sevgi mahnısını ifa etmək qabiliyyətini itirmişik.*

Nəticə nədir? Biz ruhani mükafat qazanırıq:

*"Çünki günahın əvəzi ölümdür."*[38]

Ölümün qarşısını almaq üçün bir yol varmı? Bəli var. Yeganə ümidimiz Allahın günahlarımızı bağışlamasıdır, 2:286-cı ayədə deyildiyi kimi:

*"Bizi əfv et, bizi bağışla və bizə rəhm et! Yaxşı əməllərimiz yetərli deyilsə, Allaha bizim günahlarımızı silmək üçün nə lazımdır?"*

# 3-cü fəsil | Surə 3: Əl-İmran

Rəhman və Rəhim olan Allahın adı ilə

## Kitablar və mənaları (Surə 3:7)

Quranın ən uzun surəsi olan 2-ci surəyə səyahətimizi tamamladıq. 3-cü surədə demək olar ki, uzundur. Mən uzun illər Tövrat, Peyğəmbərlər kitabını və İncili öyrənmiş xristianam. Mən onları bir çox dillərdə, o cümlədən orijinal ivrit, yunan və aramey dillərində öyrənmişəm. İlk müsəlman kollec dostumla söhbət etdikdən sonra bir çox müsəlmanlarla söhbət etdim.

36. Tövrat, Yaradılış 1:26
37. İncil, Romalılara 3:23
38. İncil, Romalılara 6:23

Həm də mən uzun illər Quranı öyrənmişəm, amma bu dəfə ayə-ayə öyrəndiyim üçün düşüncələrimi yazmaq qərarına gəldim. Ərəb xalqlarından fərqli olaraq, mən uşaqlıqda ərəbcə oxumaq, danışmaq öyrənmək imtiyazına malik olmamışam. Bununla belə, Quranın nəzərdə tutulan mənasına mümkün qədər yaxınlaşmağa çalışıram.

Surə 3:7-ci ayə Quranda iki növ ayəni təsvir edir:

*"Sənə Kitabı (Quranı) nazil edən Odur. Onun bir hissəsi möhkəm (mənası aydın olan) ayələrdir. Onlar Kitabın əsasıdır. Digər qismi isə mütəşabeh (mənası dəqiq bilinməyən) ayələrdir."*

Mənası aydın olan ilə mənası dəqiq bilinməyən arasındakı fərqi necə bilirik? Əslində, Quranın özü tez-tez ayənin məcazi olduğunu bildirir. 7-ci ayə belə davam edir:

*"Ağıl sahiblərindən başqası (bunu) dərk etməz." Ruhani anlayış haradan gəlir? Allahdan deyilmi?*

## Cəhənnəm və cəza (Surə 3:10)

Quranda İslamı inkar edən insanlar üçün Allahın cəzası açıq şəkildə təsvir edilmişdir. 10-cu ayədə deyilir:

*"Şübhəsiz ki, kafirlərə nə malları, nə də övladları Allahın hüzurunda bir fayda verəcək. Onlar cəhənnəmin yanacağıdırlar."*

*El Nar ya da Cəhənnəm* odu Quranda 145 dəfə xatırlanır. Digər hallarda Quran belə terminlərdən istifadə edir.

*Cəhənnəm, Səqər, Səir, Ləza və Əl-Haviya.*

İncildə Cəhənnəm Allaha qarşı üsyan edib ölənlərin hamısını gözləyən əzab yeridir. İbranicə Cəhənnəm Qüds yaxınlığındakı zibillik kimi istifadə edilən dərin dərə idi. Bu dərədə yanğınlar heç vaxt səngimirdi. Bu, itki və məhv yeri idi.

Allah insanları niyə cəhənnəmə göndərir? Ora kimlər gedəcək? Həqiqətən ora necə olacaq? Tövrat, Peyğəmbərlər kitabı, İncil və Quran bu mövzular haqqında yazır. Cavablar sizin üçün kritik olmalıdır.

## Ruhani yoxsa fiziki sərvət? (Surə 3:14)

Quran insanları nəyin daha yaxşı olduğunu düşünməyə təşviq edir: Ruhani yoxsa fiziki sərvət?

Qadınlara, uşaqlara, qızıl-gümüş yığınlarına, yaxşı cins atlara, malqaraya və əkin sahələrinə qarşı nəfsani istəklər insanlara gözəl göstərilmişdir. Bunlar dünya həyatının (müvəqqəti) mənfəətləridir. Ən gözəl dönüş yeri Allah dərgahındadır.

Bu ürək məsələsidir. İnsanın ürəyi Allahda yoxsa dünya ləzzətlərində sevinc tapır?

Qədim zamanlarda çox zəngin bir adamın münbit torpağı var idi. Onun tarlaları hamıdan çox məhsul verirdi, bu da onu ildən-ilə zənginləşdirirdi. Bir gözəl axşam eyvanında dayanıb zeytun ağacları, meyvə bağları, buğda tarlaları olan təpələrə baxaraq öz-özünə dedi:

*"Təəccüblüdür ki, bütün bu zəngin məhsulu saxlamaq üçün yerim azdır. Belə edərəm: bütün məhsullarımı və sərvətimi saxlamaq üçün anbarlarımı söküb daha böyük bir anbar tikəcəyəm. Bəli, bütün bu illərdən sonra mən oturub gələcək illər üçün sərvətimdən həzz almağa layiqəm. Əylənəcəyəm, dincələcəyəm, yeyəcəyəm, içəcəyəm və həyatdan həzz alacağam".*

*Amma Allah ona dedi: "Ay axmaq, bu gecə canını səndən alacaqlar. Bəs hazırladığın kimə qalacaq? Özü üçün xəzinə toplayan, amma Allahın önündə varlı olmayan hər bir insanın axırı belə olacaq"*[39]

Davud belə deyir:

*Rəbb qorxusu safdır, əbədi yaşayır,*
*Rəbbin hökmləri haqdır, hamısı ədalətlidir.*
*Onlar qızıldan, bol miqdarda olan saf qızıldan da çox sevilir,*
*Onlar baldan, şanı balından da şirindir.* [40]

Qızıl pisdir? Xeyr, lakin Allahın sözləri daha qiymətlidir. Sərvət sahibi olmaq günahdırmı? Xeyr, amma ibadət etmək daha yaxşıdır. Bəzən Allah insanı maddi şeylərlə zənginləşdirir ki, o da malını ehtiyacı olan insanlarla bölüşə bilsin. Ancaq ürəyini var-dövlətə bağlayan hər kəs əbədi olaraq məyus olacaq.

## Din və dostluq (Surə 3:28)

Kitab əhli (kitablar) Quranda tanış bir mövzudur. Məhəmməd yəhudilərin və xristianların İslamı qəbul etmələrini arzuladığını dəfələrlə ifadə etdi. İstədi ki, onu İbrahim, Musa və Davud kimi xüsusi elçi kateqoriyasına qəbul etsinlər. Quran köhnə peyğəmbərlərin kitablarını təsdiqlədiyini iddia edir. O, Tövrata, Peyğəmbərlərin kitabına və İncilə böyük hörmət bəslədiyini bildirir.

Mən Quranda ondan əvvəl gələn Kitabların təhrif olunduğunu deyən bir ayə tapmadım. Bəlkə mənə səhv başa düşülür, bəs bu kitablar pozulub, təhrif olunub? Yox.

Ərəblər öz dinlərində qalan yəhudi və xristianları tanıyırdılar. Bu yaxşı idi yoxsa pis? Həqiqətən iman gətirən və Allaha itaət edən yəhudi və ya xristian mükafat ala bilərmi? Yəhudilər və Xristianlar müsəlmanlara yaxşı təsir edirmi? Bir müsəlmanın qeyri-müsəlmanlarla münasibəti necə olmalıdır? Surə 3:28-ci ayədə deyilir:

*"Möminlər, möminləri qoyub kafirləri dost tutmasınlar! Kim bunu edərsə, Allah yanında onun heç bir dəyəri qalmaz. Ancaq onlardan gələcək bir təhlükədən çəkinməniz istisnadır. Allah sizi Özündən (əzabından) çəkindirir. Axır dönüş Allahadır"*

Daha sonra 5-ci surədə müsəlmanları yəhudi və xristianlarla yaxın münasibətdən çəkinmələri barədə açıq şəkildə xəbərdarlıq edən bənzər bir ayə ilə rastlaşırıq.

Dostluqlar müxtəlifdir: gündəlik, iş, əyləncə, güclü və yaxın. Surə 3:28-ci ayədə müxtəlif dostluqlar arasında fərq qoyulmur. Bəzi müsəlmanlar yalnız başqa müsəlmanların həqiqi və səmimi dost ola biləcəyinə inanırlar. Bu müəyyən mənа kəsb edir. Köhnə bir atalar sözü deyir ki, "Bənzər bənzərini cəlb edir". İnsanlar ortaq cəhətləri olan insanlara meyl edirlər.

39. İncil, Luka 12:17-21
40. Zəbur 19:9-10

İsa Məsihin dövründə İbrahimin övladları samariyalıları başqa din və millətdən olduqları üçün onları kafir hesab edib, onlarla dostluq etməkdən imtina edirdilər. Onlara yuxarıdan aşağı baxırdılar. Lakin Allahın xalqlar arasında dostluğun olması üçün başqa bir planı var idi.

*Bir nəfər Yerusəlimdən Yerixoya gedən yolda quldurların əlinə düşdü. Quldurlar onu soyundurub döydülər və yarımcan halda qoyub getdilər. Təsadüfən həmin yoldan bir kahin enirdi. Bu adamı görən kimi yolun o biri tərəfi ilə keçib getdi. Bir levili də ora yaxınlaşıb o adamı görəndə yolun o biri tərəfi ilə keçib getdi. O yolla gedən bir Samariyalı isə bu adamı görəndə ona rəhmi gəldi. Ona yaxınlaşdı və zeytun yağı ilə şərab tökərək yaralarını sarıdı. Sonra bu adamı öz heyvanına mindirib mehmanxanaya gətirdi və ona qayğı göstərdi. Ertəsi gün o, iki dinar çıxarıb mehmanxana sahibinə verərək dedi: "Əgər bundan da çox xərcin çıxsa, mən geri qayıdanda sənə verərəm."*[41]

Bu barədə düşünün. İsa bu əhvalatı İbrahimin övladlarına danışdı. Onlar özlərini kafir samariyalılardan daha saleh və yüksək hesab edirdilər. Amma bu hekayənin qəhrəmanı onların xor gördükləri adam idi.

İsa camaata tərəf dönüb soruşdu: "Səncə bu üç nəfərdən hansı quldurların əlinə düşən adamın qonşusu idi? Qanunşünas cavab verdi: "Ona mərhəmət göstərən" İsa da ona dedi: "Get, sən də elə et"

## Pisliyin yurdu (Surə 3:30)

Quran yenə də dərin və universal bir insan dilemmasına toxunur. Pisliyin yurdu. Tövrat, Peyğəmbərlər kitabı və İncil kimi Quran da qiyamətin gələcəyini öyrədir.

"Hər kəsin etdiy*i yaxşı əməlləri və pis əməlləri, qarşısında hazır bir vəziyyətdə görəcəyi o gün (qiyamət günü insan), onunla (günahları ilə) özü arasında uzaq məsafə olmasını arzulayacaqdır."*

Burada əsas söz "hər kəs"dir. Heç bir kəs tamamilə günahsız deyil. Hər kəs Allahın surətində yaradılıb, rmərhəmət etməyə, dua etməyə, Allaha, mələklərə, peyğəmbərlərə və qiyamət gününə iman gətirsələr də, daxillərini pislik korlayıb. İnsanın daxili ağrıyacaq və pislikdən ayrılmağa çalışacaq. Amma bunu necə edəcək? Bu, müqəddəs kitabların qaldırdığı böyük sualdır. Pisliyi aradan qaldıracaq qədər güclü nədir?

Quran növbəti ayədə sualın cavabını verir.

*"Əgər Allahı sevirsinizsə, mənə tabe olun ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın. Allah bağışlayandır, mərhəmətlidir".*

Özümə iki sual verirəm: Allahı, məni bağışlayacaq qədər sevə bilərəmmi? İkincisi, əgər mənim günahım ölüm cəzasına layiqdirsə, Allah mənim yerimə kimi cəzalandıracaq? Əgər mənim günahımı bağışlasa, mənim ruhani borcumu özü çəkəcək?

Bu sualları sadə bir hekayə ilə təsvir edək. Bir gün böyük bir padşah öz ordusunu döyüşə göndərir. Həmin gün axşam saatlarında onun mühafizəçiləri yerli əsgərin gizli şəkildə döyüş meydanından qaçdığını görürlər. O, şahzadənin qalxançısı idi. Onu yaxalayanda acı göz yaşları ilə ağlaya-ağlaya mərhəmətli padşahdan üzr istəyir, onu bağışlamasını diləyir.

41. İncil, Luka 10:30-36

Padşah mərhəmət göstərir və kəndlini bağışlayır. Lakin həmin gün döyüşdə padşahın oğlu düşmən oxu ilə vurularaq öldürülür. Əgər kəndli şahzadənin qalxançısı kimi döyüşdə olsaydı, onu xilas edə bilərdi. Padşah adamı bağışlayır amma müəyyən mənada cəzanı özü çəkir. Öz oğlunu itirir. Bağışlamaq o zaman mümkündür ki, kimsə bunun əvəzini ödəsin.

## Quranda İsa (Surə 3:33-59)

Bir çox müəlliflər Qurandakı İsa Məsih haqqında kitablar yazıblar. Müsəlman dostlarım həmişə deyirlər: "Biz İsanı sevirik və hörmət edirik. Əks halda biz yaxşı müsəlman olmazdıq". Bir çox surələrdə doğuluşu, həyatı və hətta ölümü haqqında danışılır. 33-59-cu ayələr bizə bənzərsiz bir insanı göstərir. O, fiziki atası olmadan dünyaya gələn yeganə insandır.

المسيح
*Əl-Məsih*

Yəhudilər, xristianlar və müsəlmanlar 1400 ildir İsa Məsihin kimliyi ilə bağlı mübahisə edirlər. Bir çox ənənəvi yəhudilər Onu Məsih olaraq inkar etdilər. Onu iblis qüvvələrin köməyi ilə möcüzələr yaratmaqda ittiham etdilər. Onu yalançı peyğəmbər kimi mühakimə etdilər. Onu yalançı və kafir adlandırdılar. Din adamları izdihamı İsaya qarşı döndərərək Roma hökumətindən onu çarmıxa çəkməyini tələb etdilər. Çünki Roma qanunları İbrahimin övladlarına kimisə edam etməyi qadağan edirdi. İsrailin yüz illər boyu qüdrətli Roma İmperiyasının boyunduruğu altında olduğunu unutmamaq lazımdır.

İbrahimin bütün övladları İsanı Məsihi rədd etmədi. Onun ən yaxın ardıcılları İbrahimin qəbiləsindən olan adi kişi və qadınlar idi. Anası Məryəm, qardaş və bacıları yəhudi idi. İncil deyir ki, Qüdsdən olan minlərlə yəhudi sonda onun sadiq ardıcılına çevrildi.

Beş vacib məqama nəzər salmaqla 3-cü surəni daha yaxşı başa düşə bilərik.

1. Məryəmin çağırışı
2. Bakirədən Möcüzəvi doğum
3. İsa Məsihin yetkinlik xidməti
4. İsa Məsihə qarşı sui-qəsd
5. Adəm ilə İsa Məsih

*Əgər mənim günahım ölüm cəzasına layiqdirsə, Allah mənim yerimə kimi cəzalandıracaq? Əgər günahımı bağışlasa, mənim ruhani və əxlaqi borcumu Özümü aradan qaldıracaq?*

Məryəmin çağırışı, Allahın dualara cavab verməsi, doğru yola yönəltməsi, təmin etməsi və qoruması haqqında gözəl bir hekayədir. Məryəm nə qədər xüsusidir? 3:42-ci ayədə deyilir:

*"Bir zamanlar mələklər demişdi: "Ey Məryəm! Həqiqətən, Allah səni seçib tər-təmiz etdi və aləmlərin (insanların) qadınlarından üstün tutdu."*

Nə böyük şərəfdir! O, yaradılan ilk qadın olan Həvvadan belə üstün idi. O, İbrahimin anasından üstün idi. O, İbrahimin arvadı və İshaqın anası Saradan üstün idi. O, İsmayılın anası Həcərdən üstün idi. O, Davud padşahın anasından və bütün xalqların qadınlarından üstün idi. Məryəm niyə bu qədər yüksək qiymətləndirilib? Tarixin ən saleh qadını idi, yoxsa Allaha ən yaxın qadın idi?

Xeyr. Məryəm Adəm və Həvvanın bütün övladları kimi insan idi. Məryəmə bu qədər böyük hörmət göstərilməsinin səbəbi ən şərəfli iş üçün seçilməsi idi. 3:45-ci ayədə deyilir:

*"O vaxt mələklər demişdilər: "Ey Məryəm! Həqiqətən, Allah sənə, Öz tərəfindən bir kəlməni müjdələyir. Onun adı Məryəm oğlu İsa Məsihdir. Dünyada və axirətdə şanı uca və Allahın Özünə yaxın tutduğu kimsələrdəndir. ("Məsih" İbrani (İvrit) dilində "müqəddəs" mənasına gəlir və Həzrət İsanın ləqəbidir.)"*

Məryəmin Məsihi dünyaya gətirmək missiyası-ən şərəfli idi? Bakirə doğuş bir möcüzə idi, lakin bundan əlavə, Məryəm Səmavi İnsan üçün yer üzünə açılan qapı idi.

Fiziki dünyamızda bir çox unikal maddələr tapırıq. Torpaq, su, külək və od. Oddan od çıxır. Torpaqdan torpaq. Külək küləyi yaradır. Su suyu doğur.

Allah ruhdur. Onun varlığı Ruhdur. Allahdan bir şey gəlirmi? Təbii ki, bunların hamısı dərin sirlərdir. Amma sirr dərindir deyə Allah bizim qaranlıqda qalmağımızı istəyər? İşığı izah etmək çətindir, lakin biz onu gecə boyu yolumuzu tapmaq üçün istifadə etməkdən çəkinmirik. Əlbəttə, Allah özünü tam olaraq anlayır və görür. O, özündən xəbərdardır və Allahdan heç bir şey gizli deyil.

Surə 3:5 deyir:

*Şübhəsiz ki, göydə və yerdə olan heç bir şey Allahdan gizli qalmaz.*

Kainatın Allah olmadığı kimi Allah da kainat deyil. Surə 3:2-ci ayədə deyilir: "Allahdan başqa heç bir ilah yoxdur! O, daima diridir, bütün məxluqatı idarə edəndir."

Yəhudilər və xristianlar kimi mən də bu ayə ilə həmfikirəm. Allahın başlanğıcı və sonu yoxdur. Zamanın və məkanın başlanğıcı var, Allah diləsə, bir gün bitəcək. Torpaq, su, külək və od Allah tərəfindən yaradılmışdır. İncil deyir:

*"Onlar qəsdən unutmuşlar ki, Allahın kəlamı ilə göylər qədimdən bəri mövcuddur, quru da sudan ayrılaraq su vasitəsi ilə yarandı."*[42]

Tövratın ilk sözləri belədir:

*"Başlanğıcda Allah göyləri və yeri yaratdı."*[43]

*İsa Məsihi hərəkətə gətirən məhəbbət idi.*

Kainat, Allahın bir parçası deyildir. Allah tərəfindən yaradılmışdır və başlanğıcı vardır. Kainatın varlığı Allaha bağlıdır, lakin Allah kainatdan asılı deyildir.

3:45-ci ayədə İsa Kəlimətullah (Allahın kəlamı) adlandırılır. Allahın Kəlamı yaradılıb, yoxsa Onun ruhani təbiətindən gəlir? Bu sual tez-tez iman yollarının ayrılmasına səbəb olur. Bəzi insanlar deyirlər ki, "Kəlimətullah" Allahın İsa Məsihi möcüzəvi əlamət kimi göndərməsidir. Bəziləri isə İsanın Allahdan xəbər gətirdiyi üçün "Kəlimətullah" adlandırıldığına inanırlar. 3:45-ci ayə İsa Məsihi Allahın Kəlamı adlandıran tək ayə deyil. Quran ərəblərə gəlməzdən beş yüz il əvvəl, Allah İsanın sevimli dostu və şagirdi Yəhya vasitəsi ilə belə yazmışdır:

42. İncil 2 Peter 3:5
43. Tövrat Yaradılış 1:1

*“Başlanğıcda kəlam var idi. Kəlam Allahla birlikdə idi. Kəlam Allah idi. O, başlanğıcda Allahla birlikdə idi. Hər şey Onun vasitəsi ilə yarandı və yaranan şeylərdən heç biri Onsuz yaranmadı. Həyat Onda idi və bu həyat insanların nuru idi. Nur qaranlıqda parlayır, qaranlıq isə onu bürüyə bilmədi.”*[44]

Yəhya İsa haqqında yunanca yazmışdı. Orijinal yunan dilində İsa Loqos adlanır. 14-cü ayədə Yəhya davam edir:

*“Kəlam bəşər olub, lütf və həqiqətlə dolu olaraq aramızda məskən saldı”.*[45]

Mənim müsəlman dostum əgər siz, hələ də bu kitabı oxuyursunuzsa, biz çox diqqətli və müdrik düşünməliyik. Bu Söz, Loqos, Kəlimə kimdir? Bu, bütün sirlərin ən dərinidir. Allahın şəxsi Kəlamı ondan gəlir. Kəlam Allaha o qədər yaxındır ki, Onu Ondan ayırmaq mümkün deyil. Allahın Kəlamı əbədidir, kamildir, sevgidir; o Nurdur, Həyatdır və zülmətə yenilməzdir.

Daha sonra 3:59-cu ayədə İsa Adəmlə müqayisə edilir. Allah: “Ol” dedi və İsa Məryəmin bətninə möcüzəvi şəkildə düşdü. Dünyanın əvvəlində Allah: “Ol” dedi və Adəm möcüzəvi şəkildə torpaqdan yarandı və ilk nəfəsini aldı.

Xristianlar Adəmlə İsanın çox oxşar olması ilə razılaşırlar. Əslində İncil İsanı İkinci Adəm adlandırır. Ancaq oxşarlıq eynilik demək deyil. Məsələn, Adəm torpaqdan yaradılmışdır, amma İsa milyardlarla uşağın doğulduğu kimi dünyaya gəlmişdir. Adəmin uşaqlıq dövrünün olduğundan əmin deyilik, amma İsa Məryəmin südü ilə qidalanan adi bir insan uşağı idi.

Uşaq ikən oynayıb, sonra sağlam bir gəncə çevrildi. Adəm Həvva ilə evləndi və çoxlu uşaqları oldu. İsa heç vaxt evlənmədi və uşaq atası olmadı, çünki çətin və ağrılı bir tapşırıq üçün gəlmişdi.

Bəs Adəmlə İsa necə oxşardırlar? Xristianlar inanmırlar ki, İsanın bədəni normal bir insan bədənindən fəqlidir. Adəm və onun nəslindən olan hər hansı bir insan kimi, Onun da damarlarında qan dolaşırdı. İsa və Adəm fiziki mahiyyətlərinə görə tam insan idilər.

Burada fikirlər bölünə bilər. İnsanda onun fiziki bədənindən başqa bir şey varmı? Çarlz Darvinin dövründən bəri məşhur fikir ondan ibarətdir ki, bütün canlılar, o cümlədən kişilər və qadınlar ibtidai orqanizmlərdən yavaş-yavaş təkamül keçiriblər. Ehtimal edirlər ki, meymunlar və insanlar, hörümçəklər və ispanaqların hamısı eyni qədim ulu babaların nəslindəndir. Müasir dünyada çoxları belə qənaətə gəliblər ki, insanların meduzadan və ya torpaq qurdundan heç bir fərqi olmadığından, ölümdən sonra hamımız tamamilə mövcudluğumuzu dayandıracağıq, bədənimiz isə toza çevriləcək və həmişəlik unudulacaq.

Yəhudilər, xristianlar və müsəlmanlar Allaha, axirət gününə, Cənnət və Cəhənnəmə inanırlar. Biz inanırıq ki, bədən ölüb çürüyərkən belə insan ruhu yaşayır. Bir cəsəd ölülər arasından dirildildikdə nə baş verəcəyi sualı hələ də var, lakin biz inanırıq ki, insanı insan edən yalnız kimyəvi maddələr deyil. Allahın yaratdığı canlarımız var, fiziki bədənimiz olsa da, olmasa da ruhlarımız yaşamağa davam edir.

Bədən və ruh. Bu, Bəşər Oğlu və Allahın Oğlu adlanan İsanın sirri budur. Allah “Ol” dediyi vaxt, İsanın fiziki bədəni Məryəmin bətninə düşdü, bəs ruhu haradan gəldi? Onun ruhu Adəmin ruhu kimi yaradılıb, yoxsa yaradılmayıb? İsa Kəlimətullah olaraq Allahın Özündənmi yerə gəldi? Böyük müsəlman memarı Sinan, qeyri-adi məscidləri ilə tanınır. Bu məscidlər onun ölümündən sonra yüz illərlə dayanıb. Deyə bilərik ki, hörmətli Memar Sinan öz yaradıcılığında yaşayır.

Memar Sinanın şedevrlərinin hər biri ağlından və ruhundan qaynaqlanmışdı.

44. İncil Yəhya 1:1-5
45. İncil Yəhya 1:14

Ağzından sözlər tökülməzdən və ya planlar çəkməzdən əvvəl Memar Sinan, düşünür və təsəvvür edir və fikir bildirirdi. Hekayələr danışmaq və gələcəyə planlar qurmaq bacarığı bizi insan edən əsas şeylərdən biridir.

Memar Sinan istedadlı və müdrik olsa da, sadəcə bir insan idi. Özünü (loqosunu) binalarına hörə bilməmişdi. Bu gün müasir texnologiya sayəsində elm adamları insan zehnini kompüterə köçürmək və ya daha fantastik görünən bir insan zehnini robotlara və ya başqa bir insan bədəninə köçürmək ideyasını sınaqdan keçirməyi düşünürlər. İdealist alimlər insanlara ölümsüzlük bəxş etmək haqqında fantaziyalar qururlar. Əgər insanlar bir insan ağlını (kəlimə) götürüb onu maşına, hətta başqa bir insana yükləməyi təsəvvür edə bilirlərsə, Allahın bir vaxtlar bunu etmək üçün sevgi dolu və nəcib bir məqsədi olduğunu düşünmək məntiqli deyilmi?

Dostum çay stəkanını masanın üstünə ehtiyatla qoyarkən "Mümkün deyil" dedi, "Allah niyə belə etmək istəsin? Allah əbədi olduğu üçün Özünü yeni insan bədəninə yerləşdirməyə ehtiyacı yoxdur. O, hər şeyə qadir olduğu üçün Özünü bir məxluq şəklində həkk etməyə ehtiyac duymaz. Təsəvvür etmək belə iyrəncdir. Bunu etməyə çalışarkən belə özümü natəmiz hiss edirəm. Allahın ehtiyacı yoxdur, Allah birdir."

Bu qəribə və müəmmalı sualın cavabı İncildədir.

*"Çünki, Allah dünyanı elə sevdi ki, vahid Oğlunu verdi; bunu ona görə etdi ki, Ona iman edən hər kəs həlak olmasın, amma əbədi həyata malik olsun."*[46]

Sevgi qəribə və gözəl şeylərə səbəb ola bilər. Vətən sevgisi insanları döyüş meydanlarında tənha can vermələrinə səbəb ola bilər.
Həyat yoldaşına və uşaqlarına olan sevgi, isti ev və yemək təmin etmək üçün ataları hər cür əzab-əziyyətli işə salır. Kişinin qadına olan sevgisi, özünü sübut etmək üçün okeanı, dağları keçə bilər.

İsa Məsihi hərəkətə gətirən məhəbbətin təsiri idi. İsa yer üzündə yaşayarkən nə etdi? 3:49-cu ayədə İsanın korların gözlərini açdığını, cüzamlıları sağaltdığını və ölüləri diriltdiyini görürük. Bütün bunları Allahın qüdrəti ilə edirdi. Başqa necə edə bilərdi? Qeyri-mümkünə ancaq Allah qadirdir və İsa Allahın Kəlamıdır. Allahın Kəlamı gəldiyi yerə möcüzələr və həyat gələr.

Quran 54-cü ayədə, Allahın düşmənlərinin İsaya sui-qəsd hazırladıqlarını təsdiq edir. İncil təsdiq edir ki, bu düşmənlər, Onun Roma çarmıxına çəkilməsini istəyirdilər. Ancaq bunu bacara biləcəklərmi? Onlar Allaha qarşı vuruşub necə qalib gələ bilərlər? Surə 3:55 də belə deyilir:

*O zaman Allah buyurdu:*

*"Ey İsa, həqiqətən, Mən sənin ruhunu alacağam və səni Öz dərgahıma qaldırıb kafirlərdən uzaqlaşdıracağam. Sənə tabe olanları da qiyamət gününə qədər kafirlərdən üstün tutacağam. Sonra qayıdışınız Mənədir və ixtilaf etdiyiniz şeylər barəsində aranızda hökm verəcəyəm!"*[47]

Bir gün qonşum çox həyacanlandı "İsa ölmədi" dedi. Güman edirəm ki, o 3:55-ci ayəni heç görməmişdi. "Maraqlıdır" dedim. "Quranda İsanın ölmədiyini söyləyən bir ayə varmı?"

O susdu. Mən davam etdim: "Mən 4:157-ci ayəni bilirəm, amma bu ayədə Allahın İsanı ölümdən xilas etdiyi deyilmir, sadəcə yəhudilərin onu öldürmədiyi deyilir". (إِنِّي مُتَوَفِّيكَ وَرَافِعُكَ إِلَيَّ عِيسَىٰ)

Əvvəldə qeyd etdiyim kimi, Quran təkcə İsanın doğulmasından deyil, onun ölümündən də bəhs edir. Bəzi yerlərdə belə hesab edilir ki, Allah son anda İsanı başqası ilə əvəz edərək çarmıxda ölümdən xilas edib. Bəs nə üçün burada deyilir ki, Allah İsanı öldürüb, sonra diriltdi?

46. İncil, Yəhya 3:16
47. Məhəmməd Əsəd "Quran mesajı", 1980-ci il

Bir dəfə başqa bir dostum məndən soruşdu: "İncil İsa Məsihin doğrudan da öldüyünü deyir?" "Bəli" deyə cavab verdim, "bir çox hissələrdə onun ölümü təfərrüatı ilə təsvir edilir." Birincisi, İsa çarmıxdakı ölümünü Özü bildirdi. Bir axşam o, şagirdlərinə dedi:

*"Bəşər Oğlu insan əllərinə təslim ediləcək və Onu öldürəcəklər. Öldürüldükdən üç gün sonra O diriləcək."*48.

Romalıların vəhşicəsinə edamından sonra, imperator Pilat İsanın çarmıx üzərindəki ölümünü təsdiq etmələri üçün əsgərlərinə əmr etdi.

*Pilat İsanın belə tez ölməsinə heyrət etdi və yüzbaşını yanına çağırıb soruşdu: "O çoxdanmı ölüb?"Yüzbaşıdan vəziyyəti öyrənəndən sonra cəsədi Yusifə verdi. Yusif kətan aldı, cəsədi çarmıxdan endirib kəfənə bükdü və qayada qazılmış qəbirə qoydu. O, qəbirin ağzına bir daş yuvarladı.*49

Yəhya İsanın ölüm əhvalatını belə qeyd etmişdir:

*"İsanın yanına gələndə isə Onun artıq öldüyünü görüb baldırlarını qırmadılar."*50

Çarmıxa çəkilmə və dirilmədən bir neçə həftə sonra Peter və digər şagirdlər, İbrahimin xalqından olan böyük bir adam kütləsinə səslənərək şəhadət etdilər:

*Amma siz Müqəddəs və Saleh Olanı rədd edib bir qatilin azad edilməsini istədiniz. Siz Həyat banisini öldürdünüz, amma Allah Onu ölülər arasından diriltdi. Biz bunu şahidləriyik.*51

İncil belə deyir:

*"Biz hələ gücsüz ikən Məsih müəyyən zamanda allahsız adamların uğrunda öldü."* və *"Lakin Allah bizə olan məhəbbətini bununla sübut edir ki, biz hələ günahkar ola-ola Məsih bizim uğrumuzda öldü"*.52

Bütün müqəddəs kitablarda olduğu kimi, surə 3:55-i başa düşmək üçün orijinal dilə qayıtmalıyıq. Tərcümələr faydalıdır, lakin həmişə bir-biri ilə razılaşmır. İnternetin köməyi ilə ərəbcə مُتَوَفِّيكَ bu sözü istədiyiniz dilə tərcümə edə bilərsiniz. Qazax, özbək, rus, türk və s. dillərdə مُتَوَفِّيكَ tərcüməsinə baxaraq "Öldüm" və ya "Öldürüldüm" mənasında olduğunu təsdiq etdim. Allah İsanı qəbirdə qoymayacağına söz vermişdi.

*"Çünki məni ölülər diyarına atmazsan, Mömin insanını qəbirə salmazsan"*53.

İsanın bəzi ardıcılları onun cəsədini qiymətli yağlarla məsh etməyə gələndə boş bir məzar tapdılar. Bir mələk onlara göründü və dedi:

*"Nə üçün siz Dirini ölülər arasında axtarırsınız?"*54

48. İncil, Mark 9:31
49. İncil, Mark 15:44-46
50. İncil, Yəhya 19:33
51. İncil, Həvarilər 3:14
52. İncil, Romalılar 5:6, 8
53. Zəbur 16:10
54. İncil, Luka 24:5

55-ci ayədəki متوفيك bu söz *qaldırmaq* mənasındadır. İsa Məsihin cəsədi, qədim adətlərlə dəfn geyimlərinə sarılmış bir vəziyyətdə Allahdan başqa bir möcüzəni gözləyirdi. Ümidsiz vəziyyət, Allahın şeytan, günah və ölüm üzərindəki qüdrətini birdəfəlik nümayiş etdirmək üçün bir fürsət oldu.

## İbrahim yəhudi və ya xristian deyildi

Millətlərin kökünə qayıdaraq İbrahim adlı bir adama rast gəlirik. Onun adı "çoxlarının atası" deməkdir. Övlad sahibi ola bilməyən bir insan ikən milyonların atasına çevrilən İbrahim, Allah tərəfindən müqayisə olunmaz bir vəd almaq üçün seçildi. İnsanı yəhudi edən nədir? Sadə dillə desək, yəhudilər Yəhuda qəbiləsinin nəslindəndir. Yəhuda İbrahimin nəslindən idi və onun qəbiləsi sonda padşahlar nəslini və Masihi yaratdı. Daha sonra İncildə "yəhudi" sözü günahdan qurtulmaq üçün Allaha həqiqətən güvənən şəxs üçün işlədilir. Orada deyilir:

*"Yalnız daxilən Yəhudi olan Yəhudidir. Sünnət də ürəyə aid olub, yazılı Qanuna görə deyil, Ruhun işidir. Belə adamın tərifi də insandan yox, Allahdan gələr".* [55]

Bu İsa Məsihin ikiüzlülük zahirən gözəl görünən, içi ölümlə dolu olan ağardılmış məqbərələrə bənzətdiyi təlim ilə uyğundur. Həqiqi həyat daxildən başlayır və xaricdən özünü göstərir. Beləliklə, bəli, müəyyən mənada İbrahim yəhudi deyildi, çünki o, yəhudilərin və bir çox başqa millətlərin atası oldu. Amma qəlbinin Allah tərəfindən təmizləndiyini düşünəndə, o adın daha dərin mənasını təmsil edirdi. İsa bunu dini adamları ilə maraqlı söhbətində söylədi:

*"Atanız İbrahim Mənim günümü görəcəyi üçün şad oldu, görüb sevindi."*[56]

İbrahim İsanın gəlişini qabaqcadan görmüşdü? ! Bəli, çünki o, Allah tərəfindən xüsusi olaraq seçilmiş bir peyğəmbər idi. İsanın zühurundan min illər əvvəl Allah İbrahimə onun nəslindən Məsihi göndərəcəyinə söz vermişdi. İsanın fiziki atası olmasa da, Məryəm İbrahimin nəslindən idi. İbrahim, İsanın gəlişinin bütün təfərrüatlarını bilməsə də, o günü düşünüb sevinmişdi.

## Bütpərəstlik günahı (Surə 3:80)

Quran dəfələrlə bütpərəstlikdən çəkindirir. Surə 3:80 də belə deyilir:

*"O sizə, mələkləri və peyğəmbərləri özünüzə ilah qəbul etməyi əmr etməz. Müsəlman olduqdan sonra heç o sizə kafir olmağı əmr edərmi?"*

İbrahim övladlarının Tövratda və Peyğəmbərlərdə qeyd olunan tarix göstərir ki, onlar dəfələrlə bütlər düzəldərək tək olan Allaha ibadət etməkdən üz döndərmişlər.

Bəzən qonşu ölkələrdən əldə etmiş bütlərə sitayiş edirdilər. Bəzən də Baal adlandırdıqları yalançı tanrıya ibadət edirdilər. İlyas peyğəmbər Baalın kahinlərinə meydan oxuyaraq Baalmı yoxsa Allahmı həqiqi olduğunu sübut etmək istədi. O, onlara bir buğa qurban gətirmələrini, onu qurbangahın üstünə qoymağı və Baalın od endirməsi üçün dua etməyi əmr etdi.

55. İncil, Romalılar 2:29
56. İncil, Yəhya 8:56

Baalın kahinləri onun dediyi kimi etdilər və dua etdilər. Hamı gözlədi, amma od yox idi. Onlar qışqırdılar, səsləndilər və hətta bədənlərini kəsib qanlarını axıtdılar ki, Baal dualarına cavab versin. Amma yenə od yox idi.

Həmin axşam İlyas on iki daşdan bir qurbangah tikdi. Qurbangahın ətrafında xəndək qazdı, sonra buğanın üstünə su tökərək xəndəyi doldurdu. İlyas səsini yüksəldib dua etdi:

*"Səsimi eşit, ya Rəbb mənə cavab ver. Qoy bu xalq bilsin ki, Sən Allahsan ya Rəbb, onda onların ürəyini özünə tərəf döndərəcəksən."*[57]

Allah onun duasını qəbul etdi. Göydən bir alov qurbanın üzərinə düşdü və hər şeyi, o cümlədən xəndəkdəki suyu yandırdı. Bütün şübhələr dağıldı. Həqiqi Allah özünü göstərdi və insanlar bütpərəstliklərindən tövbə etdilər.

## Səhv yol tutmaq (Surə 3:100)

İnamı itirmək dəhşətli bir şeydir. Bu gün dünyada bir çox insan Yaradana inanır. İbrahimin övladları Yaradanı xüsusi ad olan *Yahve* adlandırdılar. Yunanlar *Teos* sözündən istidafə edirlər. Ərəb Məsihçiləri hələ də Yaradanı *Allah* adlandırırlar. Fars dilli xalqlar Yaradanı *Xuda* adlandırırlar.

Artıq qeyd etdiyim kimi, Qurani buyurur ki, hər şeyin yaradıcısı olan Rəbbə və bir olan Allaha iman gətirən insanları mükafat gözləyir. Cənnətdə mükafatlandırılmaq üçün Tək və Haqq Allaha inanmaq kifayətdirmi? Allaha inanmaq və Ondan qorxmaq nə dərəcədə vacibdir? Surə 3:100-cü ayədə deyilir ki:

*"Ey iman gətirənlər! Əgər kitab əhlindən olan bir dəstəyə tabe olsanız, onlar imanınızdan sonra sizi (təkrar) küfrə (cahiliyyə dövrünə) döndərərlər."*

Bu insanlar kitab əhlindən kimlər idi? Yaxşı müsəlmanları necə səhv yol tutmağa məcbur etdilər? Niyə Allaha olan imanlarına zərbə vururlar?

Onların müsəlmanları necə azdırdıqlarını təsəvvür etmək mənim üçün çətindir. Qeyd edildiyi kimi, yəhudilər bir Yaradan Allaha inanırdılar. Musa Allahın göyləri və yeri necə yaratdığını, sonra Adəmlə Həvvanı necə öz surətində yaratdığını çox təfərrüatlı şəkildə yazmışdır. Yəhudilər sadiq şəkildə Şema oxuyurdular: "Dinlə, ey İsrail, Allahımız Rəbb yeganə Rəbdir". Xristianlar da bir Allaha inanırdılar. İsanın ikinci, Məryəmin üçüncü tanrı olduğuna inanmırdılar. Müsəlmanlar kimi xristianlar da bunu şirk hesab edirlər.

3:100-cü surə, Kitab əhlinin bütpərəst olduğunu və yeni müsəlmanları bütpərəstliyə cəlb etməyə çalışdığınımı deyir? Biz dəqiq bilmirik. Amma biz bilirik ki, On Əmr açıq şəkildə bütpərəstliyi qadağan edir. İsa səhrada 40 gün oruc tutarkən bütpərəstliyi mühakimə etdi.

*"Siz-Əgər kitab əhli [İslama] iman gətirsəydi onlar üçün daha yaxşı olardı. Onların arasında möminlər də var". 3:75-ci ayədə onlardan bəzilərinin yaxşı insanlar olduğu təsdiqlənir: "Kitab əhlindən eləsi var ki, əgər ona çoxlu miqdarda (mal) əmanət etsən, onu sənə olduğu kimi qaytarar."*

Quranın bəzi kitab əhlinə hörmət etdiyini də bilirik.

3:110-cu ayədə deyilir:

57. Tövrat, 1 Padşahlar 18:37

*“Əgər kitab əhli də iman gətirsəydi, əlbəttə, bu onlar üçün daha yaxşı olardı. Onların içərisində iman gətirənlər olsa da, əksəriyyəti haqq yoldan azmış kimsələrdir.”*

Ola bilsin ki, bəzi kitab əhli həqiqətən də İlkin Kitabların təlimlərini tərk ediblər. Lakin bu insanlar, Allahın onlara göstərdiyinə sadiq qalmadılar. Tövrata, peyğəmbərlərə və ya İncilə sadiq olan hər hansı bir yəhudi və ya xristian başqalarını bütpərəstliyə necə cəlb edə bilər?

## Təhlükəli düşmənlər? (Surə 3:111)

Quran imanı inkar edən və Muhəmmədlə əhd-peymanını pozan kitab əhlinin (kitabın) şiddətli əzablar olunacağı barədə xəbərdarlıq edir. Bəs onlar nə qədər təhlükəli idilər? 3:111-ci ayə göstərir ki, bu, həmişə belə deyil.

*“Onlar sizə, əziyyət verməkdən başqa bir zərər yetirə bilməzlər.”*

Bu, bu gün məşhur bir fikrə zidd görünür. Bəzi dini qruplara qarşı sui-qəsd teoriləri çoxdur. Hitlerin hakimiyyəti dövründə, alman nasistləri bütün Avropada yəhudi, xristian və digər azlıqları sivilizasiyaları üçün ölümcül təhlükə olaraq təqib edirdilər. Rus çarı, imperiyası dağılmamışdan əvvəl yəhudi kəndlilərini sistemli şəkildə öz ərazisindən qovmuşdur. Yenə də bu ayə yəhudiləri zərərsiz adlandırır və yalnız narahatlıq doğduğunu, bundan qorxmaq lazım olmadığını deyir.

## Kim yaxşıdır? (Surə 3:113-4)

Biz hamımız hansısa böyük insana heyranıq. Futbolu sevən oğlanların sevimli komandası və xüsusilə sevimli oyunçusu olur. Onların ulduz oyunçusu ən yaxşı oyunçudur. O, futbol oynamağın standartını qoyur. Qızlar sanki sehrlənmiş kimi ekran qarşısında oturub sevimli ulduz ifaçıya baxırlar. O, zərif rəqs edir, məhəbbət və romantika haqqında gözəl oxuyur. Gənc qızlar, qlamur, cəlbedicilik və seksuallıq üçün ən yüksək standartları müəyyən edən ulduzlarına aid olan hər şeyi kopyalamağa çalışırlar.

3:133-134-cü surəson mükafatdan və ona nail olmaq üçün standartdan bəhs edir. Ən yaxşı kişini və ya ən yaxşı qadını, ideal müsəlmanı təsvir edir.

*Rəbbinizin məğfirətinə və genişliyi göylər və yer qədər olub müttəqilər üçün hazırlanmış olan cənnətə tələsin! O (müttəqilər) ki, bolluqda da, qıtlıqda da (mallarını yoxsullara) infaq edər, qəzəblərini udar və insanları bağışlayarlar. Allah yaxşılıq edənləri sevər.*

*Allahın xeyirxahlığı ilə müqayisədə mən dəhşətli şəkildə yerə düşmüş bir ulduz kimiyəm.*

Sonrakı dünya kainatdan daha böyük bir bağ kimi təsvir edilir. Bu, həqiqətən də nəhəng olmalıdır, çünki indi bildiyimiz kainat o qədər böyükdür ki, onun bir ucundan digər ucuna səyahət etmək üçün milyardlarla il lazımdır. Quran buyurur ki, salehlər bu bağa gedəcəklər. Tarix boyu bəşəriyyət bizi Eden bağında itirdiyimiz qeyri-adi dünyanı qaytarmaq üçün bir yol tapmağa çalışır.

Bu gün dünyaya nəzər salanda bir sual yaranır. Kim? Cənnət üçün kim kifayət qədər yaxşıdır? Bu mükəmməl ulduz kimdir? Özümə baxanda yaxşılıq etmək üçün arzum olduğunu amma gücüm olmadığını görürəm. Ətrafa baxanda müharibələr və müharibə xəbərləri, xəyanət, sədaqətsizlik,

hərislik və eqoizm görürəm. Mən kimisə yaxşılıq nümunə abidəsi yerinə qoyanda onların sonradan yıxılmasını görürəm. İncil, dahi bir həkim kimi insan ürəyinin əsl vəziyyətinin diaqnozunu qoyur.

Bəs nə deyək? Biz Yəhudilərin üstünlüyü varmı? Əlbəttə, yox! Çünki biz artıq həm Yəhudiləri, həm də Yunanları təqsirləndirdik ki, onların hamısı günahın hökmü altındadır. Necə ki yazılıb:

*"Saleh olan yoxdur,*
*Bir nəfər belə yoxdur.*
*Dərk edən bir kəs yoxdur,*
*Allahı axtaran yoxdur."*[58]

"Hətta mən, Uca Allah? Mən belə sənin qüsursuz standartlarına uyğun gəlmirəm? " Güzgüyə baxıb deyirəm ki, "Bəli, belədir".

Problemimiz budur. Bilirəm ki, Allah mənim həyatımda səxavət, özünü tərbiyə və mərhəmət görmək istəyir. Yenə də etiraf etməliyəm ki, mən eqoist, üsyankar və amansızam. Qonşumla müqayisədə, bəlkə mən ulduz ola bilərəm. Amma Allahın xeyirxahlığı ilə müqayisədə mən faciəvi şəkildə yerə düşmüş bir ulduzam.

## Sadəcə bir elçi (رَسوُل) (Surə 3:111)

Peyğəmbər ("Nəbi", نبي) ilə elçi (Rəsul, رَسول) arasında fərq varmı? Yəhudilərin, Xristianların və Müsəlmanların anlayışında peyğəmbər (Nəbi) nədir? Hər qrup bir elçini (Rəsul) necə təyin edir? Hər kəs razılaşar ki, bir Yaradan-Allah zaman-zaman insan övladına fərdlər vasitəsilə mesajlar göndərir. Tavratda peyğəmbərin əsas vəzifələrindən biri gələcək hadisələri dəqiq söyləməkdir. Orada deyilir:

*"Axı bu sözün Rəbdən olub-olmadığını necə bilək? deyə düşünə bilərsiniz. Əgər bir peyğəmbər Rəbbin adından danışanda dediyi söz həyata keçməzsə yaxud düz çıxmazsa, bilin ki, onu Rəbb söyləməmişdir. O peyğəmbərin dediklərinin səlahiyyəti yoxdur. Ondan qorxmayın."*[59]

Bundan əlavə, Tövrat yalançı peyğəmbərlər haqqında çox ciddi xəbərdarlıq edir. Peyğəmbərlik iddiasında olan biri onlara "Gəlin, sizin tanımadığınız yad allahların ardınca gedək və onlara sitayiş edək!" sözləri ilə yaxınlaşsa, nə olardı? Xəbərdarlıq çox aydındır:

*"belə peyğəmbərin yaxud röya görənin sözlərinə qulaq asmayın. Bilin ki, Allahınız Rəbb sizi sınayır, görmək istəyir, siz Allahınız Rəbbi bütün qəlbinizlə, bütün varlığınızla sevirsinizmi?"*[60]

Qədim peyğəmbərlər çox şeydən xəbər vermişdilər. Onlar gələcək müharibələri, aclıqları, çətin zamanları, padşahların və səltənətlərin yüksəlişini və süqutunu, Məsihin həyatını bildirmişdilər. Məsələn, Daniel peyğəmbər, Makedoniyalı İsgəndərin və Roma İmperiyasının yüksəlməsini bildirmişdi.[61] O, daha sonra qiyamət günündən əvvəl son müharibəni və ölülərin dirilməsini bildirdi.

Mikeya peyğəmbər İsa Məsihin kiçik kənddə Bet-lexemdə doğulacağını bildirdi. Yeşaya peyğəmbər Məsihin tutulacağını qabaqcadan bildirdi:

58. Zəbur 5:9 və İncil Romalılara 3:9-11
59. Tövrat, Qanunun təkrarı 18:21-22
60. Tövrat, Qanunun təkrarı 13:2-3
61. Daniel Peyğəmbər 2

*"Kəsilməyə aparılan quzu kimi, qılxımçıların qabağında dilsiz qoyun kimi Ağzını açmadı."*[62]

Musa, bir gün böyük bir peyğəmbərin gələcəyini öz xalqına bildirdi:

*"Allahınız Rəbb sizin üçün aranızdan-öz soydaşlarınız içərisindən mənim kimi bir peyğəmbər yetirəcək. Ona qulaq asın."*[63]

Min il sonra İsanın həvarisi Peter, din adamlarının qarşısına çıxaraq Musanın peyğəmbərliyinin İsa Məsihdə gerçəkləşdiyini bəyan etdi. [64]

Quran Surə 3:144-cü ayədə deyir: "Mühəmməd ancaq bir peyğəmbərdir. Ondan əvvəl də peyğəmbərlər gəlib getmişlər. İndi o ölsə, yaxud öldürülsə, geri (əvvəlki dininizəmi) dönəcəksiniz?" Elçilər ölümlü idilər. Adəm də, Musa da öldü. Quran müsəlmanlardan soruşur ki, əgər Məhəmməd ölsə, "geri dönəcəklərmi". Tarixə görə, Məhəmməd bütün insanlar kimi, 632-ci il iyunun 8-də vəfat edib. Ardıcılları onu Səudiyyə Ərəbistanının Mədinə şəhərində, Əl-Məscid ən-Nəbəvidə dəfn etdilər.

Quran elçilərə (rəsullara) və peyğəmbərlərə (nəbislərə) ilahi və ya fövqəlbəşəri məqam vermir. Onların xüsusi məqsədi var idi, lakin bütün insanlar kimi onlar da doğulublar, öz dövrlərini yaşayıblar, sonra ölüblər və cəsədləri son dirilməyə qədər qaldıqları yerdə basdırılıblar. Bir çox elçilər yaşadı və öldü, lakin yalnız bir Məsih yer üzünə gəldi, ölülər arasından dirildi və Cənnətə qayıtdı.

## Ühüd döyüşü (Surə 3:130-180)

3:130-180-ci surədən aşağıdakı keçid Ühüd döyüşündən bəhs edir. Rəvayətə görə, Məhəmməd döyüşdə yaralanmış, amma qoşun irəliyə getməyə davam etmişdir. Lakin bütün müsəlmanlar döyüşdə sədaqətli deyildilər. 3:167-ci ayədə onlardan bəzilərinin döyüşməkdən boyun qaçıran münafiqlər olduğu göstərilir.

O, möminləri ayırd etmək və münafiqləri bəlli etmək üçün onlara dedi:

*"Gəlin, Allah yolunda vuruşun, yaxud müdafiədə olun!" - deyildiyi zaman onlar belə dedilər: "Əgər vuruşmağı bilsəydik, əlbəttə, sizin arxanızca gələrdik". Onlar o gün imandan çox küfrə yaxındılar. Qəlblərində olmayan bir şeyi ağızları ilə söyləyirlər. Halbuki, Allah onların (qəlblərində) gizlətdikləri şeyi daha yaxşı bilir.*

Allah yolunda vuruşmamaqlarının səbəbi nə idi? Qorxu, tənbəllik, inamsızlıq?

Digər döyüşçülərə isə hətta yaralanıb öldürülsələr belə mükafatlarını alacaqlarına ümid verildi 3:172-ci ayədə deyilir:

*"Yaralandıqdan sonra da Allahın və Peyğəmbərin dəvətinə uyanların arasından yaxşı işlər görüb (pis işlərdən) çəkinənlər üçün böyük bir mükafat vardır."*

Və Surə 3:169:

---

62. Peyğəmbərlər, Yeşaya 53:7
63. Tövrat, Qanunun təkrarı 18:15
64. İncil, Həvarilərin işləri 3:22

*“Allah yolunda öldürülənləri, əsla ölülər zənn etmə! Əksinə, onlar diridirlər və Rəbbi dərgahında onlara ruzi verilir.”*

Ühüd döyüşünün məqsədi nə idi? Aydındır ki, Ərəbistanda hakimiyyəti kimin quracağını müəyyən etmək üçün döyüş qeyri-müsəlmanlarla müsəlmanlar arasında gedirdi. Adətən fiziki döyüşdə qələbə Allahın müsəlman ordularına xeyir-dua verdiyinə işarə idi. 3:160-cı ayədə deyilir: “Əgər Allah sizə yardım edərsə, heç kəs sizə qalib gələ bilməz. Əgər O sizi zəlil edərsə, Ondan sonra kim sizə kömək edə bilər? ! Ona görə də möminlər (yalnız) Allaha təvəkkül etsinlər!” Buna görə də fiziki döyüşdə hər qələbə onların həqiqətən Allah yolunda vuruşduqlarına dəlil olaraq görülürdü. Ühüd döyüşündə bir çox müsəlman həlak olsa da, sonrakı döyüşlərdə Ərəbistanda, Şimali Afrikada və Avropada düşmənlərə qarşı uzun müddətli qələbələr qazandılar.

İbrahimin qədim övladları Kənanda olan torpaq uğrunda vuruşdular. Allah İbrahimə yeni bir torpaq verəcəyini vəd etmişdi.

## Qılıncı qınına qoymaq

*“Rəbb İbrama dedi: “Öz torpaqlarından, qohumlarının arasından, ata evindən çıx, sənə göstərəcəyim torpağa get.”*[65]

İbrahim və onun xalqı uzun və çətin bir yol keçdilər. Allah onları Kənana gətirdi, lakin aclıq Yaqub övladlarını Misirə qovdu. Yaqubun oğlu Yusif böyük sərkərdə idi, lakin onun ölümündən sonra fironlar qəddar oldular və İbrahimin övladlarını qul kimi istifadə etdilər. 400 il boyunca Allahın bir xilaskar göndərməsini gözlədilər.

*“Musa və Harun gəlib firona dedilər: “İsrailin Allahı Rəbb belə deyir: “Xalqımı burax ki, səhrada Mənim üçün bayram keçirsinlər!”*[66]

Firon özünü riskə ataraq imtina etdi: Firon müqaviməti dayandırana qədər Allah Misirə 10 cəza göndərdi.

İbrahimin övladları Qırmızı dənizin o tayına keçərək səhraya qaçdılar. Lakin onlar şikayət və üsyan etdikləri üçün, İbrahimə vəd edilən torpağa dərhal girə bilmədilər. Bu torpaq haradadır? Tövrat dəqiq yeri bildirir.

*“Qırmızı dənizdən Filişt dənizinə qədər, səhradan Fərat çayına qədər sərhədlərinizi* çəkəcəyəm.”[67]

Musanın ölümündən sonra Yeşua İbrahimin övladlarını fəth etmək və məskunlaşmaq üçün vəd edilmiş torpaqlara gətirdi. Onlar divarlarla əhatə olunmuş Yerixo şəhərinə gəldilər. Ordu divarlara hücum etmədi, əksinə Allah divarı yıxdı. Bir çox döyüşlərdən sonra, Allah vəd edilmiş torpağı xalqa verdi. Sonrakı nəsillərdə Allah Şamuel və Şimşon kimi peyğəmbərlər və hakimlər yetişdirdi.

Tövrata görə, onlar İbrahimin övladlarına rəhbərlik etdilər. Bundan sonra İsraillilər padşah istədilər. Allah onlara padşahın həyatlarını çətinləşdirəcəyini xəbərdar etsə də, onlar israr etdilər.

65. Tövrat, Yaradılış 12:1
66. Tövrat, Çıxış 5:1
67. Tövrat, Çıxış 23:30-31

Birinci padşah Şaul, sonra Davud, sonra isə Süleyman oldu. Onlardan sonra daha çox padşahlar taxta keçdilər.

İsa Məsihdən əvvəlki dövürdə İbrahimin övladları vəd edilmiş torpaqda çoxlu döyüşlər apardılar. Bəzən Allah onlara qılıncla vuruşmağı əmr edir, bəzən də Allah düşmənləri möcüzəvi şəkildə məğlub edirdi.

Padşah Süleyman dövründə Allahın vədi yerinə yetdi və beləliklə, İbrahimin övladları Allahın verdiyi sərhədlər daxilində əmin-amanlıq və bolluq içində yaşadılar. Döyüş heç vaxt bu sərhədlərdən kənara çıxmadı.

İsa Məsihin zühuru ilə Allahın bərəkət vədi İbrahimin fiziki nəslindən daha da genişləndi. Allahın varlığı artıq sadəcə İbrahimin fiziki övladları arasında olmayacaqdı. Onun böyük məqsədi, bütün irqlərdən, dillərdən və xalqlardan olan insanların günahlarının bağışlanmasını təklif etmək idi.

Allahın Padşahlığı-ruhani səltənətdir. İsa Məsih belə dedi:

*"Mənim padşahlığım bu dünyadan deyil. Əgər Mənim Padşahlığım bu dünyadan olsaydı, xidmətçilərim Yəhudi başçılarına təslim edilməməyim üçün döyüşərdi, amma indi Mənim padşahlığım buradan deyil."*[68]

İncilə görə, Allah Padşahlığının siyasi və coğrafi sərhədləri yoxdur. Onun ordusu və silahı yoxdur. Onun yer üzündə vəd edilmiş torpağı yoxdur. İsa bunu belə təsvir etmişdir:

*"Adamlar "bax, o buradadır" yaxud "oradadır" deməyəcəklər, çünki budur, Allahın Padşahlığı sizin daxilinizdədir."*[69]

İsanın radikal fikri din adamlarını şoka saldı. Yüz illər boyu Aralıq dənizindən səhraya qədər vəd edilmiş torpaqları yalnız təsəvvür edə bilirdilər. Onların bəziləri öz torpaqlarını qılıncla müdafiə etməyə hazır idi. Bəzi radikallar terror aktları da daxil olmaqla, istənilən vasitə ilə romalıları qovmaq istəyirdilər.

İncildə İsanın yəhudi və ya Roma hökumətini devirməyə cəhd etdiyinə dair heç bir dəlil yoxdur. Bunun əksi doğrudur. Yəhudilərin vergi ödəməli olub-olmadığını soruşduqda o, belə cavab verdi:

*"Vergi verdiyiniz sikkəni Mənə göstərin". Onlar da Ona bir dinar gətirdilər. İsa onlara dedi: "Sikkənin üstündəki bu təsvir və yazı kimindir?" Ona dedilər: "Qeysərin". O vaxt İsa onlara dedi: "Elə isə, qeysərin haqqını qeysərə, Allahın haqqını Allaha verin"*[70]

İsanın həbs olunduğu gecə dostu Peter onu qılıncla qorumağa çalışdı, İsanı həbs etmək istəyən əsgərlərdən birinin qulağını kəsdi. İsa möcüzəvi şəkildə əsgərin qulağını sağaltdı və sonra Peterə dedi:

*"Qılıncı qınına qoy"*[71]

Bu, geri dönüşü olmayan nöqtə idi. İsanın məzəmmətindən sonra dostlarından heç biri imanı zorakılıqla müdafiə etmək üçün vuruşmadı.

68. İncil, Yəhya 18:36
69. İncil, Luka 17:21
70. İncil, Matta 22:19-21
71. İncil, Yəhya 18:11

## Bəs Xaç yürüşləri?

İsa əl-Məsih yer üzünə gəldikdən min illər sonra Romada papalıq adlanan dini siyasət sistemi yarandı.

Roma Katolik Papası Beynəlxalq qrupun rəhbəri oldu. İncil təlimlərindən kənara çıxaraq öz sistemlərinə siyasət və insan ənənələrini daxil etdilər. İslam Şimali Afrika, Fələstin və Yaxın Şərqdə yayıldıqca avropalılar təşvişə düşdü. Yaxın Şərqdə yerləşən xəlifənin başçılığı ilə müsəlman qüvvələri Roma katoliklərinin mərkəzini təhdid etməyə başlasaydı, nə baş verərdi? Bundan əlavə, Papa və onun nümayəndələri Qüdsün zəvvarlara açıq olmasını istəyirdilər. Həmin dövürdə dini və siyasi qüvvələr yollarına çıxan hər şeyi məhv etməyə hazır olan dəhşətli fırtına kimi güclənməyə başlamışdılar.

İncilin heç bir yerində xristianlara silah götürmək və xaç işarəsi altında döyüşmək əmri yoxdur.

Mən Papanın və ya dini hökumətin ardıcılı kimi yox, İsanın və İncilin ardıcılı kimi yazıram. 1095-1291-ci illər arasında bir-biri ilə vuruşan katoliklərin ya da müsəlmanların niyyətlərini və davranışlarını tənqid etmək əvəzinə, bir sadə həqiqətə diqqət yetirmək istərdim. İncil heç bir yerdə xristianlara fiziki silah götürməyə və xaç işarəsi altında döyüşməyə təşviq etmir. Fərdi hökumətlər öz vətəndaşlarını pis təhdidlərdən qorumaq üçün bərabər şəkildə hüquq və məsuliyyətlərə malik olsalar da, Allahın Padşahlığı milli sərhədləri aşır. İsanın yer üzündə ordusu yoxdur. İsa haqqında xoş xəbər sözlərlə və məhəbbətlə insandan insana ötürülür.

İkincisi, Roma Xaçlıları Qüdsü ziyarət üçün müqəddəs şəhər kimi qorunmasını çox vacib olduğunu düşünsələr belə, İsanın Özü bu fikri rədd etdi. Daha əvvəl gördüyümüz kimi, O, ruhani ibadətin hər hansı bir şəhərdən və ya dağdan asılı olmadığını söylədi.

Təəssüflər olsun ki, xaç yürüşləri nəinki canları və şəhərləri məhv etdi, həm də İsanın müsəlmanlar arasında nüfuzunu məhv etdi və kilsəyə böyük rüsvayçılıq gətirdi.

Bütün xristianların bu səhvə düşmədilər. Assisli Fransis Misirə səfər edərək xəlifə ilə görüşdü və döyüş meydanında qəzəbli döyüşlər etmək yerinə sülh danışıqlarına ümid bağladığını göstərdi.

16-cı əsrdə Martin Lüter yazırdı:

*“Əgər mən əsgər olsaydım və döyüş meydanında keşişin bayrağını və ya xaçını görsəydim, hətta bu çarmıx belə olsaydı, şeytanın özü məni təqib edirmiş kimi qaçardım!”*[72]

O, xaç yürüşlərini Allaha qarşı küfr hesab edirdi. O, inanırdı ki, əsgərlərin xaç yürüşündə döyüşməkdən imtina etmək hüququ var, çünki bu, ruhani və dünyəviliyin yanlış qarışığıdır.

Ədalət naminə onu da qeyd etməliyəm ki, bu yaxınlarda, 21-ci əsrdə 2Papa John Pavel kilsə adına edilən bütün zorakılıqlara görə üzr istədi.

*Bağışlayırıq və bağışlanma diləyirik. Xristianlar arasında yaranan fikir ayrılığına, bəzilərinin həqiqətə xidmətdə törətdiyi zorakılığa və başqa dinlərin ardıcıllarına qarşı inamsızlıq və düşmənçiliyə görə bağışlanma diləyirik.*[73]

72. Martin Lüter, “Türklərə qarşı müharibə haqqında”, 1528-ci il
73. "Müqəddəs Atanın Pastoral Təlimatları", Bağışlanma Günü, Bazar günü, 12 Mart 2000-ci il, https://w2. vatican. va/content/john-paul-ii/az/ homilies/ 2000/documents/ hf_jp-ii_hom_20000312_pardon. html, 2018-ci ilin fevralında əldə edilib.

Bu üzrxahlığı oxuduqdan sonra Roma Katoliklərinin bir sıra vəhşilikləri tanımasını və bağışlanmaq istəyini yüksək qiymətləndirə bilərəm. Bununla belə, Roma Katolik təliminin İncildən uzaqlaşdığını və bunun əvəzinə ənənələri Müqəddəs Kitabla sıralamağa davam etdiyininin dürüst etirafını eşitmək məni daha xoşbəxt edərdi.

# 4-cü fəsil | Surə 4: Əl-Nisə

Rəhman və Rəhim olan Allahın adı ilə

## Yetimlər və qadınlar (Surə 4:3)

Müharibənin itkiləri təkcə əsgərlər deyil. Döyüş meydanında həlak olan atalar və ərlər, geridə uşaqları və arvadları qalır. Üstəlik, zəfər qazanan tərəf, əsir düşmüş və ya öldürülmüş düşmənlərinin qadın və uşaqlarını da götürürlər. Quran belə insanların qayğısına qalmağı əmr edir.

Əgər (özləri ilə evləndiyinizdə) yetim qızlar barəsində ədalətli ola bilməyəcəyinizdən qorxsanız, bəyəndiyiniz qadınlardan ikisi, üçü, dördü ilə nikah bağlayın! Əgər ədalətli ola bilməməkdən qorxsanız, onda, tək bir qadınla və ya sahib olduğunuz kənizlərlə (kifayətlənin)! Haqsızlığa yol verməməyiniz üçün ən uyğun olan budur.

Quranda çoxarvadlılığın (birdən çox insanla evlilik) şərtləri, dörddən çox olmayan qadınla evlənməkdir və hər birinə bərabər münasibət göstərilməlidir.

Müsəlman kişilərin cariyələri götürməsi və köləliyin mümkünlüyü ilə bağlı suallar hələ də var.

Kişilər və qadınlar arasında təbii bir cazibə var. Bu, zamanın əvvəlindən bəri belədir. Bundan əlavə, Allah Cənnət bağında ilk evliliyi təyin etmiş və bu mövzuda "nəsihət" vermişdir.

*Buna görə də kişi öz ata anasını tərk edib arvadına qovuşacaq və onlar bir bədən olacaq. Adəm və arvadı-ikisi də çılpaq idi, ancaq bundan utanmırdılar.*[74]

İlk günahsızlıq günlərinin həqiqi gözəlliyi Adəm və Həvvanın bir-birlərinə yaxından baxa bilmələri və heç bir utanc hiss etməmələridir. Utanmadan!

Adəm və Həvva monoqam idi (tək arvadlı və tək ərli). Onların çoxlu uşaqları oldu, amma Adəmin başqa arvad və ya cariyələr alması ilə bağlı qeyd Tövratda heç bir yerdə yoxdur. Bəzi insanların fikirlərinə görə, bunun səbəbi digər qadınların Adəmin qızları olmasıdır. Amma Allahın Adəmlə Həvvaya verdiyi göstərişlər, bir ər və bir arvaddan bəhs edir.

Adam və Hava sonrakı evliliklər üçün nümunə qoydular. Nuh peyğəmbər, tək olan arvadını özü ilə birlikdə gəmiyə mindirdi. İbrahim arvadı Sara ilə birlikdə qocalıb öldü. Bu model İbrahimin nəsli ilə birlikdə tədricən dəyişməyə başladı. Yaqub aldadılaraq Lea adlı başqa bir qadınla evləndi. O, bədbəxt idi və daha sonra həqiqətən sevdiyi və əvvəldən evlənmək istədiyi bacısı Rəhilə ilə evləndi. Oğlu Yusif qardaşları tərəfindən Misirdə köləliyə satıldı. Allah Yusifə xeyir-dua verdi və o, fironun dövründə ən yüksək dövlət məmurlarından biri oldu. Tövrat deyir ki, Yusif misirlilərdən bir arvad aldı. Təkarvadlılıqdan çoxarvadlılığa əsas keçidlərdən biri Süleyman padşahın dövründə baş verdi. Öz xalqından və qonşu ölkələrdən yeddi yüz arvad və üç yüz cariyə aldı.[75]

74. Tövrat, Yaradılış 2:24-25
75. Tövrat, 1 Padşahlar 11:3

Ola bilsin ki, bu həyat tərzi ona bir neçə anlıq həzz verib, lakin bu, ona baha başa gəldi, çünki arvadları onun ürəyini yoldan çıxartdılar. Süleymandan sonra İsrail padşahlarının çoxu birdən çox arvad aldı. Nəhayət, xarici dövlətlər onların torpaqlarına soxularaq onları zəbt etdilər. İsa Betlexemdə anadan olana qədər romalılar Aralıq dənizinin demək olar ki, bütün torpaqlarına nəzarət edirdilər. Böyük padşahların dövrü və çoxarvadlılıq günləri əbədi olaraq bitdi.

*İsanın evlilik haqqında nə deyəcəyi ilə maraqlanan yəhudi din adamları Ona sualla müraciət etdilər. "İnsanın öz arvadını hər səbəbə görə boşamağa icazəsi varmı?"*[76]

Bu din adamları İsanı tələyə salmaq istəyirdilər. Əgər O, bunun qanuni olduğunu cavablandırsaydı, Onu boşanmanı dəstəkləməkdə ittiham edə bilərdilər. Əgər bunun qanuni olmadığını desəydi, Musanı ziddiyyətdə ittiham edərdilər. Onlar həqiqəti bilməkdə maraqlı deyildilər, yalnız İsanı xalqın gözündə alçaltmaq istəyirdilər. İsa onların tələsindən xilas oldu. O cavab verdi:

*"Oxumamısınız ki, Yaradan başlanğıcdan "onları kişi və qadın olaraq yaratdı" və dedi: "Buna görə də kişi ata-anasını tərk edib arvadına qovuşacaq və ikisi bir bədən olacaq"? Artıq onlar iki deyil, bir bədəndir. Buna görə də qoy Allahın birləşdirdiyini insan ayırmasın"*[77]

Diqqət yetirin, İsa Allahın Adəm və Həvvaya verdiyi ilk evlilik göstərişini sitat gətirib. Bir kişi bir qadınla evlənir. İsa Məsih, evlilik məsələsini ilk günkü standarta qaytarır sanki işləməyən kompüteri yenidən işə salır. Boşanma? Yaxşı deyil. Çoxarvadlılıq? İlk planda yox idi. İki insan birləşib yeni tək bir bədən yaradır.
Bu şəkilin nə qədər gözəl olduğunu təsəvvür edin. Təəccüblü deyil ki, hər il sevgi mahnılarına, romantik filmlərə, kitablara, kişilər və onların gözəl gəlinləri üçün toylara milyardlarla dollar xərclənir.

## Yoxsullar üçün ədalət (Surə 4:9-10)

Quran yetimlərin ehtiyaclarına xüsusi diqqət yetirir. Surə 4:9-10-da deyilir:

*Arxalarında aciz övladlar qoyub gedəcəkləri təqdirdə, ("halları necə olar?"-deyə) qorxanlar, (yetimlərə haqsızlıq etməkdən də) qorxsunlar. Ona görə də, Allahdan çəkinsinlər və doğru söz söyləsinlər! (Yetimlərin qəyyum və himayədarları onlara, öz övladlarına necə davranılmasını istəyirlərsə, yetimlərə də o şəkildə davranmalıdırlar. Çünki öz uşaqları da bir gün yetim qala bilərlər.) Şübhəsiz, yetimlərin mallarını haqsızlıqla yeyənlər qarınlarına ancaq od doldurarlar və onlar yandırıbyaxan bir oda girəcəklər.*

İlk müsəlmanların Mədinədə yaşadıqları dövürdə, kişiləri döyüşdə həlak olduğu üçün çoxlu sayda qadın və uşaq baxımsız qalmışdı. Möhtac vəziyyətdə olan qadınların və uşaqların taleyi necə olacaq? Quran onlara qayğı göstərməyin qaydalarını qoyur. Camaat (ümmət) onları ac buraxmaq əvəzinə, onların öz atalarından miras qalmasına icazə verərək, ədalətli davranmalıdır. Halbuki İslam dini yetimlərin övladlığa götürülməsinə icazə vermir. Ailə yetim uşağı qəbul etsə belə, uşaq xüsusi qonaqdır, lakin heç vaxt bioloji uşağa bərabər sayılmır.

76. İncil, Matta 19:3
77. İncil, Matta 10:4-6 & İncil, Mark 10:6-9

## Zinaya görə cəza (Surə 4:15-16)

Quranın bir çox ayələri şəriət qanunlarını cəmiyyət üçün bərqərar etmək məqsədi daşıyır. Surə 4:15-16 cinsi pozğunluqla mübarizə üçün aydın təlimatlar verir.

Qadınlarınızdan zina edənlərə qarşı aranızdan dörd şahid gətirin! Əgər onlar şahidlik edərlərsə, onları (həmin qadınları) ölümləri çatana qədər, yaxud Allah onlar üçün bir yol açana qədər evlərdə həbs edin. İçinizdən zina edən iki nəfərin hər ikisinə də əziyyət verin! Əgər onlar tövbə edib özlərini düzəltsələr, onlardan (əziyyət verməkdən) əl çəkin! Şübhəsiz ki, Allah tövbələri qəbul edəndir, mərhəmətlidir.

Asiyada olduğum illər ərzində öyrəndim ki, bir çox insanlar Qərb mədəniyyətini ədəbsiz, cinsi əxlaqsız hesab edirlər. Bunun səbəbini anlaya bilirəm. Qərbin seksual inqilabı bütün əxlaqi məhdudiyyətləri aradan qaldırdı, insanlara istədikləri hər şeyi etməyə icazə verdi. Doğuşa nəzarət üsulları və abort sayəsində hamiləlik riski aradan qalxdı. Televiziya, kino və musiqi ən alçaq hərəkətləri reklam edir və tərifləyir. Hollivudda bir çoxları homoseksuallığı, boşanmaları, zinaları, evlilikdən əvvəl cinsi əlaqəni, cinsi pozğunluğu və narkotik asılılığını alqışlayır.

Bəs onda, Qərbin seksual cəhətdən pozulmuş mədəniyyətini görən əxlaqlı insan nə düşünə bilər? Müsəlman dostlarım tarixən "xristian" sayılan mədəniyyətdə cinsi adətlərin itirilməsini pisləməklə haqlıdırlar.

Qərbin geyimi, əyləncəsi və həyat tərzi müsəlman dünyasına yavaş-yavaş sızdıqca, şübhəsiz ki, dindar insanlar getdikcə daha çox narahat olurlar. Görünür, cinsi əxlaqsızlıq hər yerə yayılan, hər kəsə sirayət edən, Allahdan getdikcə daha da uzaqlaşdıran ölümcül bir xərçəngdir.

Bu iki ayədə, Quranda cinsi əxlaqsızlığa görə cəza nəzərdə tutulur, lakin cəzanın forması haqqında ətraflı məlumat verilmir. Tövrata qayıdarkən, o günlərdə bu cəzanın nə olduğunu görürük.

*Başqa kişinin arvadı ilə zina edənlərə aid: Qonşunun arvadı ilə zina edən kişi zinakar qadınla birlikdə öldürülməlidir.*[78]

Allahın ədaləti zinanın ölümlə cəzalandırılmasını tələb edir. Bütün cinsi əxlaqsızlıqlar çox zərərli günahlar kateqoriyasına daxildir. Ailələri və gələcək nəsilləri dağıtmaq gücündədir. Bununla belə, bir çox insanlar idarəolunmaz şəhvət tələsinə düşərək, bir anlıq keçici həzz uğruna həyatlarını söndürürlər.

Bəs ümid varmı? İnsan təbiəti nə Tövrat, nə də Quran dövründən bəri dəyişməyib. 21-ci əsrdə insanlar dəhşətli dərəcədə acınacaqlı vəziyyətdədirlər.

İncil bu haqda nə deyir? İncildə ən qeyri-adi hekayələrdən birini görürürk. Bir səhər İsa məbədə xalqa təlim öyrətmək üçün getdi. Həmin səhər din adamları yenə tələyə salmaq məqsədi ilə İsaya yaxınlaşdılar. Zina edən qadını hər kəsin görməsi üçün ortaya gətirdilər.

Bu səhnəni təsəvvür etmək asandır. Ətrafda gözləri ədalətli qəzəb və düşmənçiliklə dolu, qana susamış saqqallı qocalar var idi. Qadın üzünü qaldırmağa qorxaraq diz çökdü, qorxulu gözləri ayağının altındakı tozlara baxırdı. Camaat İsanın dediklərini eşitmək üçün nəfəslərini tutaraq sükut içində toplandı.

78. Tövrat, Levililər 20:10

*"Müəllim, bu qadın zina edərkən əməlində yaxalandı. Qanunda Musa bizə əmr edib ki, belələrini daşqalaq edək. Bəs Sən nə deyirsən? Bunu İsanı sinamaq üçün deyirdilər, Onu ittiham etmək üçün bəhanə axtarırdılar. Amma İsa əyilib barmağı ilə yerə yazı yazmağa başladı. Ondan təkrar soruşduqları zaman dikəlib onlara dedi: "Sizdən kim günahsızdırsa, qadına birinci daş atsın". Sonra yenə əyilib yerə yazı yazdı. Bu sözləri eşidənlər başda ağsaqqallar olmaqla bir-bir oradan uzaqlaşdılar. İsanı tək qoydular, qadın da ortada idi. İsa dikəlib ona dedi: "Qadın, onlar hara getdilər? Bəs heç kim səni məhkum etmədi?" Qadın "heç kim, Ağa" dedi. Onda İsa dedi: "Mən də səni məhkum etmirəm, get daha günah etmə".*[79]

Müsəlman dostlarımla etdiyim söhbətlərdə mənə tez-tez sual verirlər: "Xristianlıq çox asan deyil? Sizə ancaq günahlarınızı etiraf etmək və sonra gedib yenidən günah etmək lazımdır."
Tam əksinə. İsa Məsih zina edən qadına düzgün cavab verdi: "get daha günah etmə!"

Beləliklə, bu yoldakı ən vacib hissələrdən birinə çatdıq. İsa cinsi əxlaqsızlığa göz yumurmu? Heç bir halda! Başqa bir gün, İsa bir insana sadəcə ürəyində şəhvətlə baxmağın zina etmək qədər günah olduğunu dedi. Başqa sözlə desək, müqəddəs Yaradanın nəzərində gizli bir fikir əməl qədər günahdır. İsa tarixdə hamıdan daha yüksək təmizlik standartı qoydu.

Bəs niyə qadını cəzasız buraxdı? Özü günahsız olduğu üçün onu daşqalaq etməyə haqqı yox idi? Yeşaya peyğəmbər günahın cəzası ilə bağlı Allahın köklü həllini belə izah etdi:

*"Bizim üsyankarlığımıza görə*
*Onun bədəni deşildi,*
*Şər əməllərimiz naminə əzildi,*
*Bizim əmin-amanlığımız üçü O cəza aldı,*
*Onun yaraları ilə biz şəfa tapdıq."*[80]

Allahın Quzusu olan İsa Məsih, əxlaqsız qadının canını almalı olan daşların önünə sanki özünü atdı. Qadının yaraları Onun yaraları oldu. Qadının məhkum olduğu cəzanı Məsih öz üzərinə götürdü.

Bu yol cinsi azadlığa gətirib çıxarırmı? Bu ağrı və əzab çəkmədən məhdudiyyətsiz cinsi əlaqədə olmaq üçün cinsi sığorta müqaviləsi almaq kimidirmi? Bu, uşağa odla istədiyi qədər oynaya biləcəyini, eyni zamanda yanmayacağını söyləmək kimidirmi? Məgər bu səbəbdən "Qərb Xristianlığı" bu qədər korlanıb?

Xeyr. Cinsi günahın bu həyatda nəticələri var. Bu nəticələr, cinsi yolla ötürülən xəstəliklər, abort edilmiş uşaqlar, sevilməyən uşaqlar, inamın itirilməsi və zədələnmiş nüfuz ola bilər. Bundan əlavə, İncil insanları məhəbbətlə xəbərdar edir ki, cinsi günah-hər hansı bir günah, Allahdan əbədi ayrılığa səbəb olur. Allahın bizə vermək istədiyi azadlıq ümidini axtarmalıyıq.

## Ərlər arvadları ilə necə davranmalıdırlar (Surə 4:34)

Evlilik necə müəyyən edilir? İş ortaqlığımı, uşaq istehsal edən fabrikmi, insanların bir yerdə yaşaması üçün otelmi? Evliliyə kim cavabdehdir? Surə 4:34-cü ayədə deyilir:

79. İncil, Yəhya 8:4-11
80. Peyğəmbərlər, Yeşaya 53:55

*“Allahın insanların bir qismini digərlərinə üstün etməsinə və öz mallarından (qadınlar üçün) sərf etdiklərinə görə, kişilər qadınların idarəçisi və himayədarlarıdır. Əməlisaleh qadınlar itaətkardırlar. Allah onları qoruduğu üçün onlar da gizli olanı (namuslarını) qoruyarlar. Özbaşınalıq etməsindən qorxduğunuz qadınlara gəlincə, onlara nəsihət edin, (yola gəlməzlərsə,) yataqda onları yalnız buraxın və (yenə yola gəlməzlərsə,) onları döyün! Əgər sizə itaət edərlərsə, artıq onlar üçün başqa bir yol axtarmayın! Şübhəsiz ki, Allah ucadır, böyükdür.“*

Bu ayə evdə kişinin rolu ilə bağlı möhkəm mövqe tutur. Kişilər arvadlarının idarəçisi olmasını, itaətsizliklırinə görə yataqlarını ayırmağı və hətta tələb olunursa onları döyməklə cəzalandırmasını belə həvalə edir.

Dünyadakı evliliklərə baxanda görəsən sevginin evliliklə əlaqəsi varmı deyə düşünürəm. İsanın dodaqlarından sevən ər və arvadın gözəl təsvirini oxuyuruq. Allah İsa Məsihə hörmət edərək ər və arvadlara bir-birlərinə itaət etməyi əmr edir. O, ərləri həqiqətən cəngavər bir məhəbbətlə fədakarlığa çağırır. Fədakar sevgi ilə idarə olunan ərlər, qadınları üçün canlarını verirlər. Ər sığınacaq və yeməklə təmin etməklə yanaşı, arvadının istəklərini öz istəklərindən üstün tutmalıdır.[81]

İnanılmaz!? Praktik deyil!? Bir dəfə mən bir filmə baxdım, ər özünə idman qayığı almaq üçün 20.000 dollar yığmışdı. O, yanğınsöndürən olduğu üçün, ölüm təhlükəsi ilə tez-tez üzləşdiyi və çox işlədiyi üçün özünü sevindirməli olduğunu düşünürdü. Eyni vaxt həyat yoldaşının yaşlı atasının müalicəsini evdə davam etdirmək üçün yeni tibbi çarpayıya ehtiyacı var idi. Yatağın qiyməti tam 20. 000 dollar idi. Uzun aylar, ər eqoistcəsinə yeni bir qayıq arzusunda idi və əmanətlərini yeni çarpayıya xərcləmək onun ağlına da gəlmirdi. Özünü birinci yerə qoyarkən, arvadı quruyurdu. Nəhayət, o, eqoist ərini tərk etməyi xəyal edərək iş yerindəki kişiyə maraq etməyə başladı. Ər evliliyinin çox dəhşətli vəziyyətə gəldiyini başa düşüb tövbə etdi. İlk etdiyi iş 20. 000 dolları götürüb gizlicə qayınatası üçün yeni çarpayı almaq oldu. Qadın ərinin fədakarlığından xəbər tutanda, yenidən evlilik atəşi ürəyində alovlandı.

## Doğru yoldan çıxmaq (Surə 4:44)

Məhəmməd Ərəbistanda yaşadığı zamanda, minlərlə kilometr şərqdə isə hindular və buddistlər yaşayırdı. VI əsrdə onların ərəblərlə demək olar ki, heç bir əlaqəsi yox idi. Amma bir çox kitab əhli (yəhudilər və xristianlar) Yaxın Şərqdə və Şimali Afrikada yaşayırdı. Karvanları dayanmadan oradan keçdiyi üçün müntəzəm olaraq aralarında əlaqə yaranırdı. Onlar səhralarda və sahil boyu səpələnmiş kəndlərdə yaşayırdılar. Quranda bəzilərinin yanlış fikirlər təbliğ etdiyi bildirilir. Surə 4:44:

*“Özlərinə kitabdan bir pay verilmiş kimsələri görmədinmi?! Onlar (haqq yolun əvəzinə) zəlaləti satın alır və sizin də (haqq) yoldan çıxmağınızı istəyirlər.“*

Təbii ki, bəziləri həqiqətən belə idi! Tarix göstərir ki, bir çox insan Tövrata, Peyğəmbərlərə və İncilə rəğmən hər cür qəribə fikirlərə qapılmışdılar. Məsələn, bəziləri İsa Məsihin evləndiyini və uşaqları olduğunu öyrədirdi. Digərləri Məryəmi super ilahi səviyyəsinə qaldıraraq ona və digər ölmüş insanlara dua etməyə başlamışdılar.

81. İncil, Efeslilərə məktub 5:22 – 23

Səhvlər yalnız həqiqət olduqda ortaya çıxa bilər. Real pul olmasaydı, saxta pul deyə bir şey olmazdı. Riyaziyyatda 2-nin üstünə 2 gəldikdə 5-ə bərabər olduğunu söyləmək kimi səhv olmazdı, əgər 2-nin üstünə 2 gəldikdə 4-ə bərabər olduğuna dair doğru ifadə olmasaydı. Səhvlərin olması həqiqətin varlığını sübut edir. Yəhudilər və xristianlar müxtəlif səhvlərə yol versələr də, bu, Tövratın, Peyğəmbərlərin və İncilin etibarlılığını dəyişdirmir. Əks halda, Quran niyə kitab əhlinə öz kitablarına etibar edə biləcəklərini bildirsin?

## Bağışlanılmayan günah (Surə 4:48)

Bağışlanılmayan günah nədir? Qətl deyil. Zina deyil. Oğurluq deyil. Kiminsə insan hüquqlarının pozulması deyil. Quranın bu ayəsinə görə bağışlanılmayan günah bütpərəstlik və ya Allaha şərik qoşmaqdır.

*"Şübhəsiz ki, Allah Özünə şərik qoşulmasını bağışlamaz. Bunun xaricindəki günahları, dilədiyi kimsə üçün bağışlayar. Kim Allaha şərik qoşarsa, həqiqətən, o, böyük bir günahla (Allaha) iftira atmış olar. "*

Xristianlar və yəhudilər bütpərəstliyin dəhşətli bir günah olduğunu qəbul edirlər. Bu dəhşətli günahı edən kimdir?

Məkkəlilər Allahı Məhəmməd doğulmazdan əvvəl də tanıyırdılar. Məhəmmədin atasının adı Abdullah idi. "Allah" sözü Məhəmməddən yüz illər əvvəl yazılmış sənədlərdə tapılıb.[82] Allah "Ən Uca" deməkdir. Bütpərəst ərəblər Allahın ən böyük Allah olduğuna inanırdılar.

Məhəmməd öyrədirdi ki, Kəbə ərəblərin ana vətəni olan Məkkənin tam mərkəzində İbrahim və İsmayıl tərəfindən tikilib. O halda, ərəblər qədim zamanlardan bəri Allahı tanıyırdılar. Və bununla belə, Kəbəni bütlərlə doldurmuşdular. Onlar Allahı bildikləri halda, bütpərəstliyə davam edirdilərsə, bağışlanılmayan günaha görə günahkar deyildilərmi?

Gəlin bu barədə düşünək. Əgər bu Məkkəlilər Allaha ibadət etməklə yanaşı tanrılar da yaradıblarsa, Allah onları necə bağışlaya bilər?

Ola bilsin ki, bu ayə Məhəmmədin mesajını eşitdikdən sonra bütlərə sitayiş etməyə davam etdiyi təqdirdə, Allahın onu bağışlamayacağını ifadə edir. Bəs bu halda, Məhəmmədin xəbərdarlığını eşitdikdən sonra bağışlanmayan günah işləməyə davam edən bütpərəstləri nə üçün Quran tövbə etməyə çağırır?

Bəs İsanı, Allahın yanında ikinci tanrı etməkdə ittiham olunan xristianlar necə olacaq? Əgər xristianlar həqiqətən iki və ya üç tanrıya ibadət edirlərsə, onlar bağışlanmayacaqlarmı? Əgər belədirsə, niyə onlar dəfələrlə tövbəyə çağırılır?

Bu ayədən kimin bağışlanma ala biləcəyini anlamaq çətindir. Kimsə nə vaxtsa yalançı bir tanrı qoyub, onu Allah ilə eyni səviyyəyə və ya daha yüksəklərə qaldırıbsa, görünür, nə qədər tövbə etməyə çalışsalar da, birbaşa cəhənnəmə gedəcəklər.

Xristianlar bağışlanmayan günahın olması ilə razılaşırlar. İsa onu belə təsvir edir.

*"Hər bir günah və hər bir küfr insanlara bağışlanacaq amma Ruha qarşı küfr bağışlanmayacaq"*[83]

82. Ərəb və İslam yazıları: Ərəb epiqrafiyasının nümunələri, http://www. islamic-awareness. org/History/Islam/Inscriptions/, 2018-ci ilin fevralında əldə edilib.
83. İncil, Matta 12:31

İsa bir az əvvəl insandan cinləri qovmuşdu və din adamları onu şeytanın gücü ilə cinləri qovmaqda ittiham etdilər. Onlar Allahın Ruhunun İsa vasitəsilə möcüzələr göstərdiyini görməkdən imtina etdilər. Onlar İsaya etibar etməyə çağıran Allahın Ruhuna qarşı çıxdılar. Beləliklə, İsa deyir ki, Allah Onun Ruhuna qarşı çıxan insanlara rəhm edə bilməz. Qatılaşmış ürək bağışlanmağa ehtiyacı inkar edir. Təvazökar bir ürək artıq Allaha "Xeyr" deyil, ona "Bəli" deyir.

## Şəfaətçi (Surə 4:64)

Kimsə başqası adına Allahdan bağışlanma diləyə bilərmi? Quran bir çox yerdə şəfaətçilərdən çəkindirir. Bununla belə, Surə 4:64-cü ayə bu ehtimalı açıq qoyur.

*"Biz hər bir peyğəmbəri,-Allahın izni ilə-yalnız özünə itaət olunması üçün göndərdik. Əgər onlar, özlərinə zülm etdikləri zaman sənin yanına gəlib Allahdan bağışlanmaq diləsəydilər və Peyğəmbər də onlar üçün əfv istəsəydi, əlbəttə, Allahın, tövbələri qəbul edən və mərhəmətli olduğunu görərdilər."*

*Şəxsi rüsvayçılığın kölgəsi, qiyamətə qədər bir şəxs xaric hər bir insanın üzərinə düşür.*

Kainatın Ən Müqəddəs Uca Yaradıcısının hüzuruna hansı insan gələ bilər? Hansı insan cənnətdəki taxt otağına layiqdir? Tamamilə günahsız bir insan başqasının müdafiəsinə qalxa bilərmi? Bəs əgər şəfaətçi öz günah yükünü daşıyırsa və özü də şəfaətçiyə ehtiyac duyursa? Məsələn, Adəm Allaha yaxınlaşıb qardaşı Habili öldürən oğlu Qabilə şəfaət etsə, Allahın cavabı nə olar? "Adəm, qadağan olunmuş meyvəni xatırlayırsanmı? Onu yemisənmi?" Adəm heç vaxt utanc hiss etmədən ən müqəddəs Allaha yaxınlaşmazdı. Şəxsi rüsvayçılığın kölgəsi, dövrün sonuna qədər bir nəfər xaric hər bir insanın üzərinə düşür. Başqası üçün Allahdan bağışlanma diləyən insanların problemi budur.

## Müharibə etmək istəməyənlər (Surə 4:74-78)

Bir şəxs siqareti tərgitmək üçün mübarizə aparırsa, bədəni başqa bir rahatladıcı nəfəs almaq istədikdə əzab və ağrı hiss edə bilər. Bu adam nəfsi ilə mübarizə aparır.

İslamın ilk dövrlərində, müsəlmanlar fərqli mübarizə aparırdılar. Onlar Ərəbistanın günəşli qumlarında şeytanın dostları hesab etdikləri kəslərlə Allah yolunda vuruşurdular. Ancaq ilk möminlərdən bəziləri ölmək və yaralanmaq riskinə girmək istəmirdilər. Onlardan bəziləri "Allahdan çox insanlardan qorxurdular". Quran bu qorxaqları danlayır. Döyüş meydanından uzaqda qalalarda gizlənə bilməyəcəklərini deyir, çünki Tövbələri qəbul edən və Rəhmli Allah olanların hətta orada da canlarını ala bilər.

95-ci ayədə daha sonra deyilir ki,

*Allah yolunda vuruşan mömin evdə oturan mömindən daha üstündür. Kim döyüşürsə, xüsusi mükafat alacaqdır.*

Möminlər, çətin də olsa mübarizəni davam etdirməyə çağırılır. Ayə 104: (Düşmən) qövmlə (döyüşmək) istəyiniz barəsində zəiflik göstərməyin! Əgər siz acı çəkirsinizsə, bilin ki, onlar da sizin kimi acı çəkirlər. Üstəlik siz onların ümid etmədikləri şeyləri Allahdan ümid edirsiniz. Allah hər şeyi biləndir, hikmət sahibidir. Mən görürəm ki, bu misraları siqareti tərgitməyə çalışan bir insanın simvolik mübarizəsi kimi qəbul etmək olar, amma əsl niyyət hərbçilər arasında fiziki döyüş ilə bağlıdır.

## İbrahim Allahın dostudur (Surə 4:125)

Yaxşı əməl sahibi olub özünü Allaha təslim edən və İbrahimin hənif dininə tabe olan kimsədən din baxımından daha gözəl kim ola bilər. Allah İbrahimi Özünə dost tutmuşdur.

İbrahimi bu qədər xüsusi edən nə idi? Quran onu "Allahın dostu" adlandırır. Allah şəxsən onu çağırmış və ona xüsusi bir mükafat vəd etmişdi. İncil deyir ki,

*"İbrahim Allaha iman etdi və bu ona salehlik sayıldı."*[84]

O, ilk qurbanını kəsməzdən əvvəl, hər hansı bir yaxşılıq etməzdən əvvəl, vəd edilmiş diyara girməzdən əvvəl, ilk etdiyi şey Allaha güvənmək oldu. Nəticədə Allah onu saleh saydı. Niyə? Çünki İbrahim gələcəyə baxırdı, orada Allahın vəd edilmiş mükafatını görürdü. O, üfüqdə Məsihin gəlişini gördü. İsa Məsihə güvəndi və sevindi.

## Yəhudilər İsanı öldürmədilər (Surə 4:153-161)

Bu parça İbrahimin övladlarının necə böyük bəlaya düşdüyündən bəhs edir. Onlar əhdi pozdular, ayələri rədd etdilər və Allahın elçilərini öldürdülər. Əvvəlki kitablardan bilirik ki, İbrahimin övladları bəzən peyğəmbərləri inkar edib öldürürdülər. İsa, əcdadlarının qədim peyğəmbərləri öldürdüyü kimi, dini adamlarını da onu öldürmək istədiklərinə görə qınadı.[85]
Xristianlar üçün Surə 4:157-158-ci surə Quranın ən maraqlı təfsirlərindən biridir. Və deyilir:

*"(Onları lənətləməmizin bir səbəbi də,) "Biz Allahın elçisi Məryəm oğlu İsa əl-Məsihi öldürdük!"-demələridir. Halbuki, onu (İsanı) nə öldürdülər, nə də çarmıxa çəkdilər. Lakin onlara o (öldürdükləri şəxs), (İsaya) bənzər şəkildə göstərildi. Onun haqqında ixtilafda olanlar, əlbəttə, şübhə içərisindədirlər. Ona dair onların əlində heç bir (doğru) bilgi yoxdur. Onlar ancaq zənnə qapılırlar. Onu (İsanı) qətiyyən öldürmədilər. (Allah İsa peyğəmbəri, onu öldürmək istəyən yəhudilərin əlindən xilas etmiş, İsa peyğəmbərin yerini xəbər verərək ona xəyanət edən adamı İsa peyğəmbərə bənzər şəkildə göstərmiş və onlar da İsa peyğəmbərin əvəzinə onu öldürmüşdülər.) Əksinə, Allah onu (İsanı) Özünə (Öz dərgahına) qaldırmışdır. Allah yenilməz qüvvət və hikmət sahibidir."*

Düşünün ki, mən bu ayəni bütün təfsir və rəyləri eşitmədən ilk dəfə oxuyuram. Bunu günahsız bir uşağın gözü ilə oxuya bilsəydim, nə düşünərdim?

Bir anlıq geri addım ataraq görürəm ki, İncil İbrahimin övladlarının İsanı özlərinin öldürdüyünü və ya çarmıxa çəkdiyini öyrətmir. Cinayətkarı taxta çarmıxa mismarlamaq Roma ixtirası idi. Yəhudilər insanları daşqalaq edərək edam edirdilər. Davud, İsa Məsih öldürülən zaman onun sümüklərinin heç birinin qırılmayacağını bildirmişdi.[86] Daşlanaraq ölüm demək olar ki, İsanın sümüklərini sındıracaq və peyğəmbərliyi etibarsız edəcəkdi.

Peter ilk vəzində İbrahimin övladlarına nida etdi:

*"Allahın əzəldən bilib müəyyən etdiyi məqsədə uyğun olaraq siz bu Şəxsi qanunsuzlara təslim edib onların əli ilə çarmıxa mıxlatdıraraq öldürdünüz. Allah isə ölüm əzablarını kəsərək Onu diriltdi. Çünki Onu ölüm tutub saxlaya bilməz."*[87]

84. İncil, Romalılara 4:3
85. İncil, Luka 11:47 "Vay halınıza! Çünki peyğəmbərlərə məqbərələr tikirsiniz, amma onları sizin ata-babalarınız öldürdülər"
86. Zəbur 34:20 Rəbb Onun hər bir sümüyünü qoruyur, Heç biri zədələnməz.
87. İncil, Həv. işləri 2:23-24

Din adamları İsanın ölümünü tələb etsələr də, İsanı özləri öldürmədilər. Bütpərəst romalılar İsanı çarmıxa çəkdilər. Nəhayət, Allah İsanı ləkəsiz və qüsursuz, Allahın qurbanlıq Quzusu kimi qurbangaha gətirdi.

Quranda mürəkkəb bir ifadə belə səslənə bilərdi: "…amma bu ancaq onlara elə göstərildi." Bu o deməkdir ki, Allah İsanın yerinə başqasını çarmıxa göndərməklə onları aldatmışdır? Bəs bu, Allahı yalançı etməzmi? İsanın yerini kim tutdu? Xain Yəhuda İskaryot? Başqa adammı? Bir mələkmi? Cinmi? Bunlar təmiz fərziyyələrdir. Quran bu mövzuda susur.

Quranın susduğu yerdə İncil danışır. Orada deyilir ki, İsa Özü çarmıxda çəkilib və ölüb, dostları onun cəsədini üç gün müddətinə məzara təslim ediblər. Bu müddət ərzində yəhudi din adamları, İsadan qurtulduqlarını zənn etdilər. İsa öldü və üç gün dəfn edildi, lakin tamamilə məhv edilmədi. Böyük iztirablardan sonra böyük şöhrət gəldi. Üçüncü gün o, ölülər arasından dirildi. O, diridir!

Bu hadisəni sadə qaydada nəzərdən keçirək:
1. Yəhudi rəhbərləri İsanı öldürmək istədilər.
2. İnsanlar İsanın çarmıxda öldüyünü gördülər.
3. Yəhudilər hiylələrinin baş tutduğunu düşündülər.
4. Allah İsanı ölümdən diriltdi.

Quran 3:55 və 4:156-157 ayələrini öyrənərək, İsanın yer üzündəki son günləri ilə bağlı Tövrat, Peyğəmbərlər və İncillə bu əlaqə nöqtələrini görürük.

1. Paxıl yəhudi din adamları, atalarının əvvəlki elçiləri öldürdükləri kimi, onlar da İsanı öldürmək istədilər.
2. Çarmıxa çəkilmə yəhudilərin deyil, Roma adəti idi.
3. Kimin yaşayıb kimin öləcəyi ilə bağlı qərarları verəcək insanlar deyil, Allahdır. Hər şey tam Allahın nəzarətindədir.
4. Üç gün ərzində onların planı uğurlu kimi göründü, lakin sonra Allah İsanı diriltdi.
5. Qırx gün sonra İsa Məsih göylərə qayıtdı.

İncildə və ya Quranda olmayan bir şeyi söyləmək və ya iddia etmək mənə qətiyyən maraqlı deyil. İncilə gəlincə, bu risk o qədər də böyük deyil, çünki o, İsanın çarmıxa çəkilməsi, dəfn edilməsi və dirilməsi haqqında ətraflı şəhadət verir.

Cinayət işlərində məhkəmə sənədləri kimi, Müqəddəs Kitab da baş verən hər şeyi ən incə şəkildə təfərrüatlarına qədər göstərir. Pis insanlar Məsihin üzünə tüpürdülər, qamçı ilə döydülər, Onun əllərini ayaqlarını çarmıxa mıxladılar, başına tikanlı tac taxdılar. Ağrılardan zəif düşmüş bədəni nəfəs almağa dözə bilmirdi. O, axırda ciyərlərinə dolan bədən mayesindən boğuldu. Ölümünü təsdiq etmək üçün, Romalı əsgər Onun böyrünü nizə ilə deşdi, oradan qan və su axdıqda ölümü təsdiqləndi

4:157-158-ci ayələr pərdəni bir az qaldırır. O, bəzi suallara cavab vermir, lakin İncildə oxuduğumuz hər şeyi bizə xatırladır. Nə qədər çalışsaq da, bəşəriyyət İsanı məhv edə bilmədi. Üç qaranlıq gün ərzində O, ölmüş peyğəmbər kimi idi. Amma üçüncü gün ölüm aradan qalxdı. İsa Məsih yox edilməyən, izzətlənmiş bədəndə dirildi və dirildiyini ardıcıllarına sübut etdi. Sonra Cənnətdəki evinə qayıtdı. Yenidən qayıdana qədər orada olacaqdır.

## "Üçdür" deməyin! (Surə 4:171)

Xristianlara xəbərdarlıq! "Üç" deməyin. Xristianlar monoteizmdən (Tək Allaha ibadətdən) uzaqlaşaraq triteizmə (üç Allaha ibadət) keçməkdə ittiham olunurlar.

*Ey kitab əhli (ey xaçpərəstlər), öz dininizdə həddi aşmayın və Allaha qarşı haqq və həqiqətdən başqa bir şey deməyin («Allah allahlıqdan İsanın vücuduna çevrilmişdir» və ya «Allah ruh kimi İsanın bədəninə daxil olmuşdur» deməyin). Həqiqətdə Məryəm oğlu İsa Məsih Allahın elçisi, Məryəmə təlqin etdiyi bir kəlmə («ol!» kəlməsi ilə onu Məryəmin bətnində yaradıb) və Onun tərəfindən olan (və canlara həyat bəxş edən) bir ruhdur. Odur ki, Allaha və Onun peyğəmbərlərinə iman gətirin və « (Allah) üçlükdür (Allahın zatının cövhəri üç mövcuda-ata, oğul və Ruhul-Qudusa bölünüb)» deməyin. (Bu sözdən) çəkinin ki, sizin xeyrinizədir. Həqiqətən, Allah tək olan tanrıdır, övladı olmaqdan pak (və uzaq)dır. Göylərdə və yerdə olanlar Onun həqiqi mülküdür. Allah (varlıq aləminin işlərini) düzəltmək üçün kifayətdir.*

Amma 171-ci ayəni oxuyanda deyirəm: "Amin". Mən İsanın elçi olduğuna, insan vücudunda Məryəm vasitəsi ilə dünyaya gəldiyinə, Allahın kəlamı olaraq (Kəlimətullah) və Ruhunun əbədi olaraq Allahdan gəldiyinə (Ruhalla) inanıram.

Nə mən, nə də İncilə inanan bir kəs, Allahdan başqa bir tanrı olduğuna inanmırıq. Allah birdir.

"Bir saniyə dostum" dedi mənə, "amma mən sənin üç (Üçlü Birlik) dediyini dəfələrlə eşitmişəm.

"Bəli, mən səni başa düşürəm" deyə cavab verdim. - Amma mən üç tanrıdan danışmıram.
"Bəs Üçlüyün sirri nədir? Bu bütpərəstlik (şirk) deyilmi?"

Xristianlar Allahın, kişi və qadın bir uşaq dünyaya gətirdikləri kimi övladı olduğuna inanmırlar. Bunlar üç fərqli varlıqdır. Yenə də mən öz fikirlərimi Quran ayələrinin mənasına daxil etmək istəmirəm. İsa Allahın Kəlamı adlanır.[88] İsa bənzərsiz olaraq Allahın Ruhundan törəmişdir, lakin o, fiziki olaraq atasının iştirakı olmadan dünyaya gəlmişdir.[89] Bundan başqa, İncildə biz İsanın xüsusi titulu - "İmmanuel" haqqında öyrənirik ki, bu da "Uca Allah bizimlədir" deməkdir.[90]

Xristianlar bununla razılaşırlar: "Üç tanrı!" deməyin. Haram! Bunun əvəzinə nə deyirik? Biz Yaradan Allahın tamamilə ilahi olduğuna inanırıq, lakin bu, Allahın bütün tamlığı deyil. Allah kəlamı tamamilə ilahi olduğuna inanırıq, lakin bu, Allahın bütün tamlığı deyil. Allah-Ruh tam Allahdır, lakin bütün tamlığı deyil. Yaradan Allah, Söz və Ruh bir-birindən ayrılmaz əlaqədə, tək varlıq olaraq öz mahiyyətinin tamlığı ilə mövcuddur. Əbədi və kamil Allah öz daxilində əvvəli və sonu olmayan sevgi və birlik içində varolmuşdur. Mən Allahın birlik anlayışını belə başa düşürəm. Ona əbədi olaraq həmd olsun.

"Yox, yox, yox," dostum emosional şəkildə etiraz edərək təkid etdi, "sən deməyə çalışırsan ki, 1+1+1=1! Bu xristian riyaziyyatıdır?

Bu riyaziyyat nümunəsi alma, portağal və banan kimi üç ayrı obyektdən bəhs edir. Xristianlar üç ayrı tanrının birləşərək bir tanrı yaratmasına inanmırlar.

Belə bir məsəl təsəvvür edin. Günəş işığına addımlayın. İşığı görürsən, istilik hiss edirsən və dəri görünməz şüalanmadan yanır. Bu üç dalğa mükəmməl vəhdətdə birinə bərabərdir.

88. İncil, Yəhya 1:1
89. İncil, Luka 1:35
90. İncil, Matta 1:23

Başqa bir müsəlman buna etiraz etdi: "Bəs nə üçün 4:172-ci ayədə əl-Masih "Allaha ibadət etməyi özünə ar bilmir" deyir? Bu, onun yaradılış olduğu anlamına gəlmir?"

"Bəlkə elə deyilir". Əgər belədirsə, bütün hörmətimlə, sizinlə razılaşmıram. İncil, İsanın Allahı necə sevdiyini və Allaha həmd etdiyini, həm də Allahdan gəldiyini etiraf edir. Bu necə ola bilər? Bəlkə də cavab Allahın Özünü ucaltması və həmd etməsi həqiqətində gizlənir. Zəbur deyir:

*"Gəlin mənimlə birgə Rəbbi müqəddəs tutaq,*
*Rəbbin ismini birgə ucaldaq."*[91]

Allah mələkləri, insanları, göyü və yeri yaratmazdan əvvəl əbədi var idi. Allah Öz İradəsi, Sözü və Ruhu ilə Özünü tam dərk edir. Onun heç nəyə ehtiyacı yoxdur. O, əbədi və tam sevgidir. Allah Öz daxili İradəsi, Sözü və Ruhu ilə mükəmməl sevgi vəhdətində yaşayır.

"Bu mümkün deyil!" dostum əllərini yuxarı qaldıraraq cavab verdi.

Bunun mümkün olmadığına əmin deyiləm. Hətta özümdə belə görürəm ki, ağlım (düşüncəm) ürəyimlə (duyğularımla) necə birdir, amma elə vaxtlar olur ki, onlar iki fərqli şəkildə işləyir və beləliklə də bir-birinə xidmət edir. Ağlım duyğularıma dəyər verir, duyğularım isə ağlıma xidmət edir. İnsanlar ağıl, bədən və ruhdan ibarətdir. Bu məni üç ayrı insana ayırır? Əlbəttə yox. Amma bu, məni məsələn, ağacdan daha möhkəm və güclü edir.

# 5-ci fəsil | Haram və halal (Surə 5:1-5)

Rəhman və Rəhim olan Allahın adı ilə

Ciddi yemək qaydalarına Tövratda, İncildə və Quranda rast gəlmək olar. Məsələn, Tövrat donuz yeməyi qadağan edir. Quran da "ölü ət, qan, donuz əti və Allahdan başqa ilahilərin adına kəsilən qurban əti" kimi bir çox şeyi qadağan etmişdir. İncil yeni xristianlara təlimat verir "bütlərə təqdim olunan qurbanların ətini, boğularaq öldürülən heyvanların ətini və qan yeməsinlər, həmçinin özlərini əxlaqsızlıqdan saxlasınlar"[92]. İsanın göylərə qayıtmasından az sonra dostu Peter təəccüblü bir şey ilə qarşılaşdı. Dua edərkən özündən gedən Peter təsirli bir görüntü gördü. Göydən hər cür heyvanla dolu nəhəng bir parça endi. "Qalx Peter kəs və ye" dedi Allah. Peter qəti şəkildə imtina etdi. "Heç vaxt mənim ağzıma nə haram, nə də murdar bir şey dəyməyib" Və bu üç dəfə təkrarlandı. Yenə göydən səda gəldi: "Allahın halal dediyi şeylərə sən haram demə"[93]
İncil yemək və içmə ilə bağlı əsas təməl müəyyən edir. Hər şey Allah və qonşu sevgisi ilə edilməlidir.[94]
İncildə, Korinflilərə məktub 10:31 deyir: "Beləliklə, nə yeyirsinizsə, nə içirsinizsə, nə edirsinizsə, hər şeyi Allahın izzəti üçün edin"

Allahı sevmək bədənimizin qayğısına qalmaqdan ibarətdir.[95] 70-ci illərdə Roma əsgərləri İsanın bildirdiyi kimi Qüds məbədini tamamilə yerlə bir etdilər. Allah daha insan əli ilə tikilmiş məbəddə yaşamayacaq. Bədənimiz Onun məbədi olacaq. Bədənimiz müqəddəsdir.

91. Zəbur 34:3
92. İncil, Həvarilərin işləri 21:25
93. İncil, Həvarilərin işləri 11:5-10
94. İncil, Romalılara məktub 14:21
95. İncil, 1Korinflilərə məktub 3:16 "Məgər bilmirsiniz ki, siz Allahın məbədisiniz və Allahın ruhu sizdə yaşayır?"

Allaha olan sevgimizdən bədənimizi murdar və məhv etməməliyik. Acgözlükdən, sərxoşluqdan, tənbəllikdən, tütün və narkotik kimi zərərli və təhlükəli maddələrdən uzaq olmalıyıq. Allahın insandakı məbədi üçün zərərli olan hər nə varsa günah sayılır.

Qonşunu sevmək onun ehtiyaclarına və hisslərinə həssas olmaq deməkdir. Əgər qonşum şərab içməyi xoşlamırsa, ona olan məhəbbətimdən, şərab içməməyə qərar verərəm.

Bir axşam həyat yoldaşımı yeni Asiya restoranına apardım. Qonşu masada oturanların nəhəng bir qabda buxarda bişirilmiş ət və tərəvəz yediklərini müşahidə edirdik. Hələ sifarişimizi verməmişdik və bu yemək çox ləzzətli görünürdü, ona görə də ofisiantdan soruşdum: "Bu nədir?" "İt əti" deyə gülümsəyərək cavab verdi.

Şəxsən it əti yemək mənə xoş deyil, amma İncil bunu günah saymır. Koreyalı xristian dostlarım bilirlər ki, mən it ətindən özümü narahat hiss edirəm, ona görə də mənə olan məhəbbətlərindən mənim yanımda yemirlər. Başqalarına olan məhəbbətimiz qərarlarımıza rəhbərlik edir.

## Dəstəmaz (Surə 5:6)

Su həyatın ən böyük hədiyyələrindən biridir. Yüksək dağ meşələrində qayaların altından buzlu sular axır. Dünyanın əvvəlindən şeh kimi saf su, təmizləyir, təravətləndirir, yaraları sağaldır. Tövrat, Peyğəmbərlər, İncil və Quran müxtəlif yuyunma növlərini buyurur. Yaxın Şərqdən Hindistana səyahət edərkən, milyonlarla Hindunun müqəddəs Qanq çayına girərək günahdan, ölüm və yenidən doğulma dövründən xilas olmaq üçün yuyunduqlarını görə bilərik. Bir çox başqa dinlər pislikdən qurtulmaq müqəddəsliyə sığınmaq üçün yuyunma ritualları edirlər.

Surə 5:6-cı ayədə müsəlmanlara göstəriş verilir:

Ey iman gətirənlər! Namaza duracağınız zaman üzlərinizi, dirsəklərlə birlikdə əllərinizi yuyun və başınıza məsh çəkib ayaqlarınızı topuqlarla birlikdə yuyun. Əgər cünub olmusunuzsa, yaxşı-yaxşı təmizlənin (bütün bədəninizi yuyaraq qüsl edin).

*Eyni nigah və ya sünnət kimi, Məsihdə müqəddəs təmizlənmə böyük sevinc və ümid anıdır.*

Su ilə yuyunmağın fiziki sağlamlıq üçün böyük faydaları var. Təkcə son 200 ildə həkimlər əməliyyatdan əvvəl yuyunmanın infeksiya və ölümün qarşısını aldığını aşkar ediblər. Müasir tibbi təcrübənin meydana çıxmasından əvvəl xəstəxanalar yer üzündəki ən çirkli və ən təhlükəli yerlərdən biri idi. Yuyunmaq həyat xilas edir. Yuyunmaq insanı sağlam saxlaya bilər, bəs onun ruhani dəyəri nədir? Dini yuyunma bizi dünya günahından ayırıb Allaha bağlaya bilərmi?

Bir gün din adamları İsanın yanına gəlib şikayət etdilər: “Nə üçün şagirdlərin ağsaqqallardan qalan adət ənənəni pozur və çörək yedikləri zaman əllərini yumurlar?” İsa tez məsələnin mahiyyətini başa düşdü.

“Qulaq asın və dərk edin. Ağıza daxil olan şey insanı murdar etməz, amma insanı murdar edən ağızdan çıxan şeydir”.96

İnsanın ürəyində nələr var? Bunu ən yaxşı İsa bilir:

*“Çünki ürəkdən pis fikirlər, qatillik, zinakarlıq, cinsi əxlaqsızlıq, oğurluq, yalançı şahidlik və küfr çıxar. İnsanı murdar edən şeylər bunlardır. Yuyulmamış əllərlə yemək isə insanı murdar etməz”.*97

Burada iki məqam var. Birincisi, qəlbin ruhani natəmizliyini heç bir su təmizləyə bilməz.

İkincisi, bu dərin günah, sadəcə dini ritualları yerinə yetirməməkdən qat-qat ciddidir.

İsa demək istəyir ki, dini qaydaların edilməməsi günah deyil və onun edilməsi də günahı silmir?

96. İncil, Matta 15:11
97. İncil, Matta 15:19-20

İncil müqəddəs yuyunma öyrədirmi?

Bəli, vəftiz haqqında. Bu, İsa ilə ölüm, dəfn və dirilmə simvoludur.

Vəftiz vasitəsilə yeni imanlı insan, İsa ilə məhəbbətli münasibətinə şəhadət edir. Vəftiz, İsa Məsihlə yeni həyata başlayan insanın həyatında yalnız bir dəfə olur. Nikah və ya sünnət kimi, İsa Masihdəki müqəddəs yuyunma böyük sevinc və ümid anıdır.

## Allah-Məsihdir? (Surə 5:17-18)

İsa Məsihin kimliyi ilə bağlı əsas suala qayıdırıq. Məsihlə Allah arasında hansı əlaqə var?

*"Allah Məryəm oğlu Məsihdir!"- deyənlər həqiqətən, kafir oldular. De: "Əgər Allah Məryəm oğlu Məsihi, onun anasını və yer üzündə olanların hamısını məhv etmək istəsə, kim Allaha qarşı bir şey edə bilər? ! Göylərin, yerin və onların arasındakıların hakimiyyəti Allaha məxsusdur. O, dilədiyini yaradar. Allah hər şeyə qadirdir".*

Düşüncələrimdə tamamilə dürüst ola bilərəmmi? Əvvəlcə İncil öyrədir ki, İsanın anası Məryəm sadəcə bir insan idi. Əlbəttə ki, Allah onun bədənini və ruhunu həlak edə bilirdi. Ömrünün sonunda o da hər kəs kimi dünyasını dəyişdi və dəfn edildi.

İkincisi, İncilin heç bir yerində deyilmir ki, "Allah Məsihdir" və Allahın bütün varlığı İsa Məsihin insan bədənində məskunlaşıb. Onun haqqında dedikləri daha qəribə və gözəldir.

Gözəl bir almaz təsəvvür edin. Zərgər onun bir tərəfini güzgü kimi düz kəsir. Başqa bir almaz təsəvvür edin. Zərgər onu üç tərəfdən elə kəsir ki, onun tərəfləri işığı gücləndirsin. Düz almaz bir anda yalnız bir istiqamətə dönə bilər. Digər almazın isə üç istiqamətə baxa bilən tərəfləri vardır. Bir dost bir tərəfə baxıb heyran olarkən, digəri üç tərəfdən həzz ala bilir.

Bu sadəcə sadə bir bənzətmədir. Amma bu çoxşaxəli almaz, bəzən Ata, Oğul və Müqəddəs Ruh adlanan üç sevgi münasibətində parlayan Allahı anlamağa kömək edə bilər.

Daha doğrusu, xristianlar deyirlər ki, İsa Məsih almazın tərəflərindən birini xatırladır. Yalnız bir almaz var, lakin heç bir tərəf bütün almazı təmsil etmir. Necə ki, almazın bir tərəfini göstərib "Almaz bu tərəfdən başqa yoxdur" deyə bilmərəm, İsaya da işarə edib: "Allah yalnız Məsihdir, başqası yoxdur" deyə bilmərəm.

Allah Məsihi "həlak edə" (يُهْلِكَ) bilərmi? İncil deyir ki, məhz belə də olmuşdu. Allahın planı ən başdan bəri İsa Məsihi Allahın qurbanlıq Quzusu kimi ölümə təslim etmək idi. Allahın izni və planı olmadan nə romalılar, nə də yəhudilər İsanı öldürə bilməzdilər. O öldü, amma əbədi ölü olaraq qalmadı.

## Allahın oğulları (Surə 5:18)

Quranda 5:18 belə deyilir: Yəhudilər və xristianlar:

*"Biz Allahın oğulları və sevimliləriyik",-dedilər. De: "Bəs nə üçün günahlarınıza görə O sizə əzab verir? Xeyr, siz də Onun yaratdığı bir bəşərsiniz. O, dilədiyini bağışlayar, dilədiyinə də əzab verər. Göylərin, yerin və onların arasındakıların hakimiyyəti Allaha məxsusdur. Axır dönüş də Onadır".*

Kimdir bu öyünən adamlar? Onlar həqiqi Kitab əhli ola bilməzlər. Tövrat, Peyğəmbərlər və İncil öyrədir ki, bütün insanlıq torpaqdan yaranıb və torpağa qayıdacaq.[98]

98. Həmçinin 5:69-78-ci surəni oxuyun. Əl-Məsihə inananlar, Allahın üç Tanrıdan biri olduğuna inanmazlar. Bu küfürdür. Tövrat, Yaradılış 3:19 "Alın tərinlə çörək yeyəcəksən. Axırda torpağa qayıdacaqsan, Çünki oradan götürülmüsən". İncil, ibranilərə məktub 9:27-28 "Necə müəyyən edilmişdir ki, insanlar bir dəfə ölüb ondan sonra mühakimə olunsunlar, eləcə də Məsih bir çoxlarının günahını Öz üzərinə götürmək üçün bir dəfə təqdim edilmişdir və ikinci dəfə günahın öhdəsindən deyil, xilas gətirmək üçün Onu gözləyənlərə zühur edəcək"

Görəsən yəhudilər və ya xristianlar arasında özlərini yaradılmış insanlardan daha üstün hesab edənlər varmı? Onlar Adəm və Həvvadan başqa ata-anadan gəldiklərini düşünürdülər? Bu mümkün deyil! İncil, Allahla aramızda fərqli bir ruhani əlaqəni ortaya qoyur. Allah ruhdur və onun fiziki oğulları yoxdur. İncil deyir:

*"Lakin Onu qəbul edənlərin hamısına, adına iman edənlərə Allahın övladları olmaq ixtiyarını verdi. Onlar nə qandan, nə bəşər arzusundan nə də kişi istəyindən deyil, yalnız Allahdan doğuldu."*99

Allah insanları ruhən övladlığa götürə bilər. Allahın fiziki forması yoxdur və insan övladı dünyaya gətirmir. İsa Məsihə iman edənlərə övladları olmaq ixtiyarını verdi.

Onlar Adəmdə yaradılmış, torpağa dönəcək adi insanlardır. Amma Allahla əlaqələri yenilənib və düşmənçilik qorxusunun yerinə sevginin təhlükəsizliyini alıblar. Lakin bu, heç kimə öyünmək üçün əsas vermir.

## Başqasının günahlarına görə ölmək (Surə 5:29)

Bu ayə məni təəccüblə ayağa qaldırır. Bir insan başqasının günahına görə cəzalandırıla bilərmi? Surə 5:29-da hansı cavab nədir? Qabil Habilin qurbanına paxıllıq etdiyi üçün onu öldürməyi planlaşdırırdı. Habil döyüşmək istəmədi, lakin Qabilə dedi:

*"Məni öldürmək üçün mənə əl qaldırsan da, mən səni öldürmək üçün sənə əl qaldıran deyiləm. Mən aləmlərin Rəbbi olan Allahdan qorxuram. İstəyirəm ki, həm mənim günahımı, həm də öz günahını yüklənib cəhənnəm əhlindən olasan. Zalımların cəzası budur!"*

Əsasən belə deyir "günahımı ödəyəcəksən" (تَبُوٓأَ). Habil həm özünün, həm də Qabilin günahını etiraf edir. Onların hər ikisi Allahın paklığına nail ola bilmədi, lakin bu hissədə yalnız birinin Cəhənnəm atəşi ilə qarşılaşacağı deyilir.

İncil, günahkar insan başqasının günahına görə cəzalandırıla biləcəyini öyrətmir. Əgər Habil cəhənnəmə getmədisə, bunun səbəbi Qabilin onun günahının cəzasını öz üzərinə götürməsi deyildi. Lakin İncil öyrədir ki, günahsız insan başqasının günahına görə cəzalandırıla bilər. Buna sevgi qurbanı deyilir.

Bir qurbanlıq quzusunun Allahın qəzəbi altında can verməsi kimi, günahsız insan başqasının günahına görə canını verə bilər.

## Qətlə nə vaxt icazə verilir? (Surə 5:32-33)

2001-ci il sentyabrın 11-də terrorçular 4 sərnişin təyyarəsini qaçırdılar. Təyyarələrin ikisi Nyu Yorkdakı Dünya Ticarət Mərkəzinin qüllələrinə yönəlmişdi. Günahsız uşaqlar da daxil olmaqla minlərlə insan həlak oldu. Əl-Qaidə, hücumu İslam adına törətdiklərini iddia edir. Bu hadisə bir çox müsəlmanları qəzəbləndirdi. Dostum başını şiddətlə bulayaraq dedi: "Bu İslam deyil! Müsəlmanlar heç vaxt günahsız insanları öldürmürlər. Quran buyurur ki, əgər bir nəfəri öldürsən, bütün bəşər övladını öldürmüş olarsan". Maraqlı gəldi. Müsəlman dostlarımın çoxu surə 5:32-33-dən sitat gətirdikləri üçün, mən də oxumaq istədim.

99. İncil, Yəhya 1:12-13

“Kim bir cana qıymamış, yaxud yer üzündə fitnə-fəsad törətməmiş bir kimsəni öldürərsə, bütün insanları öldürmüş kimi olar. Kim də onu dirildərsə (ölümdən xilas edərsə), bütün insanları diriltmiş (xilas etmiş) kimi olar. Elçilərimiz onlara açıq-aydın dəlillər (möcüzələr) gətirmişdilər. Ancaq onlardan bir çoxu bundan sonra da yer üzündə həddi aşmaqdadır. (Həqiqətən də, tarix boyu İsrail oğulları dünyada müharibələr, çevrilişlər, müxtəlif cür hiylələr və fitnə-fəsadların səbəbkarları olmuş, yaxud bu kimi hadisələrdə mühüm rol oynamışlar.) Allaha və Peyğəmbərinə qarşı vuruşanların və yer üzündə fitnə-fəsad törətməyə çalışanların cəzası öldürülmək və ya çarmıxa çəkilmək, ya da əlləri və ayaqlarının çarpazvari kəsilməsi, yaxud da yaşadıqları yerdən sürgün olunmalarıdır. Bu (cəza), onların dünyadakı rüsvayçılığıdır. Axirətdə isə onlar üçün böyük bir əzab vardır.

Çoxları 32-ci ayəni oxuyur, lakin onun yəhudilərə, yəni İbrahim övladlarına ünvanlandığını başa düşmürlər. Bu ayə deyir ki, günahsız bir insanı öldürmək bütün bəşər övladını öldürməyə bərabərdir. Bəs bunun əksi də doğrudursa? Bir günahsız insanın ölümü hamını xilas edə bilərmi?

Birdən yadıma İncildən bir əhvalat düşdü. Din adamları İsa Məsihə qısqandıqlarından qəzəblə dolu idilər və onu öldürmək üçün yollar axtarmağa başladılar. Xüsusi toplantı zamanı onların başçıları bilmədən İsanın qurban olaraq öləcəyini söylədi.

*“Başa düşmürsünüz ki, bütün bu millətin məhv olmağındansa bir Adamın xalq uğrunda ölməsi sizin üçün daha yaxşıdır”*[100]

İsa Məsihin ölümü ilə bütün bəşəriyyət məhv oldu. Onun dirilməsi ilə xilas olmaq imkanı qazandı.

Surə 5:32 insan həyatının dəyərini qəbul edir, lakin yalnız günahsızların cəzadan qorunduğunu söyləyir. Bəs cinayət törədənlər və ya pislik yayanlar (فَسَادٍ)? Bəs Allaha və elçisinə qarşı döyüşənlər?

Quran 33-cü ayədə onlara cəza təyin edir: edam, çarmıxa çəkilmə, əlləri və ayaqlarının kəsilməsi ya da sürgün. Əgər məğlub olmamışdan əvvəl tövbə etsələr, bağışlana bilərlər.

Təfərrüatlar olmadığı üçün, “fitnə-fəsad törətmək”, “Allaha və Rəsuluna qarşı müharibə etmək” mənasını açıq şəkildə anlaya bilmirik. Bu, yalnız VII əsrdə Məhəmmədə və onun ordularına qarşı vuruşan düşmənləri nəzərdə tutur? Daha ətraflı aşağıdakı surələrdə öyrənəcəyik.

## Təhrif olunub yoxsa Güvənmək olarmı? (Surə 5:47-48)

Quran xristianlara İncil oxumağı və ondan həqiqəti tapmaq üçün istifadə etməyi buyurur. Əgər İncil Məhəmməddən əvvəl dəyişdirilsəydi, Quran xristianlara onu oxumağı buyurmazdı. Əgər İncil təhrif olunsaydı, Quran xristianlara belə deyərdi: "Kitabınız təhrif olunub, ona görə də ondan Məhəmmədin söylədiklərini mühakimə etmək üçün istifadə etməyin. " Amma Quran bunu demir. O, xristianlara və başqa bir ayədə yəhudilərə deyir ki, həqiqəti tapmaq üçün Köhnə Kitablardan istifadə etsinlər.

Bu ayə həmçinin Allahın İncili nazil etdiyini öyrədir.

İncil əhli Allahın onda nazil etdiyi ilə hökm versin. Kim Allahın nazil etdiyi ilə hökm verməzsə, onlar əsil günahkarlardır.

Bu surə 5:68-ə uyğundur: “Ey kitab əhli! Tövrata, İncilə və Rəbbinizdən sizə nazil edilənə (Qurana) əməl etməyincə bir şey (doğru yol) üzərində olmazsınız!”

100. İncil, Yəhya 11:50

Daha güclü ifadələr ilə söyləmək olmazdı. Tövrat, İncil Peyğəmbərlər kitabı dəyişməz qalan əsasdır. Tövratı, Peyğəmbərlər kitabını və İncili kim dəyişə bilərdi? 48-ci ayədə deyilir ki, Köhnə kitablar təhrif oluna bilməz, çünki Allah onları qoruyur.

"Sənə də, özündən əvvəlki kitabı təsdiqləmək və onu qorumaq üzrə haqq olaraq Kitabı (Quranı) nazil etdik."

Allahın Kəlamını dəyişdirən insanlardan bəhs edən surə 2:59-ayə, 48-ci ayə ilə necə uyğunluğu ola bilər? Görünən budur ki, sözlərin təhrifindən deyil, onların izahından söhbət gedir. Məsələn, bunu deməklə hörmətsizlik etmək istəmirəm amma bir çox şərhlərdə və izahlarda sünnilərin şiələrdən fərqləndiyini görürəm.

Hər iki qrup əsasən eyni Qurandan istifadə edir, lakin fərqli şərhlər təklif edir. Məsələn, eyni "İncil"i oxuyan xristianlar arasında müxtəlif yozumlara rast gəlmək olar. Onlardan biri yazını təhrif etmişmi olur? Xeyr, çünki yazılmış söz deyil. Sadəcə ənənələr və şərhlər həmişə üst-üstə düşmür.

## Yəhudilər və xristianlarla dostluq (Surə 5:51)

Qeyri-müsəlmanlarla dostluq haqqında bir daha xəbərdarlıq.

*"Ey iman gətirənlər, yəhudi və xristianlarla dostluq etməyin! Onlar bir-birlərinin dostlarıdır. Sizdən kim onlarla dostluq edərsə, o da onlardandır. Şübhəsiz ki, Allah zalım bir qövmü doğru yola yönəltməz."*

Müxtəlif dinlərə mənsub olan insanlar arasında münasibətlər çox vaxt çətin olur. Bu ayədə deyildiyi kimi, bəzən yəhudilər və xristianlar bir-birləri ilə dostluq edirlər. Ancaq tarix göstərir ki, bu həmişə belə olmayıb. 1492-ci ildə Əlhambra fərmanı ilə İspan Katolik Monarxları bütün yəhudiləri öz padşahlıqlarından qovdular. Canlarını qurtarmaq üçün qaçan yəhudilərin bir çoxu, Sultan II Bəyəzidin dəvəti ilə İstanbula köçdü. Bəzən Avropada xristian hökmdarları yəhudiləri sıxışdırır və onları təqib edirdilər. İkinci Dünya Müharibəsi zamanı nasistlər milyonlarla yəhudi kişi, qadın və uşağı qətlə yetirdilər.

İbrahimin övladlarına gəlincə, onlar əsrlər boyu qeyri-yəhudilərlə ünsiyyətdə olmaqdan qorxaraq başqaları ilə təmasdan qaçmağa çalışıblar. Müasir dövrdə bəzi güclü yəhudilər öz mövqelərindən istifadə edərək xristianları və İsa Məsihi ələ salıblar.

Bəzi insanlar bu ayəni ilk növbədə müsəlman liderlərin qeyri-müsəlmanlarla ittifaq qurmasına qarşı xəbərdarlıq kimi qəbul edirlər. Eynilə, bəziləri bunu qeyri-müsəlmanı himayədar kimi qəbul etməmək üçün xəbərdarlıq kimi görürlər. Hər halda, müsəlmanların əksəriyyəti müsəlmanların qeyri-müsəlmanların hakimiyyəti altında daimi yaşamamasının daha üstün olduğu qənaətindədir. Bəziləri isə bu ayəni şəxsi müstəvidə qəbul edir və imanlarını təmiz saxlamaq üçün qeyri-müsəlmanlarla dostluqdan çəkinirlər.

Bəzən dostluq insanları çətinliyə sala bilər. İncildə yəhudi din adamlarının, İsanı dostluq etdiyi insanlara görə necə tənqid etdiklərini oxuyuruq.
"Bu adam günahkarları qəbul edir və onlarla yemək yeyir."[101] Başqa bir vəziyyətdə, İsa Məsih zinakar qadını bağışladığını və ona yeni həyat təklif etdiyini gördük. İsa sosial normaları aşaraq sevgiyə ən az layiq olanlara sevgi göstərdi.

101. İncil, Luka 15:2

# Həyat çörəyi (Surə 5:68-120)

5-ci surənin qalan hissəsi əsasən İsa Məsihə aiddir. O, xəstələrə şəfa verdi, ölüləri diriltdi, guya yerdən canlı quş yaratdı və möcüzəvi şəkildə göydən yerə səmavi süfrə endirdi. 5:111-ci ayəyə görə, guya Onun şagirdləri özlərini müsəlman adlandırırdılar.

Səmavi süfrə maraqlıdır. İsa bir neçə dəfə məhəbbət və xidmət kimi xalqı yedizdirdi. Bir gün o, beş min adamı doyurmaq üçün möcüzəvi şəkildə beş çörəyi çoxaltdı. Başqa bir dəfə o, dörd min nəfəri yedizdirmək üçün yeddi çörəyi çoxaltdı. Göylərə qayıtmazdan bir müddət əvvəl O, şagirdləri üçün sahildə balıq qızartdı.[103] Layiq olmadan və səxavətli ianələr Allah sevgisini nümayiş etdirirdi. Bununla belə, 5:112-ci ayədə qeyd olunan səmavi süfrə başqa bir yemək üçün daha uyğundur.[103] İbrahimin övladları Misir əsarətindən qurtulduqdan sonra hər il Pasxa yeməyi ilə o günü qeyd edirdilər. Köləlikdən qurtuluş gecəsi, hər ev qüsursuz bir quzu qurban kəsir, və onun qanını evlərinin qapısına çəkirdilər. Daha sonra qızartdıqları quzu ətini acı otlar və mayasız çörək ilə yeyirdilər. Mələk qanı gördüyü zaman ilk doğulanları öldürmədən evlərinin yanından keçərdi. Qapıda qan olmayan evləri, Allah ədalətlə cəzalandırardı. Pasxa gecəsi İsa və şagirdləri quzu, mayasız çörək və içki hazırladılar. Bu vaxta qədər hər şey ənənəyə uyğun gedirdi. Amma sonra İsa qeyri-adi bir şey etdi. Çörəyi götürüb dedi:

*“Bu Mənim sizin üçün verilən bədənimdir”. O, kasanı götürüb dedi: “Sizin üçün axıdılan bu kasa Mənim qanımla bağladığım yeni əhddir.”*[104]

Kaşki, Şagirdlərin üzlərindəki ifadəni təsəvvür edə bilsəydik! İsa bu qədim bayram üçün heyvan kəsmirdi. Özünü qurban verdi! Allahın quzu.

# Eyni Ayə (Surə 5:69)

Orijinal ərəb dilində 5:62, 2:62-nin demək olar ki, hərfi-hərfinə eynisidir.[105] Bu, təkcə maraqlı bir təkrar deyil, həm də qeyri-müsəlmanlara qorxu və kədərdən azad olmaq vədidir.

*Şübhəsiz, iman gətirənlər, yəhudilər, sabiilər və xaçpərəstlərdən Allaha və axirət gününə inanıb yaxşı işlər görənlər üçün heç bir qorxu yoxdur və onlar qəm-qüssə görməyəcəklər.*

Yeganə fərq odur ki, 5:69-da “mükafat” sözü yoxdur. Halbuki bu iki ayə yəhudiləri, xristianları və digər möminləri əmin edir ki, onların axirət günündə qorxacaqları heç bir şey yoxdur.

Yoxsa var? Quranın xəbərini eşitdikdən sonra müsəlman olmayacaqlarmı? Amma bu ayələr yalnız İslam dinini eşitməmiş dindar qeyri-müsəlmanlardan bəhs edirsə, niyə də olmasın? Dindar qeyri-müsəlmanlar İslamı eşitdikləri zaman, qəbul etməsələr, məhkum olacaqlarmı? Bu sual mübahisə üçün açıqdır.

---

102. İncil, Mark 8:19-20 və Yəhya 21:9
103. Tövrat, Çıxış 12
104. İncil, Luka 22:19-20
105. Müqayisə edin:

عَلَيْهِمْ وَلَا هُمْ يَحْزَنُونَ إِنَّ الَّذِينَ آمَنُوا وَالَّذِينَ هَادُوا وَالنَّصَارَىٰ وَالصَّابِئِينَ مَنْ آمَنَ بِاللَّهِ وَالْيَوْمِ الْآخِرِ وَعَمِلَ
صَالِحًا فَلَهُمْ أَجْرُهُمْ عِنْدَ رَبِّهِمْ وَلَا خَوْفٌ Surə 2:62

نَّ الَّذِينَ آمَنُوا وَالَّذِينَ هَادُوا وَالصَّابِئُونَ وَالنَّصَارَىٰ مَنْ آمَنَ بِاللَّهِ وَالْيَوْمِ الْآخِرِ وَعَمِلَ صَالِحًا فَلَا خَوْفٌ
عَلَيْهِمْ وَلَا هُمْ يَحْزَنُونَ Surə 5:69

# 6-cı fəsil | Surə 6 : Əl-Ənam Surəsi (Davar)

Rəhman və Rəhim olan Allahın adı ilə

## İnamsızların mühakiməsi (Surə 6:1-15)

Ölüm, mühakimə və cəza. Quran insanları inamsızlığın nəticələri barədə xəbərdar edir. İnamsızlığın əzabından yeganə qurtuluş Allahın mərhəmətidir. Bir insanı cənnətdə xoşbəxt olacağına, yoxsa cəhənnəmdə əbədi əzaba məhkum ediləcəyinə yalnız Allah qərar verir.

İncil deyir ki, bu ölüm əbədidir.106 İsa Məsih vasitəsilə Allahla barışmayan hər insan hökm günündə, Allahın hüzurundan məhrum qalıb əbədi olaraq məhv edilmə cəzasına məruz qalacaqdır. İnsan mühakimə olunduqdan sonra Allahdan ayrılan kimi artıq onun üçün heç bir nicat ümidi qalmır. İncil, insanların Cənnətə getməzdən əvvəl günahlarının əvəzini ödədikləri müvəqqəti yer olan "Araf" düşüncəsini öyrətmir. Allah məhəbbətlə bütün insanlara mühakimə günündən əvvəl Məsihdə qurtuluş yolunu təklif edir.

## Şahidlik etmək vacibdirmi? (Surə 6:1-19)

Təsəvvür edin, bir adam qonşusunu oğurluğa görə məhkəməyə verir. Hakim soruşur: "Oğurluğun sübutu haradadır? Kişi deyir: "Mənim qızılım itib və mən bu qonşuma güvənmirəm" Hakim cavab verir: "Sənin güvənsizliyin bu adamın günahına dəlil deyil, itmiş qızılın da sübut deyil. Ola bilsin ki, sən onu itirmisən, bəlkə başqası götürüb, ya da heç vaxt qızılın olmayıb və günahsız bir insanı oğurluq ilə ittiham edirsən."

*Biz bunu düzgün başa düşməliyik: Xristianların yalnız bir İncili var.*

Məhkəmələr və elm dəlillərə əsaslanır. Bu baxımdan, hər kəs gündəlik həyatda dəlillərdən asılıdır. Körpünün dənizə çökməyəcəyinə dair kifayət qədər sübut olmadan heç kim onun üzərindən keçməz. Allahdan gələn hər bir xəbər dəlillərlə müşayiət olunur. Surə 6:19-da belə deyilir:

*"Şahidlik baxımından nə daha böyükdür? Mənimlə sizin aranızda Allah şahiddir. Bu Quran mənə sizi və ona (gələcəkdə) yetişəcək kimsələri (qiyamətə qədər) xəbərdarlıq edib qorxutmağım üçün vəhy olundu. Məgər siz Allahla yanaşı başqa tanrılar olduğuna şahidlik edirsiniz?"*

Sübut axtarmaq yaxşıdır. Bir neçə şahidin olması da yaxşıdır. Ümumi bir səhvi düzəltmək üçün bunu anlaya bilərik. Bir çox insanlar xristianların bir neçə İncilinin olduğuna inanırlar. Bunu doğru bilməliyik: Xristianların yalnız bir İncili var.

Düşünün ki, kimsə böyük İslam ilahiyyatçısı Əl-Qəzali haqqında kitab yazmaq istədi. Bu kitab doğulduğu gündən ölümünə qədər həyatından, onun tərcümeyi-halı, düşüncələrindən və etdiklərindən bəhs edəcəkdi. Bir neçə müəllif onun haqqında öz nöqteyi-nəzərlərindən yazacaqlar. Onun həyatı haqqında bir neçə fərqli hekayəni oxumaq bizə yalnız birini oxumaqdan daha böyük mənzərəni görməyə imkan verəcək.

Bir neçə şahid həmişə birdən yaxşıdır. Bu, Allahın İsa Məsih haqqında yazmaq üçün bir neçə şahidə ilham verməsinin səbəblərindən biridir. Biz Matta, Mark, Luka, Yəhya və Paulun şəhadətlərini oxuyuruq.

106. İncil, 2 Saloniklilərə 1:9 "Onlara Rəbbin hüzurundan və qüdrətinin izzətindən məhrum qalıb əbədi olaraq məhv edilmə cəzası veriləcək"

Onlar ya İsa ilə vaxt keçirən, ya da İsanın ən yaxın dostları ilə ünsiyyətdə olan şahidlərdir. Məsələn, Yəhya yazır:

*"Biz sizə öz gördüyümüzü və eşitdiyimizi elan edirik."*107

Luka yazırdı:

*"Coxları aramızda baş vermiş hadisələrin tarixçəsini yazmağa cəhd göstərib. Əvvəldən bəri Kəlamı öz gözləri ilə görənlər və Ona xidmət edənlər bu hadisələri bizə nəql etdiyi kimi"*108

Gördüyümüz kimi, Quran İsanın bir sıra möcüzələrini təsdiq edir və 3:55-ci ayədə Allahın onu öldürüb yenidən diriltdiyini bildirir. İsanın ölümdən dirilməsinə dair daha çox dəlil varmı? Tarsuslu Pavel yazdı ki, İsa öldürülüb, ölülər arasından dirildi və sonra eyni anda ən yaxın dostlarına və beş yüz ardıcılına göründü.109

Yüzlərlə insan İsanın romalılar tərəfindən həbs edildiyini gördü. Çarmıxını Qüds küçələrində apardığına şəhadət etdilər. Onu şəhər divarlarından kənarda bir təpədə Roma çarmıxına mıxlanmış gördülər. Bir Roma əsgərinin nizə ilə böyrünə sancdığını gördülər. Onlar onun cansız cəsədini çarmıxdan endirildiyini və dəfn paltarına büründüyünü gördülər. Onun məzarını gördülər. Onu dəfn edildiyini gördülər. Üçüncü gün, bütün gözləntilərin əksinə, bəzi qadın ardıcıllar, sonra isə kişilərdən bəziləri İsanın sağ və sağlam olduğuna şahid oldular. O, yer üzündə qırx gün keçirdi və bu müddət ərzində beş yüzdən çox insana göründü!

İsanın həyatı ilə bağlı bir dəlilin yüzlərlə etibarlı şahidləri var. Bu insanların yalan danışmağa heç bir səbəbləri yox idi. Onlar bilirdilər ki, İsanın ardınca getdiklərinə görə onları zindana ata və ya edam edə bilərlər. İlkin on iki şagirddən biri istisna olmaqla, hamısı İsanın ardınca getdiklərinə görə edam edildi. Onlar zalımca edam edilən İsanın yenidən dirildiyinə şəhadət etdilər. Əllərindəki mismar izlərinə toxundular, dəniz sahilində odda bişirdiyi balığı yedilər. Necə şübhə edə bilərlər? Şahidlik böyük əhəmiyyət kəsb edir. Mənə tez-tez bu sualı verirlər: "Səncə Quran haradan gəlib? Allahdan? İnsanlar maraqlı canlılardır. Mətbəx şkaflarımızı yoxlayan yaxın dostumuz kimi, "Bunu, bunu, bunu hardan almısan?" sualını bilmək istəyirlər.

Adi şeylərin adi bir mənşəyi var. Pomidor ilk dəfə Amerikada, qəhvə isə Afrikada yetişdi. Tövrat, Peyğəmbərlər, İncil və Quran qeyri-adi mənşəli olduğunu iddia edənlər var. Onların hamısının Allahdan bir vəhy olduğunu iddia edirlər.

Budur, biz yol ayrıcındayıq. Tövratda, Peyğəmbərlərdə və İncildə görürük ki, Allah birbaşa peyğəmbər adlanan insanlarla danışır. Onun mesajını elan edirlər. Məsələn, Allah Musa vasitəsilə Firona belə xəbər göndərdi:

*"Rəbb Musaya dedi: "Fironun yanına gedib ona söylə: "Rəbb belə deyir: xalqımı burax ki, Mənə ibadət etsin!"*110

Allah, Musa peyğəmbər ilə mələk vasitəsilə danışmaq əvəzinə, onunla ən yaxın dostların söhbətinə bənzər birbaşa danışdı.

107. İncil, 1 Yəhya 1:3
108. İncil, Luka 1:1-2
109. İncil, 1 Korinflilərə 15:3-7
110. Tövrat, Çıxış 8:1

İncil deyir ki, Allah peyğəmbərlər vasitəsilə danışmaq əvəzinə, bütün bəşəriyyətlə İsa Masih vasitəsilə birbaşa ünsiyyətə keçib.

*"Allah qədim zamanlarda dəfələrlə və müxtəlif yollarla əcdadlarımıza peyğəmbərlər vasitəsi ilə müraciət etmişdi. Amma bu axır zamanda O bizə Oğul vasitəsi ilə müraciət etdi; Onu hər şeyin varisi təyin etmişdi və Onun vasitəsilə kainatı yaratmışdı."*[111]

İsa Məsih yalnız Allahın Kəlamını (Kəlimə) söyləmədi, özü də Kəlimətullah idi. İsanın dediyi və etdiyi hər şey Allahın Müjdə mesajı idi. Surə 16:102-ci ayə Quranın mənşəyini izah edir:

*"De: "Onu Müqəddəs Ruh (Cəbrail) iman gətirənlərə səbat vermək, müsəlmanları doğru yola yönəltmək və onlara müjdə vermək üçün Rəbbinin dərgahından haqq olaraq nazil etmişdir!"*

Müsəlmanlar "müqəddəs ruhun" Cəbrayıl mələk olduğuna inanırlar. Məsələn, onlar inanırlar ki, Cəbrayıl mələk İsa Məsihə vəhy verən Müqəddəs Ruhdur.

Bu mərhələdə tərəddüd edirəm və təəccüblənirəm. Qarşımızda iki unikal və arzuolunan yol dayanır.[112] Xristianlar öz imanlarında Allahın Kəlimətullahı olan İsa Məsihdə təcəssüm olunan yolla gedirlər. İslamın yol isə, Cəbrayıl mələk vasitəsilə gəldiyinə inanılan bir xəbəri izləyir. Bu ayrı-ayrı yollar hara aparır? İsa-Kəlimətullahın yoluna baxanda lütf və həqiqətlə dolu Tək Söz görürük. Digər yolda isə, Cəbrayıl mələyin şirkə qarşı ciddi xəbərdarlıq mesajı gətirdiyini görürük. Biz hamımız razılaşırıq ki, şirk fəlakətlidir. Lütf və həqiqətlə dolu Kəlimətullah haqqında nə düşünürük?

## Dənizdə ölüm? (Surə 6:63-64)

Dənizçilərin nəhəng dalğaların və güclü küləklərin insanda yaratdığı dəhşət haqqında məlumatları var. Fırtınalar gəminin gövdəsinin yaxınlaşan ölümün ağrısı ilə inləməsinə səbəb olur. 63-cü ayə soruşur:

*"Gizlində (Allaha) dua edib:" Əgər bizi suyun və qurunun zülmətindən qurtarsan, əlbəttə, şükür edənlərdən olarıq", - deyə yalvardığınız zaman sizləri bunlardan xilas edən kimdir?"*

Bu dəhşətli mənzərə məni birinci əsrdə Qalileya Gölü üzərindəki kiçik bir gəmiyə aparır. İsanın balıqçı dostlarının qayığı, sahildən çıxdı. İsa və onun on iki dostu qorxu ilə dənizə, bir insanın vəhşi heyvana baxdığı kimi baxırdılar. Həmin gecə böyük bir qorxu onları mismar kimi sancmışdı.

Hər şey kəskin külək və dəli dalğalarla başladı. Qalileya gölü okean səviyyəsindən yüzlərlə metr aşağıda yerləşir. Gecə kimi qara nəhəng buludlar böyük çəkisi ilə dərin bir vadiyə yığılmışdı. Dərinliklər açıldı. Kiçik qayıq tez su ilə doldu. Böyük dənizdə kiçik bir nöqtə kimi olan ardıcıllar amansız dalğaların hücumu altında fəryad etməyə başladılar. Yetkin kişilər dəhşət içində qışqırdılar: "Kömək edin!"

111. İncil, İbranilərə 1:1-2
112. Bir çox yəhudi İsanı "əl-Məsiha" olaraq qəbul etmədiklərini bilirəm. Amma mən düşünürəm ki, ilk xristianlar İsa əl-Məsihi Tavratda, Peyğəmbərlərdə (o cümlədən Zəburda) tapıblar. Bu gün müasir yəhudilər Tövratda və Peyğəmbərlərdə İsa əl-Məsihi kəşf edirlər. Onlara Məsih Yəhudiləri deyilir. İsa əl-Məsihin ardıcılları Tövratı, Peyğəmbərləri və İncili "Müqəddəs Kitab" adlanan tam bir kitab hesab edirlər.

Qəribədir ki, İsa ulayan tufandan tamamilə narahat olmadan qayığın arxa tərəfində başını yastığa qoyub yatmışdı. Amma O, dostlarının fəryadına yuxudan ayıldı.

*İsa ayağa qalxıb küləyin dayanmasını əmr etdi. Gölə tərəf dönüb: "Sus, sakit ol!"dedi. Bir anda hər şey sakitləşdi. Şagirdlər dalğalara və gəmidəki suya baxırdılar. Baxışlarını İsaya çevirdilər. Onlar heyrətlə bir-birlərinə baxaraq pıçıldadılar: "Bu Adam kimdir ki, külək də, göl də Ona itaət edir?!"*[113]

İsa dənizdə ölümün qarşısını aldı. İsanın həyatının əsas məqsədi bu idi. Ölümün qarşısını alır. O, insanları məhv olmaqdan və ölümdən xilas edir. İsa haradan keçərsə, orada sülh qoyar.

## Uşaqlarınızı öldürməyin (Surə 6:151)

Düşüncəmiz üçün iyrənc görünsə də, bir çox cəmiyyətlərdə uşaq qurbanı və ya uşaqların öldürülməsi adəti var. Məhəmmədin gəlişindən əvvəl ərəblərdə qız uşaqlarını diri-diri quma basdırmaq adəti var idi. Bəzi cəmiyyətlərdə oğlan uşaqlarını qız uşaqlarından üstün tuturdular və qızlarını ölmək üçün küçəyə qoyurdular. Qədim dövrlərdə Yaxın Şərqin bəzi xalqları, o cümlədən yəhudilər övladlarını bütlərə qurban verirdilər.

21-ci əsrdə elm, uşaq qətlinin yeni növünü gətirdi. Dünyadakı xəstəxanalarda həyati xilas etməli olan tibb işçiləri, müntəzəm olaraq doğulmamış körpələri ana bətnindən çıxarırlar. Abortun müxtəlif üsulları ilə doğulmamış insanı öldürür, sonra kiçik şikəst bədəni zibilliklərə atırlar. Quran buyurur: "Ata-anaya yaxşılıq edin; kasıblıq üzündən uşaqlarınızı öldürməyin."

Bu ayə, on əmri əks etdirir. İlk ailə olan Adəmlə Həvvadan bu günümüzə qədər, valideynlər və uşaqlar arasında yaranan münasibət həyatı yaxşılaşdırıb qorumalıdır. 6-cı əsr ərəbləri, uşaqların öldürməsini qadağan edərək bu adəti dayandırdılar.

## Quran niyə nazil oldu? (Surə 6:155-156)

"Allah Quranı göndərməli idi" dedi dostum. - Səbəb nə idi? Soruşdum. - "Çünki insanlar Tövratı, Peyğəmbərlərin kitabını və İncili düzəlməz şəkildə təhrif ediblər. Hər şey itirildi".

Arqument, deyəsən, məntiqlidir, ancaq Quranda belə bir yer yoxdur.

Bu, Bizim nazil etdiyimiz mübarək bir Kitabdır. Ona tabe olun və (Allahdan) qorxun ki, bəlkə sizə rəhm oluna. (Biz bunu ona görə nazil etdik ki, siz): "Kitab yalnız bizdən əvvəlki iki tayfaya (yəhudilərə və xaçpərəstlərə) nazil edilmişdir. Biz isə onların oxuduqlarından xəbərsizik"- deməyəsiniz

Bu ayələr Köhnə Kitabların təhrif edildiyi anlamına gəlmir. Əksinə, orada deyilir ki, o zaman ərəblər əvvəlki kitablarla tanış deyildilər, lakin yəhudilər və xristianlar onları diqqətlə öyrəndilər. Əgər Köhnə Kitablar təhrif olunsaydı, ərəblər öz ruhani cahillikləri üçün haqlı bir bəhanə tapıb: "Bizi köhnə kitablar yoldan çıxartdı" deyə bilərdilər. Bundan başqa, yəhudilərin və xristianların kitabları təhrif olunmuşdusa, niyə kitablarını öyrənirdilər? Onlar özlərini diqqətlə öyrənməyə həsr etdilər və Allahın işlərində elm sahibi oldular. Bu, bir daha sübut edir ki, yəhudilər və xristianlar öz kitablarını yüksək qiymətləndirir və onlara etibar edirlər.

Görünür, ərəblərin Tövratdan, Peyğəmbərlərdən və İncildən xəbərləri yox idi, ya da bu kitabları oxuya bilmirdilər. Quran sadəcə olaraq deyir ki, ərəblərə ona görə verilib ki, yəhudi və xristianların öz kitabları olduğu kimi onların da öz kitabları olsun.

113. İncil, Mark 4:41

# 7-ci fəsil | Surə 7: Əl-Əraf (Sədd)

Rəhman və Rəhim olan Allahın adı ilə

## Yaxşı və pis əməllərin tərəzidə çəkilməsi (Surə 7:8-9)

Mühakimə günü nə olacaq?

O gün tərəzi (əməllərin tərəziyə qoyulması) haqdır. Kimin çəkisi (savabları) ağır gələrsə, əsil xilas olan onlardır. Kimin çəkisi (savabları) yüngül gələrsə, onlar ayələrimizə haqsızlıq etdikləri üçün özlərinə zülm edən kimsələrdir.

Uzun illər əvvəl Asiyanın böyük bir şəhərində müsəlmanlar və xristianlar mühakimə gününü müzakirə etmək üçün bir araya gəldilər. Bir müsəlman dost dedi: "Allah mənim bütün yaxşı əməllərimi götürüb tərəzinin bir tərəfinə, sonra günahlarımı götürüb tərəzinin o biri tərəfinə qoyacaq. Cənnətə, yoxsa Cəhənnəmə getməyimi tərəf müəyyən edəcək, İnşallah".

Onun xristian dostu kiçik bir tərəzi götürüb aralarındakı stolun üstünə qoydu. "Belə bir şey, düzdür? Amma bir problem var. Bir tərəfini daşla doldurdu. "Günahlarımız müqəddəs Yaradana ağır bir təhqirdir". Lələkləri o biri tərəfə qoydu. "Allahın standartları ilə müqayisədə bizim xeyirxahlığımız tük kimi yüngüldür". Tərəzi yerindən tərpənmədi.

Müsəlman dost bir anlıq tərəziyə baxdı. - Bəs onda ümidimiz nədir?

Xristian dost çantasından böyük bir kərpic çıxarıb lələklərin üstünə qoydu. Tərəzi qəflətən stolun üstünə düşdü. "Görürsən? Bu kərpic İsa Məsihin kamil salehliyini, nurunu (Nur) təmsil edir. O, məhəbbətlə salehliyini Ona etibar edən dostları ilə bölüşür".

"Bir düşün," o davam etdi, "Yeşaya peyğəmbər dedi:

*"Hamımız elə bil ki murdarlandıq, Bütün saleh əməllərimiz murdar əskiyə bənzəyir. Hamımız yarpaq kimi soluruq, Şər əməllərimiz bizi külək tək sovurub-aparır."*[114]

"Bu düzgün səslənmir. Allah Öz salehliyini bizimlə necə bölüşə bilər?"

Burda nə var ki, hətta Quran 7:26-da deyilir ki, Allah öz salehliyini bölüşür.

*Ey Adəm oğulları! Sizin üçün ayıb yerlərinizi örtən geyim və bər-bəzəkli libas nazil etdik (yaratdıq). Təqva geyimi isə daha xeyirlidir. Bu, Allahın dəlillərindəndir ki, bəlkə, düşünüb öyüd alalar. (Bəzi alimlər ayədəki "təqva geyimi" ifadəsinə "həya, saleh əməl, təvazökarlığın əlaməti olan sərt və yundan olan paltar, müharibə geyimi, Allah qorxusu" kimi izahlar vermişlər.)*

İncil deyir ki, pak olanlar Allaha yaxınlaşa bilər, çünki onlar "paltarlarını Quzunun qanında yuyub ağartmışlar". Allah sevgisi bizim günahlarımızı bağışlayar. Allah öz salehliyini bizimlə bölüşür.

## İynənin gözü (Surə 7:40)

Bir dəvənin iynənin gözündən keçməsi necə qeyri-mümkündürsə, günahkarlar üçün də çıxış yolu tapmaq eyni olacaqdır.

Şübhəsiz ki, ayələrimizi təkzib edib təkəbbürlənərək onlardan üz çevirənlərə göyün qapıları açılmayacaq və onlar dəvə iynənin gözündən keçənə qədər cənnətə girə bilməyəcəklər. Biz günahkarları belə cəzalandırırıq.

114. Peyğəmbərlər, Yeşaya 64:6

Bir dəfə varlı bir adam, İsanın yanına gəldi və əbədi həyat haqqında soruşdu. İsa cavan adama dedi ki, hər şeyini satıb onun arxasınca getsin. "Xeyr" dedi cavan, çünki İsa ondan ən çox sevdiyi şeydən imtina etməyini istədi. İsanın istədiyi bir hissə deyildi, tam sevgi idi.

*“Yenə sizə deyirəm ki, dəvənin iynə gözündən keçməsi varlı adamın Allahın Padşahlığına daxil olmasından asandır.” Bunu eşidən şagirdlər çox təəccüblənərək dedilər: “Elə isə, kim xilas ola bilər?” İsa onların diqqətini Allaha çevirdi. “İnsanlar üçün qeyri-mümkündür, amma Allah üçün hər şey mümkündür.”*[115]

Allahın günahkarlara münasibəti necədir? O deyir:

*“Onlara de: “Varlığıma and olsun, pis adamın ölümündən yox, onun öz yolundan dönüb yaşamasından zövq alıram.”*[116]

İsa deyir ki, Allah Onu dünyanı mühakimə etmək üçün deyil, dünya Onun vasitəsilə xilas olsun deyə göndərdi. [117]

## Allah yer üzərinə enir (Surə 7:143)

7-ci Surəbir çox peyğəmbərlərdən bəhs edir. Nuh öz xalqının yanına getdi. Hud Adlarla danışdı. Saleh Səmud xalqına getdi. Lut cinsi pozğunluğa və günaha görə məhkum edilmiş xalqının yanına getdi. Şueyb Mədyənlərin yanına getdi. Hər bir halda Qurani-kərimdə deyilir ki, Peyğəmbərlər Allahın xəbərdarlığını söylədilər, lakin bir çox insanlar iman gətirmədilər və həlak oldular. Bunun müəyyən bir sıralaması var: insanlar üsyankarlıq edir, elçi gəlir, elçi rədd edilir, Allah cəzalandırır.

103-cü ayə Musanı tanıtdırır. O, yəhudi qullarını azad etmək üçün Allahın əmri ilə fironun yanına getdi. Misirlilər Musaya müqavimət göstərdilər. Bundan sonra Misirlilər bir sıra dəhşətli cəzalara, o cümlədən suyun qana çevrilməsinə, göydən od və dolu yağmasına, qurbağaların şəhərlərinə hücumuna məruz qaldılar. 143-cü ayədə Allahla dünya arasında böyük bir toqquşma haqqında oxuyuruq.

Burada heyrətamiz olan nədir? Müsəlman və Xristiyanların Allah anlayışındakı əsas fərqlərdən biri, onların Allahın zaman və məkanla əlaqəsinə baxışlarıdır. Bir çox dostlar bu sualı verirlər: “Əgər Allah çarmıxda İsa Məsihdə idisə, cənnətdə kim idi? Əgər Allah göyləri azad etdisə, kim hər şeyə hökmranlıq etməyə davam etdi? Allah öz taxtından enib hər şeyin xaosa çevrilməsinə icazə verərmi?

Mən Mükəmməl Sevginin üçlü şəkildə açılan rəsmini artıq çəkmişəm. Mükəmməl Sevginin mücəssəmələrindən biri zaman və məkanda yaşayan İsa Məsih idi. Və tam eyni zamanda Səmavi taxtda Mükəmməl Sevgi hökm sürürdü. Allah birdir. Bu absurd görünür? Yer üzündəki Allah, səmadakı Allah? Quranın böyük sürprizi buradadır. Surə 7:143 ayə:

*Təyin etdiyimiz vaxtda Musa gəlib Rəbbi onunla danışdığı zaman o dedi: “Ey Rəbbim! Özünü mənə göstər ki, Sənə baxım!” Allah dedi: “Sən Məni əsla görə bilməzsən. Lakin bu dağa bax. Əgər o yerində dura bilsə, sən də Məni görəcəksən”. Rəbbi dağa təcəlla etdiyi zaman onu parça-parça etdi. Musa da bayılıb yerə yıxıldı. Ayıldığı zaman: “Sən pak və müqəddəssən! Sənə tövbə etdim və mən iman gətirənlərin birincisiyəm!” - dedi.*

115. İncil, Matta 19:24-26
116. Peyğəmbərlər, Yezekiyıl 33:11
117. İncil, Yəhya 3:17

Bu hekayə Tövratda da görünür. Musa dedi:

*“İzzətini mənə göstər!”*[118]

Allah belə cavab verdi:

*“Üzümü isə görə bilməzsən, çünki Məni görən adam sağ qalmaz” Sonra Rəbb dedi: “Budur Mənim yanımda yer var, elə burada, bu qayanın üstündə dur. İzzətim keçəndə səni qayadakı bir yarığa qoyacağam; Mən keçənə qədər səni əlimlə örtəcəyəm. Sonra əlimi səndən çəkəcəyəm və sən Məni arxadan görəcəksən, amma üzümü görməyəcəksən”*[119]

Quran və Tövrat təsdiq edir ki, Allah zaman və məkan içərisində zühur edə bilər. Allah Musa ilə dağda ikən göydə kim idi? Uca səmavi taxt boş idi? Heç vaxt belə ola bilməz!

Allahla hər şey mümkündür demək asandır. Əksər insanlar ağlabatan hər şeyin mümkün olduğuna inanırlar. Allah bir cismi qaldıra bilməyəcək qədər ağır yarada bilərmi? Allah kvadrat şəklində bir dairə yarada bilərmi? Məntiqlə bütün bunlar mümkün deyil. Allahın Musa ilə dağda və eyni zamanda Cənnətdəki taxtında olması məntiqlə mümkün deyil? Bu sualın cavabının bir hissəsini Tövratın birinci hissəsində tapmaq olar.

*“Allah gördü ki, yaratdığı hər şey çox yaxşıdır. Axşam oldu, səhər açıldı; bu, altıncı gün idi.”*[120]

Fiziki dünya yaxşı idi, çünki onu Allah yaratmışdı. Dağlar, çiçəklər, ağaclar, heyvanlar və insanlar fiziki formada yaxşı idi. Adəm və Həvva Uca Allaha qarşı günah işlətdikləri zaman, onların ruhani həyatları çürüməyə başladı. Amma ulduzların, göylərin, çayların və səhraların yaxşılığı dəyişmədi.

Allah cismani aləmə istədiyi kimi girə bilərdi, çünki Onun yaxşılığı və şərəfi heç bir şəkildə ləkələnməzdi.

Bəs Allah necə eyni anda iki fərqli yerdə ola bilər? Allah məkanla məhdudlaşmır. Bir şəkildə hər şeyi doldurur. Davud soruşdu:

*“Hara gedim ki, Ruhun orada olmasın? Hara qaçım ki, hüzurunda olmayım? Əgər göylərə çıxsam, Sən oradasan, Ölülər diyarında yatsam, Sən oradasan.”*[121]

Ancaq bunun daha dərin bir cavab var. Allahın kəlamı, Onun sevgisinin bir ifadəsi olaraq Allahdan gəlir. "Kəlam" deyəndə söhbət zamanı deyilən sözlərdən daha çox şey nəzərdə tuturuq. Söz Allahın ağlının cövhəridir. Deməli, Allah öz taxtında olarkən, Onun sevgi dolu Kəlamı yer üzünü xüsusi bir şəkildə ziyarət edir.

Allah Musanı dağda ziyarət etdi və ondan bir neçə il əvvəl Musanı yanan kolda ziyarət etdi.[122] O, Sodom və Homorranı dağıtmazdan əvvəl üç “adam”la İbrahimi ziyarət etdi.[123]

118. Tövrat, Çıxış 33:18
119. Tövrat, Çıxış 33:20-23
120. Tövrat, Yaradılış 1:31
121. Zəbur 138:7-8
122. Tövrat, Çıxış 3 və Surə 20:11
123. Tövrat, Yaradılış 18:2

İncilin sözlərinə görə, sonuncu belə səfər İsa Məsihdə oldu. Bu, Allahın zamana və məkana daxil olmasının zirvəsi idi. Bunu əvvəllər də etmişdi, amma bu ziyarət deyildi, sanki yanlarından keçmək idi. İsa Məsihdə öz xalqını lütf və həqiqətlə dolu olaraq aramızda məskən saldı.[124]

## On əmrin hökmü (Surə 7:145)

145-ci ayədə On Əmr qeyd olunur.

*(Din barəsində) hər cür nəsihəti və hər şeyin izahını onun üçün lövhələrdə yazdıq. Bunları möhkəm tut və qövmünə də onların ən gözəlindən yapışmalarını əmr et! Yaxın bir vaxtda sizə fasiqlərin yurdunu göstərəcəyəm.*

Allah bu əmrləri niyə vermişdi? İnsanları Allah qarşısında saleh etmək üçün? Təəssüf ki, xeyr. Hər bir insan nə qədər çalışsa da, qanuna əməl etmir.

İncildə deyilir:

*"Buna görə də Qanun müqəddəsdir, əmr də müqəddəsdir, ədalətlidir və yaxşıdır."*[125]

Bununla belə,

*"Çünki Qanun heç bir şeyi kamilləşdirməyib."*[126]

İncil yenə də deyir:

*"Aydındır ki, Allah qarşısında heç kəs Qanun vasitəsilə saleh sayılmır, çünki "saleh adam imanla yaşayacaq."*[127]

*"Amma salehlik göstərən Qanunun ardınca gedən İsrail xalqı bu Qanuna çata bilmədi."*[128]

Niyə biz Allahın qanunlarına əməl edə bilmirik?

*"Çünki cismanı təbiətə uyan fikirlər Allaha qarşı düşmənçilik edir belə ki bunlar Allahın qanuna tabe deyil və ola da bilməz."*[129]

Bu, hamımızı çox çətin vəziyyətə salır. Allah Musa vasitəsilə salehlik qanununu göndərdi. Bizə yalnız Ona ibadət etməyi əmr etdi. Bizə ata-anamıza hörmət etməyi əmr etdi. O bizə oğurluqdan, hiylə və xəyanətdən uzaq durmağımızı əmr etdi. Qüsursuz insan, Allahın bütün qanunlarına kamil şəkildə riayət edəndir.

Bəs buna kim riayət edə bilər? Hər kəs ən azı bir dəfə büdrəyir. Və buna ürəyin gizli həyatı belə daxil deyil. İncil buyurur:

*"Çünki kim Qanunun hamısına riayət edərək birində büdrəyərsə, o bütün Qanuna qarşı təqsirkar olur."*[130]

---

124. İncil, Yəhya 1:14
125. İncil, Romalılara 7:12
126. İncil, İbranilərə 7:19
127. İncil, Qalatiyalılara 3:11
128. İncil, Romalılara 9:31
129. İncil, Romalılara 8:7
130. İncil, Yaqub 2:10

Qanuna riayət etmək ya hər şeydir, ya da heç nə. İnsan, həqiqətən, Allahı razı salmaq və mühakimədən uzaq olmaq üçün həyatının hər dəqiqəsində Allahın qanunlarına mükəmməl riayət etməlidir. Ən kiçik itaətsizlik tam günaha səbəb olur. Başqa sözlə, insan ya 100% salehdir, ya da 0%. Eden bağında hamımız əcdadlarımızdan qırıq bir ürək miras aldığımız üçün hamımız qanunu pozuruq, bu da bizi 0% saleh edir. Cazibə qanununa 99% əməl edə bilərsən, ancaq bir dəfə uçurumdan tullanaraq onu pozsan, mütləq öləcəksən.

Allahın qanunu bizə saleh olmağımız üçün yol göstərməkdən başqa bir məqsədə xidmət edir. Bu yol mümkün deyil. Bu, "Çıxış yoxdur" yazısı olan küçədir. Qaranlıqdan başqa heç bir yerə aparmır. Daha sonra, Qanunun əsl məqsədini ətraflı araşdıracağıq.

## Tövrat, Peyğəmbərlər və İncil Məhəmməd haqqında bəhs edirmi? (Surə 7:157)

Dostlarım mənə tez-tez deyirlər ki, "Sənin kitabların Məhəmmədin gəlişindən xəbər verir. Musa dedi ki, onun kimi bir peyğəmbər gələcək. İsa Özündən sonra bir peyğəmbər gələcəyini bildirmişdi. Onlar surə 7:157-ci ayəyə əsaslanırlar: "Əllərindəki Tövratda və İncildə (əlamətlərinin) yazıldığını gördükləri ümmi peyğəmbər olan rəsula tabe olanlara o peyğəmbər yaxşılığı əmr edər, pis işləri qadağan edər, təmiz nemətləri halal edər, murdar şeyləri isə haram edər. (Yuxarıdakı ayədə keçən "ümmi" kəlməsi, "oxuma-yazma bilməyən" mənasına gəlir)"

Quranı oxumazdan xeyli əvvəl "Keçmiş kitablar"ı çox yaxşı öyrəndim. Hekayə Adəm və Həvva, Nuh, İbrahim, Musa ilə başlayır, sonra Davud və Süleyman padşahlarla davam edir. Yəhya peyğəmbər İsa Məsihin gəlişi üçün yol hazırladı. İsa Məsih, doğuluşundan min illər əvvəl bildirilən peyğəmbərlik sözlərini fövqəladə şəkildə yerinə yetirdi.

İsa Cənnətə qayıtdıqdan sonra, onun ardıcılı Peter Musa peyğəmbərin bəhs etdiyi şəxsin İsa Məsih olduğunu aydın şəkildə bildirdi.

O, sizə əvvəllər təbliğ edilən İsa Məsihi göndərəcək: Allahın qədimdən bəri müqəddəs peyğəmbərlərin dili ilə məlum etdiyi kimi hər şeyin yenidən hazırlanacağı vaxtacan İsanın səmada qalması lazımdır. Çünki Musa atalarına belə demişdi:

*"Allahınız Rəbb sizin üçün öz soydaşlarınız içərisindən mənim kimi bir peyğəmbər yetirəcək. Sizə nə söyləyəcəksə Ona qulaq asın"*[131]

Xristianlar Musanın bildirdiyi peyğəmbərin İsa Məsih olduğunu qəbul edirlər.

İsa Məsih Cənnətə qayıtdıqdan sonra vəd etdiyi Vəsatətçi haqqında nə demək olar? Bəzi müsəlmanlar, İncilin Məhəmmədin gəlişini əvvəlcədən bildirdiyinə inanırlar. Sual yunanca parakletos (παράκλητος) və ya periklutos (περικλυτος) sözləri arasındakı fərqdən asılıdır.[132]

İsa, dostları ilə Aramicə danışsa da, İncilin böyük bir hissəsi yunanca (Koine) xalq dilində yazılmışdır. Aralıq dənizi bölgəsində yunan dili beynəlxalq və çox vacib idi.

Bir gün İsa Məsih şagirdləri ilə gələcək haqqında danışırdı. O, fiziki olaraq onları tərk edəcəyini bildirdi. O, təxminən 33 il yaşadı. Yer üzündəki müddəti başa çatanda O, hələ gənc idi. Təbii ki, dostları qorxu və təəccüb içində idilər.

Görüləsi bu qədər iş olduğu halda niyə onları belə tez tərk edəcəkdi? Onları Roma işğalçılarından azad etməyəcəkmi? Hara gedəcəkdi? Onun rəhbərliyi olmadan necə davam edəcəklər? İsa onlara bu sözlərlə təsəlli etdi:

131. Tövrat, Qanunun təkrarı 18:15 İsa peyğəmbər idi və daha çox. O, Allahın qurban Quzusu kimi ölən Səmavi bir insan idi. Musa kimi xalqı azadlığa apardı.
132. İncil, Yəhya 14:16-17

*“Mən də Atadan xahiş edəcəyəm və O sizə başqa bir Vəsatətçi göndərəcək ki, daim sizinlə olsun.”*[133]

İsa başqa bir parakletos (παράκλητος), yəni təsəlli verici, köməkçi, dəstəkçi vəd etmişdi. Parakletos ən yaxşı dost, valideyn və ya mentor kimi həqiqi məsləhət, güclü dəstək və mükəmməl sülhlə rahatlıq verəcəkdi.

İsadan yüz illər keçdi. Məhəmməd məşhurlaşdı və müsəlman alimləri araşdırmağa başladılar: İncil onun gəlişini bildirmişdi? “İncil”i oxudular və güman etdilər ki, İsa ruh yerinə Əhməd adlı bir adamın gəlişini vəd edir. Onlar iddia edirdilər ki, İncil: “O sizə başqa bir Əhməd verəcək” deyir, güya orijinal İncilin “təriflənmiş” mənasını “periklutos” (περικλυτος) əhatə edir.[134]

Bu iddia problemlidir. Birincisi, İncilin qədim və ya müasir nüsxələrinin heç birində Əhməd (periklutos, περικλυτος) sözü işlədilmir. Heç yerdə belə bir ayə yoxdur.

İncilin ən qədim nüsxələrindən biri Papirus 66 adlanır. Onu İncilin digər qədim nüsxələri ilə müqayisə etsək, heç bir fərq görmürük. Hamısı "Vəsatətçi" deyir (parakletos, παράκλητος). Bu barədə heç bir şübhə yoxdur.

İkincisi, İsa Vəsatətçini insan deyil, ruh kimi təsvir edir. Vəsatətçi, İsanın günahkarlara təsəlli vermək və xilas etmək fəaliyyətini davam etdirir. Dünya tərəfindən görünməyəcək və tanınmayacaqdır, lakin İsanın ardıcılları tərəfindən (görünməsə də) tanınacaqdır. O, sonsuz olaraq İsanın ardıcılları ilə birlikdədir və onları həqiqətə yönəldir. Deməli, Allahın Özündən gələn Vəsatətçi nə mələk nə də insan deyil.[135]

Başqa ayələrdə, İncil Vəsatətçini Müqəddəs Ruh adlandırır. Əslində İncildə iyirmi üç müxtəlif ayə ondan İsa Məsihin Ruhu kimi bəhs edir.

İsa Məsih dostlarına dedi:

*“Budur, Mən dövrün sonuna qədər hər gün sizinləyəm.”*[136]

Məsih bir müddət fiziki olaraq onları tərk etsə də, Vəsatətçi olaraq daim onların yanında idi və hətta onların içində yaşayırdı.

İncildəki bu ayələrdə deyilir ki, İsa, Musanın ondan sonra başqa bir peyğəmbər gələcəyinə dair verdiyi vədi yerinə yetirdi və o, şagirdlərini tək qoymadı, Vəsatətçi olaraq ruhən onların yanında oldu. (parakletos, παράκλητος).

Bəzən müsəlman dostlarım şiddətlə mənə qarşı çıxırlar. "Yox! Tövrat, Peyğəmbərlər və İncil, şübhəsiz, Məhəmmədin gəlişini xəbər verir!” Söhbət fərqli tərəflərə tez-tez dəyişir.

“İcazə verin, sizə bir sual verim” deyə cavab verirəm. “Tövratın, Peyğəmbərlərin və İncilin təhrif olunduğuna inandığınız halda, nəyə görə orada Məhəmmədin zühurundan xəbər verən ayələri tapmağa çalışırsınız?

“Çünki Quranda deyilir ki, Köhnə Kitablar onun gəlişindən xəbər verir. Belə ayələr mütləq orada olmalıdır.”

“Tövratda, Peyğəmbərlərdə və İncildə yazılan şeylərə niyə etibar edirsiniz? Əgər bu kitablar təhrif olunubsa, Məhəmməd haqqında dedikləri hər şey itməli deyildimi? Və ümumiyyətlə, sizdə Quran olduğuna görə niyə Əvvəlki Kitablar lazımdır?
Bu sual düşünməyə dəyər.

133. İncil, Yəhya 14:16
134. İncil, Yəhya 14:15
135. İncil, Yəhya 14:16-26
136. İncil, Matta 28:20

"Doğru deyirsən" deyə cavab verirlər. “Mənə Tövrat, Peyğəmbərlər və İncil lazım deyil, amma bəzi hissələri təhrif olunmamış ola bilər”.

"Çox maraqlıdır. Demək, bəzi müsəlmanlar Əvvəlki Kitabların bəzi hissələrinin təhrif olunmadığını düşünürlər. Biz də gördük ki, Quran bu kitablara hörmət edir, ona görə də bəlkə Tövratın, Peyğəmbərlərin, İncilin təhrif edilməməsi ehtimalını bir daha nəzərdən keçirək?”
Həqiqəti bilmək istəyiriksə, araşdırmamızda səmimi olmalıyıq.

## Allahın gözəl adları (Surə 7:180)

Əksər müsəlmanlar inanırlar ki, Allahın 99 gözəl adı var və onları əzbərləmək xüsusi xeyir-dua, hətta Cənnətə daxil olmaq imkanı verə bilər. Bəziləri gizli yüzüncü addan danışırlar. Köhnə bir rəvayətə görə, Allah yüzüncü adını ancaq dəvəyə deyib, ona görə də dəvə bu adı bildiyi üçün insanlara təpədən baxıb gülümsəyərmiş.

Bu adlar Allahın rəhmətini, gücünü, bağışlamasına bildirən xüsusiyyətlərdir.

Yüzüncü adı axtarmağa başlayaq? Bu adla bağlı başqa nə öyrənə bilərik?

Budur bir ipucu.

Bir gün dindar bir müsəlman qız məşhur imamın vəzini dinləyirdi. Qız imama belə bir sual verdi:

“Müəllim, mən Allahın müqəddəsliyinin nurunda dayananda öz günahımı və itaətsizliyimi görürəm. Mənə deyə bilərsinizmi: Allah günahkarları sevir? Allah mən günahkarı sevirmi?
Müəllim onun üzünə diqqətlə baxdı, amma cavab verə bilmədi. Onun anlayışına görə, Allah ancaq yaxşılıq edənləri sevir. Allah günahkarları sevməz.[137]

Ən qaranlıq anlarda, insan qəlbinin ən dərin və ən üsyankar sirləri Allahın hüzurunda açığa çıxdığında, O necə qarşılıq verir? Bu kəşf heyranedicidir.

*“Lakin Allah bizə olan məhəbbətini bununla sübut edir ki, biz hələ günahkar ola-ola Məsih bizim uğrumuzda öldü.”*[138]

Allah bizi bir şərtlə sevməz ki, biz onu sevməyək.

*“Biz sevirik, çünki öncə O bizi sevdi.”*[139]

*Bizsə sevirik, çünkü əvvəl O bizi sevdi.*

Əgər Allah yaxşı insanları sevsəydi, heç kim Onun sevgisinə nail ola bilməzdi. Heç kəsi sevməzdi, çünki Onun sevgisinə layiq kimsə olmazdı. O, lütfünə görə sevir. Bir günahkarı sevirsə, hamını sevir. Onun sevgisində seçicilik yoxdur. Bəlkə Allahın yüzüncü adı “Sevgi”dir?

137. Surə 7:55
138. İncil, Romalılara 5:8
139. İncil, 1Yəhya 4:19

# 8-ci fəsil | Surə 8: Əl-Ənfal (Qənimət)

Rəhman və Rəhim olan Allahın adı ilə

## Bu necə müharibədir? (Surə 8)

Allah yolunda müharibənin müasir həyatla əlaqəsi varmı? Məhəmmədin və onun ilk ardıcıllarının dövründə silahlı müharibələr və düşmançılıqlar həyatlarının bir hissəsi idi. Çox insan qılıncla yaşayıb, qılıncdan ölürdü. Əvvəlcə bunu başa düşməliyik. 8-ci surəmüsəlmanlarla qeyri-müsəlmanlar arasında fiziki döyüşdən bəhs edir. 8:12:

*(Ya Peyğəmbərim!) Xatırla ki, o zaman Rəbbin mələklərə belə vəhy edirdi: "Mən də sizinləyəm. Möminlərə qüvvət (mətanət) verin. Mən kafirlərin ürəklərinə qorxu salacağam. Onların boyunlarını vurun, bütün barmaqlarını (əl-ayaqlarını) doğrayın!"*

Onlar nə üçün müharibə edirdilər? Müşriklər müsəlmanlara "müqəddəs məscid"ə daxil olmağı qadağan etmişdilər.[140] Bundan əlavə, müsəlmanlara qarşı öz qüvvələrini birləşdirirdilər. Surə 8:5-də deyilir ki, bəzi möminlər evlərindən çıxıb kafirlərlə döyüşmək istəmirdilər.[141]

Müharibə haraya qədər davam etməli idi? Tövrat mənə deyir ki, İbrahimin övladları yalnız vəd edilmiş torpaqlarını qorumaq üçün vuruşdular. Onlar torpaqlarına məskunlaşan kimi döyüş dayandırıldı. Allah İbrahimin xalqına bütün dünyanı verəcəyini vəd etməmişdir. Onlara yalnız kiçik bir parça vəd etdi. Yer üzündəki gözləntilərə zidd olaraq İsa ardıcıllarına silahlarını yerə qoymağı və imansız hökmdarlara itaət etməyi əmr etdi.

Çin və ya İtaliya kimi ölkələr və hökumətlər anlayışı yalnız bir neçə yüz ildir mövcuddur. Məhəmmədin dövründə padşahlar və şahzadələr öz torpaqlarında hökmranlıq edirdilər. Bəzən qədim Çin imperiyası kimi mürəkkəb hökumətlər var idi, bəzən isə yox idi. 6-cı əsrdə Roma İmperiyası tamamilə dağıldı. İbrahim xalqının artıq hökuməti və padşahı yox idi. Yunanlar bütün Aralıq dənizinə səpələnmişdilər. Ərəb tayfaları bütün Ərəb yarımadasına səpələnmiş və bəzən bir-biri ilə vuruşmuşdular.

Bu parçalanmış dünyada İslam yeni şəriət və icma (ümmət) təqdim etdi. Onlar özlərini ərəb müsəlmanı və ya çinli müsəlman hesab etmirdilər, sadəcə müsəlman idilər. Onların hamısının Məhəmmədə və şəriətə tabe olması gözlənilirdi. İslamı qəbul edən qəbilələrin sayı yavaş-yavaş çoxaldı. Müxtəlif yerlərdən və dillərdən olan insanlar müsəlman oldu.

Bəzən müsəlmanlar qeyri-müsəlmanlar tərəfindən təhlükə hiss edirdilər və buna görə də döyüşmək üçün silahlanırdılar. Məsələn, 8-ci əsrin əvvəllərində Şimali Afrika müsəlmanları İspaniyadakı qotların təhlükə olduğuna və İspaniyada yaşayan insanlara zülm etdiklərini düşünürdülər. Onlar dənizin o tayında hərbi kampaniya başladaraq İspaniyaya hücum etdilər. Nəticədə onu fəth etdilər və orada İslam hakimiyyətini qurdular. 734-cü ildə Fransadakı kafirlərin təhdid olduğunu əsas gətirərək Fransanın cənubuna hücum etdilər. Turslu Çarlz Marteli məğlub edə bilməyib geri çəkilərək İspaniyada məskunlaşdılar və yüz illər orada qaldılar.

Şərq cəbhəsində İslam Ərəbistandan kənara yayılaraq ərazinin böyük hissəsini ümmətin və xəlifənin nəzarəti altına aldı. 1071-ci ildə Bizans imperiyası Malazgirti Səlcuk türklərinə verdi. İki yüz il sonra Osmanlı İmperiyası yarandı.

140. Surə 8:34
141. Surə 8:5

1453-cü ildə Bizanslılar tərəfindən təhdid və xəyanət hiss edən Fateh Sultan Mehmet Bizansın qalan son qalası olan Konstantinopola zərbə endirdi. Böyük divarlarla əhatə olunmuş şəhərin İslam bayrağı altında süqutu İslamın Şimali Afrika, Ərəbistan, Orta Asiya və Uzaq Şərqin böyük bir hissəsində hökmranlığını təmin etdi və Avropaya qapı açdı.

Müsəlman alimi böyük narahatlıqla dedi: "Cihad həmişə müdafiə xarakteri daşıyır. "Xristianlar İslamın qılıncla yayıldığına inanmaqla yanılırlar". Dinlədim, onun hekayəyə münasibəti mənə maraqlı gəldi.

Haqsızlığa qarşı silahlı cihad mövzusunda müzakirələrdə, müsəlmanların heç vaxt təcavüzkar kimi çıxış etməmələri vurğulanır. Döyüş özünümüdafiədirsə, haqlıdır. 8:39-cu ayədə deyilir:

*(Yer üzündə) fitnə (şirk) qalmayıb, bütün din (ibadət) yalnız Allaha məxsus olanadək onlarla vuruşun. Əgər (Allaha şərik qoşmağa) son qoysalar (bilsinlər ki), Allah onların nə etdiklərini görəndir (bunun əvəzində mükafatlarını verəcəkdir).*

Müsəlman alimləri dünyaya iki əsas kateqoriyaya baxırlar: Darül-Hərb (Müharibə evi) və Darül-İslam (İslam evi). İslamın İspaniyanın, daha sonra İstanbulun fəthinə baxanda, fikirləşirəm görəsən, müsəlman liderləri İslam üçün təhlükənin nədən ibarət olduğunu necə müəyyənləşdirirlər? 8:39-cu ayəyə əsasən, İslamın ədaləti və imanı bütün dünyaya hakim olana qədər Darul-Hərbdə (Müharibə Evi) insanlar və yerlərlə silahlı müharibə heç vaxt dayanmamalıdır. Bu o deməkdir ki, kafir sivilizasiyanın və ya hökumətin mövcudluğu özlüyündə İslam üçün təhlükədir? Yəni müsəlmanlara qarşı aqressivlik nümayiş etdirməsələr belə, İslam həmişə kafirlər tərəfindən hədələnirmi? Onların sırf imansızlığı o deməkdirmi ki, müsəlmanlar onları ram etmək və yer üzündə Allaha iman, nizamlı namaz və şəriət bərqərar etmək üçün onlara qarşı çıxmalıdırlar? Hücum ən yaxşı müdafiədir?

Başa düşürəm ki, bunlar narahat suallar ola bilər. Görünür, bəzi insanlar cihad ideyasını tam şəkildə mənimsəmişlər və bunun yalnız özlərini daha yaxşı müsəlman etmək üçün şəxsi cəhdlər olduğunu söyləmişlər. 8-ci surəmüasir dünyaya uyğun olmadığını söyləyən bir adamı təsəvvür edə bilərəm. Amma bunun mənası nədir? Əgər müasir dünyada 8-ci surəkeçərli deyilsə, insan bu gün Quranın hansı hissələrinin keçərli olduğunu, hansının olmadığını necə başa düşə bilər?

Əminəm ki, kimsə mənim düzgün başa düşmədiyimi deyə bilər. Bu, tamamilə mümkündür və mən məhdudiyyətlərimi qəbul edirəm. Amma bu surəni oxumaq heç də çətin deyil. Müharibənin zaman və məkanla məhdudlaşdığı qeyd olunmur. İstənilən dövrdə yaşayan insanlar üçün həyati sual budur ki, müsəlmanların kafirlərin idarə etdiyi torpaqlarla münasibəti necə olmalıdır?

# 9-cu fəsil | Surə 9: Əl-Tovbə (Tövbə)

Rəhman və Rəhim olan Allahın adı ilə

## Kafirlərlə müqavilə bağlamaq qaydaları (Surə 9:1-29)

Tarix bizə öyrədir ki, Məhəmməd sağlığında ən azı 27 hərbi yürüşdə iştirak edib. Görkəmli döyüşlərə Bədr, Ühud və Xəndək daxildir. Bir dəfə yaralanmış, amma sağalmışdır.

Bəzən müsəlmanlar qeyri-müsəlmanlarla sülh müqaviləsi bağlamışlar. Bu keçid müqavilələrin daimi olmadığını və müəyyən şərtlər daxilində onlara əməl edilməli olduğunu göstərir. 9:3-5:

*Ən böyük Həcc (Həcci-əkbər) günü Allah və Peyğəmbərindən insanlara bildiriş! Şübhəsiz, Allah və Peyğəmbəri müşriklərdən uzaqdır. Əgər tövbə etsəniz, bu sizin üçün daha xeyirli olar. Əgər (iman gətirməkdən) üz döndərsəniz, bilin ki, siz Allahı aciz qoya bilməzsiniz. Kafirləri acı bir əzabla müjdələ! Ancaq sizinlə müqavilə bağladıqdan sonra sizə qarşı heç bir naqislik etməmiş və sizin əleyhinizə heç kəsə yardım göstərməmiş müşriklər istisnadır. Onlarla olan müqavilənizi vaxtı bitənə qədər davam etdirin. Şübhəsiz ki, Allah müttəqiləri sevər. Haram aylar çıxan kimi müşrikləri harada görsəniz öldürün, yaxalayıb əsir alın, həbs edin və onların bütün keçidlərini tutun. Əgər tövbə etsələr, namaz qılıb zəkat versələr, onların yollarını açın. Şübhəsiz ki, Allah bağışlayandır, rəhmlidir.*

Əvvəllər olduğu kimi, ilk növbədə, 9-cu surənin müsəlman ümməti üçün hər zaman və hər yerdə bir əmr olub-olmadığını soruşmalıyıq. İslam ümməti bir ölkə və ya insan irqi deyil. Məhəmmədin və daha sonra xəlifələrin başçılığı altında müsəlmanlar qeyri-müsəlmanlarla barışıq müqavilələri bağladılar.

5-ci ayə birbaşa əmirdir. Bu ayə müşriklərə, yəhudilərə və xristianlara (Kitab əhlinə) qarşı müharibə deməkdir, yoxsa yalnız müşriklərə qarşı? Bəlkə yəhudilər və xristianlar da Allahla İsanı eyni səviyyəyə qoymaqda ittiham olunduqları üçün müşrikdirlər? Hər halda 9:29 ayə döyüş meydanını genişləndirir.

Kitab verilənlərdən (yəhudi və xristianlardan) Allaha və axirət gününə iman gətirməyən, Allah və Peyğəmbərinin haram etdiyini haram saymayan, haqq dini qəbul etməyən kimsələrlə, boyun əyib əlləri ilə cizyə verənə qədər vuruşun!

Bu ayələr əsas məsələ ilə bağlıdır. Əgər bu ayələr bu gün də qüvvədədirsə, Quran müdafiə və ya hücum döyüşünü, yoxsa hər ikisini tələb edir?

İspaniya və Anadolu nümunələrinə baxdıq. İslam qonşu ərazilərə yayıldığı zaman bütün növlərdən olan imansızlarla qarşılaşır. Bu imansızların bəziləri İslamın mesajını eşidib, qəbul etməyi rədd edərlərsə, təhlükə olmuş olurlar? Əgər imansızlar müsəlmanların namaz qılmasına və öz məscidlərini tikməsinə mane olmağa çalışırlarsa, bu təhlükədirmi?

4-cü ayədə müsəlmanlarla müqavilə bağlayan imansızların bəziləri təsvir edilir. Lakin 4-cü və 5-ci ayələr arasında keçid müqavilənin müddəti bitdikdən sonra nə baş verəcəyi ilə bağlı qeyri-müəyyənlik yaradır. Müsəlmanların imanlarını yaymaq üçün yenidən döyüşmələri gözlənilirmi?

Bəziləri cavab verə bilər: "Bu yaxşıdır, amma əlbəttə ki, 7-ci əsr dünyası 21-ci əsrdən çox fərqli idi. Hər şey getdikcə mürəkkəbləşir. Artıq heç kim səhrada dəvələrlə gəzmir, qumdan və torpaqdan qoruyan uzun libas geyinmir, bir qurtum su içmək üçün yeri qazmır. Bizdə 4G internetimiz, orqanların köçürülməsi, ürək transplantasiyası və planetlərarası səyahətlərimiz var. Bu qədim yazılara müasir yaxınlaşmaq lazımdır".

Bu qismən doğrudur. Texnologiya və elm çox böyük irəliləyişlər əldə etdi. Keçmişə nisbətən adamlar artıq daha uzun və daha rahat yaşayırlar. Amma eyni zamanda bu dünyada hələ də əcdadlarının min illərlə yaşadığı kimi səhrada yaşayan və sağ qalan insanlar var.

Texnologiya dəyişdi. Dünya bir çox insanlar üçün dəyişdi. Bəs Quran dəyişibmi? 7-ci əsrdə insanlar üçün deyilən, bu gün eyni məna ifadə edirmi?

Yəhudilərin, xristianların və digər imansızların 9-cu surəvə buna bənzər ayələrdən istifadə edərək İslama böhtan atmaq istədiklərini yazan islami saytlara baş çəkmişəm. "İslam sülhpərvər bir dindir və heç vaxt zorakılıq gətirmir. Müsəlmanların zorakılıq etdiyi yalanını ancaq İslam düşmənləri yayır. İnsanların müsəlman olmasına mane olmaq istəyirlər".

Bir gün Asiyada nüfuzlu bir İslam lideri ilə oturub onun İslam haqqında fikirlərini izah etməsinə qulaq asdım. Qəhvəni qurtumlayaraq dedi: "Əgər Amerika mediası, həqiqi İslamın nə olduğunu göstərsəydi, bir gündə bütün ölkə Məhəmməd peyğəmbərin dinini qəbul edərdi".

İnsanların bəzən başqa dinləri pislədiklərini və başqa inanclar haqqında yalanlar yaydıqlarını inkar etməsəm də, bir çox insanın həm Əvvəlki Kitablarda, həm də Quranda müharibənin əsl mənasını bilmək istəməsinin başqa bir ehtimalını nəzərdən keçirməyə ehtiyac duyuram.

Yaxşı, bəs insanlar narahatdırlarsa? Bəs kimsə qorxursa? Kanadalı dürüst bir insanın Sudan, Suriya və ya Əfqanıstandakı problemlərə baxaraq, orada yaşayan müsəlmanların narahat olduqlarını və ya yəhudilərin və xristianların onlara sataşacağından və ya onlara hücum edəcəyindən qorxması ilə maraqlanması ədalətlidirmi? Bu kanadalı yəhudi bir dostundan soruşa bilər ki, "Müqəddəs Kitabınız qeyri-yəhudilərə hücum edib onları ram etməyi deyirmi?" 21-ci əsrin əvvəllərinin bəlkə də ən məşhur ateisti Riçard Dawkins yazırdı:

Əhdi-Ətiq tanrısı bütün bədii ədəbiyyatda bəlkə də ən iyrənc personajdır: qısqanc və qısqanclığı ilə fəxr edən;

*dar düşüncəli, ədalətsiz, bağışlamağı bacarmaz, kinli,*
*qana susayan cinayətkar, qisas alan, Homoseksual,*
*qadın düşmanı, uşaq qatili, soyqırım törədən, övlad qatili,*
*meqalomanyak, qəddar, irqçi, şıltaq, səbirsiz, hakimiyyət bağlılığı olan.*[142]

Bir yəhudi və ya xristian Dawkinsə cavab olaraq nə deyərdi? Dinlər şiddətə səbəb olurmu? Mən belə deyərdim: "Narahatlıqlarınızı başa düşürəm, amma qənaətinizlə razı deyiləm. Tövratda və Peyğəmbərlərdə gördüyünüz şiddət Allahın pis insanlara qarşı ədalətli qəzəbi idi. Həm də, hekayə onun qəzəbi ilə bitmir. İsa Məsihlə davam edir. Məsih çarmıxda əzab çəkməyə və ölməyə hazır olması ilə Allahın bizi sevdiyini sübut etdi. O, bizim əzablarımızı qəbul etməyə hazır oldu və sonra ölüm üzərində qələbə çaldı. İsanın İncildə göstərilən yolu, xristian imperializmini tamamilə qadağan edir. İsanın ilk şagirdləri sülhsevər insanlar idi. Demək olar ki, hamısı imanları üçün canlarını verdilər, lakin düşmənlərini bağışladılar və pisliyə yaxşılıq ilə cavab verdilər".

Tövrat, Peyğəmbərlər və İncil qeyri-xristianlara qarşı pis rəftar üçün ssenari hazırlayırmı? İncil xristianlara "İsa yolunda vuruşun?" əmrini verir? Xeyr, İsa davamçılarına silahlarını yerə qoymaqlarını dedi, çünki onun səltənəti ruhun səltənətidir. Richard Dawkins və onun imansız dostlarının İsanın ardıcılları tərəfindən onlara hücum edəcəyindən qorxmaq üçün heç bir əsası yoxdur.

Qeyri-müsəlmanlar surə 9:29 kimi ayələrə gəldikdə nə düşünməlidirlər? "Qorxmalıyam? Kimsə mənə cizyə verməyə çalışacaqmı? Boyunduruq altında hiss etdirəcəklər?

Dünya heç vaxt Osmanlı müsəlmanlarının dövrü kimi dini azadlıq görməmişdi",-dostum əli ilə yaxınlıqdakı böyük məscidləri, kilsələri göstərdi. "Yəhudilər, Xristianlar və Müsəlmanlar mükəmməl bir dünyada bir yerdə yaşayırdılar, hər biri öz dinini qorxusuz şəkildə icra edirdi. Məgər Avropa uzun Qaranlıq əsrlərdən keçərkən sivilizasiya İslamın hakimiyyəti altında çiçəklənmədimi? İslam dünyanın ən tolerant dinidir".

142. Richard Dawkins "Tanrı illyuziya kimidir". marinerbooks; 16 yanvar 2008-ci ildə yenidən nəşr edilmişdir

Tarix İslam hakimiyyətinin çox vaxt necə işlədiyini göstərir. Yəhudilər və xristianlar müsəlmanların hakimiyyəti altında zimmilər, qeyri-müsəlman azlıqlar kimi yaşaya bilərdilər. Burada qeyri-müsəlmanlara qoyulan şərtlərin göstərici siyahısı verilmişdir.

- Bütün qeyri-müsəlman kişilərdən, müsəlman hakimiyyətinə boyun əymək əlaməti olaraq müsəlman dövlətinə seçki vergisi (cizyə) ödəmələri tələb olunurdu. (Bir çox sənədlərdə deyilir ki, ödəniş edərkən hansısa rüsvayçılıq yaşayıblar-məsələn, boyunlarına vurulurdu.) Əgər onların torpaqları varsa, torpaq vergisi də (xarac) ödəməli idilər.
- Qeyri-müsəlmanlar hərbi xidmətə gedə bilməzlər, çünki bu, onları cihada, müqəddəs müharibəyə cəlb edəcəkdi.
- Yəhudilərə və xristianlara müsəlman ərazilərində yeni kilsələr və ya sinaqoqlar tikməyə və ya onları təmir etməyə icazə verilməzdi.
- Onlara kilsələrdən kənarda xaç nümayiş etməyə və ya çöldə ictimai dini yürüşlər keçirməyə icazə verilməzdi.
- Onların evləri müsəlmanların evlərindən hündür tikilməməli idi.
- Onların geyimi müsəlmanların geyindiyi paltardan fərqli olmalı idi. Çox vaxt onları müsəlmanlardan fərqləndirən nişan taxmalı, bəzən də başlarını qırxmalı olurdular.
- Onlara atlara minmək qadağan edilmişdi, yalnız qatıra və ya eşşəyə minməli idilər.
- Müsəlmanlara hörmət göstərməli idilər, məsələn, onlara yerlərini verməklə.[143]

Daş kilsələrin dağıdılması, xalqın alçaldılması və hökumətdən qovulması ilə yəhudi və xristian icmaları təbii olaraq zəifləməyəcək?

Ərəbistanda vəziyyət həmişə daha sərt olub. Qeyri-müsəlmanların Məkkəyə girişi tamamilə qadağan edildi. Xəlifə Ömər, Məhəmmədin Ərəbistan yarımadasında iki din qalmaması əmrini bütün qeyri-müsəlmanları qovmaq haqqında fərman verərək yerinə yetirdi. Bu günə qədər Səudiyyə Ərəbistan krallıq ailəsi hakimiyyəti ciddi nəzarətdə saxlayır və yalnız bir dinin orada rəsmi olaraq mövcud ola biləcəyini təmin edir.[144]

Bütün bunları nəzərə alsaq, 9-cu surəni oxuyan bir xristian nə hiss edə bilər? İki çətin seçim arasında qalan bir insan özünü necə hiss edər? Əgər insan zimmi kimi yaşamaq istəyirsə, bu, aşağılıq və hakim təbəqəyə tabe olmaq deməkdir. Əgər o, sırf zimmi statusundan qaçmaq üçün müsəlman olmağa qərar verirsə, bu, saxta din, sırf dünyəvi məqsədlər üçün inancını dəyişdirmək deməkdir.

Müasir müsəlman deyir: "Bütün bunlar axmaqlıqdır, sən qaranlıq dövrlərdən qalan həyatdan danışırsan. 21-ci əsrdə biz maariflənmişik, demokratiyaya inanırıq. Sadəcə insan olmaq kifayətdir. Biz dinə görə fərq qoymuruq". Mütərəqqi səslənə bilər, amma bu fikirlər küləkdəki uçan lələklərə, qədim kitabların sözləri isə nəhəng daşlara bənzəyir.

## Quranın ən qədim nüsxələri

Heç kimdə Məhəmmədin özü tərəfindən yazılmış orijinal Quran yoxdur. Əslində tarix Məhəmmədin oxumağı, yazmağı bacarmadığını deyir. Ehtimal olunur ki, mələk Cəbrayıl Quranı Məhəmmədə əzbərlətmiş, o da ayələri öz ardıcıllarına söyləmişdir. Onlar da öz növbəsində sözləri əzbərləmişdilər. Nəhayət, ayələr ağac və perqament kimi müxtəlif materiallar üzərində yazılmağa başlanılmışdır . Tarixə görə, Osman rəsmi olaraq təsdiq etdiyi variantdan başqa bütün Quran nüsxələrinin yandırılmasını əmr etmişdir.

143. Colin Chapman, Xaç və Aypara, IVPBooks; 02 nəşr, 28 fevral 2008-ci il
144. Neftə əsaslanan sərvətin ortaya çıxmasından bəri yüz minlərlə qeyri-müsəlman Körfəz ölkələrində işçi qüvvəsi kimi işlə təmin olunub. Onların bir çoxu ciddi qanunlar altında öz dinlərinə etiqad edə bilən Asiya xristianlarıdır.

Osmanın nüsxəsi standart olaraq qəbul edilmişdir. Demək olar ki, bütün digər nüsxələr məhv edilmişdır.

Bundan sonra nə oldu? Müsülman kitab əhli Quranın daha çox nüsxəsini yaratdı. Erkən nüsxələr ərəb yazı üslubu ilə tanınır. Bu üslublara daxildir *Sülüs, Mubakkak, Nesib və Kufi.* Bu üslubların köməyi ilə elm adamları nüsxələrin neçənci əsrdə yazıldığını müəyyən edirlər.

Quranın ən qədim nüsxələrindən biri İstanbuldakı Topqapı sarayında, digəri isə Özbəkistanın Daşkənd şəhərindədir. Parlaq vərəqlərdə yazılmış bu nüsxələr təxminən 8-ci və ya 9-cu əsrlərə aiddir. 2015-ci ildə İslamın ilk dövrlərinə aid daha qədim Quran nüsxəsi tapıldı.

*Qədim kitabların sözləri böyük qayalara bənzəyərkən, fikirlər küləkdə uçan lələklərə bənzəyir.*

Qədim Quranın onlarla qismən nüsxəsi bu günə qədər gəlib çatmışdır. Onlar diqqətlə qorunur və öyrənilir. Alimlər nüsxələr arasında bəzi fərqlər tapıblar. Onların arasında heç bir orijinal Quran yoxdur. 1924-cü ildə Hafs Quranın standart misir nəşri nəşr olunmuşdur.[145]

Maraqlıdır ki, müsəlman alimləri Quranın çoxsaylı qədim nüsxələrini bir-biri ilə müqayisə edərək, bir çox xristianların İncil haqqında öyrəndiklərini söyləməyə başlamışdılar: qədim mətnlər arasında müəyyən fərqlərin olmasına baxmayaraq, xəbərin mahiyyəti dəyişmir.

## Niyə yəhudilər və xristianlarla vuruşmaq lazımdır? (Surə 9:30-31)

İndiyə qədər mən Quranda, şəriət qanunları altında edilən bir səbəb olmadıqca müsəlmanlara müharibə etməyi əmr edən bir ayə tapmadım. Bunun arxasında duran inanc budur ki, ədalətli cəmiyyət və düzgün din ancaq İslamdır. Quran öyrədir ki, İslam pisliyə və ədalətsizliyə (yeni doğulmuş qızların öldürülməsi kimi), bütpərəstlik kimi yalançı dinlərə son qoyur.

Bəs nə üçün yəhudilər və xristianlar bütpərəstlikdə ittiham olunurlar?[146] Surə 9:30-da izah olunur.

*Yəhudilər: "Üzeyr Allahın oğludur",-dedilər. Xristianlar da: "Məsih (İsa) Allahın oğludur",-dedilər.*

Bunu ilk oxuyanda təəccübləndim. Tövratı və Peyğəmbərləri gəncliyimdən bəri öyrənən biri olaraq dindar yəhudilərin qatı monoteist yəni tək Allahlı olduqlarını bilirdim.[147] Onlar elan edirlər:

*"Dinlə ey İsrail! Allahımız Rəbb yeganə Rəbdir"*[148]

Allah oğlu kimi kiməsə ibadət etməyi ağlına belə gətirə bilməzdilər. Əksinə, belə küfürlərə görə insanları döyüb öldürərdilər.

145. "Qurani Kərimin Qorunması və Himayə Olunması", Ümmə, "Misir nəşrini ən qədim Quran olan Daşkənd Quranı ilə müqayisə edəndə, Daşkənd Quranında saysız insan səhvləri görünür hansılar ki, Misir nəşri nəşr olunduqdan sonra düzəldilməli idi. Səhvlər göz qabağında idi, çünki Quran həmişə tam şəkildə əzbərlənmiş və o günə qədər şifahi olaraq nəql edilmişdir. İstənilən yazılı kitabla aşağıdakılara görə müqayisə edilə bilər. Uca Allahın yazılı kitabları, məsələn, Utmanı (Daşkənd Quranı), insan səhvləri ilə dolu olduğu halda qorumaq və himayə etmək niyyətini qəbul etmək mümkün deyil. 85:21-22-də oxuyuruq ki, Uca Allah hər hansı bir yazılı Quranı, qorunmuş lövhələrin köməyi ilə təsdiqləmək üçün bir vasitə verəcəyini vəd edir. http://www. ummah. com/forum/showthread. php? 66079-Quran-mühafizə olunub, 2018-ci ilin fevralında əldə edilib

146. Demək istəyirəm ki, Tövrat, Peyğəmbərlər və İncil bütpərəstliyi birmənalı olaraq rədd edir. Müşriklər yəhudi və ya xristian ola bilməzdilər.

147. Bəzi dini olmayan yəhudi icmaları arasında təxminən 60% ateistdir. Onların tamamilə dünyəvi düşüncə tərzləri var.

148. İncil, Mark 12:29

İncil buna bir neçə dəlil gətirir. Bir dəfə İsa, din adamları ilə Özü haqqında danışırdı. O, cəsarətli bəyanat verərək: “Mən və Ata birik” dedi. Din adamları Məsihi öldürmək üçün yerdən daş yığmağa başladılar. İsa soruşdu:

> *“Sizə Atadan gələn çoxlu yaxşı iş göstərdim. Siz bunların hansına görə Məni daşqalaq etmək istəyirsiniz?”*[149]

Onu yaxşı əməllərinə görə yox, küfr etdiyinə, Allahla bir olduğunu bəyan etdiyinə görə daşqalaq etmək istədiklərini söylədilər. Yəni Ona dedilər ki, əməlin yaxşıdır, amma sözün pisdir.

İsadan beş yüz il sonra Quranda deyilir ki, bəzi yəhudilər Üzeyri (Ezra) Allahın oğlu adlandırırdılar. VI əsrdə Ərəbistana səpələnmiş yəhudi icmaları haqqında hər şeyi bilmirik. Üzeyrəyə kim sitayiş edirdi? Bunu bilmirik. Amma əmin olduğumuz bir şey var, əgər yəhudilər Üzeyrə ibadət edildiyini bilsəydilər, İsaya etməyə calışdıqları şeyi ona da edərdilər. Öldürmək üçün daş yığardılar. Dindar yəhudilər küfrə qarşı dözümlü deyildilər! Hamısı Allahın bir olduğunu iqrar etməyə məcbur idilər.

Yəhudilər və Quran küfrü cəzalandırır. Amma bu, İsa Məsihlə bağlı sualı aradan qaldırmır. Xristianlar küfr etdikləri üçün günahkar idilər? Gördüyümüz kimi, bu, İsa ilə bağlı fikirlərə deyil, Onun həqiqətən kim olduğuna bağlıdır. Əgər İsa, başqa insanlar kimi Allahın yaratdığı bir ruha malik, torpaqdan yaradılmış bir məxluq olsaydı, xristianlar küfr etdikləri üçün günahkar olardılar. Bu vəziyyət, xristianların ağaca Allahın oğlu, dağa isə Allahın qızı deməkləri ilə eynidir. Əgər Allah tərəfindən yaradılan, Allahla bərabər ya da Onun bir qismi olaraq qəbul edilən bir şeyə sitayiş edərlərsə, burada küfr günahı vardır.

Əbədi Allah ilə müvəqqəti yaradılış arasında varlıq və fitrət baxımından mütləq fərq vardır.

## Yalançı möminlər (Surə 9:56)

İslamın birinci əsrində, Quran bir çox müsəlmanları qeyri-müsəlmanlara qarşı müharibəyə çağırmışdır. Ancaq müharibə çətin və təhlükəli olduğu üçün bəzi insanlar təhlükəsiz evlərində gizlənmək istədilər. Quran belə şeyləri qəbul etmir. 9:56-da hətta bəzi müsəlmanların səmimi olmadığı barədə xəbərdarlıq edir. Onları yalançı möminlər adlandırır.

> *(Münafiqlər) Özlərinin sizdən olduqlarına dair Allaha and içərlər. Halbuki onlar sizdən deyillər. Lakin onlar qorxaq bir tayfadır.*

Əsrlər boyu tez-tez sual yaranır: əsl müsəlman kimdir? Əsl müsəlman edən nədir? Şəhadətdir? Müsəlman adıdır? 9:56-cı ayədə göstərilir ki, hətta Allaha and içmək də həqiqi imanın sübutu deyil. O zaman bu gün özlərinə müsəlman deyən bəzi insanlar özlərini aldadır?

## Yeni bir düşmənlə tanışlıq (Surə 9:73)

Quran müşrikləri, bəzi yəhudiləri və bəzi xristianları haqsızlıqlarına və küfrlərinə görə düşmən hesab edir. 9:73-cü ayə yeni bir düşmən təqdim edir. " Ey Peyğəmbər, kafirlərə və münafiqlərə qarşı cihad et! Onlara qarşı sərt davran! Onların sığınacaqları yer cəhənnəmdir. Ora nə pis dönüş yeridir!”

149. İncil, Yəhya 10:30-33 İsa dedi: “Mən və ata birik. Yəhudilər yenə yerdən daş götürdülər ki, Onu daşqalaq etsinlər. İsa onlara dedi: “Sizə Atadan gələn çoxlu yaxşı iş göstərdim. Siz bunların hansına görə Məni daşqalaq etmək istəyirsiniz? Yəhudilər Ona cavab verdilər: “Səni yaxşı işinə görə deyil, insan olduğun halda Özünü Allah sayaraq küfr etdiyinə görə daşqalaq edirik”

Kimdir bu münafiqlər (Münafiqun المنافقون)? Surə 9:74-də deyilir ki, onlar İslamı qəbul etdikdən sonra küfr etdilər, Məhəmmədə qarşı sui-qəsd etdilər və bu barədə yalan danışdılar. Bütün bunları Məhəmməddən qənimət payı aldıqdan sonra etdilər. Üstəlik, xeyriyyə işlərinə vəd etdikləri qədər də pul vermədilər.

Quran münafiqlərin başına nə gələcək deyir? 9:74: Əgər tövbə etsələr, bu, onlar üçün daha xeyirli olar. Əgər üz döndərsələr, Allah onlara dünyada da, axirətdə də acı bir əzab verəcəkdir. Yer üzündə onların nə bir dostu, nə də bir köməkçisi var.

## Liderin arxasınca getmək (Surə 9:86-88)

Bu ayələr Məhəmmədin sərkərdə olduğunu göstərir. Onun tərəfdarlarına onunla çiyin-çiyinə vuruşmaq və cihad etmək əmri verildi. Döyüşdə yaralanma və ya öldürülmə ehtimalı ilə üzləşən bəzi güclü insanlar bu əzabdan qaçmaq üçün bir bəhanə tapdılar. Evdə qaldılar.

*“Allaha iman gətirmək və Onun Peyğəmbəri ilə döyüşmək əmri ilə bir surənazil edildikdə, onların içərisində olan sərvət sahibləri səndən qalmalarını istəməyə başladılar və dedilər: “Bizi burax, biz də oturanlardan olarıq”. Onlar geridə qalanlar arasında olmaqdan məmnun idilər. Onların qəlbləri möhürlənmişdir və həqiqəti dərk etmirlər”.*

Yaralıların, xəstələrin və ya kasıbların evdə qalmaq və döyüşməmək hüququ var. Bəzən hər kəsin döyüşməsi üçün atlar çatmadığından döyüşçülərdən bəziləri geridə qalmalı olur, lakin bütün qoşunla döyüşə çıxmaq imkanı olmadığı üçün çox üzülürdülər.

## Saxta məscidlər (Surə 9:107-110)

Bəzi münafiqlərin nəinki yalan danışması, küfr etməsi və İslam uğrunda döyüşməkdən imtina etməsi, burada utanmadan tikilmiş bəzi məscidlərin “möminləri parçaladığını” görürük. 97-ci ayədə buyurulur:

*“Bədəvilər kafirlik və ikiüzlülük baxımından həm daha pis, həm də Allahın Peyğəmbərinə nazil etdiyi hökmləri tanımamağa daha çox meyillidirlər. Allah hər şeyi biləndir, hikmət sahibidir.”*

Özünü müsəlman adlandıran insanların və hətta bütün məscidlərin eyni olmadığını burada görürük.

Mən surəni oxuyan bir xristian olaraq müsəlmanların hansı qrupunun daha təmiz olduğunu söyləmək hüququna malik deyiləm. Mənim sünni, şiə, ələvi və sufi dostlarım var.
Bir gün, bir sünni dostum mənə dedi ki, Nigeriyanın şimalında Boko Haram kimi müsəlmanlar əsl müsəlman deyillər. Güman edirəm ki, o, demək istəyirdi ki, onlar Allah və Rəsulunun haqq yolunda yaşayıb döyüşmürlər. Mən ondan həqiqi müsəlmanları haradan tapa biləcəyimi soruşdum və o, bəzilərinin Anadolu dağlarında yaşadığını söylədi.

9-cu surədə yəhudilər və xristianlar kimi müşrik qeyri-müsəlmanlardan, əlverişsiz olduğu üçün döyüşməyi sevməyən tənbəl müsəlmanlardan, həqiqi mömin olmadıqları halda and içib özlərini müsəlman adlandıran, lakin inanmayan münafiqlərdən bəhs edilir. . Şəxsən mənə elə gəlir

ki, həqiqi xristianı müşrikdən ayırd etmək, əsl müsəlmanı münafiqdən ayırd etməkdən daha asandır. Hər halda, qərar vermək mənim səlahiyyətimdə deyil.

Maraqlıdır ki, bütün müsəlmanlar eyni deyil, özünü xristian adlandıranlar da eyni deyil. Avropada yaşayan, İncili heç vaxt oxumayan və Yaradana inanıb-inanmadıqlarına əmin olmayan "xristianlarla" rastlaşmışam. Onlar sadəcə olaraq dini atalarından miras alıblar. Onların ibadət yerləri və dini bayramları var, lakin şəxsi inancları yoxdur. Bəziləri qızıl xaç taxırlar. Bəziləri səmaya baxıb "Allaha şükür" deyir, amma İsanın harada doğulduğunu soruşsan, ancaq səssizcə sənə baxacaqlar. Bu insanlar üçün xristian olmaq donuz əti yeyə bilmək, şərab içə bilmək və günahlarını keşişə etiraf edə bilmək mənasındadır. İsaya görə, bu şeylərin kimisə ölümdən dirildib əbədi həyat bəxş etməyə qüdrəti yoxdur.

Bir gün İsanın şagirdləri onun ardınca gələnlərin çoxunun ikiüzlü olmasından şikayətləndilər. İsa tarlada yan-yana bitən buğda və dəlicələr kimi, həqiqi imanlıların ikiüzlülərlə birlikdə çoxalacağını söylədi. İkiüzlüləri rahat buraxmalı olduqlarını, əks halda təsadüfən buğdanı da dəlicələrlə birlikdə qopara biləcəklərini ifadə etdi. Dövrün son günü Allah özü buğda ilə dəliceni ayıracaq.150

## Allahın yaxşılığı nə qədər böyükdür? (Surə 9:113)

İndiki səyahətimiz, bizi çox həssas bir mövzuya aparır. Allahın lütf və mərhəmətinin həddi varmı?

*"Müşriklərin cəhənnəmlik olduqları bəlli olduqdan sonra, qohum olsalar belə, onlar üçün bağışlanma diləmək Peyğəmbərə və möminlərə yaraşmaz."*

114-cü ayəyə görə, İbrahim müşrik atasının bağışlanması üçün Allaha dua etdi. Amma tövbə edib Allahın dostu olmadığını görüb İbrahim ondan uzaqlaşdı.

*"İbrahimin öz atası üçün bağışlanma diləməsi isə, yalnız ona söz verdiyi üçün idi. Atasının Allaha düşmən olduğu ona bəlli olduqdan sonra ondan uzaqlaşdı. Həqiqətən, İbrahim yalvarıb-yaxararaq Allaha çox dua edən və səbirli bir insan idi."*

Allahın günahkarlara qarşı mərhəmətinin hüdudlarından bəhs etməzdən əvvəl dua mövzusu haqqında düşünək. İnsanlar dua edəndə nə baş verir? Dua çox vaxt Allah qarşısında müəyyən sözləri təkrarlamaq kimi başa düşülür. Müntəzəm duaların (namazların) müəyyən bir cədvəli var. Biz İbrahimin əzbərlənmiş dualar oxuduğunu görmürük, əksinə onun Allahla ürəkdən söhbət etdiyini görürük.

İndi həssas suala gələk. Allah nə vaxt günahkar insanlara mərhəmət etməyi dayandırır? 113-114-cü ayələrdə deyilir ki, insanın cəhənnəm sakini olacağı "onlara aydın olduqdan sonra" Allahın mərhəməti və lütfü kəsilir. Bəziləri düşünür ki, bu, yalnız İslamı qəbul etmədən ölən insanlar üçün baş verir. Ola bilsin, amma bu ayə onu göstərir ki, İbrahim atası hələ sağ ikən onun üçün dua etməyi dayandırıb.

9:80 surəsi daha aydınlatma verir. Orada deyilir:

*"Onlar üçün istər bağışlanma dilə, istər diləmə; onlar üçün yetmiş dəfə bağışlanma diləsən də, Allah onları bağışlamayacaq. Bu, onların Allahı və Onun Peyğəmbərini inkar etmələrinə görədir."*

150. İncil, Matta 13:30

Bu ayədə cəhənnəm əhlinin bağışlanması üçün Allaha dua etməkdən söhbət gedirmi? Görəsən qeyri-müsəlmanlar, islamı qəbul etmədikləri üçün imansızlığa təslim edilmədən əvvəl İslama nə qədər xeyirxah və mərhəmətli dəvət almalıdırlar? 80-ci ayədə deyilir ki, 70 dəfə namaz qılsalar belə, Allah bu kafirlərə rəhm etməyəcək.

Bəzən insanlar, İsa Məsihin yenidən gələcəyi ümidini ələ salırlar. Hətta onun ilk ardıcılları olduğu dövürlərdə belə istehzaçılar var idi. Lakin Allahın gözləmək üçün yaxşı səbəbləri var. İncildə deyilir:

*“Bəziləri bunu gecikmə sayar, amma Rəbb vədini yerinə yetirməkdə gecikməz, lakin sizə görə səbir edir. Çünki O heç kəsin həlak olmasını istəmir, amma hər kəsin tövbə etməsini istəyir.”*[151]

Romalılar İsanı çarmıxa çəkəndə, Onunla birlikdə iki oğrunu çarmıxa çəkdilər-biri sağında, digəri solunda. Əvvəlcə əzab və utanc içində olan hər iki insan İsanı təhqir və lənət yağdırdılar. Şübhəsiz ki, şöhrəti Qüds və yaxın bölgəyə yayılan İsa haqqında artıq eşitmişdilər. Quzu kimi sakit amma şir kimi qüvvətli İsa heç vaxt pisliyə pisliklə cavab vermədi. Ona zülm edən və öldürən qatillərini bağışladı. Dəhşətli ağrı və haqsızlıqdan əziyyət çəkən İsanın necə ilahi məhəbbət göstərdiyini görən oğrulardan biri yumşalmağa başladı. Öz əhəmiyyətsizliyini anladı. Nəhayət, qan itirməkdən və yorğunluqdan halsız olan bədbəxt adam dedi:

*“Ey İsa, Öz Padşahlığına gələndə məni xatırla” İsa ona dedi: “Sənə doğrusunu deyirəm: bu gün sən Mənimlə birlikdə cənnətdə olacaqsan.”*[152]

İsanın nümunəsi öyrədir ki, Allahın sevgi dolu mərhəməti və şəfqəti son nəfəs alınana qədər, son saniyəyə qədər gözləyir. O, təkrar-təkrar günahkarlara əlini uzadaraq onları evə qayıtmağa dəvət edir. Amma buna baxmayaraq, zaman gələcək ki, Allah günahkarı onun qatı qəlbinə təslim edəcək.

# 10-cu fəsil | Surə 10: Yunus

Rəhman və Rəhim olan Allahın adı ilə

## Doğru yol (Surə 10:25)

10-cu surədə daha çox xəbərdarlıq və vədlər verilir. Bəzi insanlar iman gətirib yaxşı işlər görür, bəziləri isə inanmır və yalnız dünya üçün yaşayır. Surə 10:8-də deyilir ki,

*“onların hökmü dəhşətlidir və “onların sığınacaq yeri cəhənnəmdir.”*

Yaxşı və ya pis, bütün insanlar axtarışdadır. Bəlkə də kimsə çörək və su kimi sadə şeylər axtarır. Bəlkə kimsə sevgi və məhəbbət axtarır. Kimsə-sərvət və güc. Bəziləri cəhənnəm odundan qaçıb Cənnətə daxil olmaq üçün səmimi olaraq Allahı razı salmaq üçün yollar axtarır.

Bu universal axtarış insanları bir çox yollara aparır. Bu yolların çıxışı eyni yer deyil. Doğru yol haqqında 25-ci ayədə buyurulur:

*Allah (bəndələrini) əmin-amanlıq yurduna (cənnətə) çağırır və dilədiyini doğru yola yönəldir.*

151. İncil, 2 Peter 3:9
152. İncil, Luka 23:43

Düz və doğru yol sağa, ya da sola aparmaz. Ədalətə və xeyirxahlığa işarə edər. Çətinlikin və həvəsin təsiri altında yırğalanmz. Doğru yolda gedən insan bağlılıqdan, eqoizmdən uzaq olmalıdır.
Yollar daima hər hansı bir yerə gətirib çıxarır. Hər yolun bir yönü var. Bir axşam İsanın bəzi şagirdləri Onun əbədi həyat haqqında təsvirinə qulaq asırdılar. Onları fiziki olaraq tərk edəcəyini lakin cənnətdə onlar üçün məskən hazırlayacağını və sonra qayıdıb onları da aparacağını söyləyirdi. İncil öyrədir ki, Cənnət Allahın evidir. Bu, Allahın hüzuru ilə dolu möcüzəvi bir şəhər kimidir. Allahın xalqı Onun dərgahında əbədi olaraq həmd edəcək və ibadətdən həzz alacaqlar.
İsa Məsihin dostu Tomas sağlam həqiqətləri görmək istəyi ilə tanınırdı. Tomas İsaya dedi:

*"Ya Rəbb, hara gedəcəyini bilmirik, yolu necə tanıya bilərik? İsa ona dedi: "Yol, həqiqət və həyat Mənəm. Mənim vasitəm olmadan heç kim Atanın yanına girə bilməz. Əgər Məni tanısaydınız, Atamı da tanıyardınız. İndidən siz Onu tanıyırsınız, Onu görmüsünüz".*[153]

İsa Özü haqqında başqa qeyri-adi şeylər deyirdi: «Dünyanın nuru Mənəm». "Qapı mənəm". "Yaxşı Çoban Mənəm". "Dirilmə və həyat Mənəm". "Meynə Mənəm". "Yol Mənəm".
10:25-ci surənin Doğru Yol haqqında dediklərini yüksək qiymətləndirirəm. Hər bir insanın öz "həyat yolu" vardır. Bu həyat yollarının hamısı bərabər deyil. Bu gün dünyada iki əsas yol var. Birinci yolun geniş bir girişi və enli bir davamı vardır. Bu yol ilə gedənlər çoxdur amma yolun sonu həlakdır. İkinci yolun kiçik girişi var və dar yoldur. Bu yolu ancaq az adam tapır, lakin o, əbədi həyata aparır.

## Peyğəmbərlik kitabları (Surə 10:37-40)

Məhəmməd onu yalan danışmaqda ittiham edən insanlara qarşı çıxdı. 38-ci ayə:

*Yoxsa onlar: " (Mühəmməd) onu özündən uydurdu!"-deyirlər? De ki: "Əgər haqlısınızsa, Allahdan başqa bacardığınız kimsələri (köməyə) çağırın və siz də ona bənzər bir surəgətirin!"*

Məhəmməd elə bir müdafiə qurdu ki, heç kim Quranın bir ayəsini belə yaza bilməzdi. O, Quranın fövqəltəbii olduğunu iddia edirdi.
Surə 37:

*"Bu Quran Allahdan başqasına isnad edilə bilməz. O, ancaq özündən əvvəlkiləri təsdiqləyən və Kitabı (hökmləri) bəyan edəndir. Onda heç bir şübhə yoxdur. O, aləmlərin Rəbbi tərəfindəndir."*

Mən burada Quranın fövqəltəbii olub-olmaması ilə bağlı mübahisə etmək fikrində deyiləm. Birincisi, mən Quranı bütövlükdə diqqətlə oxumaq və orada deyilənləri dinləmək istəyirəm.

Həyatımda bir çox ölkələrdə yaşayıb, Allahdan gəldiyi iddia edilən dinlərlə və kitablarla tanış oldum. Orta Asiyada müsəlman qonşularımdan bəziləri tanınmış tayupa-ya böyük hörmət bəsləyirdilər. Bu adam 20 minlik futbol stadionuna insan toplaya bilərdi. Ardıcılları onun xəstəlikləri sağalda biləcəyinə və həyat verən sözlər söylədiyinə inanırdılar. Ona peyğəmbər demirdilər, lakin onun Allah tərəfindən göndərilmiş xüsusi bir şəxs olduğuna inanırdılar.

153. İncil, Yəhya 14:5-7

1830-cu ildə Nyu Yorklu Cozef Smit adlı bir adam, “Mormon Kitabı” adlı bir kitab nəşr etdi. O, ardıcıllarına Tövratın, Peyğəmbərlərin və İncilin təhrif edildiyinə və Mormonius adlı ölümdən dirilmiş peyğəmbərin onu Allahın təzə vəhyi ilə gizli qızıl lövhələrə apardığını deyirdi. Bir çox insan onun mesajını rədd etdi, lakin onun ardıcılları çoxaldı və Amerikada Böyük Duz Gölü yaxınlığında yeni bir torpağa bir növ hicrət kimi həcc ziyarəti etdilər. Bu gün dünyada milyonlarla insan Cozef Smitin təlimlərinə və Mormon Kitabına əməl edir.

Məzun olduqdan dərhal sonra bir təşkilatdan mənə “Urantiya Kitabı”nın pulsuz nüsxəsini təklif edən məktub aldım. Onların internet saytında deyilir:

*“İlk dəfə 1955-ci ildə Urantia Fondu tərəfindən nəşr olunan Urantia Kitabı bizə bəşəriyyətin mənşəyi, tarixi və taleyi haqqında məlumat verir.”*154

Onların kitabı mənə niyə lazımdır?” düşündüm. “Tövrat, Peyğəmbərlər və İncil bütün bunları zatən bizə göstərmirmi?”

1879-cu ildə Şimali Amerikada gizli dini qrup yarandı və Yehovanın Şahidləri kimi tanındı. 21-ci əsrdə onlar bütün dünyada bir neçə milyon insana qədər böyüdülər. Onlar Cozef Smit kimi yeni bir müqəddəs kitab nəşr etmədilər, lakin onların bir qrup müəllifi və redaktoru oturub Tövrat, Peyğəmbərlər və İncildə kritik dəyişikliklər etdilər. Onlar Köhnə Kitabların dəyişdirilmiş versiyasını “Yeni Dünya Tərcüməsi” adlandırdılar. Müsəlman dostlarım “Köhnə Kitablar” təhrif olunduğunu söylərkən, bəhs etdikləri Yehovanın Şahidlərinin versiyasıdırsa, onlar haqlıdırlar. Təsəvvür edin ki, bir xristian Quranın öz tərcüməsini çap edir və kiçik, lakin mühüm dəyişikliklər edir. Kompüteri və printeri olan hər kəs saxta kitabı saxta puldan daha asan çap edə bilər.

Bütün dünyada, biz hinduların Vedalar adlı müqəddəs kitablarının olduğunu görürük. Buddistlər, Maariflənmiş və ya Oyanmış hesab edilən ustad Buddanın ardınca getmək üçün Tripitaka-nı oxuyurlar.

Quranın zühurundan yüz illər sonra Guru Nanak Hindistanda yeni Siqh dinini qurdu. Onlar İslam dini və Hinduizm dini ilə qarışığı olan Guru Granth Sahib-ə hörmət edirlər. Hamını xoşbəxt etməyə çalışmaqda Siqhlərdan xeyli irəli getmiş Bəhailər Allahın bir çox təzahürlərinin olduğuna inanırlar. Bab ilə Bəhaullahın Məhəmməddən sonra gəldiyinə inanırlar. Bab dedi:

*“Ey Mənə ilk iman gətirən! Həqiqətən deyirəm ki, mən Bab, Allahın qapısıyam.”*155

Müsəlmanların bidətçisi sayılan Bab 1850-ci il iyulun 9-da edam edildi. Eynilə, onun bir çox ardıcılları həbs olundu və edam edildi.

Davam etmək üçün burada kifayət qədər yerim yoxdur. Hər qitədə və hər dövürdə peyğəmbərlik çağırışlarını və yazdıqları kitabları iddia edən insanlara rast gəlmək olar. Düzünü desəm, bu çox qarışıq ola bilər! Niyə bir şeyə inanaq ki?

Bir gün həyat yoldaşımla İbrahim və İsa Məsihin harada yaşadığını görmək üçün Qüdsə getdik. Bu gün Qüds həm çox qədim həm də son dərəcə müasir olan səs-küylü bir şəhərdir. Qəhvə içdikdən sonra şəhərin dar bir küçəsi ilə müsəlman məhəlləsinə getdik. Gözəl tağlar və dar küçə aralarındakı bal rəngli divarları izlədik. Bizimlə görüşmək üçün bir neçə ərəb oğlan bizi qaşıladılar.

154. Urantia Kitabının xülasəsi, https://www. urantia. org/urantia-book, 2018-ci ilin fevralında əldə edilib.
155. "Babın gəlişi", BBC, http:// www. bbc. co. uk/religion/dynamics/ bahai/history/ bab_1. shtml, əldə edilib fevral 2018

Fərqli görünməyimizi tez anladılar və bizə şübhə ilə yaxınlaşdılar. Onlara gülümsədik və mən ərəbcə “Əssalamu aleykum” dedim. Dərhal dayandılar və bizə gülümsədilər. Yamacdan aşağı enərək, Məscidül-Əqsanın təməlinə gəldik və padşah Süleymanın dövründə tikilmiş məbədin əsaslarını öyrəndik.

Yaffa qapısındakı kiçik yataqxanamıza qayıtdıq, lakin əvvəlcə İsanın ənənəvi dəfn edildiyi yerdə dayandıq. Daş həyətdə hər rəngdə, formada və ölçüdə insanlar dayanmışdı. Qaranlıq yerdi.

İsa Məsihin cəsədini qoyduqları həqiqi məzar bura idi yoxsa Onu başqa yerə basdırıblar? Mən bilmirəm. Amma bir şeyi dəqiq bilirəm. Onun cəsədini heç kim tapmayıb. Üçüncü gün səhər mələklər dostlarından soruşdu:

*“Nə üçün siz Dirini ölülər arasında axtarırsınız?”*[156]

"Bizə dəlil göstər!" Hər kəs dəlil istəyir. Heç kim güvən paylamır. Güvən qazanılmalıdır. İsanı sınaqdan keçirən yəhudi din adamları heç də fərqlənmirdilər. Onlar:

*“Səndən bir əlamət görmək istəyirik!”-dedilər. İsa cavab verdi: “Yunus üç gün-üç gecə nəhəng balığın qarnında necə qalmışdısa, Bəşər Oğlu da üç gün-üç gecə yerin bağrında elə qalacaq.”*[157]

Ən böyük dəlil tapa bilərikmi? İnternetdə heyrətamiz sehrli fəndlərə baxdım. Bəzi illüzionistlər öz sənətlərində o qədər mükəmməldirlər ki, fiziki qanunlara qarşı çıxırlar, bu da məni qorxudur. Beynim bunun sadəcə bir illüziya olduğunu deyir, amma gözlərim bunun bir möcüzə olduğunu söyləyir. Ancaq bunlar sadəcə hiylədir. Elmi araşdırmalardan keçə bilməzlər.

Bəziləri İsanı hiylədə ittiham edirlər. Amma İsa ən mühüm əlamət, həqiqi dəlil olan yeganə əlamət onun ölülərdən dirilməsi olduğunu ifadə etdi. Əgər kimsə, ölümdən üç gün sonra dirilmə illüziyasını qüsursuz bir şəkildə bacara bilsəydi, o insan bütün sehrbazlar arasında ən böyük sehrbaz olardı. Qəbirin daşı yuvarlanandan sonra şagirdlər onu sağ gördülər. Yəhudi din adamları çılğın şəkildə onun itmiş cəsədini axtarırdılar. İsanın cəsədini tapa bilsəydilər, bu gün bu haqda danışmazdıq. İki min ildir ki, insanlar İncili birdəfəlik susdurmaq ümidi ilə onun sümüklərini tapmağa çalışırlar. Bununla belə, İsanın dirilməsi onun xəbərini sübut edən bir möcüzənin daimi ifadəsidir.

Quranın sözləri Məhəmməd tərəfindən ilk dəfə oxunanda necə səsləndiyini bilmirik. Quranın ilk yazılı nüsxələrində saitlər yox idi. Saitlər olmadan söz müxtəlif yollarla tələffüz edilə bilər. Fərqli tələffüz fərqli mənalı bir sözü ifadə edə bilər. Məhəmməddən bir neçə əsr sonra alimlər Qurana saitlər əlavə etdilər, lakin 7-ci əsrdə Məhəmmədin səsinə dair heç bir qeyd olmadığı üçün təxmin etməli oldular.[158]

Məhəmmədin Quranın sözlərini necə dediyini heç kim dəqiq bilmədiyi üçün müsəlmanlar ənənəvi olaraq təfsirdən çox asılı olublar.

Təfsir şərhləri olmasaydı, Quranın bəzi hissələri demək olar ki, anlaşılmaz olardı. Bu, Quranın səs keyfiyyəti və orijinal mətnin mənası haqqında şərh verməyi çətinləşdirir.

Bu, bizi daha dərin bir suala gətirir: 10:38-ci surə ərəbcə ayələrin səsinin fövqəltəbii və misilsiz olduğunu (şeirin qafiyələr və ritmlərlə gözəl səsləndiyi kimi) nəzərdə tutur, yoxsa mesajın gözəl və ya hər ikisinin belə olduğunu ifadə edir?

156. İncil, Luka 24:5
157. İncil, Matta 12:38-40
158. Elə buna görə də İslamın müxtəlif qollarında Quranın fərqli oxunuşları var.

Məncə, insanların çoxu Quranın həm səsinin, həm də mesajının gözəl və fövqəltəbii olduğunu düşünürlər. Bu, bizi bir milyarddan çox müsəlmanın Quranı dinlədiyi, lakin eşitdiklərini anlamadığı məsələsinə qaytarır. Beləliklə, bir çox müsəlman üçün səs və mesajın bir-biri ilə əlaqəsi yoxdur.

Bir müddət Kiprdə, Yunan Pravoslav Kilsəsi ilə eyni küçədə yaşadım. Bir gün yerli keşişin səsgücləndiricilər vasitəsilə qədim yunan dilində mahnı oxuduğunu eşitdim. Təxmin etdim ki, İncilin bəzi hissələrini oxuyur, amma dəqiq bilmədim. Yunan qonşularım mənə etiraf etdilər ki, onlar da mənim kimi bu keşişi başa düşmürlər! Sözləri eşidirlər, bunun gözəl olduğunu hesab edirlər, lakin mənasını başa düşmürlər.

Buna bənzər vəziyyət Roma Katolikləri arasında yüz illərlə davam etdi. Kahinlər latın dilində danışırdılar. Onları kim başa düşə bilərdi? Qətiyyən adi insanlar deyil. Bütün bunlar möhtəşəm, əzəmətli və mistik səslənirdi, lakin gündəlik həyat üçün praktiki deyildi.

Allah, sevgisini insanlara çatdırmaq üçün anlaşılmaz dillərdən danışmağı heç vaxt planlaşdırmamışdı. Bu ünsiyyət deyil. Allahın Ruhu, İsanın şagirdlərinin üzərinə alovlu dillərdə endikdə, onlar möcüzəvi şəkildə heç vaxt öyrənmədikləri dillərdə danışmağa başladılar. Onları eşidən zəvvarlar

*“Bəs necə olur ki, biz öz ana dilimizi eşidirik?”*[159]

Bu gün dünyada insanlar tərəfindən danışılan 20. 000-dən çox dil var. Allah onların hamısını bilir.

## Nuhun gəmisi (Surə 10:73)

Adəmin günlərindən sonra qəlbin dərinliklərində böyüyən ac günah toxumu ilə şər yer üzünə vəba kimi yayıldı. Allahın ədalətlə hər şeyi məhv etməyə haqqı var idi, lakin Nuhun ailəsini gəmidə saxlamaqla bəşəriyyətə mərhəmət göstərdi. 10:73:

*Onlar yenə də Nuhu yalanladılar. Beləcə, onu və onunla birlikdə gəmidə olanları xilas etdik. Onları (yer üzünün) varisləri etdik. Ayələrimizi yalanlayanları isə suda boğduq. Bax gör, xəbərdar edilənlərin sonu necə oldu! Həqiqətən də, bu, bəşər tarixində qaranlıq bir an idi, lakin Allah bir işıq parıltısını göndərdi.*

Nuhun gəmisi, Tövratdakı bir çox hekayələr kimi, Allahın Məsih vasitəsilə vəd etdiyi qurtuluşun prototipidir. Heç kim Gəmidən uşaqlar qədər həzz almır. Oyuncaq gəmisi ilə saatlarla oynaya bilərlər. Onlar kiçik cüt ekzotik heyvanları şir, fil, begemot və meymunları gəmiyə “qoyub” qapını bağlayırlar. Gəmi məhvin ortasında ümidin simvoludur.

Gəmi səkkiz adamı daşqın suları üzərindən sağ-salamat keçirdiyi kimi, Masih də öz ardıcıllarını məzardan sağ-salamat keçirəcəyini vəd edir. Nuh və ailəsi canlarını gəmiyə bağladıqları kimi, İsanın ardıcılları da imanla İsanın dirilməsinə bağlayırlar. Gəmi tufandan xilas olduğu üçün Nuh və ailəsi həlak olmamışdır. İsa ölüm və məzardan xilas olduğu üçün Ona güvənən ardıcılları da həlak olmayacaqlar. Dirilmə Onun əlamətidir.

159. İncil, Həvarilərin işləri 2:8

## Kitab əhlindən soruşun (Surə 10:94)

Və yenə Quran əvvəlki kitabları təsdiq edir. Quran buyurur ki, Allaha şəkk edən hər kəs "Əvvəlki kitabları" oxuyan yəhudi və xristianlardan kömək istəməlidir. 10:94

*(Ey peyğəmbər!) Əgər sənə nazil etdiyimizdən şübhə edirsənsə, səndən əvvəl kitabı (Tövratı) oxuyanlardan soruş. And olsun ki, Rəbbindən sənə haqq (Quran) gəlmişdir. Ona görə də əsla şübhə edənlərdən olma!*

# 11-ci fəsil | Surə 11: Hud (Hud Peyğəmbər)

Rəhman və Rəhim olan Allahın adı ilə

Əgər siz, mənim müsəlman dostum, hələ də mənimlə birlikdə bu kitabı oxuyursunuzsa-və ümid edirəm ki, oxuyursunuz-uzun bir yol qət etdik. Artıq surələr, tədricən sondakı 114-cü surəyə qədər qısalmağa başlayır. Oxuduğum hər şeyi şərh edə bilmərəm və bu kitabın çox uzun olmasını istəmirəm, amma oxuyarkən diqqətimi çəkən bəzi konkret fikirlər haqqında dürüst olmaq istəyirəm.

## Lütf nədir? (Surə 11:3)

*Həm də Rəbbinizdən bağışlanma diləyəsiniz, sonra da tövbə edəsiniz ki, O sizə müəyyən olunmuş vaxtadək gözəl gün-güzəran nəsib etsin və hər fəzilət sahibinə Öz lütfündən versin. Əgər Ondan üz çevirsəniz, bilin ki, mən sizə üz verəcək əzəmətli günün əzabından qorxuram.*

Bir neçə dəfə lütf anlayışı ilə qarşılaşdıq. Ərəbcə فَضْلَهُ sözü bəzən *fəzilet* kimi də tərcümə olunur. 3-cü ayədə oxuyuruq ki, fazilət onu təcəlli edənlərə verilir. İncil lütf ideyasını ifadə etmək üçün haris (χάρις) və aqape (ἀγάπη) sözlərindən istifadə edir.

Həqiqi lütf mükafat və ya ödənişdən fərqlidir. Əsl lütf yalnız cəzanın kəsildiyi zaman bir mərhəmət deyil. Əsl lütf tamamilə layiq olmayan bir insanın üzərinə sevgi və xeyir-duadır.
Uzun müddət əvvəl, səhər tezdən üzüm bağının sahibi şəhərə gedib orada bir neçə işçi tutmuşdu. Onlar adi maaşla işləməyə razılaşdılar. Həmin gün səhər yenə şəhərə getdi və daha çox işçi tutdu. Hələ daha çox işçiyə ehtiyacı var idi, günorta saat üçdə və beşdə yenə işçilər tutdu, . Həmin axşam günəş batanda bütün işçilər maaşlarını almaq üçün gəldilər. Ev sahibi hamıya eyni miqdarda pul verdi. Birinci işçilər etiraz etdilər: "Bu ən axırİncilar cəmi bir saat işlədilər və sən onları günün ağırlığını və qızmar istisini çəkən bizlərlə bir tutdun". Ev sahibi cavab verib dedi: "Dostum axı mən sənə haqsızlıq etmədim, sən mənimlə bir dinara razılaşmadınmı? Haqqını al, get! Axırıncıya da sənə verdiyim qədər vermək istəyirəm. Öz pulumla istədiyimi etməyə ixtiyarım yoxdumu? Sən mənim comərdliyimi qısqanırsan?"[160]

Bir gün bacım mənimlə bu hekayə haqqında danışdı. "Əvvəllər bunun ədalətli olmadığından şikayət edirdim. Bağ sahibi hamıya eyni məbləği necə ödəyə bilər? Amma sonra başa düşdüm ki, bu, Allahın lütfündən bəhs edən hekayədir. Lütf qarşılıqsız verilən və qarşılıqsız alınan bir hədiyyədir.

160. İncil, Matta 20:1-16

Üzüm bağının sahibi Allahdır. Bütün yer onun tarlasıdır. İnsanları ora işə qoyur. Bəziləri başqalarından daha çox yaxşılıq etməyə çalışır, amma heç kim üzüm bağı sahibi qədər yaxşı işləyə bilməz. Allahın bizə verdiyi hər şey layiq olduğumuzdan daha çoxdur.

## Saranın gülüşü (Surə 11:71)

Onun arvadı pərdə arxasında durmuşdu. O, güldü. Biz onu İshaqla, (İshaqın) ardınca da Yaqubla müjdələdik.

İbrahimin səhv qərarları ilə həyatına nifaq daxil oldu. Allah ona oğul vəd etdi və qurtuluş onun nəsli ilə bütün millətlərə gələcəyini buyurmuşdu.

Həcər qul bir qadın idi. Sara azad və İbrahimin qanuni arvad idi. 71-ci ayə Tövratda müqəddəs qonaqların İbrahimin ailəsi ilə birlikdə nahar etmək üçün onun çadırına gəldikləri hekayəyə uyğun gəlir.

*Bu nəsil şəcərələri İsa Məsihin xilas Toxumu olduğunu təsdiq edir. İsa Məsihdən Davuda, İshaqa və İbrahimə qədər addım-adım uzanan bir sübut zəncirini təşkil edir.*

Rəbb İbrahimdən soruşdu: “Arvadın Sara haradadır?”
“Burada çadırdadır” deyə İbrahim cavab verdi. Sonra Allah Saranın bir oğula hamilə qalacağına söz verdi.

Sara çadırda güldü. Bu necə mümkündür? O və İbrahim artıq qocalıb yaşa dolmuşdular.
Daha sonra qonaqlar ondan niyə güldüyünü soruşdular. Sara qorxduğu üçün gülüşünü inkar etdi. Ancaq Rəbb dedi: - “Xeyr, güldün”. Aylar sonra onların oğlu dünyaya gəldi. Allahın buyurduğu kimi, onun adını İshaq, yəni gülüş qoydular. İshaq əhdin oğlu idi və onun vasitəsilə Qurtuluş Toxumu daha sonra gələcəkdi. [161]

Tövrat və İncil, İsaya qədər Adəm, İbrahim, İshaq, İsmayıl, Yaqub, Yusif, Musa və Davudun nəsil şəcərəsini diqqətlə sadalayır. Siyahılar uzun və ətraflıdır.[162]

Nə üçün? Niyə bütün bu çətinliklər? Bu şəcərələr İsanın xilas Nəsli olduğunu təsdiqləyir. İsadan Davuda, İshaqdan İbrahimə qədər addım-addım yolu izləyə biləcəyimizi göstərən iz buraxırlar.

Sara oğlu ilə bağlı düşüncəyə güldüyü zaman, Allahın İsa Məsihdə Öz lütfü ilə insanlara nə qədər sevincli gülüşlər bəxş edəcəyini təsəvvür edə bilərdi?

# 12-ci fəsil | Surə 12: Yusif (Yusif peyğəmbər)

Rəhman və Rəhim olan Allahın adı ilə

## Nəsihət hekayələri (Surə 12)

Quranda Tövrat və İncillə bağlı çoxlu ümumi hekayələr tapdım. 111-ci ayədə deyilir ki, bu hekayələr “ağıl sahibləri üçün öyüd-nəsihətdir”. Mən bununla razıyam.

161. Tövrat, Yaradılış 17:19
162. İncil, Matta1 və İncil, Luka 3

12-ci surəQuranın ən uzun hekayələrindən biridir. Yusifin qardaşları onu Misirdə köləliyə satdılar, ev sahibinin arvadı onu yoldan çıxartmağa çalışdı və sonra onu yalandan ittiham etdi, sahibi onu zindana atdı, sonra Allah Yusifi fironun məhkəməsində ali rəhbərliyə çağırdı. Bir neçə il sonra Aralıq dənizi bölgəsində aclıq baş verdi və bu aclıq qardaşlarını yemək üçün Misirə gətirdi. Allahın Yusifi böyük bir məqama yüksəltdiyini bilmirdilər. Yusif qardaşları ilə sülh bağladı və Yaqubla birlikdə Misirə köçdülər.

Yusifin hekayəsi ilə bağlı daha dramatik təfərrüatlara Tövratda rast gəlmək olar.[163] Yaqub Yusifə çox rəngli gözəl paltarlar hədiyyə etdi. Qardaşları Yusifin geyiminə və bir gün hamının ona ibadət edəcəklərini xəbər verən yuxularına görə ona paxıllıq etdilər. Bir dəfə Yaqub, Yusifi qardaşlarını və sürülərini yoxlamaq üçün səhraya göndərdi. Bunu fürsət bilən qardaşları, onu öldürməyi planlaşdırdılar, amma böyük qardaş Ruven, atasına olan məhəbbətindən Yusifi xilas etmək üçün buna müdaxilə etdi. Yəhuda adlı başqa bir qardaş Yusifi gümüşə satmağı təklif etdi. Buna görə də Yusifi öldürmək əvəzinə onu quyuya atıb gözlədilər. Ruven quyuya çox gec qayıtdı. Qardaşları artıq Yusifi İsmaili tacirlərə satmışdı.

Yusif Misirdə Potifar adlı yüksək vəzifəli bir məmurun xidmətinə düşdü. Yusifin müdrik rəhbərliyi altında ailəsi çiçəkləndi. Onun məharət və çevikliyini görən Potifarın arvadı ehtirasla tutuldu. Yusif bu sınağa müqavimət göstərdi, lakin Potifar arvadının ittihamlarına inandı və Yusifi zindana atdı.

Uzun illər o, zülmət içində gözlədi. Bir dəfə onunla birlikdə həbsdə olan padşahın saqisinin və çörəkçisinin yuxularını düzgün yozdu. Təəssüf ki, saqi zindandan çıxandan sonra Yusifi unutdu. Firon onu çox narahat edən bir yuxu gördü və yuxusunu yozan bir adam tələb etdi. Saqi qəflətən zindandakı Yusifi xatırladı və Firona onun haqqında danışdı.

Böyük taxt otağında Yusif firona dedi ki, yuxusunda xəstə və haldan düşmüş inəklər yaxınlaşan aclığın xəbərdarlığıdır. Onun fövqəltəbii müdrikliyi, fironda elə dərin təəssürat yaratdı ki, onu ölkənin ən yüksək vəzifəsinə təyin etdi.

Qıtlıq bütün bölgələrdə hər şeyi məhv edərkən, yalnız Misirin kifayət qədər taxıl ehtiyatı var idi. Yusifin qardaşları aclıqdan ölməmək üçün kömək istəməyə gəldilər.

Yusif qardaşları ilə barışanda göz yaşı tökdü. Onları ağır cəzalanacaqlarından qorxurdular. Lakin o lütf göstərdi və dedi:

*“Baxın siz mənə qarşı pis fikrə düşdünüz, lakin Allah onu yaxşı işə çevirdi ki, bu gün gördüyünüzü etsin və çoxlu adamın həyatını qorusun.”*[164]

Nuhun gəmisi kimi Yusifin də həyatı daha böyük birinin obrazıdır. Bu obraz atası tərəfindən xüsusi sevilən, etibarlı geyimə layiq görülən, qardaşları tərəfindən xəyanətə məruz qalan, gümüşə satılan, haqsız yerə günahlandırılan, zindana atılan, yer üzündə ən yüksək məqama ucaldılan, düşmənləri ilə barışan və bir çox insana nicat gətirən möhtəşəm insan idi.

# 13-cü fəsil | Surə 13: Ər-Rəd (Göy gurultusu)

Rəhman və Rəhim olan Allahın adı ilə

## Başlanğıc (Surə 13:16)

Böyük fizik Albert Eynşteyn qulaqlarına inana bilmirdi. Hubble adlı başqa bir alim teleskopla baxaraq kainatın genişlənməsinin sübutunu tapdığını bildirdi.

163. Tövrat, Yaradılış 27-39
164. Tövrat, Yaradılış 50:20

20-ci əsrin əvvəllərində Eynşteyn və digərləri kainatın başlanğıcı və sonu olmadığına və sonsuza qədər mövcud olacağına inanırdılar. Birdən Hubble kainatın başlanğıcı olduğunu göstərdi. Əgər onun başlanğıcı varsa, ondan əvvəl nə var idi?

Elm adamları getdikcə daha güclü alətlərlə kainatda təxminən 100 milyard qalaktika və 70 trilyon ulduz olduğunu öyrəndilər. Bu saysız-hesabsız ulduzlar arasında milyardlarla işıq ili boşluq tapılırdı. Deyirlər ki, əgər vaxtı 13 milyard il geri qaytara bilsəydik, bütün bu ulduzlar bir-birinə daha yaxın olardı. Keçmişdə hər şey bir kiçik maddədən ibarət idi. Sanki tonqaldakı od kimi alovlandı, yayıldı və bu gün gördüyümüz kainatı yaratdı.

Tonqal necə alovlandı? Tonqal üçün ağac harada böyüdü? Bu sualları bəşəriyyətin başlanğıcından bəri insanlar özlərinə verirlər. Boşluq var idi? Yoxsa başqa bir şey var idi? Hər şey özü-özünə baş verdi? Yoxsa kimsə var idi?

Tövrat sərbəst şəkildə bu məsələni cavablandırır.

*“Başlanğıcda Allah göyləri və yeri yaratdı.”*[165]

Süleyman yazırdı:

*“Rəbb dünyanın təməlini hikmətlə qurub, Dərrakə vasitəsilə göyləri bərqərar edib.”*[166]

*“Rəbb göy qübbəsinin üstündə oturur, Yer üzündə yaşayanlar çəyirtkə kimidir. Göyləri tül pərdə kimi açır, Onları yaşamaq üçün çadır kimi qurur.”*[167]

Quranın 13:16-cı ayəsində deyilir: “Göylərin və yerin Rəbbi kimdir?” De ki: “Allahdır!” De: “Elə isə, Onu qoyub özlərinə nə bir xeyir, nə də bir zərər verə bilənləri (bütləri) dost tutdunuz? !” De: “Heç kor ilə görən eyni olarmı? Yaxud qaranlıq ilə aydınlıq eyni olarmı? Yoxsa Allaha, Onun kimi yarada bilən şəriklər qoşdular və onların nəzərində bu yaratma bir-birinə oxşarmı göründü? !” De: “Allah hər şeyin xaliqidir. O birdir, hər şeyə gücü yetəndir”.

Tövrat və Quran həmfikirdir ki, Yaradan birdir. Yalançı tanrılar yoxdur və heç bir şey yarada bilməzlər.

Allah ruhdur və bədəni yoxdur. Peyğəmbər Rəbbin “hikmətlə” yaratdığını ifadə edərkən nə demək istəyir? Yaxud İncil nə üçün deyir ki, Allah kainatı öz Kəlamı ilə yaratmışdır?[168]

Bu tapmacanın açarı budur. Sənətkar necə heykəl yaradır? İdeya onun beynində doğulur, sonra isə istedadlı əllər tərəfindən təcəssüm olunur. Ən Böyük Sənətkar olan Yaradan Rəbb Öz Kəlamını nazil etmiş və

*“göylərdə və yerdə olan hər şey Onun vasitəsi ilə yaradılmışdır.”*[169]

Tövhid bəlkə də İslamda ən təməl fikirdir. Bu o deməkdir ki, Allah birdir (Əl-Əhəd) və Təkdir (əl-Vahid). İnsanların tövhid haqqında müxtəlif fikirləri var. Bu sualla bağlı olaraq insanlar soruşurlar: Quran əbədidir, yoxsa yaradılmışdır? Əgər o, əbədidirsə, onu Allahdan fərqləndirən nədir? Tövhiddə güzəştə gedirmi? Bəs Allahdan başqa bir şey necə var ola bilər? Tövhid haqqında düşünmək və eyni zamanda yaradılmamış Qurandan danışmaq bir az narahat edicidir. Hər halda həqiqi din öyrədir ki, başlanğıcda Tək olan Allah hər şeyi Öz Kəlamı ilə yaratmışdır.

165. Tövrat, Yaradılış 1:1
166. Peyğəmbərlər, Süleymanın məsəlləri 3:19
167. Peyğəmbərlər, Yeşaya 40:22
168. İncil, 2 Peter 3:5
169. İncil, Koloslulara 1:16 Hətta Quran bu təsvirdən istifadə edir, 15:26, 27, 26 Həqiqətən, Biz insanı uzun müddət qalan quru palçıqdan yaratdıq.

Kəlam Allahın yanındadır, Kəlam da Allahdır. Əksini bildirmək, insanın ruhu olmadan yaşaya biləcəyini söyləmək kimidir. Ruh insanladır, ruh isə insandır. Kəlam birdir və O, tamamilə mükəmməl vəhdətdə birləşib.

Buna görə də İncil deyir:

*"Hər şey Onun vasitəsilə yarandı və yaranan şeylərdən heç biri Onsuz yaranmadı."*[170]

Kəlam Allahın şəriki və yoldaşı deyildir. Kəlam alternativ kainat yaratmır. Kəlam Allahla rəqabət aparmaz. Əbədi Kəlam, yaradılış vasitəsilə Yaradanı izzətləndirir. Xristianlar, Allahdan başqa hər hansı bir tanrının yaratma qabiliyyətinə malik olduğunu söyləyən hər kəsin zülmət içində olduğunu qəbul edirlər.

### Böyük məhkəmə (Surə 13)

Rəd surəsinin qalan hissəsinin əksəriyyəti Məhəmmədə tabe olanların mükafatından, əməl etməyənlər üçün əzab və cəhənnəmdən bəhs edir. Digər ayələrdə olduğu kimi, Məhəmməd peyğəmbərlik çağırışına dəlil olaraq Qurana işarə edir. İnkar edənlər onun mesajını sorğu-sual etdikdə və ya tənqid etdikdə, o, nitqinin hər kəsdən çox üstün olduğunu iddia edirdi. İnkarçılar üçün lənət və cəzalarla bağlı xəbərdarlıqlar bəzən birmənalı deyil. Ayələr imansızların bu dünyada yoxsa cəhənnəmdə əzab çəkəcəklərini nəzərdə tutur? Bu xəbərdarlıqlar imansızları qorxudurmu? Bəzi insanlar cəhənnəmin qaynar sularından və aramsız atəş əzabından qurtulmaq üçün müsəlman oldularmı?

## 14-cü fəsil | Surə 14: İbrahim (İbrahim peyğəmbər)

Rəhman və Rəhim olan Allahın adı ilə

### Ərəb dilində bir Elçi (Surə 14:4)

*"(Allahın dinini) onlara izah etsin deyə hər bir peyğəmbəri yalnız öz qövmünün dili ilə göndərdik. Allah dilədiyini zəlalətə düçar edər, dilədiyini də doğru yola yönəldər. O, yenilməz qüvvət və hikmət sahibidir."*

Qureyş qəbiləsində bir ərəb olaraq dünyaya gələn Məhəmməd, doğuluşundan əvvəl ən azı min ildir mövcud olan ərəbcə danışırdı. Ərəblər Ərəbistan yarımadasında məskunlaşaraq köçəri və tacir həyat tərzi keçirirdilər. Səhrada həyat çox sərt idi. Yağışlar nadir idi və otlar qızılın ağırlığına dəyərdi.

4-cü ayə bizi Quranın mənşəyi məsələsinə qaytarır. Əgər Məhəmməd Quran üçün 7-ci əsrin ərəbcəsindən istifadə etdisə, bu necə Səmavi dildir? Ərəb dili yüz illər ərzində yavaş-yavaş inkişaf etmişdir. Həmçinin Quran 100% ərəb dilində yazılmayıb. Buraya Efiopiya, Yunan, Aramey, Süryani və digər dillərdən götürülmüş xarici sözlər daxildir.

Bu ayədə deyilir ki, ərəblərə ərəbcə verilmişdir ki, aydın başa düşsünlər. İbranicə yazılmış Tövrat və yunanca yazılmış İncili oxuya bilmədiklərinə görəmi? Bəs ərəb olmayan insanlar? Onlar Quranı necə başa düşə bilərdilər? Gərək bəşəriyyət Quranı başa düşmək üçün ərəb dilini səlis öyrənməlidir?

170. İncil, Yəhya 1:3

Ancaq hər kəs ərəb dilini öyrənsə belə, Quran dilin qədim formasından istifadə edir. Ərəb dilinin hansı ləhcəsini öyrənməliyik? Bu günə qədər ərəb dilinin ən azı 30 ləhcəsi, müxtəlif yerli dialekt növü var. 7-ci əsrin ərəbləri Məhəmmədin Quran oxuduğunu eşidəndə onun nə dediyini dəqiq başa düşürdülər. Bəs müasir ərəb keçmiş zamana səyahət edib onun nitqini dinləyə bilsəydi, Məhəmmədi anlaya bilərdi?

4-cü ayədə deyilir ki, Quran Məkkə və Mədinə əhalisinə "onlara aydın olsun" deyə ərəb dilində verilmişdir. O günkü insanlar üçün bu mesaj nə qədər aydın olsa da, 1400 ildən sonra aydınlıq itmişdir. Elə buna görə də, insanlar təfsirlərə, şeyxlərin və imamların təfsir və izahlarına bu qədər arxalanırlar.

Müsəlman dostlarım deyirlər: "Doğrudur, amma siz xristianların da eyni problemi var. İncil qədim yunan dilində yazılmışdır. Siz də təfsirlərə və tərcümələrə çox əmin deyilsinizmi?" Bəli və xeyr. "İncil" dünyadakı bütün kitablardan daha çox dilə tərcümə edilmişdir. Biz inanırıq ki, hər bir tərcümə, tam olaraq orijinal dilə uyğun edilərsə, Allahın Kəlamını başqa dillərdə olduğu kimi oxucuya da çatdıra bilər. Biz həmçinin inanırıq ki, Allahın Ruhu təfsir və izaha ehtiyac olmadan insanlara yol göstərir və göstəriş verir. [171]

## Bəşəriyyətin əsl mahiyyəti? (Surə 14:34)

İnsanlar mahiyyət etibarilə yaxşıdırlar, pisdirlər, yoxsa heç biri deyillər? Ayə 34:

*"Həqiqətən, insan çox zalım və nankordur".*

22-ci ayədə şeytan insanın günahına işarə edir: "Ona görə də məni qınamayın, özünüzü qınayın". Eden bağında, Adəm və Həvva Allaha qarşı günah işlətdilər. Allah dərhal hər şeyi dayandırdı və yeni günahsız irq yaratdı? Xeyr. Bəs yeni insanlar yaratsaydı nə olardı? Yenə kimsə azad iradə ilə, gec-tez yenidən günah işləyərdi. Günah genetik xəstəlik kimi atadan oğula keçir. Təəccüblüdür ki, bütün insanlar ədalətsizliyə və nankorluğa boyun əyirlər.

Allahı razı salmaq üçün yaxşı işlər görmək cəhdləri həmişə kölgədə qalır. Ən səmimi mömin insan belə eqoizm və qürurdan əziyyət çəkir. İnsan Allah qarşısında diz çökər və sonra qalxıb qonşusunun haqqını tapdalaya bilər. Nəticə etibarı ilə hər hansı bir haqsızlıq və nankorluq Allaha qarşı üsyandır.

Biz onun qanunlarını pozduğumuza görə məhkumuq.

*"Hamımız elə bil ki murdarlandıq; bütün saleh əməllərimiz murdar əskiyə bənzəyir. Hamımız yarpaq kimi soluruq, Şər əməllərimiz bizi külək tək sovurub aparır."*[172]

Allah yanında tutduğumuz oruc belə günaha bulaşmışdır.

*"Orucunuzu savaşma ilə*
*Dava ilə, yumruqla, döyməklə keçirirsiniz.*
*Səsinizi ucalara çatdırmaq üçün*
*Bugünkü kimi sizə oruc tutmaq olmaz."*[173]

171. İncil, 1 Yəhya 2:27 "Sizə gəlincə Ondan aldığınız məsh daxilinizdə qalır və kimsənin sizə təlim verməsinə ehtiyacınız yoxdur. Əksinə, Onun bu məshi sizə hər şey barədə təlim verir və bu, yalan deyil, həqiqətdir. Ona görə də sizə öyrətdiyi kimi Onda qalın.
Quran və İncilin dilinə fərqli şəkildə baxarkən xalq mütləqiyyəti və xalq tərcüməsi anlayışlarını tanıdır. Xristianlar heç bir dilin mütləq və müqəddəs olmadığına inanırlar. Allah bütün insan və səmavi dilləri başa düşür. Ona görə də Tövrat, Peyğəmbərlər və İncil sərbəst şəkildə tərcümə oluna bilər. Həqiqət müqəddəsdir. Allahın ağlı müqəddəsdir.
172. Peyğəmbərlər, Yeşaya 64:6
173. Peyğəmbərlər, Yeşaya 58:4

Təbii ki, mən belə deyiləm? Bəs mən bəşəriyyətin bir parçası deyiləmmi? Mənim ilk ata anam Adəm və Həvva deyilmi? Mən onlarla birlikdə cənnətdən qovulmamışdımmı? Əgər belədirsə, kim pislikdən çox yaxşılıq edə bilər? Qiyamət günü böyük tərəzidə mənim ən gözəl əməllərim belə qeyri-kafi olacaq. Günahın kölgəsi zamanın saatına düşür. Saat tıklanır. Vaxt tükənir. Amma yenə də bütün səylərim yetərsiz olaraq qalır.

# 15-ci fəsil | Surə 15: Əl-Hicr

Rəhman və Rəhim olan Allahın adı ilə

## Allah nazil etdiyini qoruyur (Surə 15:9)

Qısa surələr ilə sürətimiz artır. Bu ayə birbaşa deyir ki, Allah nazil etdiyi yazılarını qoruyur.

*“Şübhəsiz ki, Zikri Biz nazil etdik, əlbəttə, Biz də onu qoruyacağıq.“*

Heç kimin gücü bu yazıları (Zikri) təhrif etməyə çatmaz. “Göndərilmiş yazılar” təkcə Qurana aid deyil. Tövratı, Peyğəmbərləri və İncili da nəzərdə tutur. [174]

Çox diqqətli olaq. Allah Musaya, Davuda və şəxsən Kəlimətullah, yəni Cənnətdən gələn Müjdə olan İsa Məsihə verilən Kəlamı qoruyacağını vəd edir. İnsan Allahın qoruduğunu necə təhrif edə bilər?

## Qurana hücumlar (Surə 15:91)

“Onlar Quranı hissələrə böldülər (bir qisminə inanıb, digər qismini inkar etdilər).”

Geniş yayılmış cinsi günah və qəzəb Allahın hökmünü Sodom və Homorra əhalisinə gətirdi. Lutun ailəsinin yalnız bir hissəsi Allahın hökmündən qurtula bildi. Bu onu göstərir ki, insanlar Allahın sözünü inkar etsələr, hökm insanların üzərinə gələ bilər.

91-ci ayə diqqətimi çəkdi. Bir çox müsəlman dostlarım deyir ki, Allah Quranı təhrifə qarşı mühafizə edir. Amma bu o demək deyil ki, insanlar Qurana pis niyyətlə hücum edə bilməzlər. Bu ayə “Quranı hissələrə bölən” imansızlardan bəhs edir. Yəni Quranı fiziki olaraq hissələrə bölüblər? Yoxsa ayəni kontekstindən çıxarıb yenidən təfsir etməyə çalışıblar? Yoxsa onlar Məhəmmədin sözləri haqqında yalan və iftira yaydılar? Burada bu barədə heç bir söz deyilmir. Amma xristianlar bu ayəni oxuduqdan sonra deyə bilərlər ki, əgər imansızlar Quranı təhrif etmədən hissələrə bölə biliblərsə, o zaman əvvəlki kitabları da təhrif etmədən hissələrə bölə bilərlər.

---

174. Surə 16:43 Səndən əvvəl də vəhy etdiyimiz kişilərdən başqasını peyğəmbər göndərmədik. Əgər bilmirsinizsə, bilənlərdən soruşun!
Surə 21:7 (Ey Peyğəmbər!) Biz səndən əvvəl də məhz özlərinə vəhy etdiyimiz kişiləri peyğəmbər göndərdik. Əgər bilmirsinizsə, zikr əhlindən soruşun! (Təfsirçilərə görə, bu ayədəki “zikr əhli” ifadəsi ilə Tövrat və İncil haqqında doğru və kifayət qədər biliyə sahib olan əhli-kitab alimləri nəzərdə tutulur.)
Surə 21:48 Həqiqətən, Biz Musa və Haruna müttəqilər üçün işıq və öyüd olan Fürqanı (Tövratı) verdik. (Bu ayədə Tövrat üçün işlədilən “Fürqan” kəlməsi “haqqı batildən, yaxşını pisdən ayıran” kimi mənalara gəlir. Həmçinin Qurani-Kərimin bir adı da Fürqandır.)
Surə 21:105 Şübhəsiz ki, Zikrdən sonra Zəburda da: “Yer üzünə saleh qullarım varis olacaqdır!”-deyə yazmışdıq. (Təfsirçilərin bir qismi yuxarıdakı ayədə qeyd edilən “Zikr” kəlməsi ilə “Tövrat”ın, bir qismi isə “Lövhi-məhfuz”un nəzərdə tutulduğunu ifadə etmişlər.)
Surə 40:53-54 Biz Musaya doğru yolu göstərən rəhbəri (Tövratı) verdik və İsrail oğullarını o Kitaba varis etdik.
O Kitab ağıl sahibləri üçün doğru yol rəhbəri və öyüddür.

# 16-cı fəsil | Surə 16: Əl-Həhl (Arılar)

Rəhman və Rəhim olan Allahın adı ilə

## Allahın surətində yaradılmışdır? (Surə 16:17)

İnsanın yaranma tarixi bir çox ziddiyyətlərlə əhatə olunmuşdur. Təkamül nəzəriyyəsi insanların və meymunların ortaq əcdaddan törədiyini bildirir. İddia edirlər ki, əgər uzaq keçmişə qayıda bilsəydik, bütün heyvanların çirkin, çox böyük ağızlı və ortaq əcdadı olduğunu görə bilərdik.

Bir çox surələrdə insanların yaradılışı haqqında danışılır.

*"O, insanı qan laxtasından yaratdı."* (96:2)

*"Biz insanı başqa şəklə düşmüş qara palçıqdan, toxunduqda saxsı kimi səs çıxaran quru gildən yaratdıq."* (15:26)

*Həqiqətən, Allah nəzdində İsanın məsəli (İsanın atasız dünyaya gəlməsi) Adəmin məsəli kimidir. Allah onu (Adəmi) torpaqdan yaratdı. Sonra ona: "Ol!"-dedi, o da dərhal oldu.* (3:59)

*Məgər (bu) insan onu bundan qabaq həqiqətən, (heç) bir şey olmadığı halda yaratmağımızı xatırlamır?* (19:67 və 52:35)

*O, insanı nütfədən (bir damcı sudan) yaratdı. Ancaq bir də görürsən ki, o (insan) açıq-aşkar bir düşmənə çevrilib.* (16:4)

Bu ayələrə baxaraq, Allahın insanları yaratmaq üçün hansı üsuldan istifadə etdiyini dəqiq deyə bilmərik. Palçıqdan, yoxdan, qan laxtasından, sudan yoxsa başqa bir şeydən?

Hər halda, Tövratı açıb başlanğıca müraciət etsək, bütün yaradılış tarixini oxuya bilərik. Birincisi, "Əvvəlcə Allah göyləri və yeri yaratdı" deyir. Sonra yaradılış həftəsinin sonrakı altı günü ərzində çalışaraq, Allah günəşi və ulduzları, okeanı və yeri, quşları, balıqları və hər cür heyvanı yaradır. Yaradıcılığının tacı olan insanları yaradır.

*Bütün insanlar Allahın surətində yaradılmışdır, lakin Adəmlə Həvva günah işlətdikdə bu görüntü dəhşətli dərəcədə pozuldu.*

*"Allah insanı Öz surətində yaratdı, Allahın surətində yaratdı, onları kişi və qadın olaraq yaratdı."*[175]

Allahın insanları Öz surətində yaratması nə deməkdir? Yalnız insanları fərqləndirir. İnəklərin, atların, pişiklərin ya da meymunların bu imtiyazı yoxdur.

16:17 surəsi bu məsələyə aydınlıq gətirir və sual verir. "Elə isə yaradan (Allah) yarada bilməyən (bütlər) kimi ola bilərmi?!" Yəni yaradan Allah deyilmi?

175. Tövrat, Yaradılış 1:27

Allahın inanılmaz dərəcədə yaradıcı olduğunu anlamaq üçün meşələrə və çiçəklərə, ulduzlara və çaylara baxmaq kifayətdir. O, təbiətcə yaradıcıdır. Onun yaratmaq gücü var.

İndi insanlara baxaq. Düzdür, bəzi heyvanların qurma bacarıqları vardır. Qunduzlar çaylarda bəndlər, quşlar isə dağ qayalarında yuva qurur. Allahın onlara verdiyini fitrət səviyyəsində edirlər. Bununla belə, insanlar inanılmaz dərəcədə yaradıcıdırlar. Doğrudur, fiziki maddəni yoxdan yalnız Allah yarada bilər. Amma Allahın surətində yaradılmış insanlar da yaratmağa qadirdirlər.

Misir piramidaları min illər keçsə də, hələ də öz heyrətamiz bir dizayn ilə dayanır. Çin musiqisi insan duyğularını gözəlliyin görünməz qanadlarında yüksəldir.

Və bəlkə də bütün möcüzələrin ən böyüyü, ər və arvadın sevgilərini birləşdirərək yaradıcılıqla dolu yeni bir körpə yaratmasıdır. [176] Yaradıcılıq Allahın surətindən gəlir.

Bütün insanlar Allahın surətində yaradılmışdır, lakin Adəm və Həvva günah işlətdikdə bu görüntü eybəcərləşdi. Mükəmməl sevgi ehtirasa çevrildi. Cəsarət qəddarlığa çevrilir. Şəfqət zülmə çevrildi. İbadət bütpərəstliyə və nəfslə fəxr etməyə çevrildi. Ədalət cinayətə və müharibəyə çevrildi. Günah hər şeyə yoluxdu. Gözəllik çirkin və alçaldıcı oldu. Təhrif edilmiş və pozulmuş olsa belə, hər bir insan yenə də Allahın surətini daşıyır. Böyük ixtiralara və nailiyyətlərə qadir, lakin daim saf eqoizmə qapılan bütün insanların şəfaya ehtiyacı var. Və ya daha yaxşısı, bütün insanların mənəvi yenidən doğuşa ehtiyacı var. Yeni bir başlanğıc. Yeni surət.

## Sonuncu dirilmə (Surə 16:38)

İnsanların çoxu sevdiklərini itirməyin acısını yaşayıb. Sonda hamı ölümü dadacaqdır. Beyinn, nəfəsin və ürəyin fəaliyyəti dayananda, bədən tez bir zamanda soyuyur və sərtləşir və çürüməyə başlayır.

Müasir alimlər deyirlər ki, bədənin zərrəcikləri heç vaxt birləşib yenidən dirilmə olmaz. Min illər boyu insanlar bununla razılaşıblar. 16:38-ci ayədə deyilir:

*"Onlar Allaha möhkəm and içdilər ki: "Allah ölən bir kəsi diriltməyəcəkdir!" Xeyr! Allahın ölüləri diriltməsi Onun doğru vədinə görə olacaq, lakin insanların çoxu bunu bilmirlər."*

İsanın zamanında bəzi yəhudi din adamları və yunanlar dirilmə ümidini inkar edirdilər. İnsanlar, "Bu cəfəngiyatdır. Sübut haradadır?" deyirdilər.

Heç bir həkim və ya aparat ölüləri diriltməyə qadir deyil. İnsan nöqteyi-nəzərindən dirilmə ümidsizdir. Hər hansı bir sübut varmı?

*"Əgər ölülər dirilməzsə, qoy "yeyib-içək, çünki sabah öləcəyik!"*[177]

Allah bizə sadəcə dirilmənin mümkün olduğu haqqında söz verməmişdi. O, bunun ən yüksək işarəsini də verdi. İsa Məsihin qədim peyğəmbərliklərə uyğun olaraq üçüncü gün ölümdən dirilməsi, inandırıcı şəkildə göstərir ki, ölülərdən dirilmək Allahın iradəsi və vədidir.

Bəzi adamlar "Son dirilmə necə olacaq?" deyə düşünə bilərlər. Paul belə izah edir:

176. Əlbəttə, bütün varlıqlar nəsil törətməyə qadirdir, lakin yalnız insanlar evlənmək və çoxalmaq, sonra isə övladlarını necə böyütmək barədə seçim edə bilərlər.
177. İncil, 1Korinflilərə 15:32

*“Ölülərin dirilməsi də belədir. Əkilən toxum çürüyər, ondan əmələ gəlib dirilən bədən çürüməz; əkilən toxum hörmətsiz, dirilən bədən izzətlidir; əkilən toxum zəif, dirilən bədən qüvvətlidir; əkilən toxum təbii, dirilən bədən ruhanidir. Təbii bədən varsa, ruhani bədən də var.”*178

Buğda dənəsi kimi, ölü bədən torpağa basdırılır. Zamanı gələndə, yeni həyatla səthi sındırır. Yetişmiş buğdanın şöhrəti toxumdan qat-qat üstündür. Yeni meyvə və yeni həyatla birlikdə tam günəş işığına böyüməyə davam edir. İsanın dirilmiş bədəni də belə idi və onun ardıcılları da belə yenidən diriləcəklər.

## Bir xristiandan soruşun (Surə 16:43)

Görəsən bir müsəlman xristiandan ona İncili izah etməsini xahiş edə bilərmi?

*“Biz səndən əvvəl də, özlərinə vəhy etdiyimiz məhz kişiləri elçi göndərmişdik. Əgər bilmirsinizsə, Zikr əhlindən soruşun.”*

Bir dəqiqə! Müsəlman bir xristianın yanına gəlib “Bizə Musa, Davud və digər elçilər haqqında daha çox məlumat verə bilərsənmi?” deyə soruşmalıdırmı? Bunun üçün yeganə bəhanəsi İncilin dəyişdirilməsidir. Amma bu doğru deyildir. 21-ci əsrdə əlimizdə olan İncil xristianların 7-ci əsrdə və 1-ci əsrdə olduğu İncildir. Heç bir şey dəyişməmişdir.

Amma bu ayə elçilərin “yalnız kişilər” olduğunu demirmi? Məgər bu, xristianların İsa haqqında yanıldığı anlamına gəlmirmi? Xristianlara necə etibar etmək olar?

İsa haqqında oxuduqlarımızı unutduqmu? Yalnız İsa Məsihdir, bir peyğəmbərdən daha böyükdür. Yeni Adəm olaraq bakirə qızdan doğulan, Kəlimətullah və Allah bizimlədir mənasında olan İmmanuel O-dur. Musa, Davud, Yunusdan adi insan olaraq danışa bilərik. Amma İsa Məsihi onların sırasına daxil edə bilmərik. İsa sadəcə bir elçi deyildi. Əgər bu ayə İsanı sadəcə bir elçi hesab edirsə, hörmətlə eyni fikirdə olmadığımı deyə bilərəm. Amma Quranda İncil kimi, İsanın əməlləri və şəxsiyyəti baxımından bütün insanlar arasında bənzərsiz olduğu bildirir.

Otuz ildir ki, müsəlman dostlarımla Quran və İncildən danışıram. Bir müsəlman dostum 16:43 surəsini oxuyub məndən ona İncili izah etməyimi xahiş edib? Bunu deməyə kədərlənirəm, amma yox, heç vaxt. Qəribədir ki, müsəlman dostlarımın çoxu Quranın hər ayəsini heç vaxt oxumayıb.

Bəlkə bəziləri surə 16:43 ayəsini oxumuş ola bilər, amma məndən kömək istəmək istəməyə qorxarlar. “Başqa müsəlmanlar mənim haqqımda nə deyəcəklər?” düşünərlər. “İncil təhrif olunmayıb? Bəs Allah məni buna görə cəzalandırsa?”

Bir insan 16:43-də deyilənləri edirsə, bəs Allah nə üçün həmin insanı cəzalandırmalıdır?

Açıqca “soruşun” deyir. "mübahisə et" demir. Və "iqnor" demir. “Qınamaq” demir.

Bu riskli səslənir. Bəlkə xristianlar insanları aldatmaq istəyirlər? həqiqətən həqiqəti söyləyəcəklərinə etibar edə bilərmi? Onlar Quranı zatən bilmirlər? Bəlkə də onlardan bəziləri bilmir. Buna görə də mənim Quranı ayə-ayə oxumaq səbəbim budur: ədalətli olmaq, düzgün məlumat almaq və doğru danışmaq.179

178. İncil, 1Korinflilərə 15:42-44
179. Buna görə də mən Tövratdan, Peyğəmbərlərdən və İncildən məlumatları daxil edirəm.
Surə 16:43 müsəlmanlara xristianlardan kömək istəmələrini söyləyir.

## İki Allaha ibadət etməyin (Surə 16:51)

"İki məbuda sitayiş etməyin! O, yalnız Tək bir İlahdır. Yalnız Məndən qorxun!"

Bunu əvvəllər demişəm, amma təkrar etməyə dəyər. 51-ci ayə: "Allah buyurdu: "İki məbuda sitayiş etməyin". Tövrat, Peyğəmbərlər və İncil müşrikliyi (çox allahlığı) dəstəkləmir. Birinci və ən böyük əmr Allahı bütün qəlbinlə, ağlınla, gücünlə sevməkdir. Necə ola bilərik ki, biz özümüzün 100%-ni Tək Həqiqi Allaha verək, amma yenə də başqa bir tanrıya verəcəyimiz başqa bir şeyimiz qalsın?

## Heç kim kifayət qədər yaxşı deyil (Surə 16:71-76)

61-ci ayə İncillə razılaşır ki, heç kim kifayət qədər yaxşı və xeyirxah deyil.

Əgər Allah insanları hər etdikləri zülmə görə cəzalandırsaydı, yer üzündə heç bir canlını sağ qoymazdı.

İnsan ürəyinin diaqnozu nəyinsə səhv olmasıdır. Hər kəs cəzaya layiqdir. İncil və Quran yollarının kəsişdiyi bu nöqtədə onların şər problemini müxtəlif yollarla həll etdiklərini görürəm. İncil məni İsa Masihdə məhəbbətlə təqdim edilən səmavi bağışlanma hədiyyəsinə aparır. Quran məni yaxşı və pis əməllərimin çəkildiyi ilahi tərəziyə aparır. Amma 61-ci ayədə buyurulur ki, hər kəs cəzaya eyni dərəcədə layiqdir! Salehlik evi tikmək səyi günah fırtınası ilə tamamilə yox olur. Bizi bu cəzadan kim xilas edəcək?

## Köləlik (Surə 16:71-76)

Qərb ölkələri köləliyi tamamilə qadağan etdi. 1860-cı illərdə ABŞ köləliyə son qoyan və milyonlarla afroamerikalını azad edən dəhşətli vətəndaş müharibəsi apardı.

75-76-cı ayələrdə insanların bərabərliyindən bəhs edilir. Burada deyilir ki, qul öz səxavətli və alicənab ağasına, şikəst və köməksiz isə güclüyə bərabər deyil. Quran soruşur:

*Allah, heç bir şeyə gücü çatmayan və başqasının malı olan bir qul və verdiyimiz gözəl ruzidən həm gizli, həm də aşkar infaq edən (azad) bir kimsəni misal gətirdi. Heç onlar eyni ola bilərlərmi?*

Quranın şəriəti Qərbin dünyəvi hüquq sistemlərindən fərqlənir. Qərbin dünyəvi hüququ müxtəlif irqlərə, dinlərə və hər cür adət-ənənələrə mənsub insanlar arasında bərabərliyi tanısa da, klassik şəriət bunu etmir. Zaman-zaman şəriətə görə qeyri-müsəlmanlar zimmi kimi bəzi təbəqələr isə qul kimi yaşayırdılar. 21-ci əsrdə bu kimi ayələr əsasında müxtəlif yerlərdə hələ də köləlik tətbiq edilir. Müsəlmanlar hərbi cihadın müasir dünyada tətbiq oluna biləcəyi ilə bağlı mübahisələri davam etdirdikləri kimi, köləliyi praktikasını da müzakirə edirlər.

## Hər xalqın öz şahidi var (Surə 16:89)

14:4-cü surədə Məhəmmədin ərəbcə danışan ərəblərə göndərildiyini gördük. 89-cu ayədə belə deyilir:

*O gün hər bir ümmətə, öz içlərindən bir şahid göndərəcəyik. Səni də bunlara şahid gətirəcəyik. Kitabı sənə, hər şeyi bəyan edən və müsəlmanlar üçün hidayət, rəhmət və müjdə olaraq nazil etdik.*

Bir neçə il əvvəl dostumla oturub üzümün kölgəsində çay içirdik. O dedi: "Sən bilirsənmi ki, Allah Musanı və İsanı yəhudilərə göndərdi? Və hər xalqa öz peyğəmbərini göndərib?
"Xeyr" deyə cavab verdim, "Mən bunu əvvəllər heç eşitməmişəm". Məsələn, vikinqlərə və ya yerli Amerika qəbilələrinə hansı peyğəmbərlərin göndərildiyini təsəvvür etmək mənim üçün çətindir.

Quranda deyilir ki, Məhəmməd ərəblərə göndərilib. Əgər hər bir qəbilə və bir qrup adamın öz şahidi olsaydı, anlamadıqları Məhəmmədin risalətini ərəbcə onlara çatdırmağın nə mənası olardı? Onsuz da onlara bir şahid göndərilmiş və öz dillərində danışan deyildimi?

Həmçinin 89-cu ayədə Allahın Məhəmmədi ərəblərə qarşı şahid olaraq göndərdiyi açıq-aydın bildirilir. Ən azından bu ayədə onun bütün xalqlar üçün şahid olduğunu demir.

## Fikir dəyişikliyi (Surə 16:106-107)

Quran, müsəlmanın qəlbində səmimiyyətlə inanmağa davam etdiyi müddətcə özünü qorumaq üçün özünü imansız adlandırmasına icazə verir. Amma əgər insan öz fikrini və qəlbini dəyişib İslamı tərk edərsə, bunun cəzası şiddətli olacaqdır.

*"Qəlbi imanla sabit qaldığı halda haqqı danmağa məcbur edilən kəslər istisna olmaqla, kim iman gətirdikdən sonra Allahı inkar etsə və qəlbini küfrə açsa, Allahın qəzəbinə düçar olar. Onlar üçün böyük bir əzab vardır."*

1844-cü ildə Sultan 1-ci Əbdülməcid Türkiyə Osmanlı İmperiyasında dindən çıxma qanununu ləğv edərək, müsəlmanların edamla cəzalandırılmadan İslamı tərk etmələrinə icazə verdi. Onun fərmanı həmişə yerinə yetirilmirdi. Klassik şəriət dindən çıxanların edamını tələb edirdi.

Müsəlman niyə İslamı tərk edir? 107-ci ayədə buyurulur:

*"Bu ona görədir ki, onlar dünya həyatını axirətdən üstün tuturlar. Həm də Allah kafirləri doğru yola yönəltmir."*

Evlərinin rahatlığını Allah yolunda döyüşməkdən üstün tutan bəzi müsəlmanları Quranın riyakarlıqda ittiham etdiyini gördük. 7-ci əsrdə İslamiyyət uğrunda yaşamaq təhlükəli idi.

Bəzi müsəlmanlar döyüşdə yaralanma və ya ölümdən qaçmaqdan başqa səbəblərə görə İslamı tərk etdilərmi? Mənim bir dostum var, Yaradan olmadığına inandığı üçün İslamı tərk etdi. Kainatın özünü yaratdığına inanır. O, özünü elmi ateist adlandırır. Tanıdığım digərləri isə axtarışlar nəticəsində başqa inancları üstün tutdular.

Müasir bir müsəlman ailəsi və dostları tərəfindən rədd edilmək, bəzi yerlərdə dindən döndüyünə görə edam edilmək riski altındadırsa, İslamı tərk etdikdən sonra onun həyatı necə olacaq? Allah yolunda müharibəyə getmək məcburiyyətində qalarlarsa, şey hər şeyi olduğu kimi buraxmalı olacaqlar.

### İslamın yayılması (Surə 16:125)

Bir axşam köhnə daş həyətdə kiçik qrup dostlarımızla Allaha iman haqqında danışırdıq. Onlardan biri dedi: “Məncə, missionerlik yanlışdır. İslamda missionerlik yoxdur”.

“Qəribədir” deyə cavab verdim, “çünki mən, məsələn, Avropa və Afrikada qeyri-müsəlmanları İslamı qəbul etməyə inandırmaq istəyən müsəlmanlarla rastlaşmışam”.

Yəqin dostumuz 125-ci ayəni heç oxumayıb: “İnsanları Rəbbinin yoluna hikmətlə, gözəl öyüd-nəsihətlə dəvət et və onlarla ən gözəl tərzdə mübahisə et. Şübhəsiz ki, Rəbbin azğınlığa düşənləri də, doğru yolda olanları da yaxşı tanıyır.”

Bu ayəni ciddi qəbul edən müsəlmanlar İslamı dünyaya yaymaq üçün vaxtlarını və pullarını sərf edirlər. Dindar müsəlmanlar dünyanın demək olar ki, hər bir ölkəsində ofis və məscid açırlar. Onlar kitab yazır, ictimai müzakirələrdə iştirak edir, öz ideyalarını televiziya, radio və internetdə yayırlar. Onlar müsəlman missionerləridir.

“Xeyr, belə deyil” deyə dostlarım cavab verdilər. “Missioner insanları dinini dəyişməyə məcbur etmək üçün zor tətbiq edən şəxsdir. Müsəlmanlar sadəcə həqiqəti təbliğ edərək imansızlarıAllah yoluna dəvət edirlər”. Xristian missionerləri insanları öz dinlərinə çevirmək üçün puldan, siyasətdən və beyinlərin yuyulmasından istifadə edirlər? Onlar öz istəklərini çarəsiz insanlara sırımaq kimi pis məqsəd güdürlər? Guya xristian missionerləri kimisə yoldan çıxarmaq ümidi ilə İncilin içinə 100 dollarlıq əskinas qoyduqları barədə şayiələr yayılıb,-deyəsən, inflyasiya ilə qiymət 1000 dollara qədər qalxıb. Bəzi dostlarım da belə deyir: “Məncə, müsəlmanlar öz inanclarını fəal şəkildə yaymağa çalışmamalıdırlar. Din şəxsi məsələdir”.

Burada iki səhv görürəm. Birincisi, kiminsə dinini dəyişdirmək üçün pul və ya siyasətdən istifadə etməyə çalışan bir xristian şarlatandır. Əsl xristian həqiqətə inanır. Həqiqəti seçmək futbol komandası seçmək kimi deyil. Məsələn, daha çox insanın gəlib sevimli futbol komandamın oyununu izləməsini istəsəm, daha çox azarkeş toplamaq üçün pulsuz biletlər təklif edə bilərdim. Onların komandamı bəyənib-bəyənməməsi mənim üçün vacib deyil. Amma insanları Allaha imana dəvət etmək əsl sevgi məsələsidir. Əsl sevgi satın alınmaz.

İkincisi, İslamın şəxsi məsələ olduğunu düşünən hər bir müsəlman 125-ci ayəni oxumayıb. Söhbət müsəlman qardaşları məsciddə cümə namazına dəvət etməkdən getmir. Söhbət qeyri-müsəlmanları İslamı qəbul etməyə çalışmaqdan gedir. Bu, şəxsi deyil, ictimai məsələdir. Fikirlə dünyasında minlərlə səs hər gün öz fikrinin ən yaxşısı və ya yeganə doğru olduğunu iddia edir .

# 17-ci fəsil | Surə 17: Əl-İsra (Gecə səyahəti) ya da Bani İsrail (İsrail oğulları)

Rəhman və Rəhim olan Allahın adı ilə

### Qüds ziyarəti (Surə 17:1)

Tarix vacibdir. Tarixi bilmək bizi hikmətli edər. Əl-Əqsa (الْمَسْجِدِ أَقْصَى) məscidini tarixdən hamımız bilirik.

679-690-cı illər arasında Süleymanın məbədinın əsasında tikilmişdir.

Məkkədəki Məscidül-Həram (الْمَسْجِدِ الْحَرَام) miladi 690-cı ildə Kəbə üzərində tikilmişdir. Bundan əlavə, Məhəmmədin 570-632-ci illər arasında yaşadığını bilirik. Bütün bu biliklər surə 17:1 ayəsini oxuyanları çaş-baş salır. Orada deyilir: Ayələrimizdən bir qismini göstərmək üçün

bəndəsini bir gecə Məscidi-haramdan ətrafını mübarək etdiyimiz Məscidi-əqsaya aparan Allah pak və müqəddəsdir! O, həqiqətən, hər şeyi eşidəndir, görəndir.

Gecə ziyarəti (Mirac) Quranın yalnız bir ayəsində qeyd edilmişdir. Onun heç bir təfərrüatı, adı, tarixi yoxdur. Bu ayədə konkret olaraq hansı qulun səyahət etdiyini və hansı şəhərləri ziyarət etdiyini bildirmir. Burada qulluqçunun ən uzaq məscidə niyə getdiyi, səfəri necə etdiyi barədə heç bir izahat verilmir. Ehtimal olunur ki, bu qul Məhəmməd, müqəddəs məscid-əl-Həram məscidi və ən uzaq məscid-Əl-Əqsadır. Tarixi bilməyənlər üçün o, tapmaca yaratmır. İnsanlar sadəcə olaraq güman edirlər ki, Məhəmməd bu gün də olan binaları ziyarət edib. Amma tarix göstərir ki, Məkkə və Qüdsdəki məscidlər Məhəmmədin vəfatından təxminən 60 il sonra tikilib.

Bəziləri məscid (المسجد) sözünün yalnız xüsusi torpaq sahəsi demək olduğunu iddia edirlər. Mən bu barədə məlumatsızam.

Amma bu gün Məkkə və Qüdsdə olan məscidlər Məhəmmədin vəfatından 60 il sonra tikildiyi üçün bu ayədə bu tikililərdən söz gedə bilməz. Məhəmməd Qüdsdə Əl-Əqsanı ziyarət edə bilmədi, çünki o vaxt o məscid mövcud deyildi.

Surə 17:1 bizə yalnız bir neçə söz və çox sual təklif edir. Məhəmməddən uzun illər sonra yazılmış hədislər bu mövzunu daha ətraflı şəkildə genişləndirir. Səhih əl-Buxari yazır ki, Məhəmməd öz gözləri ilə Beytül-Məqdisi (Qüdsdə Əl-Əqsa) görüb.[180] Bu mümkün deyildi, çünki Məhəmmədin ardıcılları Əl-Əqsanı tikməyə başlamazdan 60 il əvvəl Məhəmməd vəfat etmişdi.

İsanın ardıcılı olaraq səyahətin məqsədi ilə maraqlanıram. Mənə maraqlıdır ki, İslam necə yarandı, necə güc topladı, Mədinə, Məkkə və Qüds kimi mərkəzləri yaratdı. Müsəlmanlar İslamın sərhədlərini Ərəbistandan kənara, İbrahim övladlarının ölkələrinə qədər necə genişləndirdiklərini, Məhəmmədin ölümündən cəmi 60 il sonra Qüds şəhərini necə fəth edərək Əl-Əqsa məscidini tikdiklərini öyrənmək istəyirəm.

Məscidül-Əqsada "Gecə ziyarəti"ni (Mirac) göstərən heç bir qədim yazı tapılmamışdır. Lakin surə 17:1-ə işarə edərək, sonrakı ənənələrdə müsəlmanlar üçün Qüdsün xüsusi əhəmiyyət kəsb edən bir yer olduğu fikri ortaya çıxdı.

İslamın Yəhudilik və Xristianlıq üzərində qalib gədiyinin və İslamın əvvəlki dinlərin davamı olduğunun dəlili olaraq qəbul etmişdi. Müsəlmanlar hesab edirdilər ki, əgər Məhəmməd Qüdsə səfər edibsə, onu İslam üçün saxlamağa borcludurlar. İnsanlar inanırdılar ki, Yəhudi Məbəd Dağı üzərində qurulan Əl-Əqsa və Əl-Həram məscidləri, Yəhudilərin bir daha əsla küldən qalxmayacaqlarına və heç vaxt yeni bir məbəd tikməyə cəhd edə bilməyəcəklərinə bir zəmanətdir. Bir çoxları üçün Məscidül-Əqsa İslamın həmişə qeyri-müsəlmanlardan yüksək olmasını təmin edən Qüds şəhərinə daimi olaraq vurulmuş nəhəng daş möhür kimidir.[181]

# 18-ci fəsil | Surə 18: Əl-Kəhf (Mağara)

Rəhman və Rəhim olan Allahın adı ilə

## Mağarada yatanlar (Surə 18:9-26)

Bir səhər taksiyə minib Efesdən ayrılarkən sürücümün Yeddi Yatan hekayəsini dinlədim. Qədim şəhərin xarabalıqlarının kənarında turistlər bir neçə gəncin yüz illər boyu möcüzəvi şəkildə yuxuya getdiyi iddia edilən bir və ya iki mağara tapıblar. Deyilənlərə görə, onlar oyananda ilk yuxuya getdikləri vaxtdan bəri dünyanın nə qədər dəyişdiyini görəndə heyrətlənmişdilər.

180. Sahih Buhari, cild 5, kitab 58, surə 228 və cild 6, kitab 60, nömrə 322

181. 9:29 Kitab verilənlərdən (yəhudi və xristianlardan) Allaha və axirət gününə iman gətirməyən, Allah və Peyğəmbərinin haram etdiyini haram saymayan, haqq dini qəbul etməyən kimsələrlə, boyun əyib əlləri ilə cizyə verənə qədər vuruşun!
846-cı ildə Ərəb ekspedisiya qüvvələri əsas katolik şəhəri olan Romaya hücum etdi. Onlar xəzinəni qarət etdilər və sonda onların hücumu dəf edildi. 1453-cü ildə Fateh Sultan Mehmetin ordusu İstanbul divarlarını məğlub edərək Şərqi pravoslav kilsəsinin mərkəzi və Ayasofyanı məscidə çevirmək.

Bu hekayənin ilk qeydi 5-6-cı əsrlərə təsadüf edir, o zaman alimlər Saruklu Yakub, Teodosi və Tellmhrli Dionisi Suriya salnamələrində qeyd edirlər. Bu hekayə Aralıq dənizi bölgəsində bir çox sadə insanlara məlum idi.

19-cu surə Yeddi Yatan Gənc haqqında bir neçə təfərrüat təqdim edir. Mağaranın Efes və ya başqa bir məşhur şəhərin yaxınlığında yerləşdiyi deyilmir. Bunun nə vaxt baş verdiyini dəqiq bildirmir, hökmdarların və padşahların adlarını çəkmir. Məhəmməd neçə nəfərin uzun müddət yuxuya getdiyini bilmədiyini bildirir: üç adam bir itlə idi, dörd adam bir itlə idi, altı adam bir itlə idi yoxsa yeddi adam bir itlə idi?

Maraqlıdır. Nə üçün Allah Quranda neçə nəfərin yatdığını demir, axı yalnız O bunu bilə bilərdi? Eyni problem onların yatdıqları illərlə də yaranır. 300 il, 200 il yoxsa başqa bir rəqəm? 26-cı ayədə deyilir:

*"Onların nə qədər qaldıqlarını Allah daha yaxşı bilir. Göylərin və yerin qeybi ancaq Ona məxsusdur."*

Tarix və Köhnə Kitablar tələbəsi olaraq keçmişi həmişə müəyyən suallarla dəyərləndirirəm. Birincisi, İsa bunun baş verəcəyini peyğəmbərlik etdi? Məsələn, o, Qüds məbədinin dağılacağını bildirmişdi və belə də oldu. İsanın xüsusi olaraq qabaqcadan demədiyi bir çox tarixi hadisələr olub, amma mən onun qabaqcadan söylədiklərinə xüsusi diqqət yetirirəm. İsa Yeddi Yatan adam haqqında nəsə demişdi? Axtardığım qədər, xeyr.

İkincisi, hekayə tarixi sübutlarla təsdiqlənirmi? Həqiqətən yox. Efesdə qəbirləri olan bir mağara var, amma yüz illərlə yatanların şahidi yoxdur. Fakt yoxdursa sadəcə folklor kimi səslənir. Üçüncüsü, əgər müqəddəs əhvalatın tarixən olmadığını görsəm, Allahın öz xalqı ilə sevgi münasibətinə dair anlayışımda nəsə dəyişəcəkmi? Məsələn, Qırmızı dənizin bölünməsi hekayəsinin əslində baş vermədiyini bilsəm, Allahla münasibətim necə dəyişəcək? Bu, mənim Allahın Kəlamına olan inamımı sarsıdar. 18-ci surəilə razılaşsam da, Allah möcüzələr yaradır və hər şeyi bilir, tarixi olub-olmamasından asılı olmayaraq, Yeddi Yatan hekayəsi şəxsən mənim Ulu Tanrı ilə münasibətimə təsir etmir.

## "Onun sözlərini heç kim dəyişdirə bilməz" (Surə 18:27)

Quranı öyrənməklə çox yol qət etmişik. Tövratın, Peyğəmbərlərin və İncilin təhrif edildiyinə dair heç bir yerdə dəlil görmədik. Biz bunun əksini görmüşük. 27-ci ayədə bir daha oxuyuruq:

*"Onun sözlərini heç kim dəyişdirə bilməz."*

Biz başa düşənə qədər bunu neçə dəfə təkrarlamaq lazımdır?

## Allahın lütfünü necə qazanmaq olar (Surə 18:46-50)

Quran yolu məni başqa bir kritik yol ayrıcına aparır. Bu hissədə deyilir ki, yaxşı işlər Cənnətə düşməyimizə kömək edir. Allahın bir kitabı vardır ki, orada bütün xeyir və şər əməllərimiz qeyd edilir. 46-cı ayədə buyurulur: Var-dövlət və övladlar dünya həyatının bərbəzəyidir. Əbədi qalan yaxşı əməllər isə Rəbbinin dərgahında savab və ümid baxımından daha əfzəldir.

Bir gün bir müsəlman dostum məndən soruşdu: "Məgər sizin dininiz günahları keşişə etiraf etmək şərtiylə Cənnət vəd etmirmi? Yaxşı iş görmək lazım deyil. Sadəcə etiraf et sonra çıxıb istədiyin qədər günah et! İslamda cənnətə ümid ediriksə, yaxşı işlər görməliyik".

Yaxşı sualdır.

Bir atı və yük arabası olan bir adam təsəvvür edin. Evə un aparmaq istəyən adam, arabanı atın qabağına çəkib heyvanın üstünə qışqırmağa başlayır. O istəyir ki, araba atı çəksin! Amma araba heç nə çəkə bilmir, çünki at arabanı çəkməlidir. İsa dedi:

*"Meynə mənəm, sizsə budaqlarsınız. Kim Məndə qalsa, Mən də onda qalsam, çoxlu bəhrə verər, çünki Mənsiz heç nə edə bilməzsiniz."*[182]

Araba ilə atı dartmağa çalışmaq, Allahı razı salmaq üçün yaxşı işlər görmək kimidir.

Niyə? Çünki Allahla düzgün əlaqəmiz olmasa, əməllərimizlə onun razı salmaq mümkün deyil. Araba atı çəkə bilməz, çünki gücü yoxdur. Tək qalan araba yalnız hərəkətsiz dayanır. Biz zəifliklərimizlə və günahlarımızla qaldığımız zaman, ən gözəl əməllərimiz belə Allahı razı sala bilməz.

İncil öyrədir ki, biz əvvəlcə yenidən doğulmağımız üçün Allaha güvənməliyik, sonra Onun qüdrəti ilə həqiqətən yaxşı işlər görə bilərik. Beləliklə, at arabanın qarşısında dayanır. Yaxşı işlər Allahın bizim üzərimizdəki lütfünün səbəbi deyil, bizə hədiyyəsidir. İncildə deyilir:

*"Çünki iman vasitəsilə, lütflə xilas oldunuz. Bu sizin nailiyyətiniz deyil, Allahın hədiyyəsidir."*[183]

"Belə çıxır ki, yaxşı işlərə inanmırsan!" dostum cavab verdi.

"Xahiş edirəm, məni səhv başa düşmə. Tamamilə inanıram!"dedim. Əgər kimsə İsa Məsihdə yeni insan olduğunu deyir amma yaxşı işlər görmür, yalançıdır.

İsa deyir ki,

*"yaxşı ağac yaxşı bəhrə, pis ağac isə pis bəhrə verər."*[184]

Günahı getdikcə daha çox istəyən hər bir kəs günahlarını nə qədər etiraf etsə də, hələ də ölü qəlbə malikdir.

## İblis bir mələk idi, yoxsa cin idi? (Surə 18:50)

İblisin kimliyi sirrdir. 2:34-cü ayədə İblisi mələklər sırasında qeyd edilir. O, mələklərlə bərabər Adəmə səcdə etmədiyinə görə məhkum edilir. İndi onun cin olduğu haqqında oxuyacağıq.

Biz mələklərə: "Adəmə səcdə edin!-dedikdə İblisdən başqa (hamısı) səcdə etdi. (Yalnız) o, lovğalanaraq (səcdə etməkdən) imtina etdi və kafirlərdən oldu.

182. İncil, Yəhya 15:5
183. İncil, Efeslilərə 2:8
184. İncil, Matta 7:17

Allah mələklərə səcdə etməyi əmr etdi. Əgər Allah cinlərin də səcdə etməsini istəsəydi, niyə onlar daxil edilmədi? Əgər mələklər və cinlər eyni varlıqlardırsa, niyə onların adları fərqlidir? Onların başqa fərqləri də var. Müsəlmanlardan biri yazır:

*"Mələklər nurdan, cinlər isə oddandır... bütün mələklər məsum mömindirlər və başqalarını ancaq yaxşılıq etməyə məcbur edirlər. Cinlər arasında müsəlman və kafir olanlar, yaxşılığı və şəri sevənlər var. . Mələklərin arzuları yoxdur amma cinlərin insanlara bənzər arzuları vardır."*[185]

Düzünü desəm, etiraf edirəm ki, hər hansı bir Səmavi varlığın Adəmin qarşısında əyildiyini təsəvvür etmək mənim üçün çətindir.

Adəm sadəcə tozdan yaradılmış sadə bir insan, potensial günahkar, dünyəvi varlıq idi. Ola bilsin ki, Adəm ehtiramından mələyin qarşısında baş əyirdi. Ancaq Allahdan başqa heç kəs səcdəyə layiq deyildir. Bütün yaradılış yalnız Onun hüzurunda səcdə edərək deyəcəklər:

*"Ey bizim Rəbbimiz və Allahımız! Sən izzət, şərəf və qüdrət almağa layiqsən. Çünki hər şeyi Sən yaratdın, Hər şey Sənin iradənlə var olub yarandı."* [186]

## Zülqərneyn, iki buynuzun sahibi (Surə 18:83-99)

Başqa bir sirli şəxsə gədik. Bir çox müsəlman Zülqarneynin Asiya bölgəsində böyük bir hissəsini fəth edən Yunan komandiri Makedoniyalı İskəndər olduğuna inanırdı. Amma 18-ci surədə bu sirli şəxs Allahın qulu kimi təsvir edilir. Bu necə İskəndər ola bilər? Tarix göstərir ki, Makedoniyalı İsgəndər homoseksuallıq və bütpərəstliklə məşğul olub. Digərləri bu ayənin İbrahimin övladlarına mərhəmət göstərən Pers hökmdarı Böyük Kirə aid olduğunu irəli sürürlər. Amma o, təkallahlı yəhudilərlə dostcasına rəftar etsə də, zərdüştiliyi qəbul etmişdi. İstər İskəndərin, istərsə də Kirin müsəlman olduğunu iddia edən insan, bir müşriyin (müşrik) necə müsəlman ola biləcəyini izah etməlidir.

## Günəş harada batır? (Surə 18:86)

*"Nəhayət, günəşin batdığı yerə gəlib çatdıqda onu qara palçıqlı bir çeşmədə batan gördü. Zülqərneyn onun yanında bir tayfaya rast gəldi. Biz buyurduq: "Ey Zülqərneyn! Sən ya onları cəzalandırmalı, ya da onlarla yaxşı rəftar etməlisən!"*

"Bilirsinizmi ki, Jak Kusto İslamı qəbul edib müsəlman olub? Okeanlar üzərindəki səyahətləri onu Quranın həqiqət olduğuna inandırıb". Dostum məşhur dəniz aliminin hekayəsini sevinclə bölüşdü. maraqla dinlədim.

Bir çox dostlar Quranda Məhəmmədin ancaq ilahi vəhydən öyrənə biləcəyi elmi faktlar olduğuna inanırlar. Əgər Quranda elmi həqiqətlər möcüzəvi şəkildə açıqlansaydı, bu, İslamın lehinə güclü bir dəlil olardı. Mən Kustonun tarixini araşdırdım və onun Fransadakı ofisindən göndərilən aşağıdakı rəsmi məktubu tapdım.

185. "Mələklər, Cinlər və Şeytanlar Arasındakı Fərq", Islamweb, http://www. islamweb. net/emainpage/index. php?Id=16265&Option=FatwaId &page=showfatwa 2018-ci ilin fevralında əldə edilib.
186. İncil, Vəhy 4:11

*Paris, 2 noyabr 1991-ci il.*
*Hörmətli....*
*Məktubunuzu almışıq və fəaliyyətimizə göstərdiyiniz marağa görə təşəkkür edirik.*
*Biz sizi əmin edirik ki, cənab Kusto müsəlman olmayıb və bu söz-söhbət əsassızdır.*
*Hörmətlə, Didte CERSO, Layihə Meneceri*[187]

Kustonun nə vaxtsa Quran oxuyub oxumadığını bimirəm. Şübhəsiz ki, o, okean haqqında çox şey bilirdi. Ölümündən sonra ailəsi onu Fransadakı xristian qəbiristanlığında dəfn etdilər. Onun müsəlman olmasına dair heç bir dəlil yoxdur.

Fəqət yenə də Quranda möcüzəvi şəkildə açıqlanan elmi həqiqətlərin olub olmadığını soruşmaq lazımdır.

İnstitutda təbiətşünaslıq üzrə təhsil almışam, mikrobiologiya üzrə birinci dərəcəmi aldım. Tədrislərim məni müşahidə və sınaq üsullarına hazırladı. Bundan əlavə, İncil mənə

*"hər şeyi sınaqdan keçirin və yaxşı olandan möhkəm tutun."*[188] öyrədir.

Elm ancaq insan ağlı qədər uğurludur. İnsan ağlı mükəmməl deyil, lakin Paster və Rentgen kimi elm adamları insanların sağlamlığını və həyatını xeyli yaxşılaşdıran böyük kəşflər etmişlər. 21-ci əsrdə biz quru və dəniz, günəş və ulduzlar haqqında insanların min il əvvəl bildiyindən daha çox şey bilirik.

Maraq insanın təbiətində var. İnsanlar qarşılaşa biləcəkləri maneələrdən asılı olmayaraq axtarışlar və kəşflər edirlər. Polineziyalılar, əllərində heç bir xəritə və ya kompas olmadan kiçik kanolarla Sakit Okeana açıldılar. Havay adalarını tapdılar və burada yeni bir hakimiyyət qurdular. Ərəblərin təbiətin nizamı haqqında düşünməsi təbii idi. Məsələn, günəşə baxıb təəccübləndilər: "Bu nədir və hər gecə harada batır?"

Surə 18:86 deyir ki,

"*Zülqərneyn nəhayət, günəşin batdığı yerə gəlib çatdıqda onu qara palçıqlı bir çeşmədə batan gördü. Zülqərneyn onun yanında bir tayfaya rast gəldi."*

Sünen Əbu Davud 3991 yazır:

*"Əbu Dərr dedi: "Günəş batarkən mən eşşəyə minən Rəsulullahın arxasında oturmuşdum. Soruşdu: Hara yuvarlandığını bilirsənmi? Cavab verdim: Allah və Rəsulu daha yaxşı bilir. O, "bu, ılıq su qaynağında baş verir" dedi."*

Ola bilsin ki, 86-cı ayə metaforikdir. Əsl niyyəti bilmək çətindir. Ancaq 21-ci əsrdə biz bilirik ki, günəş suyun üzərində batmır. Bu elmi açıqlama deyil. Tövratda, Peyğəmbərlərdə, İncildə və Quranda Allah haqqında çoxlu maraqlı hekayələr və təsvirlər oxuya bilərik, lakin onlar texniki elmi məlumat vermir.

Nə demək istəyirəm? Təsəvvür edin ki, Qurani-kərim belə deyir: "Zülqərneyn səmaya baxdı və Günəş Yer kürəsindən çox daha böyük və Mədinənin Məkkəyə olan məsafəsindən 330.000 dəfə uzaqda yerləşən nəhəng nüvə enerji topu olduğunu gördü . 6-cı əsrdə Məhəmmədin Günəşin Yerə uzaqlığını ya da partlayan bir nüvə enerji topu olduğunu bilməsi imkansızdı. Bu, Tövratın, Peyğəmbərlərin, İncilin və Quranın dili deyil. Bizə təyyarənin necə qurulacağını və ya xərçəngi necə müalicə edəcəyimizi demirlər. Ayın Yer ətrafında, Yerin isə Günəş ətrafında fırlandığını izah etmirlər. Quranda təbiətlə bağlı çoxlu maraqlı müşahidələr var, lakin hər kim bunun Allahdan gəldiyini sübut etmək istəyirsə, onda möcüzəvi şəkildə açıqlanan elmi həqiqətləri axtarmaqdan başqa yollar tapsa yaxşıdır.

187. "Jak Kusto (İslamı qəbul etmə)", Wikiİslam, http://wikiislam. net/wiki/Jacques_Cousteau_ (Conversion_to_Islam), 2018-ci ilin fevralında əldə edilib.
188. İncil, 1 Saloniklilərə 5:21

# 19-cu fəsil | Surə 19: Məryəm

Rəhman və Rəhim olan Allahın adı ilə

## Yəhya peyğəmbər (Surə 19:1-15)

Bir çox hekayələr göstərir ki, Allah insanlara xüsusən də övlad sahibi ola bilməyən valideynlərə övlad bəxş etməyi sevir. Körpə İshaqı İbrahim və Sara qocalanda onlara verdi. İnsan atasının köməyi olmadan Məryəmə körpə İsanı verdi. Körpə Yəhya Zəkəriyyə və Elizavetaya qocalıqlarında Allahdan xüsusi bir hədiyyə oldu.

Zəkəriyyə Yəhudeya padşahı Hirodun dövründə yaşamış yəhudi kahin idi. Həyat yoldaşı Elizavet min illər əvvəl yaşamış Harunun nəslindən idi. Bir gün Zəkəriyya Qüds məbədində kahinlik xidmətini icra edərkən bir mələklə qarşılaşdı. Uca Allah onlara bir oğul verəcəyini vəd etdi, lakin Zəkəriyya buna şübhə ilə yanaşdı. Sözünü isbat etmək və Zəkəriyyəni tərbiyə etmək üçün Uca Allah bir neçə ay onun nitqini əlindən aldı. Yəhya dünyaya gələndə valideynləri onu sünnət olunması üçün Məbədə apardılar. Ailə hansı adı seçmək barədə mübahisə edəndə Zəkəriyyə Yəhyanın adına yazdı və dərhal səsi qayıtdı.

Yəhya çox xüsusi bir məqsəd üçün Allaha həsr edilmişdi. O, yemək yemir, spirtli içki içmir, səhrada yaşayır və dəvə dərisindən paltar geyinirdi. O, gənc ikən yeni ruhani həyatın əlaməti olaraq insanları İordan çayında vəftiz edirdi. Onun yanına böyük izdiham gəlirdi və bu, yəhudi din adamlarının paxıllığına səbəb oldu.

Yəhya müjdəçi idi.

*“Səhrada nida edənin səsi:*
*“Rəbbin yolunu hazırlayın,*
*Onun keçəcəyi yerləri düz edin.”*[189]

Sultandan əvvəl gələn bir vali kimi, Məsihin gəlişindən əvvəl gəldi, onun yolunu hazırladı.

İordan çayının kənarına toplaşan izdiham Yəhyanın sözlərini eşitmək və vəftiz olmaq üçün gözləyirdilər. Yəhya üçün adi bir gün idi, ta ki izdihamı arasından qeyri-adi bir adam peyda olana qədər. Yəqin ki, qarşısında dayanan saqqallı gənci görəndə Yəhyanın bədəni, titrəmişdi. “Mən onun çarıqlarının bağını açmağa belə layiq deyiləm” - deyə düşünürdü.

İsaya baxıb “Sən məni vəftiz etməlisən”-dedi. İsa təvazökarlıqla cavab verdi: “Hələlik buna razı ol. Çünki biz salehlik işini beləcə yerinə yetirməliyik”

Yəhya itaət edərək İsa Məsihi İordan çayında vəftiz etdi. O vaxt göylər açıldı və Allahın Ruhunun göyərçin kimi İsanın üzərinə endi. Allahın səsi eşidildi:

*“Bu mənim sevimli Oğlumdur, Ondan razıyam”*[190]

Burada nə oldu? İki vacib və əsas şey oldu. Təsdiq və təqdir. İbrahim xalqı min illərdir ki, Məsihi gözləyirdilər. Onu izdiham içində tanımaq üçün bir yol olmalı idi. O, Qalileyanın bütün dülgərlərinə bənzəyirdi. Yəhya “İsa Məsihdir” deyə izdihamın qarşısında təsdiqlədi.

Müsəlman dostlar tez-tez söhbətin ordasında sözümü kəsirdilər. “Xahiş edirəm belə etmə. Niyə yenə “oğul” sözünü eşidirik? İncildə hər zaman təkrarlanır. Xristianlar açıq-aydın üç tanrıya ibadət etdiklərini necə görmürlər?”

189. İncil, Luka 3:4
190. İncil, Matta 3; Luka 3

Gəlin yeni bir yanaşmanı nəzərdən keçirək. Qədim alim Avqustin yazırdı:

*“Müqəddəs Yazılara görə Müqəddəs Ruh, bir Ata deyil, bir Oğul deyil, hər ikisidir; və beləliklə, Ata ilə Oğulun bir-birlərini qarşılıqlı sevdiyi məhəbbəti bizə göstərir.”*191

*Oğul*-un nə mənada olmadığını sizə belə izah edim. Allah fiziki bədəndə və Məryəmi (yaxud başqasını) özünə zövcə kimi qəbul etdiyi mənasında deyil. İsa Allaha şərik olduğu mənasında deyil. İsanın varlığının uzun vaxt əvvəl yaradıldığı mənasında da deyil. Amma bu o deməkdir ki, Allah öz varlığından insan olan İsa Məsihin içində idi. O, çarmıxdakı qurbanı vasitəsilə bağışlanmağımızı mümkün etmək məqsədilə bizim aramızda yaşadı.

Əvvəllər gördük ki, Tövrat çox vaxt yerdə Allahı mərhəmətli (Rəhman) və rəhimli (rəhim) (şəfqətli) adlandırır. Tarix göstərir ki, Məhəmmədin doğulmasından xeyli əvvəl qədim Suriya xristianları İsanı “ər-Rəhman” adlandırırdılar.192 Bu, Allahın tam təsviridir. Mərhəmət və şəfqət təkcə hiss və ya rəftar deyil. Allahın edə biləcəyi ən mərhəmətli şey yer üzünə gəlib günahlarımız üçün mükəmməl, müqəddəs bir qurban gətirməsi idi. Onun mərhəməti və şəfqəti ilahi məhəbbətinin bəhrəsidir.

### İsa Məsihin ölümü (Surə 19:33)

Qonşuma dedim: “Bir dəqiqə gözlə dedim, Mənə İsanın ölmədiyini sübut etmək üçün 4:156-cı surəni göstərirsən. Amma bu ayə İsanın ölmədiyi deyil, yəhudilərin Onu öldürmədiyi deyir. Quranda İsanın ölmədiyini deyən ayələr varmı?”

Gözlədim, amma dostum cavab verə bilmədi. Quranda belə bir ayə yoxdur. Əslində, İsanın öldüyünü söyləyən çox ayə var. Məsələn, 33-34-cü ayələrdə buyurulur:

*“Doğulduğum gün də, öləcəyim gün də, yenidən dirildiləcəyim gün də mənə salam olsun! Barəsində şübhəyə düşdükləri haqq söz olan Məryəm oğlu İsa budur!”*

Nə?! O, nəinki öləcəyini deyir, hətta bu ayə, hadisələrin ardıcıllığına görə 3:55-ci ayə ilə ahəng içərisində uyğunlaşır. İsa yaşadı, öldü və ölülər arasından dirildi. Bu, İncili tanıyan hər kəs üçün təəccüblü deyilmi?

## 20-ci fəsil | Surə 20: Taha

Rəhman və Rəhim olan Allahın adı ilə

### Musa və yanan kol (Surə 20)

20-ci surəbir çox maraqlı düşüncələrə səbəb olur. Onların bəzilərinə diqqət yetirəcəyəm. Əvvəlcə Musanın Allahın səsini eşitdiyini gördüm. Hekayə belə idi.193 Musa dağda bir bir od gördü. Maraqlandı və yaxınlaşdı. Allah yanan və sönməyən koldan Musaya səslənərək çarıqlarını çıxartmasını çünki durduğu yerin müqəddəs olduğunu dedi.

191. Avqustin, Üçlük haqqında XV. 17. 2
192. “ƏRRƏHMAN” (ƏRRƏHMAN) mənası”, Quran və onun mesajı: “Ər-Ramanın Ərəbistanın mərkəzi və cənubunda vahid Allahın adı olması heç bir halda onunla uzlaşmır. islamda uyğunlaşdırılaraq RḤM kökündən alınan sözün qrammatik formasını alır. http://Qur'ansmessage. com/forum/index. php? topic=1320. 0, Fevral 201
193. Daha ətraflı Tövrat, Çıxış 3-də oxuyun

Sonra Allah Musaya qardaşı Harunla birlikdə Misirə qayıtmağı, İbrahim övladlarını əsirlikdən azad etmək üçün Fironun hüzuruna çıxmağını əmr etdi. Musa Misirə qayıtdı, Amma Firon Allahın sözünə qulas asmadı. Misirin üzərinə bir çox bəla gəldi və nəhayət Firon qulları azad etdi, sonra Allah Misir ordusunu Qırmızı dənizdə batırdı. Qırmızı dəniz yolu ilə Misirlilərdən qaçan bəzi yəhudilər, Musa dağda On Əmri aldığı zaman qızıl buzov düzəldib ona ibadət etməyə başladılar. Musa geri qayıdanda Allahın qəzəbi bütpərəstlərin üzərinə endi, lakin Allaha sadiq qalanlar xilas oldular. 11-12-ci ayələrdə deyilir: "Ona yaxınlaşdıqda belə bir səs eşidildi: “Ey Musa! Həqiqətən, Mən sənin Rəbbinəm. Başmaqlarını çıxart. Çünki sən müqəddəs Tuva vadisindəsən!”

> Bu sevgi hekayəsində həmişə ilahi bir əlaqə var.

Diqqət edin ki, Allah Musaya mələk vasitəsilə müraciət etmədi.

Tarix-Allahın bu böyük sevgi hekayəsidir. Bu sevgi hekayəsi Adəm və Həvva ilə Eden bağında başlayıb sonra İbrahim, Musa, Samuil və Padşah Davud ilə davam etmişdir. İncildə hekayə bizi astanadan keçərək İsa Məsih ən müqəddəs yerə aparır. Bu Sevgi Hekayəsi həmişə İlahi ünsiyyəti nəzərdə tutur. Allahın Kəlamı (və ya Səsi) yalnız *Onunla birlikdə* deyil, Kəlimətullahdır, Allahın mahiyyətidir.

Birbaşa ünsiyyət niyə bu qədər vacibdir? Bir dəfə kimsə dedi ki, ünsiyyət hər hansı bir münasibətin şahdamarıdır. Sevən ərlər və arvad bir-birlərini dinləyərək birlikdə vaxt keçirirlər. Sadəcə bədənlərini deyil, ürəklərini də bölüşürlər. Valideynləri oturub uşaqları ilə danışdıran, yaxşı dostları isə sosiallaşmaq və həyatları haqqında danışmaq üçün vaxt ayırmağa vadar edən sevgidir.

Allahın öz xalqı ilə birbaşa danışması qeyri-mümkündürmü?

Niyə də yox? Bir ata övladları ilə necə danışırsa, Allah Adəm və Həvva ilə elə danışmışdı. İki dost necə danışırsa, Allah Musa ilə elə danışmışdı.

Allahın Kəlamı olan İsa gələndə şagirdlərinə dedi ki, onlar artıq qul deyil, dostlarıdır. Dostları üçün könüllü olaraq canını verməkdən böyük sevgi yoxdur.[194] Allahın Böyük Sevgi Hekayəsi göstərir ki, dünyanın ilk mükəmməl dostluğu Cənnət bağında itaətsizlik üzündən məhv edildi, lakin Allah tədricən sevgi körpüsünü bərpa etdi. İsa təməl daşı oldu.

Təsəvvür edin ki, bir kişi okeanın o tayında yaşayan bir qadına aşiqdir. Əvvəlcə əli ilə yazdığı məktublarını ona göndərir. Sonra onunla telefonla danışmağa başlayır. Nəhayət, o, təyyarəyə minir və onun yanına uçur. Nəhayət üz-üzə görüşəndə sevincləri mükəmməl olur.

Bu səbəblə bəzi müsəlman cəmiyyətlərində insanlar Allaha başqa cür baxmağa və özlərini Allahın sevgilisi (هللاعشاق) adlandırmağa başladılar. “Kamil məhəbbət qorxunu qovar.”[195]

İsa Məsih vasitəsilə Allahla görüşmək, insanları Adəmin günah etməzdən əvvəl ləzzət aldığı və utancın olmadığı yerə geri qaytarır. Utanc, günahkarlıq hissi, cəzalandırılma qorxusu olmadan, sanki Cənnətdən tökülən möhtəşəm bir şəlaləni əks etdirən sevgiylə Allaha yaxınlaşmaq mümkündür.

## Adəmin ayıbı (Surə 20:115-123)

Ağlı və bədəni ilə Allah qarşısında çılpaq olan Adəm ayıbını gizlətmək üçün boş yerə çalışdı. O, Həvva ilə birlikdə əncir yarpaqları ilə örtülmüşdü. Onların utancını hər insan bölüşür.

Əksər insanlar hələ də bədənlərini paltarla, baş örtükləriylə paltolarla, şalvarlarla, bəzən də ot və bitkilərlə örtürlər. İctimai çılpaqlıq Allaha qarşı biganəliyin əlamətidir. Tövratda oxuyuruq ki, Allah yarpaq örtüyünü qəbul etməmişdir. Əvəzində o, Adam və Həvvaya yeni örtük verdi.

194. İncil, Yəhya 15:13
195. İncil, 1 Yəhya 4:18

Allah Özü heyvanları qurban kəsmiş, Adəm və Həvvanı onların dəriləri ilə örtmüşdü. Allah bizə yaxşı əməllərimizin qeyri-kafi və naqis olduğunu öyrədir.

Daxili utancımızın yeganə örtüyü onun etdiyi fədakarlıqdır. Məhz buna görə də İsa Məsih dedi ki, o, xidmət edilmək üçün deyil, xidmət etmək və canını bizə fidyə vermək üçün gəlib.

# 21-ci fəsil | Surə 21: Əl-Ənbiya (Peyğəmbərlər)

Rəhman və Rəhim olan Allahın adı ilə

## Məhəmmədin adları (Surə 21:107)

Bu surənin mesajı sadədir. Çoxallahlığı tərk edib təkallahlığa iman gətirərək Məhəmmədi qəbul edin.

107-ci ayə bizi maraqlı bir məqama gətirir. Məhəmmədin adları ilə Gözəl Adlar arasında hansı əlaqə var? Məsələn, bu ayədə oxuyuruq ki, Məhəmməd Allahdan *Rəhmətdir* (رَحْمَة).

"Səni də aləmlərə ancaq bir rəhmət olaraq göndərdik". Surə 1:1 də oxuyuruq ki, Allah Əl-Rəhmandır.(الرَّحِيم)Başqa bir misal Surə 22:64 və Surə 61:6. Surə 22:64-cü ayə Allahı *"Həmid"* adlandırır. Surə 61:6 da Məhəmməd üçün *"Əhməd"* (أَحْمَدُ)adı istifadə edilir.

"Dəlail-əl-Xeyrat: "yaxşı işlərə yol göstərən" kitabında Allahın 99 adı (Əsma Əl Hüsna) və Peyğəmbərin (Əsma Ən Nəbi) 201 adı verilmişdir. Bir çox adların kökü eynidir, ancaq Allahın adlarında *Əl* şəkilçisi var.

Özündən əvvəlki bütün insanlar kimi, Məhəmməd də Adəm və Həvva nəslindən gəlmişdi. Məlumdur ki, Məhəmməd də bütün insanlar kimi dünyasını dəyişib, torpağa qayıdıb. Tarix çox böyük liderlər tanısa da, biz onların heç birinə həmd etmirik. Məsələn, Musa Allahla yanan bir kolda görüşmüş olsa da və On Əmri alsa da, damarlarında Adəmin qanını daşıyan hər kəslə eyni insan mənşəyini bölüşürdü. Bir adamın dediyi kimi, Adəmin qanı ən böyük padşahın rüsvayçılıqdan başını aşağı salmasına, ən bədbəxt dilənçinin isə şərəflə başını qaldırmasına səbəb olmalıdır. Surə 3:144-cü ayədə deyilir:

*"Məhəmməd ancaq bir peyğəmbərdir. Ondan əvvəl də peyğəmbərlər gəlib getmişlər. İndi o ölsə, yaxud öldürülsə, geri (əvvəlki dininizəmi) dönəcəksiniz?"*

Bəlkə, bu ayə insanlara peyğəmbərləri çox ucaltmasınlar deyə bir xəbərdarlıq idi?

# 22-ci fəsil | Surə: 22 Əl-Həcc (Həcc)

Rəhman və Rəhim olan Allahın adı ilə

## Cahillik üzündən mübahisələr (Surə 22:8)

Çox vaxt dostlarım Allah, İsa, İncil və Quran haqqında fikirlərini sərbəst şəkildə bildirirlər. Onlar ordan-burdan bəzi məlumatlar öyrəniblər amma Tövratı, Peyğəmbərləri, İncili və Quranı tamamilə oxumayıblar. Quran cahillik üzündən mübahisə etməkdən çəkindirir. 8-ci ayə:

*"İnsanlardan eləsi var ki, heç bir biliyi, doğru yolu göstərən bir rəhbəri və aydınladan bir kitabı olmadan Allah barəsində mübahisə edir."*

Bu kitabı cahilliyi geridə buraxıb yazıram.

## Cəhənnəm (Surə 22:19-22)

Quran Cəhənnəmin ardıcıl və canlı mənzərəsini təqdim edir.

*Bunlar Rəbbi barəsində mübahisə edən (möminlər və kafirlər olmaqla) iki zümrədir. Kafirlərə gəldikdə, onlar üçün oddan paltarlar biçilmişdir. Onların başlarının üstündən qaynar su töküləcəkdir. Həmin qaynar su ilə içalatları və dəriləri əridiləcəkdir. Çəkdikləri iztiraba görə hər dəfə oradan çıxmaq istədiklərində, təkrar ora qaytarılarlar və (onlara belə deyilər): "Dadın yandırıb-yaxan əzabı!"*

Bundan dəhşətli bir şey təsəvvür edə bilmirəm. Başlarının üstündən qaynar su töküldükcə kəskin ağrı bütün bədəni deşib keçəcəkdir. Bədənini parçalayan əzab və işgəncələrdən xilas olmaq üçün gücünü toplayan hər kəs dəmir qamçıların sarsıdıcı zərbələri ilə qarşılaşacaqlar. Üstəlik bunun sonu heç vaxt bitmir. Sonsuz əzab. Əbədi ağrı.

Müasir insanlar bu inancdan qaçırlar. Çoxları üçün bu, çöldə gözləyən, valideynlərinə itaət etməyən uşağı yemək istəyən iri dişli canavarlar haqqında hekayəyə bənzəyir. "Qaranlıqdan sonra yataqdan qalxma" deyirlər, "yoxsa sarı gözlü, dişlərindən qan damcılayan vəhşi bir canavar yuxulu gözlərini qırpmadan üzərinə tullanar. Ən pisi də odur ki, dişlərinizi fırçalamağı unutsan, gecə yarısı çarpayının altından çıxıb ayaqlarını dişləyəcək. O zaman dişsiz və ayaqsız oyanarsan".

Richard Dawkins hesab edir ki, uşağa cəhənnəm haqqında danışmaq təcavüzdür.

Allaha şükürlər olsun ki, cəhənnəmə inanmağın-həqiqətən, dərindən inanmağın nə olduğunu şəxsən mən heç vaxt yaşamamışam. Amma məncə, bunu söyləmək ağlabatan deyil, belə köklü inanc uşağa yüngül fiziki zorakılığın nəticəsində yaranan müvəqqəti inciklikdən daha qalıcı psixoloji travmaya səbəb ola bilər.[196]

Digər tərəfdən, bir varlı və savadlı müsəlman bir dəfə mənə dedi ki, insanların cəhənnəm haqqında hekayələrə ehtiyacı var. Hər nə qədər Allaha inanmasa da, cəhənnəm qorxusu cəmiyyətdə insanların sərhədlərini bilmələri üçün lazımlı olduğunu söylədi.[197]

O hesab edirdi ki, cəhənnəm qorxusu cinayətkarları qorxudur və insanları qanunlara tabe olmağa vadar edir. Onun üçün cəhənnəm o sarı gözlü canavar kimidir, uşaqların qorxudan dişlərini fırçalamağa məcbur etmək üçün sadəcə bir yuxu hekayəsidir.

Quranda "Cəhənnəm" (جهنّم) sözü 77 dəfə, atəş 172 dəfə, yandırma sözü 41 dəfə işlənmişdir.[198] Bundan əlavə, bir çox ayələrdə "Cəhənnəm" sözündən istifadə edilmir, hökm, işgəncə və əzab deyilir. "Cənnət" (ٱلْجَنَّة)sözü müxtəlif formalarda 102 dəfə rast gəlinir.[199] Quran oxucunun beyninə yaxşı müsəlmanların əbədi ləzzətlər dadacağı, qeyri-müsəlmanların isə əbədi əzab çəkəcəyi fikrini yerləşdirir. Cəhənnəm anlayışı Quranda başlamayıb. Əvvəlki peyğəmbərlər və İsa Masih günahkarların Allahdan ayrılmış qaranlıq yerdə həlak olacağını xəbərdar edirdilər. Misirdə firon və xalqının başına gələn bəlalar, Allahı qəsdən rədd etməyin nəticələrini nümayiş etdirdi. İbranicə qaranlıq yer, Şeol (שְׁאוֹל) İncil isə Hades (ᾅδης) sözünü işlədir. Başqa mətinlərdə qədim Qüds əhalisinin zibil və hətta cəsədləri şəhər kənarındakı dərin dərəsinə necə atdıqlarını oxuyuruq.

196. Richard Dawkins və Hell, Conservapedia, http://www. conservapedia. com/Richard_Dawkins_and_Hell, 2018-ci ilin fevralında əldə edilib.
197. Scott A. McGreel, Belief in Hell: Cəmiyyətə Fayda və ya Zərərdir? Bu gün psixologiya https:// www. psychologytoday. com/blog/unique-everybody-else/ 201312/belief-in-Hell-does-it-benefit-or-harm-society, 2018-ci ilin fevralında əldə edilib.
198. Ümumi say ərəb dilində sözün formasından asılı olaraq fərqlənə bilər
199. Tövrat, Zəbur və İncildə Cəhənnəmə oxşar terminologiyaya 54 müraciət var.

İsanın Ben-Hinnom dərəsi haqqında təsvirini eşidən hər kəs pis dumanları və qoxuları təsəvvür edə bilərdi.

Quranla müqayisədə İncil cəhənnəm haqqında az məlumat verir. Orada deyilir:

*"Ölüm və ölülər diyarı odlu gölə atıldı. Bu odlu göl ikinci ölümdür. Kimin adı həyat kitabına yazılmayıbsa, o, odlu gölə atıldı."*[200]

İsa deyir ki, özləri üçün yaşayanlar "əbədi əzaba"[201] gedəcək.

Cəhənnəm düşüncəsi mənim ən yaxşı dostlarımdan birini çox narahat edirdi. O, Allaha inanırdı və İsa Məsihi sevirdi. Allah sevgisi və cəhənnəm problemi haqqında çoxlu söhbətlər etdik. Çoxları onun kimi sual verir. Həqiqətən, sevgiylə dolu olan Allah insanları necə əbədi əzaba məhkum edə bilər?

Başqaları Cəhənnəmdə əzab çəkərkən, Cənnətdə necə yaşayacağını təsəvvür edə bilməyən bir insan belə yazmışdır.

*İlahi, lütfən yerlərimizi dəyişdirməyimizə icazə ver, çünki dostlarım və sevdiklərim cəhənnəmdə əzab çəkərkən mən cənnətdə xoşbəxt şəkildə səmada süzülməyimi, buludlarda sənin mərhəmətinə, lütfünə və sevginə həmd etməyimi gözləyirsənsə, səhv edirsən... Tamamilə səhv edirsən... Sənin cənnətin mənim cəhənnəmimə çevrildi!*[202]

Müsəlmanlar arasında da Cəhənnəmlə bağlı suallar çoxdur. O, əbədidir? Bir müddət sonra cəhənnəmdən çıxış yolu varmı? Bütün müsəlmanlar Cəhənnəmə getməlidirlərmi?[203]

Bəzi müsəlmanlar cəhənnəmə gedib kiçik günahlara görə cəzalandırıldıqdan sonra oradan çıxırlarmı? Xristianlar, yəhudilər və hətta bütpərəstlər sonda cəhənnəmdən çıxa bilərlərmi? Cəhənnəm boş qalacaqmı? Əhmədiyyə məzhəbi və digərləri inanırlar ki, nə vaxtsa hər bir ruh azad olanda cəhənnəm tamamilə boşalacaq.

Yezekel peyğəmbər belə yazdı:

*"Xudavənd Rəbb bəyan edir:*
*"Mən məhv olacaq adamın ölümündən zövq almıram.*
*Buna görə də günahlardan dönün və yaşayın"*[204]

İsa Qüdsə yaxınlaşanda şəhərə baxıb ağladı. Onun qəlbi günahkar insanlar üçün yandı![205] Allah insanlığı sevdiyi və məhv olmasını istəmədiyi üçün İsa Məsihi göndərdi.

Allah Cənnət və Cəhənnəmin həqiqi yerlər olduğunu bildirmişdir. Anladığım qədər, İncil deyir ki, axır zamanda hər bir insanı mühakimə edəcək. Bəziləri isə Allahın hüzurunda əbədi həyata keçəcəklər. Digərləri isə əbədi cəhənnəmə gedəcək.[206]

Əgər cəhənnəm gerçəkdirsə, Allahın sevgisinin həqiqi olmadığı ortaya çıxmır? Əgər Allah həqiqətən sevəndirsə, Cəhənnəmin mövcudluğu nə üçün lazımdır?

---

200. İncil, Vəhy 20:14-15
201. İncil, Matta 25:46
202. Steve McSwain, "Niyə Mən Cəhənnəmə İnanmıram", Huffpost, https://www. huffingtonpost. com/steve-mcswain/why-i-do-not-believe-in-h_b_7762130. html 2018-ci ilin fevralında əldə edilib.
203. Surə 19:71, 72. تَقوا (varuda) "görüşmək" deməkdir, bu Cəhənnəm atəşi ilə qarşılaşmağa işarə edir.
204. Peyğəmbərlər, Yezekel 18:32
205. İncil, Luka 19:41-44
206. Bəzi xristian qardaşlarım Tövratı, Peyğəmbərləri və İncili oxuyaraq belə nəticəyə gəlirlər ki, Allah qiyamətdən sonra üsyankar camaatı məhv edəcək. Bununla razılaşmasam da, onları hörmətlə dinləyə bilərəm.

Allah günahkar insanları necə sevib həm də Cəhənnəmdə cəzalandıra bilər? Sanki bu iki şey eyni anda mövcud ola bilməz.

İsa bu suala cavab olaraq bizə bir ipucu verir. Allah sevdiyi üçün bizim günahkar dərdimizə dərman verdi. O, ədalətli olduğu üçün bizim günahımızın cəzasını İsa Məsihin üzərinə çarmıxda endirmişdir. İsaya iman gətirənlər haqq qazanmış və cəhənnəmdən xilas olmuşlar. Günahın dərmanı olan və bu dəvəti qəbul etməyənlər Cəhənnəmdə cəzalandırılacaqlar. Allah çox mehriban, sevən və ədalətlidir. Məhəbbət onu İsanın ölümü və dirilməsi vasitəsilə bağışlanma qapısını açmağa təşviq etdi. Ədalət o tələb edir ki, Allahın qurbanlıq Quzusunu rədd edən günahkarları layiqincə cəzalandırsın. Ədalət də tələb edir ki, Quzunun qanına sığınanlara əbədi həyat versin.

### Yaradıcılıq gücü (Surə 22:73)

Deyə bilərik ki, insanların yaradıcı potensialı var. Ancaq yoxdan bir şeyi yalnız Allah yarada bilər. Həyatı ancaq o yarada bilər. Bu ayədə buyurulur:

*"Ey insanlar! Bir məsəl çəkildi. Elə isə onu dinləyin! Həqiqətən, Allahı qoyub dua etdiyiniz şeylər bir yerə yığışsalar da, bir milçək belə yarada bilməzlər. Əgər milçək onlardan bir şey alıb aparsa, onu geri ala bilməzlər. İstəyən də, istənilən də (müşriklər də, bütlər də) aciz qaldı."*

Bütlər və yalançı tanrılar gücsüzdür. Yalançı tanrılar heç bir şey yarada bilməz. Bu ayə dərhal 5:110-cu surəni xatırladır. Orada deyilir:

*İznimlə palçıqdan quşa bənzər bir şey düzəldir və ona üfürürdün, o da iznimlə quşa çevrilirdi. Yalançı tanrılar heç bir şeyi, hətta bir milçəyi də yarada bilmədikləri halda, bu surəyə görə İsa Məsihin Allahla o qədər yaxın əlaqədə olduğu bildirilir ki, Allah Onun vasitəsi ilə yeni bir quş yaratmaq üçün üfürdü.*

## 23-cü fəsil | Surə 23: Əl-Muminun (Möminlər)

Rəhman və Rəhim olan Allahın adı ilə

### İnsanların yaradılması (Surə 23:12-14)

İsa quşunun yaradılış hekayəsi 23-cü surəyə yaxşı keçiddir. Bu surəinsanın yaradılışının bir neçə mərhələsini təqdim edir: gil, sperma, qan laxtası, parça, sümüklər, sonra isə ət. Mən əmin deyiləm ki, yalnız Adəmin yaradılması bu şəkildə təsvir olunur, yoxsa hər bir insanın yaradılışıdır. Hər halda, tibb elmi göstərir ki, bu parça insanın ana bətnində olan faktiki inkişafını təsvir etmir. Bəlkə də poetik dildir.

Bu, Quranın insanların yaradılışını təsvir etdiyi çoxsaylı nümunələrdən biridir. Bu ayələr bizə nə deyir? Onlar göstərir ki, insanlar təvazökar başlanğıclara malikdirlər. Allahın qüdrətli və yaradıcı olduğunu göstərirlər.

# 24-cü fəsil | Surə 24: Ən-Nur (Nur)

Rəhman və Rəhim olan Allahın adı ilə

## Cinsi qanunlar (Surə 24:2-33)

Quranda cinsi əxlaqla praktik təlimatlar verir. Gəlin bu təlimatlardan bəzilərinə nəzər salaq.

- Zina (zina) və evlilikdən kənar cinsi əlaqənin cəzası nədir? 2-ci ayədə deyilir ki, hər bir günahkar insan rəhm etmədən 100 dəfə qamçılanmalıdır.
- Bir kişinin iffətli qadını mühakimə etməsi üçün neçə şahid lazımdır? Dörd şahidi olmasa, 80 şallaq vurulur.
- Kişi arvadının zina etdiyinə dair beş dəfə Allaha and içə bilər. Öz növbəsində arvad günahsız olduğuna görə beş dəfə and içə bilər.
- Cinsi günah işlətmiş hər kəs cinsi cəhətdən natəmiz olan biri ilə evlənmək məcburiyyətindədir.
- Mömin qadınlara da de ki, harama baxmayıb gözlərini aşağı diksinlər və cinsiyyət üzvlərini zinadan qorusunlar. Qoy qadınlar-görünənlər istisna olmaqla, zinətlərini naməhrəmə göstərməsinlər; örtüklərini yaxalarının üstünə salsınlar; zinətlərini ərlərindən, yaxud atalarından, yaxud ərlərinin atalarından, yaxud öz oğullarından, yaxud ərlərinin oğullarından, yaxud qardaşlarından, yaxud qardaşlarının oğullarından, yaxud bacılarının oğullarından, yaxud öz müsəlman qadınlarından, yaxud sahib olduqları kölələrdən, yaxud ehtirasını itirən kişi xidmətçilərdən, yaxud qadınların çılpaqlığını hələ anlamayan uşaqlardan başqasına göstərməsinlər. (24:31).
- 58-ci ayədə deyilir ki, qullar və uşaqlar səhər namazından əvvəl, günorta qızmar vaxtı və axşam namazından sonra yetkin müsəlmana yaxınlaşmaq üçün icazə almalıdırlar, çünki bu vaxt insanlar soyunurlar.
- 61-ci ayədə yaxşı müsəlmanlara harada yemək yeyə biləcəyini öyrədir. 31-ci ayədə olduğu kimi, qohumları, səmimi dostları ilə və yəqin ki, başqa müsəlmanlarla yemək yeyə bilərlər.
- 33-cü ayə qullara ağalarına azadlıq üçün müraciət etməyə icazə verir. Müsəlmanlar qulunu layiq bildikləri halda azad edə bilərlər. Kölə qızları fahişəliyə məcbur etmək olmaz, lakin orada deyilir: "Kim onları bu işə məcbur etsə, bilsin ki, onlar məcbur edildikdən sonra Allah onları bağışlayar və rəhm edər."

Dostlarım xristian Qərbin niyə bu qədər əxlaqsız olduğunu soruşdular. Onlar filmlərə və musiqiyə işarə edərək, buna çoxlu nümunələr göstərdilər.

Müsəlman dostlarımın sadə cavabı budur ki, Qərb xristian imperiyası deyil. İsa yer üzündə padşahlıq qurmaq üçün gəlməyib. Bəli, Amerikada İsanın çoxlu ardıcılları var, lakin onlar hökumətdə, mediada, idmanda, musiqidə, kinoda və televiziyada azlıq təşkil edirlər. Həqiqət sizin düşündüyünüzün əksidir. Bir çox xristianlar Hollivudda işləmək istəmirlər, çünki bu, allahsızdır! Onlar başa düşürlər ki, belə bir cinsi azgınlığın çox olduöu yerdə işləsələr, bu, bir çoxları kimi onları əxlaqsızlığa sövq edə bilər. Yalnız İsaya böyük sevgisi olan insan Hollivud kimi bir yerdə işləyə bilər və ismətini qoruya bilər.

İsa və tələbələri cinsi təmizliyi öyrədirdilər.

*“Əxlaqsızlığın, hər cür murdarlığın və yaxud tamahkarlığın adı belə, aranızda çəkilməsin, çünki bunlar müqəddəslərə yaraşmaz. Ədəbsizlik, boşboğazlıq və yaxud kobud zarafat da olmasın. Bunlar sizə yaraşmaz. Bunun əvəzinə qoy şükür olsun”*[207]

İncil bir kişi ilə bir qadın arasında evliliyi öyrədir, nikahdan əvvəl və nikahdan kənar istənilən cinsi əlaqəni qəbul etmir, hətta qəlblərdə cinsi fantaziyalara qarşı xəbərdarlıq edir. İsanın ardıcılları abort, fahişəlik, pornoqrafiya, cinsi istismar və bir sıra digər cinsi günahlara qarşı mübarizə aparırlar.

Niyə? Çünki Allah cinsəlliyi birlikdə həyatın bir parçası olaraq həzz alınacaq heyrətamiz bir nemət olaraq yaratmışdır. Ərlə arvad arasındakı yaxınlıq, Allahın özündə olan mükəmməl sevginin əks olunmasının bir parçasıdır. Seksuallıq sevgi üzərində qurulan ömürlük evlilikdən kənarda ifadə olunduqda tez bir zamanda şəhvətə çevrilir. İnsanlar əvvəlcə Allah tərəfindən həm onunla, həm də bir-biri ilə saf münasibət üçün yaradılmışdır. Bu saflıq hüdudlarını aşaraq insanlar yalnız kölgə və qaranlığı qazanırlar.

Bəs ümid varmı? Əgər qəlbin və ağlın dərinliklərində işlənmiş cinsi günahları da daxil etsəniz, günahı olmayan varmı? Dindarlıq abidəsi sayılan Qandi ömrünün uzun illəri gözəl gənc qızlarla çılpaq yatıb. Guya o, nəfsini yoxlamaq üçün eksperiment aparırmış. Eyni zamanda, bir çox qadınla cinsi əlaqədə olmaq istəyi ilə mübarizə apardığını etiraf etdi.

İnsanların cinsi azğınlığı aradan qaldırmaq cəhdləri uğursuzluqla nəticələnir. Cinsi günahın Allahın bağışlanmasına və şəfasına ehtiyacı var. Hətta padşah Davud öz ordusunun sərkərdələrindən birinin arvadı ilə zina edərək dəhşətli cinsi günaha yol verdi. Daha da pisi odur ki, arvadını Davudun oğluna hamilə olduğunu bilməsin deyə sərkərdəni öldürdü.

Əvvəlki mənliyinin qaranlıq kölgəsinə çevrilən Davud Allahın hüzuruna gələrək bağışlanma və şəfa dilədi.

*“Ey Allah, məndə təmiz ürək yarat, Daxilimə yenidən sədaqət ruhunu ver.”*[208]

Nəhayət, Allah şəfa verməsə, cinsi günah xəyalı bütün nuru insandan oğurlayır. O, hər cür şəhvətdən uzaq olan, İsanın sevgi dolu toxunuşuna yaxınlaşan qırıq və peşman bir ürək axtarır. Onun toxunuşu şəfa verir və əbədi sevinc gətirir.

# 25-ci fəsil | Surə 25: Əl-Furqan (Haqqı Batildən ayıran)

Rəhman və Rəhim olan Allahın adı ilə

## Sevən Allah - demək küfrdürmü? (Surə 25:60)

*“Onlara: “Mərhəmətli Allaha səcdə edin!”-deyildikdə: “Mərhəmətli Allah nədir? Məgər bizə əmr etdiyin şeyə səcdə etməliyik?” - deyərlər. Bu da onların nifrətini artırar.”*

İmansızlar: “Rəhman kimdir və ya nədir?” deyə soruşa bilərlər. Hətta müsəlmanlar da “Allah kimdir?” deyə sual verə bilərlər. Bir gün xristian bir qadın çay içmək və həyatdan danışmaq üçün müsəlman dostu ilə görüşdü.

207. İncil, Efeslilərə 5:3-4
208. Zəbur 50:10

Müsəlman qadın həyatının necə çətin olduğundan minlərlə insanın bir neçə silahlı ordu tərəfindən öldürüldüyündən, bütöv şəhərlərin yerlə-yeksan olduğu vətənindən danışırdı. Xristian qadın çayını qurtumlayaraq mehribanlıqla qulaq asırdı. Hər ikisi müharibənin dəhşətli və faciəli olması ilə razılaşırdılar. Dostunu ruhlandırmaq istəyən xristian qadın “Bilirsən, Allah səni sevir” dedi.

"Dayan!" rəfiqəsi birdən sözünü kəsdi, “bunu deyə bilməzsən, bu küfrdür! Allahı bir insan kimi göstərərək danışa bilməzsən”.

İki qadının “Ər Rəhman kimdir?” sualı ilə bağlı fərqli fikirləri var idi. Xristian inanırdı ki, “Allah bizim gözlərimizi və qulaqlarımızı yaradan sevgi dolu bir Allahdır. O, bizi görmür və eşitmirmi?”

Müsəlman qadın inanırdı ki, Allah o qədər böyükdür və O, bədbəxt insanlardan o qədər yüksəkdir ki, Allahı yad etmək, hətta bizi sevdiyini söyləmək belə küfr olardı.

77-ci ayədə Muhəmməd kafirlərə deməyi tapşırır:

*“Əgər yalvarmağınız olmasaydı, Rəbbim sizə diqqət yetirməzdi. Siz haqqı yalan saydınız. Ona görə də əzab sizi rahat buraxmayacaqdır!”*

“Ər-Rəhman” dedikdə, Allahın yer üzünü sulamaq üçün yağış yağdırmaq kimi insanlara mərhəmət göstərməsi nəzərdə tutulurmu? Yoxsa Allah əslində insanları öz iradəsi və hissləri ilə sevən bir varlıqdırmı?

*Uca Allah buyurur:*
*“Mən onları insani tellərlə,*
*Sevgi bağları ilə Özümə çəkdim.*
*Onlar üçün çənələrindən boyunduruğu qaldıran Bir kəs oldum,*
*Əyilib onlara yemək verdim.”*[209]

# 26-cı fəsil | Surə 26: Əş-Şuəra (Şairlər)

Rəhman və Rəhim olan Allahın adı ilə

## Açıq-aydın məna (Surə 26:2)

*“Bunlar açıq-aydın Kitabın ayələridir.”*

Quranı oxumağa başladım, çünki inanıram ki, hər bir insan Allahın ona verdiyi ağlından istifadə etməlidir. Mən ilahi vəhyin və insan ağlının zəruriliyinə inanıram. Bəzi müsəlman dostlar deyirlər ki, Quranın səsləri təmiz hava kimidir. Mən imamların Quran oxuduğunu eşitmişəm? Bəli, minlərlə dəfə. Ancaq eşitdiyim şeyləri başa düşməyim üçün növbəti addımı atmaq istəyirəm.

Bir axşam sakit parkda samovarımızda çay dəmləyirdim. Bir gözəl müsəlman ailəsi yanımızda olan masada piknik edirdi, mən də gedib onlara çay təklif etdim. Biz çay içib söhbət edərkən bu ayə haqqında düşünürdüm.

*“Bunlar açıq-aydın Kitabın ayələridir”.*

209. İncil, Huşə 11:4

“Quran oxuyursunuz?” Soruşdum.

Onlardan biri belə cavab verdi: “Biz kurslara gedirik, ərəbcə oxumağı öyrənirik, amma orada nə yazıldığını başa düşmürük”. Ailənin atası razılaşdı: “xeyr, mən də başa düşmürəm”.

Bir çox insanlar üçün Quranın mesajı aydın deyil. Mənasını aydınlaşdırmaq üçün təfsirlərə müraciət edir, sevdikləri imamı və ya şeyxi dinləyirlər. Bəzən Quranla bağlı söhbətlərdə çətin bir sual yaranır və dostum cavab üçün müəlliminə zəng edib cavabını soruşur. Bəzən cavabı artıq bilir, amma daha nüfuzlu bir adamdan əlavə dəstək almaq istəyir. Və bəzən nə deyəcəyini bilmir.

Quranın izahlı tərcüməsini oxumaq üçün təfsirə ehtiyac varmı? Axı insanlar təfsirsiz hər gün öz dillərində qəzet oxuyurlar.

Bir dəfə məşhur müsəlman imamın bir ayə haqqında dərs dediyinin şahidi oldum. Ayələri sadə dillə oxudu. Amma sonra yavaş-yavaş və davamlı şəkildə izah etdi. Sözlərin orada yazılı mənalarda olmadığını, əslində başqa mənada olduğunu dedi. O, bunun başqa bir məna daşıdığını iddia etdi və sonra izah etdi ki, bütün cümlə ümumiyyətlə oxuduğundan fərqli bir məna daşıyır. Dinləmə zalında əyləşən yüzlərlə müsəlman öz sevimli imamlarının açıq-aydın mənadan uzaqlaşaraq onu tamam başqa bir mənaya gətirdiyini dinlədilər.

Başqa bir məşhur imam olan yaşlı müsəlman dostumla oturub çay içərkən onun Şimali Afrikada və Yaxın Şərqin əksəriyyətində müsəlmanların əsl müsəlman olmadığını izah etməsinə qulaq asdım. Görəsən Quranın mesajı aydındırsa, niyə bu qədər müsəlman onu səhv başa düşür?

“Niyə xristianlar arasında bu qədər çox məzhəb var?” dostlarım tez-tez məndən soruşurlar.- "İncilin mesajı aydındır, yoxsa yox? " Cavab budur ki, İncilin bəzi yerləri aydın, bəziləri isə aydın deyil. Bundan əlavə, bəzi qruplar öz adət-ənənələrini İncilə bərabər və ya ondan da yuxarı qaldırırlar. Qədim alim Avqustin deyirdi: "Əsas mövzularda-birlik, təfərrüatlarda-azadlıq, hər şeydə-sevgi". Bu əsaslara Allahın birliyi və günahların İsa Məsih vasitəsi ilə bağışlanması daxildir.

Məhəmməd ilk dəfə Məkkə və Mədinə əhalisinə Quran oxuyanda onun təfsiri yox idi. O, açıq şəkildə izləyicilərinin onun sadə mesajını başa düşəcəyini gözləyirdi. Onun vəfatından sonra ardıcılları onun dediklərini hədislərə yığdılar, lakin müsəlmanlar bunların səhih (doğru) olub olmadığı barədə hər şeydə həmfikir deyillər. Buna görə də, bunları bütün müsəlmanların qəbul etdiyi Quranla bərabər hesab etməzlər.

Əgər Quranın mesajı aydın və dəqiqdirsə-məncə, belədir-o zaman insanlar başqalarının fikirlərinə bel bağlamaq yerinə özlərinin oxuması düz olmazmı?

# 27-ci fəsil | Surə 27: Ən-Nəml (Qarışqalar) səh

Rəhman və Rəhim olan Allahın adı ilə

## Allahın iradəsinə təslim olmaq (Surə 27:91)

Məhəmməd 91-ci ayədə buyurur:

*“Mənə (Allaha) və İslama təslim olanlardan olmağım əmr olunmuşdur. “*

İslam sözü təslim olmaq deməkdir. Bir ordu döyüşdə qalib gəldikdə, düşmənləri təslim olmalıdır. Məğlub olduqlarına işarə olaraq yerə düşməlidirlər. Qurana görə, Allah üsyankarlara qalib gəlir. Bəzən insanları məhv edir, bəzən də yaxşı müsəlmanlara çevirir.

Allah hansı səbəblərə görə dünyanı yaratdı və onun üsyankar insanlarla dolmasına icazə verdi? Hər kəsin onun iradəsinə tabe olacağı bir dünya yarada bilməzdimi? Bəzi insanları yoldan çıxaran nədir? Cənnət üçün hazırlanmış xeyirxah müsəlmanlar yarada bildiyi halda, niyə günlərini cəhənnəmdə başa vuracaq üsyankar insanlar yaratsınlar?

Allah niyə qulların öz tarlasında işləməsini istəyir? Qullar ağaları üçün əmək təmin edir. Qazıb biçirlər, mismar vurub tikirlər. Sahib onlardan özü üçün bir şey etmək, tək başına edə bilmədiyi işləri görmək üçün istifadə edir.[210] Fironlar böyük piramidaları tikmək üçün qullardan istifadə etdilər, çünki onlar özləri böyük daşları yerindən tərpətə bilmirdilər və azad vətəndaşlar ağır işlər ilə məşğul olmaq istəmirdilər.

Allahın insanları köməyə ehtiyacı olduğu üçün qul etdiyinə heç kim inanmaz. İslam müsəlmanlardan yer üzündə ədalət və imanı bərqərar etməyi tələb edir. Bəs niyə bu qədər çətindir? Niyə fiziki və ruhani mübarizə tələb olunur? Nə üçün Allah qullarına onun iradəsinə qarşı üsyan etməyə icazə verir? Hətta Fironlar və Sezarlar öz qullarını mütləq nəzarət altında saxlayırdılar. Musa yəhudi qulları Allahın möcüzəli gücü ilə azadlığa apardı. Əgər bəşər ağaları öz qullarını idarə edə bilirlərsə, nə üçün Allah bu qədər quluna cəsarətlə üsyan etməyə, onu təhqir etməyə və ələ salmağa icazə verdi?

İncil baxımından bu suallar gərəksizdir. Əvvəlcə Adəm və Həvva Allahla dost olaraq yaradılmışdır. Dostluq pozulduqdan sonra günahın qulu oldular. Sonra Allah İsrail oğullarına sərt hökmlər verdi. Lakin İsa köləliyi ləğv etdi və Allahla dostluğu bərpa etdi. Aşiq olaraq dostları üçün canını verdi.

# 28-ci fəsil | Surə 28: Əl-Qasas (Hekayət)

Rəhman və Rəhim olan Allahın adı ilə

## Allah kimi sevir? (Surə 28:76)

Qurani-kərim Musa və Nuhun hekayətlərindən dəfələrlə bəhs edir. Bu mesajların mahiyyəti eynidir. Allaha üsyan edənlər məhv olacaqlar. İman gətirib yaxşı işlər görənlər nicat tapacaqlar.

76-cı ayədə buyurulur:

*“Allah sevinənləri sevməz”.*

> *Qeyri-şərtsiz sevgi sadəcə olaraq "səni sevirəm" deyir.*

Quranda deyilir ki, Allah günahkarları sevmir. Artıq qeyd edildiyi kimi, Allahın bizim anladığımız şəkildə kimisə sevib sevmədiyi bəlli deyil. Hətta bəziləri Allahın sevdiyini iddia etməyi küfr hesab edir.

Əgər Allah günahkarı sevmirsə, tövbə etsə, həmin insana münasibəti dəyişəcəkmi? Pul sevən bir ateist təsəvvür edin. Bu ayədən belə görünür ki, Allah allahsız ateisti sevmir. Ona: “Allah səni sevmir”.

Əgər tövbə edib müsəlman olarsa, ona: “İndi Allah səni sevir” deyilməlidirmi?

Əgər belədirsə, keçmiş ateist Allah sevgisinə layiq idimi?

Buna şərti məhəbbət və ya “səni sevirəmsə” sevgisi də demək olar. Məsələn, bir kişi arvadına deyir: "Mənimlə istədiyim vaxt cinsi əlaqədə olsan, səni sevərəm".

210. Surə 29:6 Kim (Allah yolunda) çalışarsa, yalnız özü üçün (axirəti üçün) çalışmış olar. Şübhəsiz ki, Allah aləmlərə (insanlara) möhtac deyildir.

Əgər arvadı onun sevgisini hiss etməzsə nə olacaq? Bir neçə ay xəstələnsə nəcə olacaq? Onu boşayıb başqa arvad alacaq? Bəs: "Mənə bir uşaq versən, səni sevərəm" desə? Bir neçə il evlilikdən sonra uşaqları olmazsa ona deyəcək: "Uşaq yoxdur, sevgi yoxdur. səndən boşanıram". Mən elə bir ailə tanıyıram ki, orada belə hadisə baş verib.

Şərti sevgi insanlara xasdır. Bizi sevənləri sevirik. Bizim üçün bir şey edənləri sevirik.

Kimsə deyə bilər ki, "Allah yaxşı insanları sevir, çünki onlar Onun istədiyini edirlər. Ona itaət edirlər". Bu o deməkdir ki, o, sevgisinə layiq olan insanları sevir. Qeyri-şərtsiz sevgi sadəcə olaraq "səni sevirəm" deyir. Bu, insan davranışından asılı deyil. Arvadını agape sevgisi deyilən bu xüsusi sevgi ilə sevən ər arvadına deyir ki, uşaq sahibi ola bilməsən də, mən səni yenə də sevirəm və heç vaxt tərk etməyəcəyəm. İsa düşmənləri üçün ölməyə hazır olanda İncil agape sevgisini göstərdi. Hamını sevirdi.

# 29-cu fəsil | Surə 29: Əl-Ənkəbut (Hörümçək)

Rəhman və Rəhim olan Allahın adı ilə

## Necə yaxşılıq edə bilərik? (Surə 29:7)

*"İman gətirib yaxşı işlər görənlərə gəldikdə, əlbəttə, Biz onların günahlarını örtər və etdikləri əməllərin daha gözəli ilə onları mükafatlandırarıq. "*

Bir gün oğul atasına yaxınlaşıb dedi: "Ata, mənim maşınımın mühərriki xarab oldu. O qədər zəif işləyir ki, evə bir kisə düyü də apara bilmirəm".

Ata həll yolunu fikirləşərək səssizcə qulaq asdı. Sonra cavab verdi: "Həqiqətən, sənə yeni mühərrik lazımdır. Maşınla evə sürə bilsən, yeni mühərrikin pulunu ödəyəcəm".

Görün bu həll nə qədər qeyri-mümkündür? Bu seçim qarşısında qalan oğul yeni mühərrik ala bilmədi. Niyə? Çünki onun köhnə mühərriki nasazdır. Çox zəifdir. Yenisini almaq üçün köhnə mühərrikdən necə istifadə edə bilər?

Mən kiməsə "Allah sənin içindəki şəri yox edər, amma əvvəlcə buna inanıb saleh əməllər etməlisən"[211] desəm, bu, atanın oğluna qoyduğu şərt kimidir. Qəlbimizdə yaşayan pislik bizi yenilənməyə səbəb olacaq həqiqətən saleh əməllər etmək üçün çox zəiflədir.

Biz iffətli olmağa çalışırıq (Qandini xatırlayın), amma ürəyimiz və gözlərimiz şəhvətlə gəzir. Biz səxavətli olmağa çalışırıq, amma ürəyimizdə acgöz canavarlar var, həmişə daha çox şeyə acdır. Dua etməyə çalışırıq, amma dünyanın parıltısı diqqətimizi yayındırır. Biz ədalət üçün mübarizə aparmağa çalışırıq, amma divanlarımızın rahatlığına üstünlük veririk. Bütün səylərimiz kifayət deyil.

Oğul qəmgin halda atasına baxıb dedi: "Ata, nə qədər çalışsam da, təzə mühərriki evə gətirə bilmərəm".

Ata mehribandırsa, təbəssümlə deyəcək: "Əlbəttə, oğlum, gəl birlikdə gedək, bu gün sənin maşınına təzə mühərrik quraşdırmaq üçün pul verəcəm. Sonra köhnə mühərriki zibilliyə ata bilərsən".

Bu halda oğul 100% atanın sevgi hədiyyəsinə bağlıdır. O, maşınına yeni mühərrik almaq üçün nə qazanır, nə də səy göstərir. Onun yeganə reaksiyası atasına güvənməkdir

211. Surə 29:7 İman gətirib yaxşı işlər görənlərin (əvvəlki) günahlarının üstünü örtər və onlara (dünyada) etdikləri əməllərdən daha gözəl (on qat artıq) mükafat verərik. (Və ya: gördükləri ən yaxşı əməllərə görə onları mükafatlandırarıq)

## Eyni Allah? (Surə 29:46)

Artıq oxumuşuq ki, Yəhudilər və Xristianlar (Kitab əhli) Allahdan başqa tanrılara ibadət etdikləri üçün şirkdə günahkar sayılırlar. Yəhudilər Üzeyrə sitayiş etməkdə, xristianlar isə Məryəm və İsanı Allah dərəcəsinə yüksəltməkdə ittiham olunurlar.

Quranda şirk ən böyük günahlardan biri kimi göstərilmişdir. Oxumuşuq ki, şirkin cəzası cəhənnəm atəşidir. Müsəlmanlara əmr edilmişdir ki, yəhudi və xristianları ciziyə ödəyənə və yer üzündə İslam hakimiyyətinə tabe hiss edənə qədər onları tabe etsinlər. Hər kim şirk etsə, müşrikdir (çoxallahlı). Ola bilsin ki, heç vaxt İslamı eşitməyən yəhudi və xristianlar üçün bir az ümid var idi, amma Məhəmmədin risalətini eşidib onu rədd edənlər cinayətkar sayılırdı.

Surə 29:46-da təəccüblü fərqli keçidlə qarşılaşırıq.

*Zülm edənləri istisna olmaqla, kitab əhli ilə ən gözəl tərzdə mübarizə aparın və deyin ki: "Bizə nazil olana da, sizə nazil olana da inanırıq. Bizimlə sizin ilahınız eyni ilahdır. Biz Ona təslim olmuşuq".*

Bu mürəkkəbdir. Bu, kilsələrində ibadət edən xristianlarla, sinaqoqlarında ibadət edən yəhudilərlə müsəlmanların eyni Allaha ibadət etdikləri mənasındadır?

Yəhudilər, Xristianlar və Müsəlmanlar ümumi mənada eyni Allaha ibadət edirlərsə, Allah kitab əhlini Ona şərik qoşduğu üçün cəzalandırmazmı? Məgər bu ayə yəhudi və xristianların şirkdə günahkar olmadığını demirmi? Əgər belədirsə, mən də eyni fikirdəyəm, amma niyə burada hər şey tam əksinədir?

Üstəlik, bu ayə Tövratı, Peyğəmbərləri və İncili təsdiq edir. Onların yəhrif edilməyini, əksinə, etibarlı olduqları bildirilir.

Bir neçə il bundan əvvəl kiçik gəmi ilə uzun səyahətim zamanı mənə mehribancasına bir sərnişin yaxınlaşdı. Tanış olduq və söhbət etməyə başladıq. Uşaqlarımızı təriflədi və sonra soruşdu: "Heç İslamla maraqlanmısınızmı?"

"Bəli, mən bir az Quran oxumuşam və İslamı öyrənmişəm. Həm də əvvəlki kitabları öyrənmişəm."

"Bilirsənmi ki, biz eyni Allaha ibadət edirik və bir çox ortaq peyğəmbərlərimiz var? İsa peyğəmbəri sevməsəm yaxşı müsəlman ola bilmərəm. Əgər sən də müsəlman olsan şad olardım".

Övladlarım haqqında dediyi xoş sözlərə görə təşəkkür etdim və limanda sağollaşdıq.

Həqiqətən hamımız eyni Allaha ibadət edirik? Burada diqqətli olmalıyıq. Bir çox xristian dostlarım da mənə bu sualı verdilər. Tövratdakı Yahve (יְהוָה), İncildəki Teos (θεός) və Qurandaki Allah (الله) eyni Şəxsdir? Yəhudilər deyirlər ki, Yahve Musanı və Davudu göndərdi, amma İsa və Məhəmməd yox. Xristianlar Tövrata, Peyğəmbərlərə və İncilə inanırlar, amma Məhəmmədi elçi kimi qəbul etmirlər. Mən bunu tənqid etmək üçün deyil, aşkar olanı bildirmək üçün deyirəm.

Yəhudilərin, xristianların və müsəlmanların hamısı bir Yaradana inanır desək, bu doğrudur. Amma bu o demək deyil ki, onlar onun haqqında eyni şeylərə inanırlar. Allah kimdir? Hər inanc bu suala özünəməxsus şəkildə cavab verir. Əks halda, onların hamısı bir və eyni inanc olardı.

109-cu surəyə çatanda bu müzakirə daha da mürəkkəbləşir.

*«Ey kafirlər Mən sizin ibadət etdiyiniz şeyə əsla ibadət etmərəm. Və nə də siz əsla mənim ibadət etdiyimə ibadət edənsiniz, Və nə də mən əsla sizin ibadət etdiyinizə ibadət edənəm. Və nə də siz əsla mənim ibadət etdiyimə ibadət edənsiniz. Sizin dininiz sizə məxsusdur, mənim dinim də mənə məxsusdur (hələ ki, cihad hökmü gələnədək döyüş tərk olunmuşdur)».*

Bu, daha çox tipik İslam inancına bənzəyir. O, bütün digər inancları rədd edir. Şirk istənilən formada İslamın əsas tövhid doktrinasına uyğun gəlmir.

Allah haqqında fərqli inanclara həm də fərqli dini rituallar da əlavə olunur. Müsəlmanların beş şərti var: Şəhadət, Namaz, Zəkat, Oruc və Həcc. Yəhudilər və xristianlar fərqli adətlərə və fərqli ibadətlərə malikdirlər. Bir-biri ilə ziddiyyətli inanclar və adətlər yəhudiləri, xristianları və müsəlmanları müxtəlif fərqli kateqoriyalara ayırır.

Təsəvvür edin ki, iki dost öz ölkələrinin padşahı haqqında danışırlar. Onlardan biri əmindir ki, onların padşahı cəsarətli, subay, uşaqsız bir gəncdir. Digəri padşahın ağ saçlı bir qoca olduğuna inanır. Birincisi padşahın iki döyüşdə vuruşduğunu, ikincisi isə padşahın həmişə sülh adamı olduğunu düşünür. Hər ikisi ölkələrinin bir padşahı olduğu movzusunda haqlıdır lakin padşahın kimliyi mövzusunda hər ikisinin haqlı olmağı mümkün deyildir.

Söhbət insan padşahından qat-qat üstün olan birindən gedir. Allah bütün kainat üzərində hökmrandır. O, onu yaratdı və bəşər övladı ilə bölüşdü, bizə kompüterlər düzəltməyə, nar yeməyə və ailələr qurmağa imkan verdi. Bu ilahi Padşah haqqında həqiqəti bilməyimiz çox vacibdir. Hər şey Onun əsl şəxsiyyətini bilməkdən asılıdır.

# 30-cu fəsil | Surə 30: Ər-Rum (Rumlular)

Rəhman və Rəhim olan Allahın adı ilə

## İslam təriqətləri (Surə 30-32)

Quran təriqətləri dəstəkləmir. Orada deyilir:

*"Tövbə edərək Ona üz tutun, Ondan qorxun, namaz qılın və şərik qoşanlardan olmayın! O kəslərdən ki, öz dinini bölüb firqələrə ayrıldılar. Hər firqə öz təriqətini (üstün bilib) sevinir."*

Tarixə görə İslamın əvvəlində ölümcül münaqişələr olub. Məhəmmədin ölümündən sonra onun ilk dörd xəlifəsindən üçü öldürüldü. Bunlar Ömər ibn Xəttab, Osman ibn Əffan və Əli ibn Əbi-Talib idi.

Sonrakı illərdə sünni və şiə qollarında bir çox təriqət yarandı. Sünnilərin şəriət təfsirində (mədhəd) beş məktəbi var: Hənəfi, Maliki, Şafii, Hənbəli və Səxiri. Şiələrin isə beşlik, yeddilik və onikililiyə bölünür. Karmatiyalılar, İsmaililər, Fatimilər, Alamut və Druzu qatilləri hamısı yeddilikdəndir. Daha sonra Nizari İsmaili və Müstəli İsmaililərə, sonra Müstəlilər Hafizi və Taiyabi İsmaililərə ayrıldı. Üstəlik, sonradan şiə imami-Şiə daha sonra Cəfəri təfsiri yaratmışlar. Əxbarlıq, Usulizm, Şaiklik, Ələvilər və Ələvilik də var-bunların hamısı onikilərdən yaranıb.

Və bu siyahının yalnız kiçik bir hissəsidir. Halbuki müsəlmanları şəhadət və Quran etiqadları birləşdirir.

Xristianların da çoxlu məzhəbləri var və bəzən İsanın təlimlərinə zidd olaraq bir-birlərinə qarşı zorakılıq ediblər. Katoliklər və pravoslavlar var. Beş yüz il əvvəl Protestant Reformasiyası papadan asılı olmayaraq yeni kilsə hərəkatı yaratdı. Protestantlar arasında daha bir çox alt qruplar meydana çıxdı. Bu kilsələrin bəziləri dil və sosial sinif baxımından fərqlənirdi, digərləri isə doktrinal fərqlərə görə bölünürdü. Kilsə təşkilatı, İsanın ikinci gəlişi və hansı ən yaxşı (papa, patriarx ya da pastor) olduğu kimi məsələlərlə bağlı çoxsaylı suallara baxmayaraq, xristianlar İsa Məsihi xilaskar hesab edirlər.

İnsan təbiətində bizi birliyə yox, parçalanmaya meyllləndirən nədir?

# 31-ci fəsil | Surə 31: Loğman

Rəhman və Rəhim olan Allahın adı ilə

## Dünyanı sözlərlə doldurmaq (Surə 31:27)

Bu poetik parçada belə deyilir:

*Əgər yer üzündəki bütün ağaclar qələm olsaydı, dəniz də (mürəkkəb olub) ardından ona yeddi dəniz də qatılsaydı, yenə də Allahın Sözləri qurtarmazdı. Həqiqətən, Allah Qüdrətlidir, Müdrikdir.*

Bir Kəlimətullah olduğunu müəyyən etmişdik. Allah, İsa əl-Məsihdə Öz Sözünü məhv olmaqda olan dünyaya dedi. Əgər bütün dünya Allahın Kəlamları ilə dolsaydı, bu, Kəlimətullaha xüsusi işarə etməzdi?

İsanın ardıcılı Yəhya belə yazmışdı:

*"İsanın etdiyi çoxlu başqa şeylər də var. Əgər bunlar da bir-bir yazılsaydı, fikrimcə, yazılan kitablar heç dünyaya sığmazdı."*[212]

Okean dolu mürəkkəb İsa-Kəlimətullanın möcüzəli eşqi və əməllərini danışmaq üçün kifayət etməz.

# 32-ci fəsil | Surə 32: əs-Səcdə

Rəhman və Rəhim olan Allahın adı ilə

## Cəhənnəmə məhkum (Surə 32:13)

Gözlərim insan qəlbinin dərinliklərinə baxmaqdan yorulub. Ürəyin azad iradəsi varmı? Kiminsə gələcəyi ilə bağlı seçimi varmı? Hər kəs Allaha tabe olub-olmamağı sərbəst seçə bilərmi? Allah hər bir insan ruhunun taleyini sarsılmaz mərmər daş lövhəsinə həkk edibmi?

13-cü ayədə deyilir:

*"Əgər Biz istəsəydik, əlbəttə, hər kəsə hidayət verərdik. Lakin "Cəhənnəmi bütövlüklə cinlər və insanlarla dolduracağam!" sözü Mənim tərəfimdən qərara alınmışdır."*

Xristianlar əsrlər boyu Allahın suveren iradəsi ilə insanın azad iradəsi arasındakı əlaqəni anlamağa çalışmışlar. İnsan İsa Məsihə tövbə və imanı sərbəst seçə bilərmi? Əgər seçim iradəsi yoxdursa, onda nə üçün Allah insanları Cəhənnəmə odun parçası kimi atmaq məqsədi ilə yaratsın?

Əksər xristianlar bu suala həm Allah sevgisini, həm də insanların iradə azadlığını təsdiq edərək cavab verirlər. Deyirlər ki, Allah onu sevib ona itaət edən məxluqlarla münasibət qurmaq istəyir. Əgər sevgi məcburdursa, bu, heç də sevgi deyil. Kişi heç vaxt qadını onu sevməyə məcbur edə bilməz. O, güc tətbiq etdiyi anda sevginin bir fincan kimi yerə düşüb parça-parça olacağını görəcək.

212. İncil, Yəhya 21:25

Allah yaratdığı insanlardan həqiqi sevgi istəsəydi, onu sevməyə məcbur edə bilməzdi. O, mələkləri yaratdığı kimi hər kəsin günahsız olmasını asanlıqla arzu edə bilərdi. Allahı sazad iradəmizlə sevə bilməsəydik, biz həqiqi insan olardıq?

# 33-cü fəsil | Surə 33: Əl-Əhzab (Dəstələr)

Rəhman və Rəhim olan Allahın adı ilə

## Məhəmmədin həyatı (Surə 33)

33-cü surəhaqqında başqa kitablarda çox yazılıb. Burada sadəcə olaraq bir-iki şərh etmək istərdim.

Birincisi, övladlığa götürmə müsəlmanların adəti deyil. Bir gün Məhəmməd övladlığa götürdüyü oğlu Zeydin arvadına nəzər saldı. Adı Zeynep idi. Zeyd Zeynəbi boşadı, sonra Məhəmməd onunla evləndi. İslamda rəsmi övladlığa götürmə yoxdur, ona görə də müsəlmanın övladlığa götürdüyü oğlunun keçmiş arvadı ilə evlənməsinə heç bir maneəə yoxdur. 37-ci ayə:

*“Bir zamanlar Allahın nemət verdiyi, sənin də yaxşılıq etdiyin kimsəyə: “Zövcəni saxla (boşama) və Allahdan qorx!”-deyirdin. Allahın üzə çıxaracağı şeyi insanlardan çəkinərək içində gizli saxlayırdın. Halbuki qorxmağına ən çox layiq olan Allahdır. Zeyd onu boşadığı zaman Biz onu sənə nikahladıq ki, oğulluqları zövcələrini boşadıqları zaman (möminlər o qadınlarla evlənmək istəyərlərsə,) möminlərə bir çətinlik olmasın. Allahın əmri yerinə yetirilmişdir. (Yuxarıdakı ayədə qeyd olunan və Quranda adı keçən yeganə səhabə Zeyd ibn Harisədir. Zeyd Həzrət Peyğəmbərin oğulluğu idi. Həzrət Peyğəmbər onu öz xalası qızı Zeynəblə evləndirmişdi. Daha sonra Zeyd Zeynəblə boşanmış və Həzrət Peyğəmbər də Zeynəblə evlənmişdi. Bu ayə ilə ərəb adətlərindən olan bir kişinin oğulluğunun boşadığı qadınla evlənə bilməyəcəyi anlayışı ortadan qalxmışdır.)”*

İkincisi, 50-ci ayə Məhəmmədə qeyri-məhdud sayda mömin qadınlarla, döyüşdə əsir düşmüş qullarla, ailəsindəki əmi-dayı qızlarıyla və digər qadınlarla evlənməsinə icazə verir. Tarix göstərir ki, Məhəmmədin ən azı 11 arvadı, 4 cariyəsi və 4 boşanması olub. Zeynep Məhəmmədin beşinci arvadı idi. Bu ayə ona 4:3-də adi müsəlman kişilər üçün nəzərdə tutulmuş dörd arvaddan çox arvad almağa icazə verdi. Bu bəsit tarixi həqiqəti çox az adamın bilməyi məni uzun illər ərzində çox təəccübləndirmişdir.

“Filmdə Məhəmmədin bütün arvadları göstərilib? Mən Məhəmməd peyğəmbər haqqında filmə baxan dostumdan soruşdum.

O, mənə çox qəribə baxdı və dayandı: "Nə demək istəyirsən? "-deyə soruşdu.

- Bağışla, Məhəmmədin Xədicədən sonra evləndiyi arvadlarından xəbərin yoxdur?

"Xeyr, onun yalnız bir arvadı var idi" deyə israr etdi, səsində qıcıqlanma hiss olunurdu.

“Mən elə bilirdim ki, bütün müsəlmanlar onun arvadları haqqında bilirlər. Axı bu, sirr deyil” dedim. Dindar bir gənc olmasına baxmayaraq heç vaxt eşitmədiyi bu əsas həqiqəti müzakirə etməyə davam etdik.

Üçüncüsü, insanlar diqqətli olmalıdırlar ki, Məhəmmədi qıcıqlandırmasınlar. 57-ci ayədə buyurulur:

*“Həqiqətən, Allahı və Onun Peyğəmbərini incidənlərə Allah bu dünyada və axirətdə lənət etmiş və onlar üçün alçaldıcı bir əzab hazırlamışdır.”*

Bu parçada deyilir ki, bəzən adamlar Məhəmmədin evinə şam yeməyinə gəlirdilər. Bəzən çox oturan və danışanlar olurdu. Məhəmməd onlara getmələrini deməyə çəkinirdi, lakin bu ayədə Allah müsəlmanlara onu incitməmələrini xəbərdarlıq edirdi.

# 34-cü fəsil | Surə 34: Səba (Səba)

Rəhman və Rəhim olan Allahın adı ilə

## Daha çox xəbərdarlıq (Surə 34)

Quranda Məhəmmədin pis ruha tutulmadığını və onun yalançı olmadığı bildirir. Bir çox ayələr Məhəmmədi Allahın həqiqi elçisi kimi müdafiə edir. Kafirlərin və münafiqlərin onun xəbərini rədd etmək üçün öz səbəbləri var idi. Onlar əlamətlər tələb etdilər və Məhəmməd Qurandakı ayələrdən başqa heç bir əlamət verilməyəcəyini söylədi. Onun yalnız köhnə nağıllar danışdığını iddia etdilər, lakin o, cavab verdi ki, onun xəbəri Allahın Köhnə Kitablarını təsdiq edən təzə vəhyidir. Qiyamət günü əzablarının nə qədər dəhşətli olacağı barədə onları sərt və uzun-uzadı xəbərdar etdi. Onlar güldülər, lakin o, mütləq cəzalandırılacaqlarını söylədi.

# 35-ci fəsil | Surə: 35 Fatir (Yaradan)

Rəhman və Rəhim olan Allahın adı ilə

## Bir canlı belə sağ qalmazdı (Surə 35:45)

Bu ayə diqqətimi çəkdi. İncilə uyğun gəlir. Bütün insanlar bu və ya digər şəkildə günahkardırlar. İnsanları üsyana sövq edən nədir? Allahın yaratdığı gözəl şeylər necə bu qədərpisliyə təslim ola bilər?

*“Əgər Allah insanları qazandıqları günahlarına görə (dərhal) cəzalandırsaydı, yer üzündə heç bir canlını sağ qoymazdı. Lakin onları təyin edilmiş bir vaxta qədər təxirə salır. Onların vaxtı gəldiyi zaman (əməllərinin qarşılığını verəcəkdir)! Həqiqətən, Allah qullarını görür.”*

Bir dostum illər əvvəl mənə bu hekayəni danışmışdı: Bir şəhərə vicdanlı bir hakim rəhbərlik edirdi. Bir gün polislər bir gənci məhkəmə binasına gətirdilər. O, avtomobili ilə şəhərin mərkəzindən keçərkən sürət həddini aşaraq ətrafdakıların hamısını təhlükəyə atmaqda günahkar idi. Hakim başını qaldırdı. Təəssüf ki, onun qarşısında duran öz oğlu idi. Onu çox sevirdi, amma ədaləti də sevirdi.

"Sən günahkarsan? " hakim yüksək kürsüdən ondan soruşdu. Oğul başını aşağı saldı.-Bəli, möhtərəm hakim.

"Belə olan halda, bu şəhərin ədalətli hakimi olaraq, mən sizi günahkar elan edir və 30 gün həbs və ya 10.000 dollar cərimə cəzası verirəm".

-Bəli, möhtərəm hakim. Oğul başını hakimin və atasının hüzurunda gözlərini yerdən qaldırmırdı.

Birdən hakim ayağa qalxdı, skamyasından düşdü və qara xalatını çıxartdı. “Bir hakim olaraq sizi məhkum edirəm. Atan olaraq səni bağışlayıram. O, polisə yaxınlaşdı. “Cəriməni özüm ödəyəcəm”.

Bu məsəl Allah haqqında bir şey göstərir. Onun ədaləti ondan tələb edir ki, bizim günahlarımıza görə bizi cəzalandırsın. Əgər 45-ci ayə doğrudursa-və mən doğru olduğuna inanıram-hər bir insan Allahın qanunlarını pozmaqda günahkardır. Bu vəziyyətdə Allah cəza verməzsə adil olmaz. Təsəvvür edin ki, hakim oğluna baxıb və deyir: “Günahına əhəmiyyət vermirəm və azadsan gedə bilərsən”.

Əgər biz günahkarıqsa və Allah məhəbbətli və ədalətlidirsə, günahlarımıza görə ədalətli qəzəbini tökərkən bizim bağışlanmağımızı təmin edəcək bir həll tapmalıdır.

# 36-cı fəsil | Surə 36: Yasin

Rəhman və Rəhim olan Allahın adı ilə

## Məhkum edilmiş (Surə 36:6)

Quranda ifadə olunan əsas fikirlərdən biri də, Allahın Məhəmmədi müşrik ərəblərə qaranlıqda yaşadıqları üçün göndərməsidir. Onların nə peyğəmbəri, nə kitabı, nə dəlilləri, nə də Allah haqqında məlumatları var idi. Ərəblər yəhudi və ya xristian deyildilər. Məkkə əhli Kəbəni bütlərlə doldurmuşdu.

Lakin müsəlmanlar inanırlar ki, İbrahim və İsmayıl Məkkəyə gedib orada Kəbə tikmişlər. Tarix göstərir ki, ərəblər hələ Məhəmmədin doğulmasından əvvəl Allahı bilirdilər. Məhəmmədin atasının adı Abdullah idi. Ərəbistanda yaşayan suriyalı xristianlar İsanı Əl Rəhmanı adlandırırdılar. Nuh, Lut, İbrahim, Musa, Davud və Süleymanın hekayələri səhralarda dolaşan qəbilə xalqları, köçərilər və tacirlər arasında geniş yayılmışdı.

6-cı ayəyə əsasən Quranın məqsədi nədir?

*“Ataları xəbərdar edilmədiyinə görə qəflət içində olan bir qövmü xəbərdar edəsən deyə nazil edilmişdir.”*

Bu ayədə Tövratın, Peyğəmbərlərin və İncilin təhrif olunduğu deyilmir. Ərəb atalarına heç bir xəbərdarlıq edilmədiyi bildirilir. Bəs İbrahim peyğəmbər tərəfindən tikildiyi deyilən Kəbə haqqında məlumat?

Digər tərəfdən, ərəblər Quranı almadan əvvəl Allah haqqında vəhy almışlarsa-və şübhəsiz ki, onlar Allahı Uca Yaradan kimi bilirdilər-o zaman niyə 6-cı ayə ərəblərin həqiqət haqqında məlumatsız olduqlarını deyir?

Tutaq ki, ərəblər heç vaxt Allah və onun kitablarından heç bir şey eşitməyiblər. Heç bir vəhy olmadan yaşayaraq bütlərə üz tutublar. Əgər onlar Allahı və Onun iradəsini bilmirlərsə, niyə günahkar olsunlar?

Bir gün dostumun qonaq otağında oturub İncil və Allahdan danışırdıq. Məndən soruşdu: “Allah kiminsə səhv olduğunu bilmədiyi bir şeyə görə mühakimə etməsi ədalətli olarmı?” O, belə davam etdi: “Əgər Allahı insanlar inkar etmədikcə onları məhkum etmirsə, Allahı inkar etmə

günahından heç vaxt məhkum olmayacaqları üçün müşrikləri rahat buraxmaq daha yaxşı olmazmı? Onlara Allahın var olduğunu söyləmək, onları qaranlıqda buraxmaqdan daha pisdir".

Əminəm ki, müsəlman alimlərinin bu suallara öz cavabları var. İncil bu suala belə cavab verir. Allah varlığını yaradılış vasitəsi ilə göstərmişdir. Kainatın əzəməti, dizaynı və gözəlliyi Yaradana işarə edir. İkincisi, İncil deyir ki, Allah Öz xeyir və şər qanununu insanların qəlbinə yazmışdır. Hər kəsin ya ittiham edən, ya da haqq qazandıran bir vicdanı var. Müjdə (İncil) İsa dünyaya dünyanı mühakimə etmək üçün deyil, dünya onun vasitəsilə xilas ola bilsin deyə gəldiyini bildirir.

# 37-ci fəsil | Surə 37: Əs-Saffat (Səf-səf duranlar)

Rəhman və Rəhim olan Allahın adı ilə

## Kəffarə qurbanı (Surə 37:102-7)

İbrahimin dağda oğlunu qurban olaraq təqdim etməsi qədər daxilimizə işləyən çox az hekayə var. Bu hekayə ilk əvvəl Tövratda xatırlanır. Allah İbrahimin yanına gəlib oğlunu götürməyi, dağa aparıb orada yandırma qurbanı olaraq təqdim etməyi əmr etdi.

Bu hekayə ağlasığmazdır. Kim bilir İbrahim hansı daxili əzablara dözdü? O, ona vəd edilmiş sevimli oğluna necə qıyacaq, od onun ətini və saçını yavaş-yavaş yandırarkən səbirlə necə dayanacaq? .

İbrahim o məsum, güvənən gözlərə baxanda ürəyinin milyonlarla parçalanacağına necə qatlanacaq? Bu, iman sınağının ən bariz nümunəsi idi. Quran oğlunun adını çəkmir, Tövrata görə İbrahimin möcüzə yolu ilə arvadı Saradan dünyaya gələn gözəl oğlu İshaqdır.

*İbrahim dağa çıxanda oğluna "quzunu Allah Özü hazırlayacaq" dedi.*

*"İbrahim Allahın əmrinə tabe olaraq İshaqı və iki nökərini götürüb üç gün qurban dağına getdi. Onlar oraya çatdıqda İbrahim xidmətçilərinə aşağıda gözləmələrini əmr etdi. Odun götürüb İshaqı dağın kənarına apardı.*
*"Ata" İshaq atasını çağırdı .*
*- "Buradayam, oğlum". İbrahim cavab verdi.*
*«Od və odun var, bəs yandırma qurbanı olacaq quzu haradadır? »*
*İbrahim cavab verdi: "Oğlum, yandırma qurbanı olacaq quzunu Allah Özü hazırlayacaq".*
*İbrahim dağda qurbangah düzəldib odunları düzdü, oğlu İshaqın əl-qolunu bağlayıb qurbangaha odunların üstünə qoydu. Daha sonra İbrahim əlini uzadıb oğlunun başını kəsmək üçün bıçağı götürdü.*

*Məhz bu zaman bir mələk onu çağırdı: "İbrahim, İbrahim!" O "Mən buradayam" deyə cavab verdi.*
*"Uşağa əl qaldırma və ona bir şey etmə. İndi bildim ki, sən Allahdan qorxursan, çünki öz yeganə oğlunu məndən əsirgəmədin.*

*İbrahim başını qaldırıb baxdı və arxasında buynuzları kolluğa ilişmiş bir qoç gördü. İbrahim oğlunun əvəzinə yandırma qurbanı olaraq təqdim etdi. Allahın bəxşişini xatırlamaq üçün o, yerin adını Yahve-İre adlandırdı, bu da "Rəbbin dağında hazırlanacaq" deməkdir."* [213]

Hər hansı bir sevən ata və ya ana üçün bunu düşünmək belə ağlasığmaz olar.

213. Tövrat, Yaradılış 22

Uşağı xəstələnəndə hansı valideyn istəməz ki, onun dərdini əlindən ala bilsin, hətta “onun yerində kaş mən olaydım” deməzmi? Kim övladını itirmək fikrinə dözə bilər? Halbuki Allah İbrahimə qeyri-mümkün olanı etməyi əmr edir.

Bu tapmacanın iki çox vacib parçasını tapmalıyıq. Birincisi, İbrahim İshaqı qurban verərək, Allahın Özü üçün nə edəcəyini gözləyirdi? İkincisi, kolluğa ilişən qoçun mənası nə idi?
Bu tapmacanın həlli vəddən başlayır. İshaq adi oğul deyildi. O, Allahın qoca bir kişi və qadında möcüzə göstərməsi ilə doğulmuşdur.

Amma bundan da çox İshaq Vəd edilən oğlu idi. Allah onun yetişkin bir insan olacağını, nəslinin göydəki ulduzların və dənizdəki qumların sayı qədər çox olacağını vəd etmişdi.[214] Allah İbrahimə İshaqı qurban kimi qurbangahın yanına gətirməsini dedikdə, bu, onun böyük insan və xalqların atası olacağı vədi ilə ziddiyyət təşkil edirdi. Ölən və yanmış uşağın gələcəyi necə ola bilərdi? Mümkün deyil!

Bəlkə yox. İbrahim Allahın vədlərinə inanılmaz dərəcədə inanırdı. Bu tapmacanın həllidir.

*“İbrahim sınağa çəkildiyi vaxt iman vasitəsilə İshaqı qurban olaraq təqdim etdi. Vədlərə nail olmuş İbrahim bircə oğlunu qurban vermək niyyətində idi. Halbuki ona “İshaqdan törəyənlər sənin nəslin adlanacaq” deyilmişdi. O Allahı onu ölülər arasından diriltməyə qadir saydı. Buna görə də məcazi mənada İshaqı ölümdən geri aldı.”* [215]

İbrahim ağlasığmaz bir imtahandan keçməyə razı oldu, çünki o, Allahın İshaqı ölümdən dirildəcəyinə, onu güclü bir insan və xalqların atası edəcəyinə inanırdı. Bəs niyə İbrahim belə əzablara məruz qaldı? Bəli, Allah onun imanını sınadı. Bununla belə, tapmacanın daha bir parçasında əskik hissəmiz var. Surə 37:107-ci ayədə deyilir:

*“Biz (oğlunun) əvəzinə ona böyük bir qurbanlıq verdik.”*

Tövrat bununla eyni fikirdədir, Allah İshaqı bir qurban göndərməklə qəti ölümdən xilas etdi. Allah qurbanlıq olaraq oğlun əvəzinə qoç qəbul etdi.

Budur, tapmacanın həllinin ikinci hissəsi. İbrahimin oğlu, əslində böyük kəffarə qurbanına işarə edən məsəldir. Bu barədə düşünün. Allah İshaqın ölməsinə, basdırılmasına icazə verə bilər və sonra onu ölülər arasından dirildə bilərdi. Allah onun əvəzinə başqa bir qurbanı məmnuniyyətlə qəbul etdi.

Artıq qeyd etdik ki, ən yaxşı qurban Allahın özünün hazırladığı qurbandır. Adəm və Həvvanın utancını örtmək üçün heyvanları ilk qurban edən Allahın Özü idi. Musa ilə ilk görüşdüyü yer odla yanan bir kol idi. İbrahim və oğluna bir qoç hazırladı.

İbrahim dağa gedərkən oğluna dedi: “Allah quzunu Özü hazırlayacaq”. O, bu sözləri peyğəmbərlik kimi söylədi. Min illər sonra Allah həqiqi quzunu, yəni ən qüsursuz və ən son qurbanı hazırladı.

Yeşaya peyğəmbər İsa Məsihi müjdələyərkən belə demişdi:

*“Hamımız qoyun kimi yolu azmışdıq, Hər birimiz öz yolumuzla gedirdik. Rəbb hamımızın şər əməllərinin yükünü onun üzərinə qoydu. Ona zülm etdilər, O iztirab çəkdi, amma ağzını açmadı. Kəsilməyə aparılan quzu kimi Qırxımçıların qabağında dilsiz qoyun kimi ağzını açmadı.”*[216]

214. Tövrat, Yaradılış 17:19 “Allah isə dedi: “Xeyr, arvadın Sara sənə bir oğul doğacaq və adını İshaq qoyacaqsan. Onunla və ondan sonrakı nəsli ilə əhdimi əbədi olaraq davam etdirəcəyəm.”
215. İncil, İbranilərə 11:17-19
216. Peyğəmbərlər, Yeşaya 53:6-7

Tapmacanın bu iki təməl parçası ilə şəkil daha aydın oldu. İbrahim inanırdı ki, Allah vəd oğlunu ölülər arasından diriIdəcək, onu xalqların atası edəcək və bu hekayə bizi günahdan xilas etmək üçün öz canını verən ən böyük qurban haqqında bir məsəldir.

# 38-ci fəsil | Surə 38: Sad

Rəhman və Rəhim olan Allahın adı ilə

## Cənnət haqqında (Surə 38:49-53)

*“Bu, bir xatırlatmadır. Allahdan qorxanları gözəl bir qayıdış yeri gözləyir-qapıları onlar üçün açılmış Ədn bağları. Onlar orada taxtlara dirsəklənib çoxlu-çoxlu meyvələr və cənnətə məxsus içkilər istəyəcəklər. Onların yanında gözlərini ərindən çəkməyən həmyaşıdları olacaqdır. Hesablaşma günü üçün sizə vəd olunanlar bunlardır.”*

Bir gün bir müsəlman və bir xristian ölümdən sonrakı həyat haqqında danışırdılar. Xristian Səmaya getməyə ümid etdiyini, müsəlman isə Cənnət adlı yeri səbirsizliklə gözlədiyini söylədi. Hər iki anlayış ölümdən sonrakı həyatı təsvir etsə də, eyni deyil. Ölümdən sonrakı həyat necədir? Orada kim olacaq? İki dost fərqli inanclarını bölüşdülər.

Tez-tez olduğu kimi, müzakirə zamanı da bakirə qızlar (Hürilər) mövzusu açıldı. Müsəlman dedi: “Məncə siz xristianlar bizim İslam cənnətimizə həsəd aparırsınız, ona görə də həmişə hurilərdən danışmağa başlayırsınız”.

Xristian cavab verdi: “Xeyr, biz qısqanc deyilik. Sevimli Allahımızla Onun müqəddəs hüzurunda üz-üzə yaşamaqdan daha şirin və şərəfli nə ola bilər?”

38-ci surədə İslam Cənnətinin mükafatları haqqında daha ətraflı məlumat verilir. Quran yaxşı möminlərə (möminlərə) sərxoş etməyən güclü içki ilə dolu bir yer, təmiz sudan çaylar və gözəl gözlü qadınlar vəd edir. Bəlkə də bu görüntülər simvolikdir. Bəlkə bu, Cənnətin qeyri-adi dərəcədə rahat və xoş olduğunu söyləyən poetik bir yoldur? Əmin deyiləm.

Bu misralar hərfi mənada da ola bilər. Gördüyümüz kimi, Quran müsəlman kişilərə dördə qədər arvad və istədikləri qədər cariyə almağa icazə verir. Allahın kişilərə cənnətdə bir neçə cinsi əlaqəyə icazə verməsi heç bir ziddiyyət təşkil etməz, bir şərtlə ki, onlara ədalətli münasibət göstərilsin. Cənnətdə müsəlman qadınlara rəftar necə olacaq?

Bu yol ayrıcında əks istiqamətə gedən yollarla qarşılaşıram. İsa Məsih demişdir:

*“Bu dövrün insanları evlənir və ərə gedir. Amma gələcək dövrə yetişməyə və ölülər arasından dirilməyə layiq sayılanlarsa nə evlənəcək, nə də ərə gedəcək.”*

Xristianlar inanırlar ki, intim yaxınlıq və uşaq dünyaya gətirmək yalnız bu həyat üçündür. Cənnətdə kişilər və qadınlar artıq cinsi əlaqədə olmayacaqlar. Bu keçici ləzzətlərin yerini bir-birləri ilə və Allahla olan müqəddəs dostluğun verdiyi əbədi həzz alacaqdır.

# 39-cu fəsil | Surə 39: Əz-Zumər (Zümrələr) və Surə 40: Qafir (Bağışlayan) ya da əl-Mumin (İmanlı)

Rəhman və Rəhim olan Allahın adı ilə

## Mükafatlar və mühakimə (Surə 39, 40)

Surələr qısaldıqca oxumağımız da sürətlənir. Kafirlərə çox tez-tez Cəhənnəmə düşəcəkləri xəbərdarlığı verilir. Möminlər bir çox insanlarla birlikdə Cənnətə daxil olmağa təşviq edilirlər. Arada böyük bir kontrast var. Cəhənnəmdə atəş. Cənnətdəki su çayları. Cinlər və kafirlər şiddətli əzaba düçar olacaqlar. Mələklər və möminlər möhtəşəm ləzzətlər alacaqlar.

Bir axşam ailəm ilə birlikdə bir neçə yaxın müsəlman dostlarımızla oturmuşduq. Söhbət ölümdən sonrakı həyata keçdi. Özümüzə sual verdik: “Müsəlmanların Cənnəti necə olacaq? İncil Səmanı necə təsvir edir?

Dostumuz dedi ki, çayları və bağları ilə məncə Cənnət gözəl yerdir, elə deyilmi?
"Əla səslənir" deyə cavab verdim. “Ancaq bir sualım var. Allahı orada görməyə, onunla yaxın münasibət qurmağa ümid edirsən?”

“Bunu demək çətindir” deyə cavab verdilər.-“İncil nə deyir?”

Bu suala cavab vermək üçün uşaqlığımı xatırladım. Nənəm 60 yaşında ağır ağciyər xəstəliyindən dünyasını dəyişdi. Mənim ən çox sevdiyim insanlardan biri idi. Həmişə sevgi ilə dolu idi və çox gülümsəyirdi. Anam anasını itirib ağlayırdı və sonrakı günlərdə hamımız hüzn buludunu hiss etdik. Valideynlərim cənazə həftəsində məni böyük bibimin və böyük əmimin yanında qoydular.

Bir gün böyük bibim məni qonaq otağında tək oturmuş, kədərli və sıxılmış vəziyyətdə gördü. Yanımda oturdu və dedi: “Sənə xüsusi bir şey göstərə bilərəmmi? İndi nənəniz getdi, amma biz onu yenidən Səmada görə bilərik”.

O mənim diqqətimi çəkdi. “Səma ilə bağlı bu sözlərə qulaq as” dedi və İncili açdı.

*Taxtan belə deyən uca bir səs eşitdim: “Budur, Allahın məskəni insanların arasındadır. Allah onlarla birgə məskən salacaq; onlar Onun xalqı olacaq, Allah Özü onların Allahı olaraq aralarında yaşayacaq. Allah onların bütün göz yaşlarını siləcək. Artıq ölüm olmayacaq. Çünki əvvəlki şeylər keçib getdi.”*[217]

Böyük bibimin incə səsinə qulaq asaraq nəhəng pəncərədən evin arxasındakı böyük bağa baxdım. Solda nərdivan kimi budaqlarını göyə uzadan nəhəng bir maqnoliya ağacı var idi. Ərinin əkdiyi tərəvəzlərlə zəngin yaşıl bostan xalça kimi uzanırdı. Bostanın kənarında isə qüdrətli şam ağacları qürurla hər şeyin üstündə dayanmışdı.

Böyük bibim davam etdi:

“İsa Masih qayıdanda hər şey yenilənəcək. Minlərlə kilometrə uzanan bir şəhər göydən enəcək. Onun divarları xalis qızıl və əqiqd daşlardan olacaq. Onun bünövrəsi yaqut, zümrüd və ametist kimi daşlardan ibarət olacaq. Darvazalar mirvari, küçələr isə şəffaf şüşə kimi qızılı olacaq”.

Göz qamaşdıran qiymətli daşlar təsəvvürümü doldurdu. O, yenə oxumağa davam etdi.

217. İncil, Vəhy 21:3-4

*Mən orada məbəd görmədim, çünki oranın məbədi Küllü-İxtiyar Rəbb Allah Quzudur. Şəhərin işıqlanması üçün nə günəşə, nə də aya ehtiyacı var, çünkiAllahın ehtişamı oranı işıqlandırır, Quzu da oranın çırağıdır.* [218]

O həftə valideynlərim məni evə apardılar və ertəsi gün gözlənilməz xəbər aldıq. Böyük bibim yuxuda vəfat etmişdi.

Nənəmin öldüyü o sakit gündə ürəyimdə nələr olduğunu başa düşürsən? Böyük bibimin yamyaşıl bağçasına baxaraq, Səma, həyat və ölüm haqqında düşünərkən məni həmişəlik dəyişdirən bir şeyi başa düşdüm. Bir gün, hər bir xristian kimi, mən də gözəl bir mübadilə yaşayacağam. Mən bu dünya istəklərini ruhani arzularla dəyişdirəcəyəm. Dünya ləzzətlərindən artıq məmnun olmadığım üçün, Allahın hüzurunda yaşamaqdan əsl məmnuniyyət tapacağam. Səma Allahın evidir. Və bir gün bizim evimiz olacaq. Başqa nə arzulaya bilərəm?

# 40-cı fəsil | Surə 41: Fussilət (Müfəssəl izah edilmiş)

Rəhman və Rəhim olan Allahın adı ilə

## Nə üçün pislik mövcuddur? (Surə 41:49)

Adəm və Həvvanın hekayəsi Allahın məhəbbətli və hər şeyə qadir olduğu həqiqəti ilə başlayır. Bununla belə, dünyada pislik var. İnsanlar yalan danışıraq, aldadaraq, seksuallıqdan sui-istifadə edirək və cinayət işlədərək bir-birlərinə zərər vurmaqla bitmir, həm də zəlzələlər evləri uçurur, sunamilər günahsız insanların yaşadığı şəhərləri alt üst edir. Surə 41:49-da deyilir:

*“İnsan xeyir istəməkdən bezməz. Ancaq ona bir pislik toxunarsa, o, dərhal məyus olub ümidsizliyə düşər.”*

*Niyə pislik var?*

Bu ayə göstərir ki, insanlar bəzən ağrı-acı duyduqlarında Allahın xeyirxahlığına inamlarını itirirlər. Onlar belə düşünürlər: “Əgər Allah məni sevirsə, nə üçün mənim ailəm zəlzələdə ölüb?”.

Bir dəfə dostlarımla bir fincan ərəb qəhvəsi içirdik. Onların balaca uşaqları bizi əyləndirərkən biz danışıb gülürdük. Onların dörd aylıq körpəsi gözlənildiyi kimi sağlam və dolğun idi. Hamı sevinclə onu dizlərinin üstündə hoppandırırdı.

Amma dostumuz müharibədə ailəsini necə itirdiyini danışmağa başlayanda söhbətimiz sakit çalarlara keçdi. Onun cəmi 25 yaşı var idi və günahsız kiçik oğul və qızlarını dəfn etməli oldu. Dəfn mərasimindən əvvəl o, onların şəklini çəkmişdi.

Bir-bir telefonunu əldən ələ gəzdirdik, ürək ağrısı ilə şəkillərə baxdıq. Onun zərif körpə qızı ağ yorğan-döşəyə bürünmüşdü, bu da onu təzəcə yuxulayırmış kimi göstərirdi. Üzü saf və şirin idi.

Növbəti foto isə onun kiçik oğlu oldu. Görünür, o, partlayıcı qurğunun partlaması nəticəsində həlak olmuşdu. Qəlpələr onun üzünü və bədənini yaralamışdı. Əynində oyun paltarını var idi. O, yəqin ki, bomba partlayanda evinin yaxınlığında topla oynayırdı. Başını yana çevirmişdi, üzündəki qanlı izlərə baxmayaraq, hüzur içində dincəlirdi.

Daha baxa bilməyib telefonu dostumuza qaytardım. Bombalar mənim övladlarıma toxunmadı, amma onun ölmüş sevdiklərini görəndə ürəyimi necə sərtləşdirə bildim?

218. İncil, Vəhy 21:22-23

Başqa bir dəfə də bir dostum səsini ucaldaraq və qəzəblə məndən tələb etdi ki, Allah qızlarla dolu yataqxanada onların çıxmasına imkan olmadığı halda niyə yanğına icazə verdiyini izah edim. Qızların gizlicə çölə çıxmaması üçün kimsə qapıları bağlamışdı. Yeniyetmə qızların ölümü sevgi ilə dolu yüzlərlə ailələrin üzvlərini və dostlarını kədərə bürümüşdü. Dostum yenə səsini ucaldaraq soruşdu: "Sən deyirsən ki, Allah var. İddia edirsən ki, O, Qırmızı dənizi İbrahim övladları üçün iki hissəyə ayırdı. İsanı ölümdən diriltdi. Mənə de, bu qızların qaçması üçün açarı çevirib sadə bir qapını açmaq Onun üçün çoxmu çətin idi? Mənə de!"

Son yüz illər ərzində bir çox yazıçılar Allahı ittiham edən çətin suallar verməklə məşhur və varlı oldular. Əgər Allah hər şeyə qadirdirsə, sevəndirsə, niyə iztirablara son qoymur? İnsanın həyatına dəhşətli pis şeylər gəlsə, həmin an bütün ümidini itirir. Allahdan ümidi kəsilənlər bir-birləri ilə ümidsizliklərini və acılarını bölüşməklə təsəlli tapırlar.

Bir dəfə Facebook-da bu sualı verdim: "Siz nə düşünürsüz? Sevən Allah necə insanların əzab çəkməsinə, pisliyin olmasına icazə verə bilər?" Bir neçə dostum sualıma cavab verdi.

"Azad iradəyə görə" yazdı biri.

Digəri dedi: "İnanıram ki, əgər Allah müdaxilə edib insana zərər verə biləcək hər bir işin qarşısını alsa, insanlar soruşacaqlar: "Əgər Allah həm yaxşı, həm də hər şeyə qadirdirsə, niyə hamımızı iradəmizə zidd olaraq köləlikdə saxlayır?

Bir qız dostum qulaq asırdı, amma yenə də hər bir cavab onu qane etmirdi. O, dedi: "Bəziləri "cavab" istəməklə o qədər məşğuldur ki!. Allah sonsuz və əbədidir. Onun hər bir şeyə baxış nöqtəsini başa düşmək mümkünsüzdür".

"Sizcə, Allah özü bu problemi başa düşürmü? Mən soruşdum.

"Bəli, əlbəttə ki, o, nə etdiyini bilir, amma mən bunun sadələşdirilmiş məntiqi bir "cavab" olaraq açıqlamanın mümkün olduğunu düşünmürəm. Mükəmməl bir bənzətmə olmasa da, hamımız nəhəng təsvirin kiçik bir parçasını görürük. Bütün standart "cavablarda" müəyyən həqiqət ola bilər, lakin onların heç birində bütün həqiqət yoxdur. Ola da bilməz. Bizim ağlımız Allahı dərk etmək və dünyagörüşünün genişliyini dərk etməkdə acizdir."

"Allahın ağlı bizimkindən qat-qat böyükdür" deyə razılaşdım.

"Hər halda, düşünürəm ki, bu dünyadakı əzab və pislik haqqında suallar verəndə insanların istədikləri məntiqli cavab deyildir. "

"Sizcə, onlar nə istəyirlər? " Soruşdum.

"Ya İsa Məsihlə görüşməmək üçün bəhanə axtarırlar, ya da o qədər ağrı çəkirlər ki, sadəcə sevildiklərini və Allahın onlarla bərabər bu ağrıdan keçdiyini hiss etmək istəyirlər".

Bütün dostlarım bununla razılaşdılar. Allah bizim ağrılarımızdan yan keçmədi. İsa Məsih vasitəsilə O, bizim ağrılarımıza ən dərin səviyyədə daxil oldu. İncil belə deyir:

> *"Çünki bizim Baş Kahinimiz belə deyil ki, zəifliklərimizdə bizim halımıza acıya bilməsin. Əksinə, hər cəhətdən bizim kimi sınağa çəkilmiş, lakin günah etməmişdir."* [219]

219. İncil, İbranilərə 4:15 "Baş Kahin" İncildə İsa Məsihə istinad etmək üçün istifadə edilən xüsusi başlıqdır. Məsihin qüsursuz qurbanı, bu halda öz canını bizim yerimizə təqdim etdiyini, günahımızın cəzasını özü ödədiyini bildirmək üçün istifadə edilir.

# 41-ci fəsil | Surə 42: Əş-Şura

Rəhman və Rəhim olan Allahın adı ilə

## Allah insanlarla danışırmı? (Surə 42:51)

Quranda deyilir ki, Cəbrayıl mələk Məhəmmədlə danışmışdı. Allahın insanlarla danışmaq istədiyini təsdiqləyərkən, Surə 42:51 Onun müxtəlif danışma yollarını tanıtdırır.

Allah insanla (peyğəmbərlə) yalnız vəhy vasitəsilə, yaxud pərdə arxasından danışar, ya da bir elçi (mələk) göndərər. O da Allahın izni ilə Onun istədiklərini vəhy edər. Həqiqətən, O, ucadır, hikmət sahibidir.

Bu o deməkdirmi ki, Allah insanlara elçi göndərmədən də danışır? Pərdənin arxasından danışmaq və ya vəhy vasitəsi ilə danışmaq nədir? Bu çox maraqlı sualdır.

Orta Asiyada kommunizm süqut etdikdən sonra orada yaşayan müsəlman xalqlar yenidən Allahı öyrənməyə başladılar. 70 il boyu kommunistlər onlara Allahın yaşlı qadınlar və kiçik uşaqlar üçün nağıl olduğunu deyiblər.

Talas çayı vadisində bir qazax ailəsi Quran və İncil oxumağa başlayıb. Keçmiş kommunistlər polisi evlərinə gətirərək nəyə inandıqlarını öyrənməyi tələb ediblər. Bundan əlavə, özləri ilə bir gənc, biri yaşlı olmaqla iki imam da gətirdilər. Keçmiş kommunistlər bütün dinləri rədd edirdilər, imamlar isə İncilə etibar etmirdilər.

Hamısı qonaq otağında yerdə oturmuşdu, atmosfer çox gərgin idi. Polis və imamlar nə üçün İncildə oxuduqları sualına cavab istəyirdilər. Gənc imam İsa Məsih haqqında danışdıqlarına görə onları məsxərəyə qoyurdu.

Arvad səbirlə izah edirdi: “Məgər Quranda İsa Məsihdən bəhs edildiyini bilmirsiz?”.

“Xeyr, bu kafirlərin dinidir” deyə gənc imam onlara cavab verdi.

"Ancaq bu ayələr ondan bəhs edir" dedi və Quranı hamının görməsi üçün açdı.

Yaşlı imam kiçik tələbəsinə üz tutaraq ona susmasını işarə etdi.-“Bilirsən, o haqlıdır”.

Bu ailənin Allahı axtarması necə başladı? Hər şey qadının unudulmaz yuxusundan başladı. Yuxudan oyananda şübhəsiz ki, ona ilham verənin Allah olduğunu anladı.

Onun yuxusunda bu qədər xüsusi olan nə idi? O, dünyanın ən yüksək dağlarını gördü və hər şey onların qarşısında üfüqdə əyildi. Səmada dağların üzərində bir işıq çaxdı və o işıqda qardan da ağ paltar geymiş insan sifətində bir varlıq dayanırdı. Həmin şəxsin üzündən yayılan parlaq işıq nəhəng şəlalə kimi göz qamaşdıran dalğalarla tökülürdü. Onun göz qamaşdıran ağ üzünə və geyiminə heyran oldu. Daxili səs ona, dirilmənin izzəti içərisində dayanan İsa Məsihə baxdığını söylədi. Onun izzəti hər şeyə hakim idi.

Hər həftə dünyanın hər yerindən xəbərlər gəlir. Saf işıqdakı ağ paltarlı bu adam yuxu və görüntülərdə insanlara baş çəkir. O, insanlara oyanmağı və haqqı axtarmağa (əl-Həq) söyləyir.

# 42-ci fəsil | 53-cü fəsil | Surə 43: Əz-Zuxruf (Qızıl bəzəklər)

Rəhman və Rəhim olan Allahın adı ilə

## Ərəb dilində kitab (Surə 43:3)

*"Biz Quranı ərəbcə nazil etdik ki, onu anlayasınız."*

Dünyada 20.000-dən çox dil var. Hansını öyrənmək daha çətindir? İngilis dili bir milyondan çox sözlə ən böyük lüğətə malikdir. Çin, Tamil, Türk, Rus və daha bir çox dildə böyük lüğət və mürəkkəb qrammatika var. Ərəb dili də həm danışıq, həm də oxunuşu çətin dillərdən biridir. Quranın ərəbcə onu anlaya bilən insanlar üçün verildiyini söyləyən ayəyə yenidən gəlirik. Quranın gəldikdən sonrakı 1400 il ərzində dünya əhalisinin ərəb dilini başa düşən faizi hələ də azdır və hətta hər zamankından daha azdır. Dünya əhalisinin yalnız 3%-i ərəb dilində danışır. Quran hamıya verilirdisə, niyə az adamın anladığı dildə gəlib?

İncil haqqında da eyni şeyi soruşa bilərlər. Yunan dilində yazılmışdı, lakin bu gün bu qədim dili daha az adam başa düşür. Cavab budur ki, xristianlar mesajın özünün orijinal dildən daha vacib olduğuna inanırlar.

## İsa Məsihin qayıdışı (Surə 43:61)

"Biz də sizin kimi inanırıq ki, İsa yenidən gələcək!" Dostum sevinclə gülümsəyərək dedi. "Qayıtdığı zaman bütün batil dini yox edəcək və qiyamət gününə qədər yer üzündə İslamı bərqərar edəcək".

İlk cavabım sadə bir sual oldu. "Əgər İsa qiyamət günündən əvvəl qayıdıb hər şeyi öz yoluna qoyacaqsa, bu, Onu sonuncu peyğəmbər etməzmi? "

Bu sualı dəfələrlə verdim və heç kim buna sadə cavab verə bilmədi. Bəs niyə müsəlmanlar hələ də İsanın ikinci zühurunu gözləyirlər? Quran bunu açıq şəkildə bildirmir. Orada buyurulur: "Qiyamət əlaməti də olacaqdır. Buna görə də, ona heç bir şəkk-şübhə etmə, Mənə tabe ol ki, düz yol budur.

Həqiqətən, İsanın yer üzünə enməsi Saatın yaxınlaşmasının əlamətidir. Şərhçilər öz sözlərini əlavə etməyi sevirlər, amma biz bunu etmirik.

İncil İsanın ikinci gəlişindən danışır? Bəli və çox ətraflı. Gəlişindən əvvəl çətin günlər barədə xəbərdarlıq edir. Yer üzü fitnələr və müharibələr, xalqların bir-birinə qarşı çıxması, bütün dünyada epidemiyalar, zəlzələlər və kədərlərlə dolacaq. Xalq İsanın ardıcıllarına qarşı nifrətlə qalxacaq, onları yalandan ittiham edəcək, təqib edib öldürəcək.[220]

İsa yalançı peyğəmbərlərin və yalançı Məsihlərin müxtəlif yerlərdə çıxacağını söylədi. Bu arada bütün bunlara baxmayaraq qiyamətə qədər bütün ümmətlərə müjdə (İncil) çatdırılacaqdır.

Dünya qaranlığa batdıqca, böyük hiyləgər ayağa qalxacaq və ən müqəddəs yerdə öz yerini tutacaq, bütün xalqları özünə sitayiş etməyə məcbur edəcək. Bu yalançı Məsih bir neçə ildən sonra uğur qazanacaq. Sonra həqiqi Məsih qayıdıb öz ədalət səltənətini quracaq.[221] O, diriləri və ölüləri mühakimə edəcək. Qoyunu-keçidən ayırdığı kimi, İsa da öz xalqını imansızlardan ayıracaq. Ruhən doğulmayanlar əbədi ölümə, yenidən doğulanlar isə əbədi həyata keçəcəklər.

Xristianlar qiyamət gününə inanırlarmı? Şübhəsiz ki. Bəli və amin deyirik. Maranata, tez gəl, İsa Məsih.

220. 21-ci əsrin əvvəllərində dünyada bir milyondan çox insan öz inancına görə öldürüldü.
221. İncil, Matta 24

# 43-cü fəsil | Surə 44: Əd-Duxan (Duman) və Surə 45 Əl-Casiyə (Diz çökmüş camaat)

Rəhman və Rəhim olan Allahın adı ilə

## Daha dramatik şəkillər (Surə 44:43-48)

Bəzən Quranda cəhənnəm təsvirləri çox dramatik olur. Bu ayələr Cəhənnəmin dəhşətli mənzərəsini çəkir.

*“Həqiqətən, zəqqum ağacı günahkar adamın yeməyidir. Əridilmiş yağın çöküntüsü kimi qarınlarda qaynayar-qaynar su qaynayan kimi. Onu tutub Cəhənnəmin ortasına sürüyün! Sonra əzab vermək üçün başına qaynar su tökün!”*

44 və 45-ci surələr qısa olsa da, kafirlərə cəzalandırılacaqlarına dair güclü xəbərdarlıqlarla doludur, möminlərə isə dəbdəbəli bir diyarda onları gənc və gözəl qadınların gözləyəcəyi vəd olunur. Bunun hərfi mənada, yoxsa simvolik mənada nəzərdə tutulduğunu bilmirik. Hər halda, Quran cənnət və cəhənnəm arasında kəskin fərq qoyur.

# 44-cü fəsil | Surə 46: Əl-Əhqaf (Qumsal)

Rəhman və Rəhim olan Allahın adı ilə

## Quran Bibliyanı təsdiqləyir (Surə 46:10)

Burada Tövrat və Zəburun təhrif olunduğunu Quran tərəfindən öyrədilmədiyinə dair təkzibedilməz dəlillər var. 10-cu ayədə buyurulur:

*De: “Bir deyin görək, əgər bu Quran Allah tərəfindəndirsə və siz də onu inkar etmisinizsə, İsrail oğullarından da bir şahid onun bənzərinə şahidlik edib iman gətiribsə, siz isə təkəbbür göstərmisinizsə, zülm etmiş olmazsınızmı? Allah zalımları doğru yola yönəltməz!”*

Gəlin bu barədə düşünək. Kafirlər Məhəmmədi Quranı uydurduğu və ya cinlərin təsiri altında yazmaqda ittiham edirdilər. Cavab olaraq 10-cu ayə kafirə deyir ki, Məhəmmədin sözlərini Musanın kitabı ilə müqayisə etsin. Əgər 10-cu ayə yazıldığı zaman Tövrat təhrif edilmişdisə, Məhəmməd Tövratı həqiqətin etibarlı mənbəyi kimi göstərə bilməzdi. Qurana görə, Tövrat, Zəbur və İncilin təhrif edilməyəcəyinə heç bir şübhə yoxdur. Bunun əksini iddia edən hər kəs Quranın keçmiş kitabları tövsiyə etməklə səhv etdiyini deyir.[222]

222. Xristianlar və yəhudilər Allahın sadiqliyinə və tarixi məlumatlara əsaslanaraq İncilin həqiqiliyinə inanırlar. Qurana təvəkkül edən müsəlmanlar Tövrat, Peyğəmbər və İncilə münasibətini yenidən nəzərdən keçirməlidirlər.

# 45-ci fəsil | Surə 47: Məhəmməd (Cihad)

Rəhman və Rəhim olan Allahın adı ilə

## Rahat olmaq ya da olmamaq? (Surə 47:20)

Bu surədə kafirlərə qarşı müharibə məsələsinə qayıdırıq. Məhəmmədin hər ardıcılı döyüşə getmək fikrini bəyənmirdi.

> Möminlər: “ (Cihad haqqında) bir surənazil olmalı deyildimi?”-deyirdilər. Ancaq hökmü açıq olan bir surənazil olub orada döyüşdən bəhs edildiyi zaman qəlblərində xəstəlik olanların ölüm ayağında bayılan kimsənin baxdığı kimi sənə baxdıqlarını görərsən. Onlara yaraşan da budur!

Bu parça qorxu içində geri çəkilənləri xəbərdar edir. Ola bilsin ki, bir müddət rahat olsunlar, amma burada deyilir ki, axırda mələklər onların üzlərinə və kürəklərinə vuraraq canlarını alacaqlar .

Daha sonra deyilir ki, möminlər heç vaxt sülh istəməməli, “ən yüksək səviyyəyə” çatana qədər cihad etməlidirlər. Ola bilsin ki, İslami binaların adətən bütün digər tikililərdən hündür tikilməsinin səbəblərindən biri də budur. Məsələn, Səud Ailəsi Məkkənin mərkəzində 600 metr yüksəkliyində (1, 972 fut) saat qülləsi tikdirmişdir. Bu qüllə Londondakı Biq Bendən xeyli hündürdür. Ən hündür binaların olmasının simvolizmi müsəlmanların İslamın hər şeydə ən böyük zirvələrə çatmalı olduğuna inandıqlarına dair güclü bir xatırlatmadır.

# 46-cı fəsil | Surə 48: Fəth (Qələbə)

Rəhman və Rəhim olan Allahın adı ilə

## Qələbə (Surə 48)

İstər saat qüllələri, istər iqtisadiyyatlar, istər ordular, istər məscidlər, istərsə də kilsələr haqqında danışarkən Quran, İslamın istənilən yalan din üzərində qələbə çalacağını bildirir.

> Həm də ona görədir ki, Allah Özü barəsində pis fikirdə olan münafiq kişi və münafiq qadınlara, müşrik kişi və müşrik qadınlara əzab versin. Onların pis niyyəti özlərini bəlaya salsın! Allahın onlara qəzəbi tutmuşdur. Allah onları lənətləmiş və onlar üçün Cəhənnəm hazırlamışdır. Ora nə pis dönüş yeridir.

21-ci əsrdə bir çox insan “imperialist qüvvələrdən” şikayətlənir. Bu qüvvələr hansı qaranlıq məqsədi güdürlər? Təhdid nə dərəcədə realdır? Burada adı çəkilən yəni “Allah haqqında pis düşünən” insanlara bənzəyirmi? Allah haqqında pis düşünmək nə deməkdir?

# 47-ci fəsil | Surə 49: Hucurat (Otaqlar)

Rəhman və Rəhim olan Allahın adı ilə

## Şübhə (Surə 49:15)

> Möminlər ancaq Allaha və Onun Elçisinə iman gətirən, sonra heç bir şəkk-şübhəyə düşməyən, Allah yolunda malları və canları ilə cihad edənlərdir! İmanlarında sadiq olanlar da məhz onlardır.

Şübhə ilə nə etməliyik? Şübhə imanı nə vaxt məhv edir? Quran xəbərdarlıq edir ki, həqiqi müsəlmanlar şübhə etməyənlərdir. "Yalnız o möminlər ki, Allaha və Onun Elçisinə iman gətirmiş, o vaxtdan sonra heç bir şəkk-şübhə etməmiş, Allah yolunda əllərində olan hər şeyi ilə cihad etmişlər. Bəlkə şübhəyə düşənlər döyüşü dayandırıb qaçan müsəlmanlardır. Bəlkə namazı tərk edənlərdir. Ancaq bu yalnız xarici davranışdır. Bəs ürək? Bir insan Allaha həqiqi iman gətirmədən döyüşə girib namazını qıla bilər. Eyni zamanda iman və şübhəyə sahib olmaq da mümkündür. Hisslər və düşüncələr bizi iki istiqamətə çəkə bilər. Yolların ayrıldığı yerdə Allahın bütün şübhələrə görə bizə əzab verəcəyi qorxusu ilə yaşamalıyıq, yoxsa fəryad qoparan kişi kimi İsaya deyirik? : "İman edirəm, kömək et ki, imansızlığım yox olsun!"[223]

# 48-ci fəsil | Surə 50: Qaf

Rəhman və Rəhim olan Allahın adı ilə

## Şah damarından daha yaxındır (Surə 50:16-17)

Dostum, etdiyim hər şey izlənildiyini bilməyimi istəyirdi. Mənə bu ayəni oxudu:

*"İnsanı Biz yaratdıq və nəfsinin ona nəyi vəsvəsə etdiyini də bilirik. Biz ona şah damarından da yaxınıq. Sağında və solunda iki mələk oturub onun əməllərini qeydə alır."*

16-cı ayə təsəlli yoxsa qorxu gətirməlidir? Əmin deyiləm. Dostum bu ayəni oxuduqdan sonra dedi: "Görünür, Allah kafirləri öldürmə qüdrətinə malik olduğu barədə xəbərdarlıq edir". Məhəmməd 62 yaşında olarkən zəhərlənərək ölüb. O bildirib ki, zəhər onun şah damarını kəsib.[224] Döyüş zamanı döyüşçülər tez ölümcül yara vurmaq üçün boyun nahiyəsinə zərbələr endirərdilər. Şah damarı insan bədəninin ən həssas yerlərindən biridir.

17-ci ayə Allahın özünün, yoxsa mələklərinin insanlara yaxın olması məni çaşdırır. Quran Allahın bizə son dərəcədə yaxın olduğunumu yoxsa çox uzaqda, Cənnətin ən yüksək yerində olduğunumu öyrədir? Müsəlmanlar kimsənin Allahın hüzuruna çatacağına inanırlarmı?

Bir dəfə başqa bir müsəlman dostumdan soruşdum: "Biz Allahla görüşəcəyikmi?"
"Mən belə düşünmürəm. Bəlkə Məhəmməd Allahla şəxsən görüşəcək, amma adi insanlar yox" deyə cavab verdi. 43:84-cü ayədə deyilir:

Göydə də məbud, yerdə də məbud yalnız Odur. O, Müdrikdir, Biləndir.

Bu ayənin, Allahın varlığı ilə deyil, ixtiyarı ilə bağlı olduğunu deyə bilərik. Ancaq bu vəziyyətdə O, bizə şah damarımız qədər yaxın olmayacaq.

223. İncil, Mark 9:24
224. "Xeybərdə yediyim (zəhərlənmiş) ləzzətin təsirini hələ də hiss etməkdən əl çəkməmişəm və bir neçə dəfə (təsirindən) əziyyət çəkmişəm, amma indi hiss edirəm ki, şah damarımı kəsməyin vaxtı çatıb". (İbn Səd, Kitab ət-təbəqatul-kəbir, II cild, səh. 251-252).

İslam *tövhid* dindir Allahda bölgü olmadığını öyrədir. Bu ayələri maraqlı edən də budur, çünki biz Allahın hüzurunu birdən çox yerdə görürük. Allah yerdədir, Allah göydədir. Bunlar fərqli şəraitə malik fərqli yerlərdir. Biz mələklərin göydə olduqları kimi Allahın hüzurundayıq? Cənnətdə Allahın hüzuru, həm yer üzündə həm də göydə ən yüksəkdə olduğu kimi olacaq?

Göydəki Allahın, yerdəki İsa Məsihin obrazı mənə göstərilən sevgini anlamağa kömək edir. Sevgi üç təzahürdə birləşib. Allah həm göydə, həm də yerdə ola bilər. O, Səmavi Hökmdar kimi hər şeyə hakimdir və Allahın Ruhu olaraq yerdə bizimlədir. O, nə zamanla, nə məkanla, nə də əbədiyyətlə məhdudlaşmır.

# 49-cu fəsil | Surə 51: Əz-Zariyat (Sovurub dağıdan küləklər)

Rəhman və Rəhim olan Allahın adı ilə

## Bağışlanma (Surə 51:18)

Günahkarlıqbir insana nə hiss etdirir? Ağır? Çirkli? Qorxu dolu? Vicdanımız oyanış zəngi kimi bizə nəyinsə səhv olduğunu bildirmək üçün yaradılmışdır. Günahkarlıq hissindən və utancdan necə qurtula bilərik? Bəzi insanlar Allahdan kömək istəyirlər. 18-ci ayədə deyilir:

*“Sübh çağı isə bağışlanma diləyirdilər.”*

Biz dua edirik, amma Allah bağışlayarmı? Biz təkrar-təkrar günah etsək necə olar? İnsanlar müqəddəs yerlərə gedir və dua edirlər. Yenidən ayaqqabılarını geyinib günahlarına qayıdırlar. Günah və bağışlanma və günah. Bütün bunların mənası nədir?

Bir nəfər böyük bir liderdən soruşur ki, siz heç bağışlanma diləmisinizmi? Bir anlıq düşünən lider cavab verdi: “Yox, əslində, nəyi səhv etdiyimdən əmin deyiləm”.

Kim “mənim günahım yoxdur” desə, özünü aldadır. Amma günahlarımızı etiraf edіriksə, Allah sadiq və ədalətli olduğu üçün günahlarımızı bağışlayacaq və bizi hər haqsızlıqdan təmizləyəcək.[225]

Bağışlanma axtarışı şans oyunu deyil. Bəzi insanlar elə bilirlər ki, Allah heç bir bağışlanma zəmanəti vermir. Bağışlaya bilər, bağışlamaya da bilər. Allahın bu surətində əhəmiyyətli bir açar açıq şəkildə əksikdir. Allah vədinə görə bağışlayar. O, Allahın Quzusunun qurbanı vasitəsi ilə bağışlayacağını vəd edir. İsa Məsihə inananları bağışlayacağına dəyişməz vəd verib. O, yalan danışa bilməz.

Bir gün ailəmizlə günortadan sonra dostlarımızla oturmuşduq. Onlara Allah vədinə əməl etdiyini söylədim. “Allahın vədi yeni paltaryuyan maşınla gələn zəmanət sənədlərindən daha etibarlıdır” deyə sadə bir nümunə ilə izah etdim. “Yeni paltaryuyan maşınınız xarab olarsa, şirkətin onu təmir edəcəyinə və ya dəyişdirəcəyinə zəmanət verən sənədiniz var. Bu 100% doğrudur. Eynilə, Allah vəd edir ki, əgər günahlarımızı etiraf etsək, bizi bağışlayacaq və bizə əbədi həyat bəxş edəcək”.

Ev sahibinin arvadı qızardı və səsini ucaltdı. “Xeyr, bu yanlışdır. Heç kim tamamilə bağışlanacağını və Cənnətə gedəcəyini bilə bilməz. Zəmanət sənədləriniz haradadır? Göstərin!" “Budur” dedim və İncili götürdüm. “Bu, Allahın Özünün verdiyi vəddir. Paltaryuyan maşını istehsal edən şirkətindən daha az etibarlıdır? Əgər bir şey vəd edirsə, mütləq yerinə yetirəcəkdir. Şübhəsiz. "

225. İncil, 1Yəhya 1:8

## Bağışlanan və bağışlayan

Bir gün İsanın şagirdləri ona yaxınlaşıb dedilər: “Xahiş edirik bizə dua etməyi öyrət”. İsa dedi:

> Buna görə də siz belə dua edin: “Göylərdə olan Atamız, Adın müqəddəs tutulsun, Padşahlığın gəlsin, Göydə olduğu kimi Yerdə də Sənin iradən olsun. Gündəlik çörəyimizi bizə bu gün ver. Bizə borclu olanları bağışladığımız kimi Bizim borclarımızı bizə bağışla. Bizi sınağa çəkmə, Lakin bizi şər olandan xilas et. Çünki padşahlıq, qüdrət və izzət Əbədi olaraq Sənindir. Amin”[226]

Əgər kimisə bağışlamaqdan imtina ediriksə, bu o deməkdir ki, biz Allahın bağışlamasını həqiqətən dərk etməmişik.
Bir gecə bir dostumdan zəng gəldi. "Xəbəri görmüsən? "-deyə soruşdu.
"Xeyr" deyə cavab verdim. Onun səsinin tonu məni dərindən təsirləndirdi.
"İnternetə bax, baş verənləri oxu. "

Zəngə görə təşəkkür edib tez xəbər saytını açdım. Ekrana baxanda qarnımda bir şişkinlik hiss etdim. Xəbərdə Malatyada İncil paylama ofisində terrorçuların 3 nəfəri vəhşicəsinə qətlə yetirdiyi bildirilirdi. Ertəsi gün biz şok detalları öyrəndik. Bir neçə gənc müqəddəs kitablarla maraqlandıqlarını bəhanə edərək xristian liderləri ilə görüşməyə hazırlaşırlar. İncil ofisinin iki işçisi müsəlman ailələrində böyümüş, lakin sonradan İsa Məsihə iman ediblər. Üçüncüsü Avropada böyümüş və gənc yaşda xristianlığı qəbul etmişdi. Bu hərəkətin bütün səbəbləri heç kimə məlum deyil, amma bu gənclər üç dinc insana qarşı bütöv bir hücum planı hazırlamışdılar.

O dəhşətli gün günahsız başladı. İki gənc oğlan ofisdə əyləşib, özlərini ruhani məsələlərlə maraqlanır kimi rol aparırdılar.
"Çay istəyirsiz? "-alman xristian təklif edərək soruşdu.
Bir neçə dəqiqədən sonra daha bir neçə gənc gəldi, sayları beşə çatdı. Günortaya yaxın xristianların sayı üç oldu. Bir neçə dəqiqə ərzində Tövrat, Məsih və İncil haqqında sualları cavablandırdılar. Beş gənc əsəbi şəkildə qıvrılarkən və liderləri əsəbiləşməyə başladı.

Ən sonunda şiddət başqaldırdı. Beş gənc xristianlara hücum edərək onları zərərsizləşdirdilər. Bıçaqlar çıxdı. Biləklərini və topuqlarını bağladılar. İkisi ofisdə axtarış aparmağa başladı. Onlar həqiqətən orada silah və ya narkotik tapacaqlarını düşünürdülər? Kim bilir? Görünür, onlar xristianlarla bağlı yalanlara inanırdılar. Silah tapmadılar, ancaq Allah sevgisi haqqında müqəddəs kitablara rast gəldilər.

Terrorçu lider ofisin döşəməsində hərəkətsiz uzanmış üç xristiana qışqırdı: “Sizi kim göndərib? !” Gənclər onları dəfələrlə bıcaqlamağa bşladı. Qurbanlar inildəyib canları üçün yalvardılar.
Dəhşətli işgəncə bir neçə dəqiqə davam etdi. Lakin onların işi hələ bitməmişdi. Onların boğazlarını ciddi şəkildə kəsdilər. O səhnənin dəhşətini təsvir etmək üçün dil kifayət etmir.

Elə bu vaxt bir xristian dostu ofisə yaxınlaşdı. Bağlı qapını aça bilmədiyi üçün dərhal polisə zəng etdi. Polislər bir neçə dəqiqədən sonra qapını sındıraraq içəri daxil oldular. 5 terrorçunu qurbanlarının qanı içində tapdılar. Artıq iki xristian ölmüşdü. Təcili yardım üçüncünü xəstəxanaya aparsa da, o da eyni axşam çoxlu qan itkisindən öldü.

Öldürülənlərdən ikisi evli, üçüncünün isə nişanlısı var idi. Polis gəldikdən bir neçə dəqiqə sonra, dul qadınların hələ xəbəri olmadan hücum barədə mediaya məlumat verilmişdi. Qadınlar saatlarla xəstəxanada daha sonra evdə kiminsə onlara izahat verməsini gözlədilər. Onların hər ikisinin çox kiçik uşaqları var idi və uzun müddət gözləmək çox ağrılı idi.

Bir neçə gün sonra həlak olanların ailələri yaxınlarının cənazələrini yerə endirdilər. Beynəlxalq telekanallarda bütün dünya dul qadınların baş verənlərə necə reaksiya verəcəyini gözləyirdi. Onlar qisas almağa çağıracaqlarmı? Düşmənlərini lənətləyəcəklərmi? Nifrət edəcəklərmi? Qadınlardan biri hərəkətsiz kütlənin qarşısında dayanıb danışdı.

Biz xristian olaraq bura gəlib yaşamaq istəyirdik. Bu, bizim üçün çox ağır dövrdür, çünki mən ömür gün yoldaşımımı, həyat dostumu, uşaqlar isə atalarını itirdilər. Amma bilirəm ki, ərim İsa Məsihin adı ilə şəhid olub. Onun qanı boş yerə tökülməyib. Bu, bu yer üçün yeni bir başlanğıcdır. İsa çarmıxda olanda ətrafındakı insanlar haqqında dedi: "Ata, onları bağışla, çünki nə etdiklərini bilmirlər."
və mən də eyni şeyi etmək istəyirəm. [227]

Onlar da İsa Məsihin bağışladığı və bağışlandıqları kimi bağışlamağı seçdilər.

# 50-ci fəsil | Qısa surələr

Rəhman və Rəhim olan Allahın adı ilə

## Surələr 52-61

Sonda olan surələrin çoxunda Cənnət mükafatlarından (çaylar, ləzzətli içkilər, gözəl qızlar, gənc qulluqçular, istirahət yerləri və s.) və günaha görə cəzalardan (od, qara tüstü, qaynar su, qəfil məhv, Qiyamət günü) bəhs edilir.

## Duzlu və şirin sular (Surə 55:19)

Dostum surə 55:19 kimi mətinlərə əsaslanaraq mənimlə bölüşdü: "Bilirsən, Quran duzlu və şirin su arasındakı maneəni dəqiq təsvir edir. Buna görə də Jak Kusto İslamı qəbul edib".

Uşaq vaxtı mən Nil və Amazon kimi dünyanın ən böyük çaylarından birinin yaxınlığında böyümüşəm. Bu çay yağış və sel sularını 3000 kilometr məsafəyə aparır. Nəhayət, bütün böyük çaylar dənizlə görüşür, burada şirin və duzlu su arasında görünməz bir sərhəd var. Doğrudur, Allah şirin su ilə duzlu su arasında bir divar çəkmişdir.

Bir yazda arvadımla İbrahimin ölkəsinə getdik və icarəyə götürülmüş maşınla ölkəni gəzdik. Parlaq günəşli bir səhər biz qəhvə və səhər yeməyimizi götürüb şimala getdik. Bir neçə saatdan sonra yolumuz Qalileya gölünün yerləşdiyi dərin vadisinə düşdü. Bir balıqçının torlarını dənizin şirin sularına atmasına baxaraq naharda falafel yedik. Sonra cənuba dönüb İordan çayının gur şirin sularının yanından keçdik. Ərazi quru və küləklə əsən İordaniya vadisinə keçdi. Çayın təmiz suları Qalileya gölünün sularına qarışaraq ordan Ölü dənizə axırdı. Çay ardınca Ölü dənizin kənarına qədər getdik. Orada çox qəribə vəziyyət yaranmışdı. Ölü dəniz o qədər duzlu idi ki, insanların batmasına imkan vermirdi. Onlar göbələk parçaları kimi suyun üzərində üzürdülər.

İki dənizi və onları birləşdirən çayı düşündüm. Biri-şirin su ilə və həyatla doludur. Digəri isə məzar kimi duzlu və ölü idi. Onların arasında İordan çayı təmiz sularla səbirlə axırdı. Amma Ölü dənizə nə qədər şirin su töksə də, heç nə dəyişmirdi. Demək olar ki, görünməz bir divar var idi.

Ərəblər təbiətin bu ecazkar həqiqətlərini bilirdilərmi? Təbii ki, onlar Nil və Ölü dəniz haqqında bilirdilər. Bu o demək deyil ki, Allah öz elçisinə heyrətamiz bir şey bildirə bilməz. Bu, sadəcə olaraq o deməkdir ki, duzlu və şirin su arasında maneə xüsusi bir sirr deyil.

226. İncil, Matta 6:9-13
227. James Wright "Malatya Şəhidləri", EPBooks, WelwynGardenCity, UK, s. 164-165.

### İsa Məsih, Məhəmmədin gəlişini qabaqcadan söyləmişdimi? (Surə 61:6)

*“Bir zaman Məryəm oğlu İsa demişdi: “Ey İsrail oğulları! Həqiqətən, mən Allahın sizə göndərdiyi, məndən əvvəl nazil edilmiş Tövratı təsdiqləyən və məndən sonra gələcək Əhməd adlı peyğəmbərlə sizi müjdələyən bir elçisiyəm!” Allahın elçisi onlara açıq-aydın dəlillər gətirdikdə onlar: “Bu, aşkar bir sehrdir!” - dedilər.”*

Çox vaxt müsəlman dostlarım soruşurlar ki, İncil Məhəmmədin gəlişindən danışırmı? Biz gördük ki, “Allaha həmd olsun” mənasını verən “Əhməd” sözü əvvəlki kitablarda yoxdur. İbrani, yunan və ya aramey dillərində görünmür. Bəziləri iddia edə bilər ki, Quranda İncildən itən müəyyən bir ayədən bəhs edilir. Bəs Allahın Kəlamından bir şeyi necə itirmək olar? Bundan əlavə, Allahın gözəl adlarından biri təriflənir. Buna görə də İsanın ardıcılları onun vədini elə başa düşürlər ki, onun ardınca başqa bir köməkçi-həqiqətən də həmd edilən Allahın Ruhu gələcək.

# 51-ci fəsil | Surələr 62-70

Rəhman və Rəhim olan Allahın adı ilə

### Cümə namazı mütləqdir (Surə 62:9-11)

Cümə günü hər müsəlman cəmiyyətində nə baş verir? Müəzzin azan oxuyur. Bütün möminlər dəstəmaz alıb sonra məscidə gedib namazlarını qılırlar.

Bəs Cümə günü daha nələr baş verir?

"Bu insanların çoxu yaxşı müsəlman deyil" dedi dostum küçələrə toplaşan izdihama baxaraq.

“Niyə?” deyə maraqla soruşdum.

“Cümə günü onlara baxın. Onlar heç vaxt pul və əyləncə dalınca qaçmaqdan bir an belə dayanmırlar. Allah və ibadət haqqında düşünməyirlər”. Onun üzündə nifrət ifadəsi vardı.

*Allahın Ruhu mələk deyil.*

Quran cümə namazı haqqında daha aydın ola bilməzdi. Biz bütün parçanı oxumalıyıq.

*Ey iman gətirənlər! Cümə günü namaza çağırılanda Allahı yad etməyə tələsin və ticarəti dayandırın. Bilsəniz, bu sizin üçün nə qədər xeyirlidir! Namaz başa çatdıqdan sonra yer üzünə dağılıb Allahın lütfünü axtarın və Allahı çox zikr edin ki, bəlkə nicat tapasınız. Onlar ticarət və ya əyləncə gördükləri zaman dağılışıb ona tərəf qaçdılar və səni minbərdə ayaq üstə olduğun halda tərk etdilər. De: “Allah yanında qazanacağınız savab əyləncədən də, ticarətdən də xeyirlidir. Allah ən yaxşı ruzi verəndir”.*

Hər hansı bir möminin cümə namazını qılmaması üçün üzrlü səbəbi varmı? Lakin bir çox yerlərdə müsəlmanlar həftədə bir dəfə də olsa namaz qılmaq üçün məscidə getmirlər. Məsələn, araşdırma göstərib ki, Mərakeşdə müsəlmanların 54%-i cümə namazına gedir, Misirdə 61%, Qazaxıstanda 10%, İndoneziyada 72%, Türkiyədə 44%, Özbəkistanda 9%.

Quranı oxuyan bir İsa Məsih ardıcılı kimi nə düşünəcəyimi bilmirdim. Cümə namazında istisnalar var. Məsələn, həkimlər, polislər işini asanlıqla dayandıra bilmirlər. Ancaq cümə namazı

zamanı (Cümə) gördüyüm insanların çoxu ikinci fincan qəhvədən həzz alır və ya sevgilisi və ya dostu ilə siqaret çəkir, dedi-qodularını bölüşür və ya ən son iş müqaviləsini müzakirə edirlər.

Əlbəttə, hər kəs xristian ikiüzlülüyünə işarə edə bilər. Milyonlarla nominal xristianın onilliklər ərzində kilsə binasına girmədiyini ilk etiraf edən mən olacağam. Bu fransızlardan, almanlardan və ya başqa insanlardan niyə ibadətə getmədiyini soruşsaq, adətən səmimi cavab verirlər ki, dinə inanmırlar. Bu qədər müsəlmanın cümə namazına getməməsinin səbəbi də bu deyilmi? Bunun mənası nədi? Bu, dostum, sənə buraxmalı olduğum bir sualdır.

## Münafiqlər (Surə 63)

Bu surəsanki son sualımızı gözləyirmiş kimi münafiqləri pisləyir. Bu insanlar özlərini müsəlman kimi çox gözəl və inandırıcı şəkildə təqdim edirlər. Məhəmməd zahiri görkəmli ilə xoş təəssürat yaradan bu insanların yarmış kündələrə bənzədiyini bildirib.

## Allah öz ruhundan Məryəmə üfürdü (Surə 66:12)

Burada Allahın Ruhu haqqında başqa bir əsas fikir Onun mələk olmadığıdır.

Həmçinin ismətini qoruyan İmran qızı Məryəmi də misal çəkdi. Biz ona paltarının yaxasından Öz ruhumuzdan üfürdük. O, Rəbbinin Sözlərini və Onun Kitablarını təsdiq etdi və itaət edənlərdən oldu.

# 52-ci fəsil | Surələr 71-78

Rəhman və Rəhim olan Allahın adı ilə

## Quran oxuyun (Surə 73:20)

Bir neçə il əvvəl kəndimizdə bir qonşu dünyasını dəyişdi. Yas mərasiminə uzaq qohumlar, yaxınlıqdakı qonşular toplaşdılar. İmam Quran oxumağa gəldi. İmam ərəbcə Quran oxuyarkən mən insanlarla ümumi otaqda sakit oturdum. Otaqda heç kim ərəbcə danışmırdı, onlar üçün bu, yad dil idi. İmam daha bir neçə dəqiqə oxuduqdan sonra otağa göz gəzdirdim. Adamlar bir nöqtəyə baxırdılar, arabir kimsə “Bismillah” və ya “Amin” deyirdi. 20-ci ayədə buyurulur:

*“Qurandan sizə asan olanı oxuyun!”*

Bunun mənası, Quranın səsli oxunmasıdır.

Mən Quranı tərcümələrin köməyi ilə oxuyuram. Bəs yas mərasimindəki kəndli dostlarım? Onlar bir şey başa düşdülərmi? Onlar etiraf etdilər: “Biz İmamı başa düşmürük”. Anlaşılmaz səslər onlara necə fayda verə bilər?

"Bir dəqiqə gözləyin!"-deyə etiraz gələ bilər. “Müsəlmanlar Quranda yazılanları bilirlər, hətta özləri oxuya bilməsələr də”. Həmişə deyil.

Axşam saatlarında dostumuzun evində oturmuşduq. Onlar ərəbcə ana dili kimi danışan dindar müsəlmanlar idilər. Nənə mənə açıq-aydın dedi ki, haram olduğu üçün heç vaxt kişilərin əlini sıxmır.

Biz Allah haqqında danışırdıq və mən onlardan Quranda Nuh və Tufan hekayəsini bilirsinizmi deyə soruşdum. Bir neçə saniyə utanmış halda boş gözlərlə mənə baxdılar. Nənə cavab

verdi ki, bu hekayəni heç eşitməmişəm. Kiçik qardaşı oğlu hekayənin bir hissəsini xatırladı və ona izah etdi.

Cavab məni təəccübləndirdi. Nuhun hekayəsi Quranda ən məşhur hekayələrdən biridir, Musa və Fironun hekayəsindən daha çox danışılır. Lakin mənim qonaqpərvər və dindar müsəlman dostlarım bu barədə heç nə bilmirdilər. Bəlkə sadəcə sözləri oxumaqdan başqa ediləsi nəsə var?

### Daha çox cəzalar və mükafatlar (Surə 73-78)

Bu qısa surələr mömin müsəlmanlarla kafirləri müqayisə edir. Muhəmmədin dövründəki kafirlər onun xəbərini və onu müdafiə edən bir çox ayələri inkar edərək, onu dəli və şeytan elan etdilər. Onları xəbərdar etdi ki, bir müddət ona gülə bilərlər, lakin sonra Allah onları ölülərdən dirildəcək və hökm üçün onların üzərinə od tökəcək.

## 53-cü fəsil | Surələr 79-87

Rəhman və Rəhim olan Allahın adı ilə

### Kor adam (Surə 80:1-2)

Kor bir adam peyğəmbərin yanına gəldi. Surə 80:1-2

*“O qaşqabağını sallayıb üzünü yana çevirdi, yanına bir korun gəlməsinə görə.”*

Kor adam üçün ümid varmı?

"Bəli var. . . . Mən kor idim, amma indi görürəm" deyə dilənçi sərt dini liderlərə cavab verdi. Anadangəlmə kor olan bu adamın həyatı dilənçiliklə keçib. Valideynlərinin onun üçün edə biləcəkləri heç nə yox idi. Onu sağaldacaq dərman olmadığı üçün həkimlər çarəsiz qalmışdılar.

Amma həmin əlamətdar gündə bir adam keçirdi. Bu adi insan deyildi. Təxminən iki min il əvvəl Qüdsdə həmin gün oradan keçən adam Məsih idi. İsa kor adama baxanda bədbəxt bir dilənçi görmədi, Allahın surətində yaradılmış bir insan gördü. İsa öz tüpürcəyi ilə düzəltdiyi palçığı götürərək korun gözlərinin üstünə sürdü və ona yumağı əmr etdi. Kor adam İsaya güvəndi və itaət etdi. Özünü yuyandan sonra görməyə başladı.

Fiziki və ya ruhani kor olan insanları möcüzəvi şəkildə yalnız Allah sağalda bilər. Həyatın və ölümün qüdrəti yalnız Odur.

### Lövhədə (Surə 85:20-21)

*“O, mühafizə edilən lövhədədir.”*

22-ci ayəni unutmamaq çox vacibdir. Quranın “lövhədə” saxlandığı deyilir. Məhəmməd Cəbrayılın ona ayələri danışdığını iddia etdi. O, yazıb-oxuya bilmədiyini, ona görə də lövhəni görsə də oxuya bilməyəcəyini söylədi.

Bu lövhə haradadır? Bu, İslamın ən böyük sirlərindən biridir. Əgər lövhə Allah tərəfindən yazılmış cənnətdədirsə, o, Allahdan başqa və Ondan kənar necə mövcud ola bilər? Əksər müsəlmanlar Lövhənin əbədi olduğuna və cənnətdə əbədi qalacağına inanırlar. Əbədi kitabda niyə

boşanma, qadınların menstrual dövrləri, peyğəmbərin ala biləcəyi zövcələrin sayı kimi şeylərdən bəhs etdiyini anlamaq çətindir.

Nə üçün Allah keçici məsələləri əbədi kitabda qeyd etsin ki? Başqa sözlə, nə üçün əbədi səmavi kitab tarixi məsələlərə aid olsun? Əgər Quran əbədidirsə, tarixi və dünyəvi şeylər əbədi və səmavi səviyyəyə yüksəlmişdir.

Yəhudilər və xristianlar inanır ki, Tövrat, Peyğəmbərlər və İncil əbədiyyətdən bəri mövcud olmayıb, illər ərzində insanlar vasitəsi ilə nazil olub. Allah kainatda yaratmazdan əvvəl Adəm və Musanı, ulduzları və ağacları düşünmüşdü, istəsəydi, əvvəlki kitabları da düşünə bilərdi. Amma bu, Adəmin və Əvvəlki Kitabların Allah yanında əbədi olaraq mövcud olduğunu söyləməklə eyni deyil.

# 54-cü fəsil | Surələr 88-114

Rəhman və Rəhim olan Allahın adı ilə

## Bizim problemimiz nədir? (Surə 98:5)

Quranın sonuna yaxınlaşırıq. Biz kitab əhli (Kitab) haqqında danışan onlarla ayə oxumuşuq. Bu hissələr bizə suallar verir. Ayə 5-ə nəzər salın:

*“Halbuki onlara, dini məhz Allaha məxsus edərək, həniflər kimi ibadət etmək, namaz qılmaq və zəkat vermək əmr olunmuşdu. Doğru din də elə budur!”*

Burada müşriklərdən, bütlərdən, şirklərdən və Peyğəmbərə müqavimətdən bəhs edilmir. Halbuki, surə 98:6-da kitab əhlinin və haqqı inkar edən kafirlərin odlu cəhənnəmə düşəcəkləri barədə xəbərdarlıq edilir. 109-cu surə müsəlman olmayanlara cavab verir:

*De: “Ey kafirlər! Mən sizin ibadət etdiklərinizə ibadət etmərəm, siz də mənim ibadət etdiyimə ibadət edən deyilsiniz. Mən sizin ibadət etdiklərinizə ibadət edən deyiləm, siz də mənim ibadət etdiyimə ibadət edən deyilsiniz. Sizin dininiz sizə, mənim dinim də mənədir!”*

Surə 29:46-cı ayə və digər hissələr, yəhudilərin, xristianların və müsəlmanların eyni Allaha şərik olduqlarını, yoxsa fərqli tanrılara ibadət etdiklərini bildirir?

## Allah doğulmayıb (Surə 112)

Quran yolunda etdiyimiz bu səyahətimizin sonuna yaxınlaşdıq. Addım-addım, misra misra, bir çox dillərdə ilk sözdən son sözə qədər öyrənən bu səyahət bizi ən vacib suala qaytardı. Allah birdir. Bəs İsa Məsih kimdir?

*De: “O Allah Təkdir! Allah Möhtac deyildir. O, nə doğub, nə doğulub, Onun bənzəri də yoxdur.”*

3-cü ayə ərəbcə belədir: لَمْ يَلِدْ وَلَمْ يُولَدْ *(O, nə doğub nə də doğulub).*

Bizim adi anlayışımızda doğum üç çox vacib şey deməkdir: 1) iki valideyn, 2) yeni həyatın yaradılması və 3) bu həyat onlardan ayrılır. Kişi və qadın uşaq dünyaya gətirəndə, o, əvvəllər mövcud olmayan yeni yaradılmış bir insandır. Uşaq müəyyən bir zamanda mövcud olmağa başlayır. Doqquz aydan sonra körpə doğulur və anadan ayrılır. Artıq ananın qanı ilə gələn eyni maddələrlə qidalanmayan yeni doğulmuş uşaq anadan ayrılır. Onlar artıq tək bir bütöv deyil, bir-birindən ayrıdırlar. Bu fərq tamdır. Onların fərqli həyatları, fərqli ruhları və bəlkə də fərqli taleləri var.

Tövratı, Peyğəmbərləri və İncili diqqətlə baxıb Quranın hər kəlməsini oxuduqdan sonra 112-ci surəyə gəlirəm.

(لَمْ يَلِدْ وَلَمْ يُولَدْ) "Nə doğdu, nə də doğuldu"nu oxuyanda buna sadə bir cavabım olur. Bəli. Allahın zövcəsi yoxdur, özündən ayrı bir tanrı doğmayıb və başqasından doğulmayıb. Deyə bilərik ki, Allah başqa tanrı yaratmamışdır və başqa tanrı tərəfindən yaradılmayıb. O, əzəldən əbədiyyətə qədər həmişə tək olan Allahdır.[228]

"Bəli, təbrik edirəm, nəhayət müsəlman oldun, artıq şirkdə günahkar deyilsən!"

Bəs mən nə vaxt şirkdə günahkar oldum? Xristianlar heç vaxt İsanın ruhani "hamiləlik" əsnasında Allah daxilində yaşadığına və sonra doğularaq yeni və ikinci tanrı şəklində ayrıldığına inanmamışlar. Qoy belə olmasın! 112:3-cü surədə bu mənada hər şey doğrudur, Allah heç vaxt ikinci bir tanrı yaratmayıb və Allahın heç bir başlanğıcı olmayıb, doğuşla zühur etməyib.

"Mənimlə oyun oynayırsan!" Kimdə belə düşünürsə, üzr istəyirəm. Bütün bunlar Allahın əbədi Kəlamına əsaslanır.

325-ci ildə Xristian liderləri bu tapmacanı müzakirə etmək üçün Anadolunun İznik şəhərində toplandılar. İsa əl-Məsih kimdir? Onlar İncildə "monogenez" (μονογενής) sözünün diqqətlə öyrənilməsi əsasında razılığa gəlmişdilər.[229] Bu anlayış yeni və ayrı bir varlığın doğulması demək deyil. Yunanca monogenez həmişə yeganə olan, lakin heç vaxt ayrılmayan, birlik içində birlik olan deməkdir. Çaydan doğan əbədi şəlalə, yağışdan əbədi olaraq doğan göy qurşağı və ya sevən bir ürəkdən doğan sevgini düşünün. İsa Məsih Əbədi olaraq yalnız Allahdan gələn yeganə varlıqdır. İznikdə toplanan xristianlar belə nəticəyə gəldilər:

"Biz bir Allaha, hər şeyə qadir olana, göyləri yeri yaradan, görünən və görünməyən hər şeyin yaradıcısı olan Ataya inanırıq. Və Rəbb İsa əl-Məsihdə, Ən Ucadan, bütün dövrlərdən əvvəl var olan, Ən Uca Ən Ucadan, Nurdan Nur, Həqiqi Yaradandan həqiqi Yaradan, Doğulmuş, Yaradılmamış, Ata ilə eyni mahiyyətə sahib olan, Onun vasitəsilə hər şey yaradılmışdır. Ata, biz Rəbb İsa Məsihə inanırıq.[230]

"Niyə? " dostum səmimiyyətlə anlamaq istəyərək soruşdu. O, sözünə davam etdi: "Niyə bütün bu problemlər var idi-Kəlimətullahı körpə kimi göndərmək üçün? Uşaqlığın bütün ağrılarına, gəncliyin utanc verici vəsvəsələrinə niyə dözməli idi? Niyə öz xalqı Ona nifrət etməli idi? Niyə Roma çarmıxında ölməli idi? Niyə, niyə, niyə…?!

Müsəlmanlar "Allah Əkbər" deyirlər. Mən də uşaq olanda valideynlərimin hər yeməkdən əvvəl "Allah böyükdür, Allah xeyirxahdır" deyə dua etdiklərini eşitmişəm. Bu Quranda bu doğrudur.

Dostumun gözlərinə baxıb cavab verdim: "Niyə İsa? Çünki Allah Əlhabu. Allah məhəbbətdir".

Rahatlandı və gülümsəyərək cavab verdi: "Düşünürəm ki, başa düşməyə başlayıram. "

228. Peyğəmərlər, Yeşaya 43:10 "Rəbb bəyan edir: «Sizsiniz Mənim şahidlərim, seçdiyim qullarım, Belə ki Məni tanıyıb, Mənə arxalanasınız, Mənim O olduğumu anlayasınız. Məndən əvvəl Allah mövcud olmayıb, Məndən sonra da olmayacaq.'"
229. Şayiələrin əksinə olaraq, İznik toplantısı "İncilləri" seçmək üçün toplaşmadı. Yalnız bir İncil var. İncildəki bütün müjdələr və məktublar İznik toplantısından çox əvvəl sabit idi. İznik toplantısı İsa Məsihin əbədi olmadığını iddia edən Ariusu rədd etdi.
230. İznik iman simvolu

## Kalkidon (Kadıköy) iman simvolu

Müqəddəs Həvarilərin ardınca gedən biz bütün insanlara bir səslə eyni Oğlu, Rəbbimiz İsa Məsihi etiraf etməyi öyrədirik. O tamamilə Allahdır və tamamilə insandır, həqiqi Allahdan həqiqi Allah və həqiqi insandan həqiqi insandır; O Allahın mahiyyətinə və insan mahiyyətinə malikdir. O hər cəhətdən bizimlə eynidir lakin günahsızdır. Allah olaraq bütün əsrlərdən əvvəl Atada mövcuddur, bizim üçün və bizim xilasımız üçün Bakirə Məryəm insan olaraq doğulmuşdur. Allahın-insanlığa görə; Tək və eyni Məsih, Oğul, Rəbb, Allahın yeganə Oğlu, dəyişməyən, qarışmayan, ayrılmaz iki təbiətdə sahib, tək şəxsdə, tək mahiyyətdə birləşərək, iki şəxsə ayrılmayan, amma tək və eyni Oğul, və Allahın yeganə oğlu, Allahın Kəlamı, Rəbb İsa Məsih, başlanğıcdan bəri peyğəmbərlərə bildiriləndir. Rəbb İsa Məsihin Özünün bizə öyrətdiyi kimi, Müqəddəs Elçilərin bəyannaməsində açıqlandı.

# Tematik göstərici

**Allah**
Allah yer üzünə gəldi (Surə 7:143)
Allahın gözəl adları (Surə 7:180)
Allahın yaxşılığı nə qədər böyükdür (Surə 9:113)
Sevən Allah-demək küfürdürmü? (Surə 25:60)
Allah kimi sevir? (Surə 28:76)
Eyni Allah? (Surə 29:46)
Allah insanlarla danışırmı? (Surə 42:51)
Şah damarından daha yaxın (Surə 50:16-17)
**Mələklər**
İblis mələk idi yoxsa cin idi? (Surə 18:50)
**Paklıq**
Paklıq (Surə 2:222)
Dəstəmaz (Surə 5:6)
**Yaradılış**
Bəşəriyyətin yüksəlişi və süqutu (Surə 2:30-34)
Başlanğıcda (Surə 13:16)
Allahın surətində yaradılmışdır (Surə 16:17)
Adəmin utancı (Surə 20:115-123)
İnsanların yaradılması (Surə 23:12-14)
**Allahın oğlu varmı**
Allahın oğlu yoxdur (Surə 2:116-7)
Allahın oğulları (Surə 5:18)
Allah doğulmayıb (Surə 112)
**Bağışlanma**
Bağışlanma
Bağışlayan və bağışlanan (Surə 51:18)
**Xeyirxah əməllər**
Xeyirxah əməllər və günah (Surə 2:271)
Allahın lütfünü necə qazanmaq olar (Surə 18:46-53)
Allahın iradəsinə təslim olmaq (Surə 27:91)
**Halal və Haram**
Halal və haram (Surə 5:1-5)
**Həcc**
Həcc (Surə 2:196-203)
**Cənnət və cəhənnəm**
Cəhənnəm və cəza (Surə 3:10)
İnamsızların mühakiməsi (Surə 6:1-15)
Daha çox mühakimə (Surə 13)
Cəhənnəmə məhkum (Surə 32:13)
Daha çox xəbərdarlıq (Surə 34)
Cənnət haqqında (Surə 38:49-53)
Mükafatlar və mühakimə (Surə 39:40)
Daha çox dramatik şəkillər (Surə 44:43-48)

Daha çox cəzalar və mükafatlar (Surə 73-78)

**İbrahim**

İbrahim yəhudi və xristian deyildi
İbrahim Allahın dostudur (Surə 4:125)
Saranın gülüşü (Surə 11:71)

**Bütpərəstlik**

Bütpərəstlik günahı (Surə 3:80)
Iki Allaha ibadət etməyin (Surə 16:51)

**İsa Məsih**

Quranda İsa (Surə 3:33-59)
Yəhudilər İsanı öldürmədilər (Surə 4:153-161)
Allah-Məsihdir? (Surə 5:17-18)
Həyat çörəyi (Surə 5:68-120)
Dənizdə ölüm? (Surə 6:63-64)
İsa Məsihin ölümü (Surə 19:33)
Yaratma gücü (Surə 22:73)
Dünyanı sözlərlə doldurmaq (Surə 31:27)
Kəffarə qurbanı (Surə 37:102-107)
İsa Məsihin qayıdışı (Surə 43:61)
Allah öz ruhundan Məryəmə üfürdü (Surə 66:12)
Kor adam (Surə 80:1-2)

**Yəhudilər və Xristianlar (Kitab əhli)**

İbrahimin övladları (Surə 2:40)
Müsəlmanlar, xristianlar, yəhudilər və başqaları (Surə 2:62)
Yəhudilər və xristianlar eyni kitabı oxuyurlar? (Surə 2:113)
İbrahim, İsmayıl və isanın imanı (Surə 2:135-136)
Kitab əhlindən soruşun (Surə 10:94)
Bir xristiandan soruşun (Surə 16:43)

**Kəbə**

Kəbə (Surə 2:127)
Qiblədən dönmək (Surə 2:142)

**Son gün**

Diriliş (Surə 2:259)
Son Diriliş (Surə 16:38)

**Nikah və ailə**

Boşanma və nikah (Surə 2:221-241)
Yetimlər və qadınları (Surə 4:3)
Ərlər arvadları ilə necə davranmalıdırlar (Surə 4:34)
Uşaqlarınızı öldürməyin (Surə 6:151)

**Qeyri-müsəlmanlar**

Din və dostluq (Surə 3:28)
Təhlükəli düşmənlər? (Surə 3:111)
Yalançı möminlər (Surə 9:56)
Yeni bir düşmənlə tanışlıq (Surə 9:73)

Saxta məscidlər (Surə 9:107-110)
Münafiqlər (Surə 63)

**Əmlak**

Tamahkarlıq (Surə 2:275)
Yoxsullar üçün ədalət (Surə 4:9-10)
Köləlik (Surə 16:71-76)

**Dua**

Qəriblər və düşmənlər üçün dua (Surə 2:105)
Şəfaətçilər (Surə 4:64)
Cümə namazı mütləqdir (Surə 62:9-11)

**Məhəmmədin peyğəmbərliyə çağırışı**

Məhəmmədin peyğəmbərliyə çağırışı sübutu (Surə 2:23-24
Erkən kitablar Məhəmməddən bəhs edirmi? (Surə 7:157)
Liderin arxasınca getmək (Surə 9:86-88)
Ərəb dilində bir Elçi (Surə 14:4)
Qüds ziyarəti (Surə 17:1)
Məhəmmədin adları (Surə 21:107)
Məhəmmədin həyatı (Surə 33)
İsa Məsih Məhəmmədin gəlişini qabaqcadan söyləmişdimi? (Surə 61:6)

**Peyğəmbərlər və elçilər**

Sadəcə bir elçı (رَسُولٌ) (Surə 3:144)
Nuhun gəmisi (Surə 10:73)
Hər xalqın öz şahidi var (Surə 16:89)
Yəhya peyğəmbər (Surə 19:1-15)

**Quran**

Kitabı bilməmək (Surə 2:78)
Yazıların ləğvi (Surə 2:106)
Eyni ayə (Surə 5:69)
Quran niyə nazil oldu (Surə 6:155-156)
Ən qədim Quran nüsxələri
Nəsihət hekayələri (Surə 12)
Allah nazil etdiyini qoruyur (Surə 15:9)
Qurana Hücumlar (Surə 15:91)
Ərəb dilində kitab (Surə 43:3)
Qısa ayələr
Quran oxuyun (Surə 73:20)

**Ramazan**

Ramazan (Surə 2:185)

**Xilas**

Allah kömək vəd edir
Başqasının günahına görə ölüm (Surə 5:29)
Yaxşı və pis əməllərin tərəzidə çəkilməsi (Surə 7:89)
İynənin gözü (Surə 7:40)
Doğru yol (Surə 10:25)

| | |
|---|---|
| Lütf nədir | (Surə 11:3) |
| **Cinsi əxlaq** | |
| Zinaya görə cəza | (Surə 4:15-16) |
| Cinsi qanunlar | (Surə 24:2-33) |
| **Günah** | |
| Ruhani mükafat | (Surə 2:281) |
| Pisliyin yurdu | (Surə 3:30) |
| Səhv yol tutmaq | (Surə 3:100) |
| Kim yaxşıdır | (Surə 3:113-114) |
| Doğru yoldan çıxmaq | (Surə 4:44) |
| Bağışlanılmayan günah | (Surə 4:48) |
| Bəşəriyyətin əs mahiyyəti | (Surə 14:34) |
| Heç kim kifayət qədər yaxşı deyil | (Surə 16:61) |
| Fikir dəyişikliyi | (Surə 16:106-107) |
| Necə yaxşılıq edə bilərik | (Surə 29:7) |
| Bir can belə sağ qalmazdı | (Surə 35:45) |
| Bizim problemimiz nədir | (Surə 98:5) |
| **Tövrat, Zəbur, İncil** | |
| On Əmr | (Surə 2:53) |
| Təhrif olunmuş Yazılar? | (Surə 2:59) |
| Əvvəlki Yazıların təsdiqi | (Surə 2:97) |
| Kitablar və mənaları | (Surə 3:7) |
| Təhrif olunub yoxsa güvənmək olarmı | (Surə 5:47-48) |
| On Əmrin hökmü | (Surə 7:145) |
| Peyğəmbərlik kitabları | (Surə 10:37-40) |
| “Onun sözlərini heç kim dəyişdirə bilməz” | (Surə 18:27) |
| Quran Bibliyanı təsdiqləyir | (Surə 46:10) |
| **Səbir** | |
| Dində məcburiyyət yoxdur | (Surə 2:256) |
| **Dünyagörüşü** | |
| Həqiqət və yalan | (Surə 2:42) |
| Oğurlanmış inam | (Surə 2:109) |
| Ruhanı yoxsa fiziki sərvət | (Surə 3:14) |
| Şahidlik etmək vacibdirmi? | (Surə 6:1-19) |
| İslamın yayılması | (Surə 16:125) |
| Mağarada yatanlar | (Surə 18:9-26) |
| Zülqərneyn, iki buynuzun sahibi | (Surə 18:83-99) |
| Günəş harada batır? | (Surə 18:86) |
| Cahillik üzündən mübahisələr | (Surə 22:8) |
| İslam təriqətləri | (Surə 30:32) |
| Şübhə | (Surə 49) |
| Duzlu və şirin sular | (Surə 55:19) |

# Müəllif haqqında

1990-cı illərin əvvəllərində Orta Asiyada kommunizmin süqutundan sonra Ceyms Rayt ailəsi ilə birlikdə Tyan-Şan dağlarında yeni ev aldı. Uzun onilliklər ərzində kommunistlər dini kitabları məhv etməklə yanaşı insanlara Yaradanın olmadığını öyrətdilər. Azadlığın yeni günlərində bir çox insanlar daxili mənəvi boşluğu doldurmaq ümidi ilə müqəddəs kitabları öyrənməyə başladılar. Doktor Rayt və digər müəllimlər, İbrahimin ailəsindən gələn Allahın möcüzəvi toxumuna diqqət yetirərək, bir sıra ölkələrdə insanlara qaranlıq nə qədər dərin olursa olsun, Allah sevgisinin işığının daha güclü olduğunu başa düşməyə kömək etdilər.